İLHAM ƏLİYEV

# İNKİŞAF – MƏQSƏDİMİZDİR

# İLHAM
# ƏLİYEV

## YÜZ ÜÇÜNCÜ KİTAB

## MAY 2020 - İYUN 2020

AZƏRNƏŞR
BAKI - 2020

# İLHAM ƏLİYEV

ÇIXIŞLAR ✸ NİTQLƏR

BƏYANATLAR ✸ MÜSAHİBƏLƏR

MƏKTUBLAR ✸ MƏRUZƏLƏR

MÜRACİƏTLƏR

AZƏRNƏŞR
BAKI - 2020

**BBK 32**
**Ə 56**

Buraxılışına məsul
akademik

**RAMİZ MEHDİYEV**

**ƏLİYEV İLHAM**
**Ə 56 İnkişaf – məqsədimizdir.** B., Azərnəşr, 2020, 392 səh.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin oxuculara təqdim olunan «İnkişaf – məqsədimizdir» çoxcildliyinin bu cildində ölkə başçısının Rusiyanın TASS İnformasiya Agentliyinə eksklüziv müsahibəsi, Asiya İnkişaf Bankının prezidenti Masatsuqu Asakava və bank rəhbərliyinin digər nümayəndələri arasında keçirilən videokonfransda, Sumqayıtda «Gilan Tekstil Park» Tibbi Maska və Tikiş fabrikinin nəzdində fəaliyyət göstərən qoruyucu kombinezonların istehsalı müəssisəsinin, paytaxtın Bilgəh qəsəbəsində, Sumqayıtda və Abşeron rayonunun Saray qəsəbəsində quraşdırılan modul tipli xəstəxanaların açılışı mərasimlərində çıxışları toplanmışdır.

Kitabda, həmçinin dövlət başçısının Bakının Qaradağ rayonunda məcburi köçkünlər üçün salınmış «Qobu Park-3» yaşayış kompleksinin açılışı zamanı çıxışı, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində olan Dayanıqlı və Operativ Sosial Təminat Agentliyinin Bakının Nizami rayonunda yerləşən 3 saylı DOST mərkəzinin açılışı zamanı Azərbaycan Televiziyasına müsahibəsi də yer almışdır.

Həmçinin oxucular dövlət başçısının Gəncə, Şamaxı, Tərtər, Ağdam və Ağcabədi rayonlarına səfərləri zamanı «ASAN xidmət» mərkəzlərinin, mədəniyyət müəssisələrinin, xəstəxanaların və digər iaşə obyektlərinin açılışında rayon və şəhər ictimaiyyətinin nümayəndələri ilə görüş zamanı məruzə və çıxışları ilə tanış ola bilərlər.

**ISBN 978-9952-8100-7-3**

$$Ə\ \frac{\mathbf{0801000000}}{\mathbf{M - 651(07) - 2020}}$$

**BBK - 32**

© Azərnəşr, 2020

## RUSİYANIN TASS İNFORMASİYA AGENTLİYİ BAŞ DİREKTORUNUN BİRİNCİ MÜAVİNİ MİXAİL QUSMANA EKSKLÜZİV MÜSAHİBƏ

*7 may 2020-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 7-də Rusiyanın TASS İnformasiya Agentliyi baş direktorunun birinci müavini Mixail Qusmana eksklüziv müsahibə vermişdir.*

**Mixail Qusman:** Salam, İlham Heydər oğlu. Sizi salamlamağa şadam. Mən Sizinlə müxtəlif şəraitdə və müxtəlif yerlərdə söhbət etmək, Sizdən müsahibə götürmək şərəfinə nail olmuşam. Amma onlayn formatda söhbətimiz ilk dəfədir.

**İlham Əliyev:** Bəli, bu format bir qədər qeyri-adidir, lakin artıq hamı ünsiyyətin bu formasına vərdiş edir. Ona görə düşünürəm ki, söhbətimizin məzmunu bu formatdan zərər çəkməyəcək. Hərçənd, əlbəttə, ən yaxın vaxtda sizi şəxsən görəcəyimə ümid edirəm.

**Sual: Sağ olun, İlham Heydər oğlu. Çox vacib hesab etdiyim bir məsələdən başlamaq istəyirəm. Sizinlə böyük bayram – Qələbə Günü ərəfəsində görüşürük. Mən bilirəm ki, həmin gün Siz Moskvaya getməyə hazırlaşırdınız, çoxlu tədbirlər planlaşdırılırdı. Lakin pandemiya ilə bağlı sərt gerçəklik buna**

**öz təsirini göstərdi. Bilirəm ki, Azərbaycanda bu böyük bayram həmişə çox təntənəli şəkildə qeyd edilirdi. Bu, təbii və ədalətlidir, çünki 600 mindən çox Azərbaycan vətəndaşı cəbhədə olub, onların yarısından çoxu döyüş meydanında həlak olub, müharibədən qayıtmayıb. 123 azərbaycanlı Sovet İttifaqı Qəhrəmanı adına layiq görülüb. Bu, xalqın çox böyük igidliyidir. Eyni zamanda, arxa cəbhədə göstərilən qəhrəmanlıq, Azərbaycan neftçilərinin qəhrəmanlığı barədə də danışmamaq olmaz. Döyüş maşınlarının, tankların, təyyarələrin, gəmilərin istifadə etdiyi yanacağın 80 faizi Azərbaycan mədənlərində, Azərbaycan zavodlarında istehsal edilirdi.**

**Bununla əlaqədar Sizdən soruşmaq istəyirəm, bu vəziyyətə baxmayaraq, Azərbaycanda Qələbə Gününü necə qeyd etməyə hazırlaşırlar, bu şəraitə baxmayaraq, hansı tədbirlər keçiriləcək, ümumiyyətlə, bu gün Azərbaycanda bu bayramı necə qəbul edirlər?**

**C a v a b:** Siz tamamilə haqlı olaraq qeyd etdiniz ki, Azərbaycan bizim ümumi Qələbəmizə sanballı töhfə verib. Fəxr edirik ki, respublikamız öz oğul və qızlarının həyatı bahasına, müəssisələrimizin gecə-gündüz işləməsi hesabına bu Qələbəyə mühüm töhfə verib. Bilirsiniz ki, Azərbaycanda sənaye həmişə yüksək səviyyədə inkişaf edib və bizim müəssisələrdə Qələbə üçün çox zəruri olan müxtəlif silah növləri fasiləsiz rejimdə istehsal edilirdi. Əlbəttə, düzgün olaraq qeyd etdiyiniz kimi, Azərbaycan yanacağın ən mühüm təchizatçısı olub. O vaxt hələ Sibirdəki yataqlar kəşf edilməmişdi. Buna görə yanacaq-sürtkü materiallarının əsas bazası Azərbaycan idi. Bu

da təsadüfi deyil ki, faşist Almaniyası məhz Bakını tutmaq niyyətində idi. O məşhur kadrlar dəfələrlə nümayiş etdirilib: Hitlerə təqdim edilən bayram tortunun üzərində «Xəzər dənizi» sözləri yazılmışdı. Hətta belə bir forma məxsusi olaraq, Xəzər dənizinin sərhədlərini göstərirdi, Hitler də svastikanı həmin nöqtəyə qoymuşdu. Əgər bu niyyət baş tutsaydı, müharibənin yekunu tamam fərqli ola bilərdi.

Əlbəttə, biz sovet dövləti tərəfindən layiqincə qiymətləndirilən qəhrəmanlarımızla fəxr edirik. 123 Sovet İttifaqı Qəhrəmanı bizim fəxr etdiyimiz insanlardır, indiki nəsil də, gələcək nəsillər də bu insanlarla fəxr etməlidir. Tədbirlərə gəlincə isə koronavirus şəraitində bizdə kütləvi tədbirlər çoxdan ləğv edilib. Xüsusən ona görə ki, yaşı 65-dən yuxarı olan insanların evdən çıxması məsləhət deyil. Biz öz veteranlarımızı qorumalıyıq. Təəssüf ki, onların sayı ilbəil azalır. Adətən, mayın 9-da mən həmişə veteranlarla görüşürəm, biz söhbət edirik, həlak olanların xatirəsini ehtiramla yad edirik, onların məzarları üzərinə gül-çiçək, əklillər qoyuruq. Hər dəfə onlarla ünsiyyətdə olanda sanki enerji alırsan. Özü də onların çoxunun yaşı 90-ı keçib, hətta 100-ü haqlayanlar da vardır. Lakin əvvələn, fiziki baxımdan onlar möhkəm olduqlarını nümayiş etdirirlər. Ən başlıcası, onların mənəvi ruhu, nikbinliyi və həyatsevərliyi bizi heyrətləndirir, təəccübləndirir və biz onlarla yalnız fəxr edə bilərik. Biz hər il veteranlar üçün mükafatlar ayırırıq. Bu il həmin mükafatın məbləği təxminən 900 dollar, manatla hesablasaq 1500 manat olacaqdır. İl ərzində də onların problemlərini həll edirik.

Deməliyəm ki, Azərbaycanda bizim ümumi Qələbəmizə münasibət həmişə belə olmayıb. Təəssüf ki, müstəqilliyin ilk illərində, millətə zidd olan Xalq Cəbhəsi rejimi hərbi çevriliş yolu ilə hakimiyyətə gələndə 9 May – Qəbələ Günü bayram təqvimindən silinmişdi. Müharibə veteranları mənəvi terrora məruz qalırdı, kütləvi informasiya vasitələrində onlara qarşı qəddar kampaniya aparılırdı. Yalnız Heydər Əliyev hakimiyyətə gəldikdən sonra 9 May bayram təqvimində bərpa olundu. O vaxtdan həmin gün dövlət bayramıdır. Bu, qeyri-iş günüdür. Ədalət zəfər çaldı.

Siz düzgün olaraq qeyd etdiniz ki, mən həmin gün Moskvada olmağa hazırlaşırdım. Rusiya Federasiyasının Prezidentindən dəvət almışdım, lakin koronavirusla əlaqədar bayram tədbirləri ləğv edilib. Bu il mən yenə həlak olanların xatirəsini yad edəcəyəm, lakin tamam başqa formatda.

**M i x a i l  Q u s m a n:** Yeri gəlmişkən, Rusiya Prezidenti Vladimir Vladimiroviç Putin deyib ki, müvafiq epidemioloji şərait imkan verəndə biz bu tarixi Rusiyada qeyd etməyi planlaşdırırıq, həmçinin təsdiq edilib ki, bütün dəvətnamələr qüvvədə qalır. Buna görə düşünürəm ki, bu, məlum olanda və tarixlər təyin ediləndə, Siz Rusiya rəhbərliyi ilə, Müstəqil Dövlətlər Birliyi ölkələrindəki həmkarlarınızla birlikdə bu bayramı Moskvada qeyd etmək imkanına malik olacaqsınız.

**İ l h a m  Ə l i y e v:** Bəli, buna çox ümid edirəm.

**S u a l: Siz indi dediniz ki, Azərbaycan üçün Xalq Cəbhəsinin hakimiyyətdə olduğu kədərli günlərdə bu bayram təəssüf ki, təqvimdən silinmişdi. Həqiqətən,**

**yalnız Heydər Əliyev hakimiyyətə gəldikdən sonra ədalət zəfər çaldı və bu gün həmin bayramı bütün xalq qeyd edir. O da təəccüblüdür ki, bəzi ölkələrdə siyasətçilər tarixi yenidən yazmağa, onu saxtalaşdırmağa çalışırlar. Bəzi ölkələrdə şəhərləri xilas etmiş sovet hərbi sərkərdələrinə, sovet döyüşçülərinə ucaldılmış abidələr məhv edilir, bəzi ölkələrdə isə faşist kollaborasionistlərinə və ya faşist rejiminin adi xadimlərinə heykəllər qoyulur, xatirə lövhələri vurulur. Siz buna necə baxırsınız?**

**C a v a b:** Biz tarixi yenidən yazmaq, İkinci dünya müharibəsi haqqında həqiqəti təhrif etmək, faşizmi və faşist canilərini qəhrəmanlaşdırmaq cəhdlərini qətiyyətlə pisləyirik. Azərbaycan bir sıra forumlarda bu mövzuda açıq şəkildə çıxış edib, o cümlədən mən də dəfələrlə öz mövqemi bildirmişəm.

Deməliyəm ki, Azərbaycan cəmiyyəti bu mövqeyə tam şərikdir. Bəzi ölkələrdə faşizmin qəhrəmanlaşdırılması prosesi bizim üçün əsla qəbuledilməzdir. Bilirsiniz, bir müddət əvvəl belə qənaətdə idik ki, sübut edilməsinə ehtiyac olmayan həqiqətlər var, İkinci dünya müharibəsinin tarixi də belə həqiqətlərdən biri idi. Lakin təəssüf ki, bəzən müəyyən dairələrin tarixi həqiqəti təhrif etmək, İkinci dünya müharibəsində Sovet İttifaqının Qələbədə rolunu azaltmaq və faşizmi qəhrəmanlaşdırmaq üçün əlaqələndirilmiş səylərinin şahidi oluruq. Ona görə bu meylə son qoyulmalıdır, biz bunu yalnız birgə səylərimizlə edə bilərik. O cümlədən İkinci dünya müharibəsi dövründə baş vermiş hadisələr haqqında həqiqəti gənc nəslə çatdırmaq yolu ilə. Ona görə ki, onlar

həqiqəti bilməlidirlər, vətənpərvərlik, əcdadlarının qəhrəmanlığı ruhunda tərbiyə olunmalıdırlar. Əlbəttə, bəzi ölkələrdə baş verənlər, İkinci dünya müharibəsi iştirakçılarının abidələrinə qarşı vandalizm aktları, faşistlərə heykəllərin qoyulması nifrət və ikrah hissi oyadır. Bunu keçmiş SSRİ məkanında, MDB məkanında görmək xüsusilə xoşagəlməzdir. Axı faşizm üzərində ümumi Qələbə naminə ən böyük qurban verən Sovet İttifaqı olub. Buna görə bu meyillər pislənməli, bu cəhdlərə son qoyulmalı və mənim fikrimcə, dünya liderləri bu barədə daha açıq danışmalıdırlar.

Bizə gəldikdə isə, qeyd etdiyim kimi, mən bu məsələləri dəfələrlə qaldırmışam. MDB ölkələrinin sonuncu Zirvə görüşündə müzakirə mövzularından biri məhz bizim böyük Qələbə bayramına, Qələbənin yubileyinə hazırlıq məsələsi idi. Mən təəssüflə qeyd etdim ki, Ermənistanda faşist canilərinin qəhrəmanlaşdırılması həyat normasına çevrilir. Konkret misallarla göstərdim ki, bir neçə il bundan əvvəl Ermənistanda faşist cəllad və cani, Njde ləqəbi ilə məşhur olan Qaregin Ter-Arutyunyana 6 metr hündürlüyündə heykəl qoyulub. Bu adamın cinayətləri sübut olunub. Yeri gəlmişkən, Qələbənin 75 illiyi ərəfəsində həm Rusiya Federasiyası Xarici İşlər Nazirliyi, həm də Rusiya Federasiyası Müdafiə Nazirliyi tərəfindən dərc edilmiş sənədlər də buna sübutdur. Bu adam müharibə dövründə deyirdi: «Almaniya uğrunda həlak olan Ermənistan uğrunda həlak olur». Bu adamın təxribatçılıq fəaliyyəti çoxsaylı insanın ölümünə gətirib çıxarıb və təsadüfi de-

yil ki, müharibə qurtardıqdan sonra o, SMERŞ tərəfindən həbs edilib, 25 il azadlıqdan məhrum edilib və Vladimir həbsxanasında ölüb. Belə bir adama Ermənistanda 6 metr hündürlüyündə heykəl qoyulur. Heykəlin açılışında bu ölkənin keçmiş prezidenti iştirak edir. Mən bu məsələni qaldırmaqla MDB üzrə həmkarlarımın diqqətini ona cəlb etmək istəyirdim ki, biz ilk növbədə, özümüzdə, öz təşkilatımızda hər şeyi öz adı ilə adlandırmalıyıq, burada siyasi korrektliyi, selektivlik prinsipini və ya kiminsə xətrinə dəyməmək istəyini rəhbər tutmamalıyıq.

Biz həqiqəti deməliyik, əks halda, bu təşkilat formatında diskussiyalar, səmimi desək, mənasını itirər. Buna görə bu məsələni qaldıranda ümid edirdim ki, Ermənistanın yeni, özünü demokratik kimi göstərməyə çalışan rəhbərliyi mənim təşəbbüsümü dəstəkləyəcək. Lakin təəssüf ki, bunun əksini gördüm. Gördüm ki, Ermənistan nümayəndə heyətinin rəhbəri, baş nazir bu canini müdafiə etməyə başladı, dedi ki, nə olsun o, həbs düşərgələrində olub, Soljenitsın da həbs düşərgələrində olub. Bilirsiniz, bu yerdə protokol qaydalarını pozdum, yenidən çıxış üçün söz aldım və dedim ki, Soljenitsını faşistlərin əlaltısı ilə müqayisə etmək həyasızlığın yüksək dərəcəsidir. Ona görə bütün bunlar böyük təəccüb, heyrət doğurur və belə bir fikrə əsas verir ki, Ermənistanda hakimiyyət dəyişə bilər, lakin rejimin mahiyyəti əvvəlki kimi qalır.

Yeri gəlmişkən deməliyəm ki, Rusiya Federasiyasının ərazisində, məsələn Armavir şəhərində də cinayətkar, faşistlərin əlaltısı Njdeyə xatirə lövhəsi

vurulub. Yalnız mən bu məsələni dövlət başçılarının Zirvə görüşündə qaldırandan və bu məsələ kütləvi informasiya vasitələrində əksini tapandan sonra həmin lövhə götürülübdür. Haqlı olaraq sual yaranır: Ermənistanda İkinci dünya müharibəsi qəhrəmanları olmayıbmı? Bəs Armavirdə erməni kilsəsinin yaxınlığında nə üçün onlara yox, faşist caniyə xatirə lövhəsi vurulub? Bunu necə başa düşməli? Ona görə bu məsələlər geniş müzakirə edilməlidir. Yenə də hər bir ölkə bu məsələyə öz münasibətini selektivlik, siyasi korrektlik mülahizələrinə görə deyil, birbaşa və açıq şəkildə bildirməlidir.

Ermənistanda bir tərəfdən deyirlər ki, onlar Qələbənin yubileyini bayram edəcəklər, digər tərəfdən isə faşistin abidəsi önünə gül qoyurlar. Bu, ən azı ziddiyyət, əslində isə riyakarlıq təzahürüdür.

**S u a l: Bu vəziyyəti belə qiymətləndirdiyinizə görə çox sağ olun. Mayın 4-də Sizin təşəbbüsünüzlə – Azərbaycan hazırda «Qoşulmama Hərəkatı»nda sədrlik edir – «Qoşulmama Hərəkatı»nın Zirvə görüşü keçirildi. Məsələn, mən həmin görüşü iştirakçıların tərkibinə, elə bu faktın özünə görə tarixi hadisə adlandıra bilərəm. Bu görüş koronavirusa qarşı mübarizə üzrə birgə qərarların, birgə ideyaların hazırlanmasına həsr edilmişdi. Zirvə görüşünə Siz sədrlik edirdiniz. Orada çoxsaylı ölkələrin, özü də Hindistan, Misir, İran və başqaları kimi, aparıcı ölkələrin liderləri iştirak edirdilər. Bu görüş başa çatandan sonra Siz sədr kimi, çəkici vuraraq, Zirvə görüşünü yekunlaşdırdınız. İndi Zirvə görüşünü necə qiymətləndirirsiniz? Orada nə haqda razılığa gələ bildiniz?**

**Bir daha təkrar edirəm, Zirvə görüşünün keçirilməsi özü tarixi faktdır, lakin praktiki baxımdan fikrinizi bilmək istərdim.**

**C a v a b:** Bu Zirvə görüşünü həqiqətən, tarixi görüş adlandırmaq olar. Çünki əvvələn, o, videokonfrans formatında keçirilirdi. İkincisi, «Qoşulmama Hərəkatı»nın Zirvə görüşləri bir qayda olaraq, müəyyən dövriliklə keçirilir. Əgər bundan əvvəlki Zirvə görüşü keçən ilin oktyabrında Bakıda keçirilmişdisə, növbəti görüş 2022-ci ildə bizdən sonra sədrlik edəcək ölkədə keçirilməli idi. Buna görə «Qoşulmama Hərəkatı»nın sədri kimi, Azərbaycanın bu təşəbbüsü təbii ki, vaxtında irəli sürülmüşdü. Onu da deməliyəm ki, keçən ilin oktyabr ayında biz «Qoşulmama Hərəkatı»nda sədrliyi öz üzərimizə götürdük. Qeyd etməliyəm ki, Azərbaycan yekdilliklə Hərəkatın sədri seçilib, bu da çox əlamətdar amildir. Bildiyiniz kimi, Hərəkatda 120 ölkə iştirak edir və bu ölkələrin bəziləri arasında, yumşaq şəkildə desək, gərgin münasibətlər vardır. Lakin bizə göstərilən hörmət və etimad ona dəlalət edir ki, Azərbaycan beynəlxalq arenada çox böyük nüfuz qazana bilib. Bakı Zirvə görüşündə mən demişdim ki, biz öz sədrliyimizi heç də formal sədrlik hesab etmirik, biz səmərəli sədr olmaq istəyirik. Hərəkatın beynəlxalq arenada nüfuzunu və rolunu yüksəltmək, ölkələr arasında daha sıx birlik yaratmaq, şərait yaratmaq istəyirik ki, bəzi ölkələr arasında mövcud fikir ayrılıqları zəruri hallarda bizim də iştirakımızla nizamlansın. Mən həmçinin dedim ki, Azərbaycan təkcə sədrlik dövründə deyil, bundan

sonra da beynəlxalq arenada üzv ölkələrin mənafelərini müdafiə edəcək. Zirvə görüşünün baş tutması onu göstərir ki, əvvələn, biz öz sözümüzə sadiqik, ikincisi, bu Zirvə görüşünün keçirilməsinə böyük ehtiyac var idi. Buna görə də çıxış edənlərin əksəriyyəti Azərbaycanın bu təşəbbüsünün vaxtında irəli sürüldüyünü və vacibliyini qeyd etdilər. Həmçinin deməliyəm ki, aparıcı beynəlxalq təşkilatların rəhbərləri – Birləşmiş Millətlər Təşkilatının Baş katibi Antonio Quterreş, BMT Baş Assambleyasının prezidenti, Afrika İttifaqının sədri, Ümumdünya Səhiyyə Təşkilatının baş direktoru və Avropa Komissiyasının vitse-prezidenti Zirvə görüşünün iştirakçılarını salamladılar. Bu məqamı xüsusi vurğulamalıyam. Mən Avropa Komissiyasının və «Qoşulmama Hərəkatı»nın hansısa vahid formatda iştirak etdiyi ikinci belə hadisəni xatırlamıram. İndiki halda belə birgə tədbir ona görə mümkün oldu ki, Azərbaycan Avropa İttifaqı ilə çox fəal əlaqə saxlayır, Azərbaycan beynəlxalq arenada çox böyük nüfuz qazanıbdır. Əlbəttə, bir məsələ də var ki, bizi ümumi bəla birləşdirir. Buna görə Zirvə görüşünün keçirilməsinin əsas məqsədi təşkilatın daxilində həmrəylik göstərmək, habelə aparıcı beynəlxalq təşkilatlarla səmərəli əməkdaşlıq idi.

Mənim təşəbbüsümlə biz dövlət və hökumət başçıları səviyyəsində BMT-nin koronavirusa həsr edilmiş xüsusi Baş Assambleyasının keçirilməsini təklif etdik. Hərəkatın üzvü olan ən həssas ölkələrə təxirəsalınmaz kömək göstərilməsi üçün biz Ümumdünya Səhiyyə Təşkilatına 5 milyon dollar ayırdıq.

Bu bizim ikinci donor ianəmizdir. Bundan əvvəl mart ayında da qlobal pandemiyaya qarşı mübarizə üçün Ümumdünya Səhiyyə Təşkilatına 5 milyon dollar ayırmışdıq. «Qoşulmama Hərəkatı»nda yaradılmış Təmas Qrupu formatı üzv ölkələr tərəfindən böyük dəstək alıb. Biz istiqamətlər üzrə yarımqruplar və COVID-19-a qarşı mübarizə üzrə vahid məlumat bazasının yaradılmasını təklif etdik ki, həm Hərəkatın belə niyyəti olan üzvləri, həm beynəlxalq təşkilatlar, həm də donor təşkilatlar vaxtında yardım göstərmək üçün informasiya bazasına malik olsunlar. Mən deyərdim ki, Zirvə görüşünün keçirilməsinin əsas məqsədləri də, nəticələri də budur. Bir daha deməliyəm ki, bütün iştirakçılar bu görüşün vacibliyini, zəruriliyini qeyd etdilər, bu təşəbbüsə görə Azərbaycana təşəkkürlərini bildirdilər.

Deməliyəm ki, bu bizim keçirdiyimiz ilk Zirvə görüşü deyil. Hazırda Azərbaycan həm də Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının sədridir və aprelin 10-da bu təşkilatın Azərbaycanın təşəbbüsü ilə keçirilmiş Zirvə görüşü faktiki olaraq, dünyada videokonfrans formatında ilk Zirvə görüşü oldu. Biz iki ay ərzində çox mühüm iki beynəlxalq tədbir keçirdik, əminəm ki, onlar həmrəyliyi və əməkdaşlığı möhkəmlədəcək.

«Qoşulmama Hərəkatı»nın Zirvə görüşü ilə bağlı bir məqam da ondan ibarətdir ki, «Qoşulmama Hərəkatı»nda 120 ölkə, sədri məktubla müraciət etmiş Afrika İttifaqından 55 ölkə, ali nümayəndəsi bu tədbirdə iştirak edən Avropa İttifaqından 27 ölkə vardır. Buna görə təvazökarlıqdan kənar olsa da de-

məliyəm ki, Azərbaycan və Azərbaycanın təşəbbüsü praktiki olaraq bütün dünyanı birləşdirdi.

**M i x a i l  Q u s m a n: Bu həqiqətən belədir. Bir fikir də söyləmək istəyirəm ki, əlbəttə, Azərbaycanın sədrlik etməsi, Azərbaycanın Ümumdünya Səhiyyə Təşkilatına müəyyən ianə verməsi faktları mühüm amildir. Lakin mənə belə gəlir ki, Azərbaycanın bu Zirvə görüşünü çağırmağa mənəvi haqqı daha bir səbəblə bağlıdır, obyektiv rəqəmlər göstərir və Ümumdünya Səhiyyə Təşkilatı da bunu təsdiqləyir ki, dəhşətli pandemiya Azərbaycandan yan keçməsə də – hər halda, mən rəqəmlərə baxmışam – ölkədə bu mübarizədə müəyyən uğurlar qazanılıb. Mənə belə gəlir ki, vəziyyəti yavaşıtmaq, müəyyən məqamda isə döndərmək mümkün olub. Hər halda, rəqəmlər bunu deyir, ÜST də bunu təsdiq edir. Buna nəyin sayəsində nail olunub? Hansı səylər göstərilib? Çünki bu ümumi bəlanın öhdəsindən daha böyük dərəcədə gələn istənilən ölkənin təcrübəsi bu gün çox vacibdir.**

**İ l h a m  Ə l i y e v:** Son nəticələr barədə danışmaq hələ tezdir, lakin aralıq nəticələr göstərir ki, biz doğru yoldayıq. Yeri gəlmişkən, bizim təşkil etdiyimiz, həyata keçirdiyimiz bu işi Ümumdünya Səhiyyə Təşkilatı da qiymətləndirib. Bu təşkilatın baş direktorunun mənə ünvanlanmış məktubunda Azərbaycan rəhbərliyinin gördüyü tədbirlər yüksək qiymətləndirilib, Azərbaycan nümunəvi ölkə, yəni bu bəlaya qarşı mübarizədə nümunə göstərən ölkə adlandırılıb.

Konkret tədbirlərə gəldikdə isə deməliyəm ki, biz lap əvvəldən Nazirlər Kabineti yanında Opera-

tiv Qərargah yaratdıq. Onun çox geniş səlahiyyətləri var və hər gün, hər saat mühüm təşkilati məsələlərlə məşğul olur. Mənim fikrimcə, bütün ölkələrin əsas vəzifəsi bu xəstəliyin inkişafını, onun geniş yayılmasını yavaşıtmaq idi. Bir sıra başqa ölkələr kimi, Azərbaycana da bu virus kənardan gətirilib. Buna görə qonşularla müvafiq məsləhətləşmələrdən sonra sərhədlərin bağlanılması birinci mühüm addım oldu. Lakin sonra gördük ki, daxildə yoluxma prosesi gedir. Odur ki, mərhələli şəkildə məhdudlaşdırıcı tədbirlər tətbiq edildi. Biz həmin tədbirləri şəraitə uyğun olaraq tətbiq etdik və hadisələrin arxasınca getməyə yox, onları qabaqlamağa çalışdıq, əks halda, uğur qazana bilməzdik.

Biz dövlət xəstəxanalarının işini operativ surətdə tamamilə yeni formatda təşkil etdik. Bu gün 20-dən çox dövlət xəstəxanası, o cümlədən, 575 çarpayılıq yeni ən müasir xəstəxana bütünlüklə koronaviruslu xəstələrə təqdim edilib. Biz operativ surətdə əlavə laboratoriyalar aldıq. Hazırda 23 belə laboratoriyamız var, lazım gələrsə yenə alacağıq. Milyon nəfərə düşən testlərin sayına görə Azərbaycan lider ölkələr sırasındadır. Biz 160 mindən çox test keçirmişik. Bu, xəstəliyin yayılma ocaqlarının, o cümlədən regional baxımdan aşkar olunmasına kömək edir. Mayın 4-dən, bundan əvvəl isə aprelin 27-dən karantin rejimi müəyyən qədər yumşaldılmağa başlanıb. Bu onunla bağlı idi ki, son 3 həftədə pozitiv dinamika müşahidə edirik, yəni sağalanların sayı yoluxanların sayından çoxdur. Biz həm də həkimlərimizə, tibb işçilərinə çox qayğı ilə yanaşırıq. Ko-

ronaviruslu xəstələrə xidmət edənlər üçün onların aylıq maaşından 3, 4, 5 dəfə yüksək xüsusi maaş əlavələri tətbiq edilib. Ona görə də bu məhdudlaşdırma tədbirlərinin, o cümlədən müalicə prosesinin düzgün təşkilinə yönəlmiş tədbirlər kompleksi sayəsində biz hələlik bu vəziyyətdən minimum itkilərlə çıxa bilirik.

Bizim tədbirlərə ictimai dəstəyin yüksək səviyyəsini də qeyd etmək istərdim. Mən hər gün yüzlərlə, bəzən minlərlə təşəkkür məktubu alıram.Bu məktublarda bütün kateqoriyalardan olan vətəndaşlar, balaca uşaqlardan uzunömürlülərə qədər təşəkkürlərini bildirirlər ki, biz hələlik bu vəziyyətdən şərəflə çıxırıq. Lakin biz onu da demişik ki, karantin rejiminin yumşaldılması tədbirlərinin vəziyyəti kəskin pisləşdirdiyini görsək, bu rejimi yenidən sərtləşdirməli olacağıq. Mən Azərbaycan xalqına müraciətlərimdə dəfələrlə demişəm ki, biz həmrəylik göstərdik, birlik göstərdik, indi həm də məsuliyyət və intizam göstərməliyik. Fikrimcə, bu iki istiqamət ayrıca müzakirə tələb edir, lakin düşünürəm ki, bütövlükdə vəziyyət hələlik nəzarət altındadır.

Onu da deməliyəm ki, biz pandemiyadan əziyyət çəkənlərə təqribən 2 milyard dollarlıq sosial-iqtisadi yardım paketi ayırmışıq. Bu paket ilk növbədə, pandemiyadan əziyyət çəkən sahələrdə çalışan 700 minə yaxın insanı və mikrosahibkarları əhatə edir. Dövlət iki ay ərzində onların əməkhaqqısının xeyli hissəsini ödəyəcək, çünki onlar praktiki olaraq işləmirlər. Onlar 600 min aztəminatlı ailə və işsiz, hətta qeyri-formal sektorda məşğul olanlar, yəni əmək müqavi-

ləsi olmayanlardır. Onlara 2 ay ərzində müəyyən məbləğ ödənilir ki, hətta əmək müqaviləsi olmayanlar da əməkhaqqı alsınlar, çünki indi bu adamlar qazancdan məhrum olublar.

Biz ünvanlı sosial yardım alan ailələrin sayını artıraraq 80 minə çatdırmışıq, belə ailələrin hər biri orta hesabla 222 manat, yəni 130 dollar alır. Bundan əlavə, əməkhaqqı minimal səviyyədə, yəni 250 manat və ya təxminən 150 dollar səviyyəsində olmaqla, 90 min ödənişli ictimai iş yeri və 12 min özünüməşğulluq yeri yaradılır. Bu yerlər dövlət tərəfindən maliyyə və texniki kömək nəzərə alınmaqla cari ildə fəaliyyətə başlayacaq. Bu, həmin paketin yalnız bir hissəsidir. Vergi güzəştləri, vergi tətilləri də vardır. Yəni biz bu məsələyə çox geniş yanaşmışıq və ilk növbədə, insanları, onların sağlamlığını, həyatını qorumağa, ikinci növbədə isə iqtisadiyyatın inkişafını təmin etməyə çalışırıq.

**S u a l: Bütün bunlar barədə danışarkən Sizin üçün sirr deyil ki, indi ekspertlər, analitiklər, siyasətçilər tez-tez belə fikirlər səsləndirirlər: Allah qoysa, gec-tez pandemiya başa çatacaq. Lakin hələlik bütün proses yüksələn xətt üzrə gedir. Buna baxmayaraq, hamı deyir ki, dünya başqa cür olacaq. O dəyişəcək, sosial baxımdan, iqtisadi baxımdan, müəyyən mənada mədəni baxımdan dəyişəcək. Azərbaycan son illərdə çoxsaylı iri tədbirlər – idman, mədəniyyət, siyasət, iqtisadiyyatla bağlı tədbirlər, müxtəlif forumlar keçirib. Bundan əvvəl dediklərinizin hamısı inkaredilməz faktlara, dəqiq rəqəmlərə əsaslanırdı. İndi mənim sualım fərziyyələr sahəsinə daha çox aid-**

**dir. Siz postpandemiya dövrünü necə təsəvvür edirsiniz? Biz hamımız həmin dünyada yaşamalı olacağıq. İndi xüsusilə gənclər belə suallar verirlər. Çünki onlar çoxsaylı psixoloji çətinliklərlə üzləşir, yaşlılar üçün isə bu həm də fiziki xarakterli çoxsaylı risklər deməkdir. Siz postpandemiya dövründə dünyanı necə təsəvvür edirsiniz?**

**C a v a b:** Bilirsiniz, bir sıra siyasi və ictimai xadimlər, həmçinin geniş beynəlxalq ictimaiyyət qeyd edir ki, dünya başqalaşacaq və artıq başqalaşıb. Biz də yeni iş formatına, yeni həyat formatına, özünütəcrid rejiminə tədricən alışırıq. Əlbəttə, əslində bu, xüsusən sərt karantin şəraitində insanların çoxunun həyat tərzinə də, onların psixoloji vəziyyətinə də ciddi təsir göstərir. Biz yaxşı başa düşürük ki, həftələrlə evdə oturmaq, evdən çıxmamaq fəal həyat tərzinə, fəal işləməyə adət etmiş insanlar üçün çox ciddi sınaqdır. Bəli, qeyd etdim ki, işini itirənlər üçün vəsait ödəyirik. Axı onlar üçün motivasiya təkcə əməkhaqqı deyildi. İnsanlar əslində sevimli işindən məhrum olublar və bu da onların psixoloji vəziyyətinə ciddi təsir göstərə bilər. Buna görə dünyanın gələcəkdə necə olacağını güman etmək çətindir.

Beynəlxalq tədbirlər keçirilməsinə gəldikdə, mənim dediyim iki Zirvə görüşü göstərdi ki, biz bu formatda da işləyə bilərik. Əlbəttə, ünsiyyət çatışmazlığını hiss edirik. Əgər biz Zirvə görüşünü adi rejimdə keçirsəydik, bu, 2 gün, bəlkə də 3 gün davam edərdi, çoxsaylı ikitərəfli görüşlər, çoxlu mədəni tədbirlər olardı. Amma məsələn, mayın 4-də Zirvə görüşü fasiləsiz olaraq altı saat yarım davam et-

di. Sədr kimi, mənim həmin görüşü tərk etmək imkanım yox idi. Əlbəttə, bu formatda yaşamağa öyrəşmək lazımdır.

Beynəlxalq forumlara gəldikdə, siz tamamilə haqlı olaraq qeyd etdiniz ki, Azərbaycan ilk növbədə, humanitar əməkdaşlıq üçün artıq mühüm məkana çevrilib. Rusiya və Azərbaycan prezidentlərinin himayəsi ilə keçirilən və formalaşmasında şəxsən siz, Mixail Solomonoviç, çox böyük rol oynadığınız Bakı Beynəlxalq Humanitar Forumu da, Mədəniyyətlərarası Dialoq Forumu da, keçirilməsi bu gün təxirə salınmış bir sıra başqa tədbirlər də sual doğurur – biz onları necə keçirəcəyik? Beynəlxalq forumları, diskussiyaları videokonfrans rejimində keçirməyə imkan olacaqmı? – bütün bunlar gələcəyin məsələləridir. Lakin bir şey aşkardır ki, koronavirus üzərində qələbədən sonra sırf işçi baxımından, psixoloji baxımdan bu vəziyyətdən çıxmaq üçün hələ uzun müddət lazım gələcək. Bunun nə qədər davam edəcəyini demək çox çətindir. Lakin mənim fikrimcə, əsas məqam, o cümlədən beynəlxalq siyasət məsələlərində əməkdaşlığın müsbət təcrübəsini qoruyub saxlamaqdır ki, bu müvəqqəti ayrılıq ölkələri bir-birindən ayırmasın. Biz dialoqu davam etdirək, videokonfrans formatında işləyək. Yeri gəlmişkən, mən həmkarlarımla videokonfrans formatında bir neçə görüş keçirmişəm. Əlbəttə, forma fərqli olacaq, lakin əsas məsələ müsbət məzmunu saxlamaq və pandemiya nəticəsində gördüyümüz müsbət məqamların sayını artırmaqdır. Ola bilsin, bunlar hələ ilk təzahürlərdir, la-

kin həmrəylik, hətta münasibətləri gərgin olan ölkələr arasında da əməkdaşlıq elementləri görünür.

**S u a l: Siz dediniz ki, bütün bu çətinliklərə baxmayaraq, əməkdaşlığı inkişaf etdirmək, möhkəmləndirmək zəruridir. Məhz bu baxımdan mən istərdim ki, Rusiya Prezidenti Vladimir Putin ilə Sizin münasibətləriniz məsələsinə toxunaq, Sizin aranızda kifayət qədər sıx şəxsi yoldaşlıq münasibətləri, necə deyərlər, «personal chemistry» yaranıb. Siz Rusiyaya səfərlər etmisiniz, cənab Putin də Azərbaycanda olub. Bu şəraitdə Sizə elə gəlmirmi ki, fikrinizin davamı kimi, məhz yeni şəraitdə yeni həllər və əməkdaşlığın yeni formatını tapmaq üçün bu əlaqələri daha da intensivləşdirmək lazımdır?**

**C a v a b:** Bəli, siz tamamilə haqlısınız, biz bu məsələ üzərində işləyirik, hətta pandemiya şəraitində də fasiləsiz nəqliyyatdaşımaları həyata keçirilir. Biz tranzit-logistika sahəsində işləri intensivləşdirmək barədə razılığa gəlmişik. Ölkələr arasında, Rusiya ilə Azərbaycan arasında əmtəə dövriyyəsinə gəldikdə isə, əlbəttə, pandemiya mənfi təsirini göstərir. Lakin əminəm ki, biz müsbət əməkdaşlığı qoruyub saxlayacaq və genişləndirəcəyik.

Siz qeyd etdiyiniz kimi, Rusiya Federasiyasının Prezidenti ilə biz həm Rusiyada, həm də Azərbaycanda yetərincə tez-tez görüşürük. Sonuncu görüşümüz keçən ilin axırında Peterburqda olub, ondan əvvəl isə Soçidə. Mən «Valday» Diskussiya Klubuna dəvət edilmişdim. Bizim ünsiyyətimiz və görüşlərimiz qarşılıqlı əlaqələrimizin inkişafına çox müsbət təkan

verir və tabeliyimizdə olanlara verdiyimiz göstərişlər, təlimatlar həyata keçirilir.

Qarşılıqlı siyasi əlaqələrimiz çox yüksək səviyyədədir. Əlbəttə, pandemiya olmasaydı, biz əmtəə dövriyyəsini daha da artırardıq. Lakin əminəm ki, iqtisadi əlaqələrimiz lazımi səviyyədə olacaq. Bizim nəqliyyat-logistika sahəsində də böyük planlarımız vardır. Bu gün Rusiyanın bizim fəal istifadə etdiyimiz Şimal–Cənub dəhlizi ilə yanaşı, Şimal–Qərb nəqliyyat dəhlizinə qoşulması da bizi sevindirir. Rusiyalı yükgöndərənlər Azərbaycandan Avropa istiqamətinə gedən bu marşrutdan istifadə edirlər. Elektroenergetika sahəsində elektrik enerjisi mübadiləsi, habelə çoxtərəfli əməkdaşlıq baxımından böyük potensial vardır. Biz yüksəkvoltlu elektrikötürmə xətləri ilə bağlıyıq.

Neft-qaz sahəsində də vəziyyət yaxşıdır. Bəlkə də çoxları bilmir, lakin Xəzər dənizinin Rusiya sektorunda Rusiya şirkətləri tərəfindən hasil edilən neftin bir hissəsi Azərbaycanın nəqliyyat infrastrukturu vasitəsilə nəql edilir. Yəni burada əməkdaşlıq yüksələn xətt üzrə davam edir.

Əlbəttə, Rusiya Prezidenti ilə birlikdə humanitar sahədə həmişə həyata keçirdiyimiz əməkdaşlığı da hökmən qeyd etmək lazımdır. Düşünürəm ki, bu, qonşular arasında əməkdaşlığın nümunəsidir. Rusiyada da bunu çox yüksək qiymətləndirirlər ki, Azərbaycanda tədrisin rus dilində olduğu 330-dan çox məktəb vardır. Rusiyanın aparıcı ali məktəblərinin filialları, yetərincə zəngin mədəni proqram və Xalq Təsərrüfatı Nailiyyətləri Sərgisində yenidən qu-

rulmuş «Azərbaycan» pavilyonunun təntənəli açılışı da dostluq münasibətlərinin rəmzidir.

Əlbəttə, biz təəssüflənirik ki, pandemiya turizm sektoruna çox güclü zərbə vurub. Keçən il 1 milyona yaxın rusiyalı Azərbaycana səfər edib. Biz bu il də rusiyalı turistlərin sayının artacağına ümid edirdik. Lakin hər şeyin qaydaya düşəcəyi və insanların yenidən bir-birini ziyarət etməyə başlayacağı vaxtı gözləyək. Siz tamamilə haqlısınız, biz vaxtı itirməməliyik, bu il görüləsi işlər hələ çoxdur. Biz daim əlaqə saxlayırıq və yaxın dostlar, tərəfdaşlar kimi işləyirik.

**S u a l: Pandemiyadan sonrakı dövrdən söhbət düşəndə enerji sahəsi ayrıca mövzudur. Əlbəttə, indi xəbərlərin bütün gündəliyi pandemiya ilə bağlıdır. Lakin hələ yaxın vaxtlarda neftin qiymətləri mövzusu da buraya əlavə olunurdu. Dünya təlatümdə idi, hamı hansısa detektiv kimi, neftin qiymətinin az qala mənfiyə keçməsini izləyirdi. Bütün insanlar neft sahəsində mütəxəssisə çevrilmişdi. Azərbaycan tarixən neft hasil edən ölkədir, lakin bununla bərabər, Siz artıq neçə illərdir deyirsiniz ki, Azərbaycan neftdən asılılıqdan xilas olmalıdır. Bununla əlaqədar mən neftin qiymətlərini qabaqcadan söyləməyə hazır deyiləm, amma asılılıqdan yaxa qurtarmaq baxımından Siz iqtisadiyyatın hansı sahələrinə bel bağlayırsınız, postneft dövründə Azərbaycanı necə təsəvvür edirsiniz?**

**C a v a b:** Mən bu mövzunu çox fəal şəkildə qaldırmışam və qaldırıram. Bu istiqamətdə müəyyən addımlar atılır. Onu demək kifayətdir ki, bu ilin bi-

rinci rübündə qeyri-neft-qaz sektorunda sənaye məhsulları istehsalının həcmi 23 faiz artıb. Bu, mütləq rekord göstəricidir. Mənim fikrimcə, pandemiya şəraitində bu rəqəm bizim apardığımız işə hörmət doğurur. Buna görə qeyri-neft sektoruna oriyentasiya bizim əsas prioritetimiz olub və yenə də belədir. Dəfələrlə dediyim kimi, biz neft sektorunu yaddan çıxarmalıyıq.

Demək olar ki, bu gün neftin bu qiymətləri ilə postneft dövrü əslində başlanıb. Buna görə Azərbaycan iqtisadiyyatının artımının əsas hərəkətverici qüvvəsi onun aşkarlığı olacaq. Bu istiqamətdə – iqtisadiyyatın «kölgə»dən çıxarılması üçün çox iş görülür. Təəssüf ki, bu problem bizim üçün hələ də aktualdır. Burada qeyri-formal məşğulluqdan başlamış vergi ödəməkdən yayınmağa qədər bütün məsələlər bir-biri ilə sıx bağlıdır. Bizim gördüyümüz tədbirlər öz nəticələrini verir. Həm keçən il, həm də bu il biz büdcəni əsasən iqtisadiyyatın «kölgə»dən çıxarılması hesabına artırırıq. Yəni bu, əsas hərəkətverici amil olacaqdır.

İqtisadiyyatın sahələrinə gəldikdə, mən ilk növbədə, kənd təsərrüfatını qeyd edərdim, orada çox böyük potensial var və bu sahəyə çox böyük investisiyalar yatırılıb. Artım da kifayət qədər ciddidir. Nəqliyyat-logistika sahəsi üzrə Azərbaycan ərazisində bütün nəqliyyat-kommunikasiya layihələri praktiki olaraq, başa çatdırılıb. Ölkəmiz Şərq–Qərb nəqliyyat dəhlizində fəal iştirak edir. Bu, «Bir kəmər – bir yol» təşəbbüsü, Şimal–Cənub dəhlizi, həmçinin artıq qeyd etdiyim Şimal–Qərb dəhlizi layihəsidir. Odur ki, nəqliyyat-logistika infrastrukturunun yaradılması başa

çatdırılıb və bu gün biz daşımaları artırmaq, Azərbaycanın tranzit imkanlarını genişləndirmək üçün tərəfdaşlarımızla, qonşularımızla işləyirik. Biz turizmə böyük diqqət yetirirdik və yenə də belədir. Bu sektor çox perspektivli idi. Son 4 ildə turistlərin sayı hər il 10 faizdən 24 faizə qədər artıb. Müasir turizm infrastrukturu yaradılıb. Lakin pandemiya bu sektora çox güclü zərbə oldu. İndi biz daxili turizmin stimullaşdırılması barədə düşünürük. Xüsusən ona görə ki, Azərbaycanın milyonlarla vətəndaşı il ərzində, o cümlədən istirahət üçün ölkədən kənara gedirdi. Onlar sərhədlərin bağlanılmasını nəzərə alaraq, yəqin ki, bu il yayda daxili turizmə istiqamətlənəcəklər.

Əlbəttə, informasiya-kommunikasiya texnologiyaları sektorunu da qeyd etməliyəm. Burada da yaxşı təməl yaradılıb. 3 süni peyki olan Azərbaycan artıq kosmik klubun üzvüdür. İKT sektoru çox fəal inkişaf edir və bu sahədə çox ciddi artım vardır. Ona görə düşünürəm ki, bu istiqamətlər bundan sonra da mühüm rol oynayacaq. Əlbəttə, iqtisadiyyatın qlobal məsələlərinə bir daha qayıdaraq deməliyəm ki, bu həm yerli, həm də əcnəbi investorlar üçün biznes mühitinin yaxşılaşması və kiçik sahibkarlığa dəstək deməkdir. Biz hazırda bu istiqamətdə böyük addımlar atırıq. Bu həm məşğulluğu, həm də iqtisadiyyatın şaxələndirilməsini təmin edəcəkdir. İnkişaf etmiş ölkələrin təcrübəsinə əsasən, bilirik ki, orada ümumi daxili məhsulun yarıdan çoxu kiçik və orta biznes hesabına formalaşır. Biz də buna çalışmalıyıq.

**S u a l: Siz bilirsiniz ki, hazırda müzakirə edilən və pandemiya ilə bağlı daha bir məsələ beynəlxalq**

**təşkilatların effektivliyi məsələsidir. Siz «Qoşulmama Hərəkatı»nın pandemiyaya həsr edilmiş tarixi Zirvə görüşünün uğurla keçirilməsindən danışdınız. Lakin indi bəzi siyasətçilər Birləşmiş Millətlər Təşkilatının ünvanına çoxlu tənqidi sözlər söyləyirlər. BMT-nin təsisatı olan Ümumdünya Səhiyyə Təşkilatı ciddi tənqidə məruz qalıb. Azərbaycan əksər beynəlxalq təşkilatların inamlı və fəal iştirakçısıdır. O, Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü olub. Azərbaycan Müstəqil Dövlətlər Birliyi, ATƏT və digər təşkilatlar sistemində fəal işləyir. Sizin fikrinizcə, əvvələn, beynəlxalq təşkilatların ünvanına bu tənqid nə dərəcədə ədalətlidir, beynəlxalq təşkilatlar bu ümumi bəlaya nə dərəcədə hazır oldular, digər tərəfdən, Siz necə hesab edirsiniz, onların hazır olmaları üçün beynəlxalq təşkilatlarda islahatlar, qarşılıqlı fəaliyyətin hansısa yeni variantları tələb olunurmu? Axı həmişə nəyisə gözləmək lazım gəlir.**

**C a v a b:** Fikrimcə, bu istiqamətdə əsas amil ayrı-ayrı ölkələrin iradəsidir. Ona görə ki, beynəlxalq təşkilatlar ölkələrdən ibarətdir və ölkələr bu təşkilatlara nümayəndələrini göndərir, ölkələr öz mənafelərini bu beynəlxalq təşkilatlar çərçivəsində müdafiə edir. Beynəlxalq təşkilatlara rəhbərlik edən insanlar beynəlxalq məmurlardır. Əlbəttə, onlar kiminsə xoşuna gələcək, kiminsə xoşuna gəlməyəcək məsul qərarlar qəbul etməli olanda üzləşdikləri çətinlikləri anlamaq lazımdır. Buna görə onların diplomatiya məharəti də çox cəhətdən bu və ya digər beynəlxalq təşkilatın nüfuzunu müəyyən edir.

Azərbaycana gəldikdə, bizim üzv olduğumuz bütün təşkilatlarda məhz ona görə iştirak edirik ki, bu təşkilatı gücləndirək, çünki biz onun üzvüyük, həmçinin bu təşkilatda fəaliyyətimiz çərçivəsində öz milli maraqlarımızı maksimum təmin edək. Lakin biz ilk növbədə, üzv ölkələrin daha böyük etimadını qazanmağa çalışırıq və həyata keçirdiyimiz təşəbbüslər buna istiqamətlənibdir.

Məsələn, «Qoşulmama Hərəkatı»nın üzvləri olan ölkələrə Ümumdünya Səhiyyə Təşkilatı vasitəsilə maliyyə yardımı göstərmək təşəbbüsü konkret nümunədir. Təəssüf ki, beynəlxalq təşkilatlarda sözçülük çox geniş yayılıb, özü də ilbəil bir məruzədən digərinə köçürülən və arxasında heç bir əməli iş dayanmayan şablon sözlər. Həm də, əlbəttə, istənilən beynəlxalq təşkilat qüdrətli ölkələrdən, ortabablardan və hələ bir qədər böyüməli olan ölkələrdən ibarətdir. Ona görə burada bütün ölkələrin maraqlarının nəzərə alınması da vacibdir ki, böyük maliyyə, siyasi və digər resursları olmayan ölkələr özlərini aldadılmış, ikinci dərəcəli üzvlər kimi hiss etməsinlər. Hesab edirəm ki, beynəlxalq təşkilatlar çərçivəsində qarşılıqlı hörmət mühüm prioritetlərdən biridir. Əlbəttə, bütün dünyanı, yaxud «Qoşulmama Hərəkatı» kimi 120 ölkəni birləşdirən qlobal beynəlxalq təşkilatlar çərçivəsində buna nail olmaq daha yığcam təşkilatlarla müqayisədə çətindir. Lakin düşünürəm ki, bu, siyasətçilər üçün əsas ruhlandırıcı amil olmalıdır.

Bir də beynəlxalq təşkilatın nüfuzu çox cəhətdən onun qəbul etdiyi qərarların yerinə yetirilməsindən

asılıdır. Deməliyəm ki, burada da islahatlar üçün yer çoxdur. Hətta BMT Təhlükəsizlik Şurasının neçə illər bundan əvvəl qəbul etdiyi qətnamələr yerinə yetirilmir və Azərbaycan bunu öz timsalında yəqin edib. 30 ilə yaxındır ki, erməni işğalçı qüvvələrinin Azərbaycan ərazisindən çıxarılması barədə BMT Təhlükəsizlik Şurasının qətnamələri yerinə yetirilmir və təcavüzkara qarşı, bu qətnamələri pozana qarşı heç bir sanksiya tətbiq edilməyibdir.

Buna görə hökmən cəza mexanizmi olmalıdır. Əgər beynəlxalq təşkilat icrası zəruri olan qərar qəbul edirsə, bu qərar yerinə yetirilməlidir. Qərarı pozan üzv barəsində isə bir neçə mərhələdən ibarət prosedur olmalıdır, lakin bu prosedur yoxdur. Fikrimcə, beynəlxalq təşkilatlara münasibətdə müəyyən ümidsizlik doğuran əsas amillər bunlardır. Sizə səmimi deməliyəm, bəzən beynəlxalq hüquqa zidd olan hərəkətlər müşahidə edirik, bu isə beynəlxalq təşkilatların nüfuzunu artırmır və ümumiyyətlə, müasir dünya nizamını şübhə altına alır. Ona görə ki, beynəlxalq hüquq hər kəs üçün prioritet olmalıdır və ölkələr onların potensialından, imkanlarından asılı olmayaraq, beynəlxalq hüquqa hörmət etməyə borcludurlar. Amma biz bəzən beynəlxalq hüququn kobudcasına, nümayişkaranə şəkildə pozulduğunu görəndə sual yaranır: bəs biz nə üçün ona riayət etməliyik? Əgər başqaları onu pozmağı özlərinə rəva görə bilirsə, biz nə üçün poza bilmərik? Mən demirəm ki, biz bu yolla gedirik. Xeyr. Azərbaycan həmişə qanunun və beynəlxalq hüququn aliliyini əsas götürür. Lakin

haqlı olaraq, belə suallar yaranır və onlara birgə cavablar axtarmaq lazımdır.

**S u a l: İlham Heydər oğlu, Sizdən praktiki məsləhət istəyirəm. Dövlət başçısı kimi, sanki mürəkkəb şəraitə düşmüsünüz. Bir tərəfdən, karantinə riayət etməlisiniz və bilirəm ki, bir vətəndaş kimi, adi təhlükəsizlik mülahizələrinə riayət edirsiniz. Amma digər tərəfdən, televizora baxanda görürük ki, Sizin dövləti fəaliyyətinizin intensivliyi əsla azalmır. Siz bunları əlaqələndirməyə necə nail olursunuz? Digər tərəfdən, Siz həmişə fiziki formanızı saxlamağa böyük diqqət yetirirsiniz və yəqin ki, bunu tez-tez edirsiniz. Öz həmvətənlərinizə, bizim televiziya tamaşaçılarına məsləhət verin: karantin şəraitində belə fiziki formanı necə saxlayırsınız?**

**C a v a b:** Fiziki formanı ev şəraitində də saxlamaq olar. Bu gün bu, artıq heç kəs üçün sirr deyil. İdman zalına getmədən evdə idmanla fəal məşğul olmağın mümkünlüyünü göstərən informasiya resursları çoxdur. Mən gənclik illərimdən idmanla məşğulam və əlbəttə, bütün qaydalara riayət edirəm. Hesab edirəm ki, idmanla məşğul olmaq hər kəs üçün həm sağlamlıq, həm özünəinam, həm də iş qabiliyyəti üçün mühüm amillərdən biridir. Mən gənclərə və ortayaşlı insanlara müraciətlə dəfələrlə demişəm, idmanla məşğul olun. Bəzən bunu çox təkrar edirəm, lakin insanların buna əməl etmələri üçün təkrarlamaq lazımdır. Yadımdadır, biz xəstəxanaların tikintisini genişləndirməyə başlayanda mən dəfələrlə təkrar edirdim ki, hər kəs tibbi müayinədən keçməlidir. Biz bunu – kütləvi pulsuz dis-

panserizasiyanı həyata keçiririk. Yeri gəlmişkən, bu il pandemiya ucbatından onu keçirmədik. 5 milyondan çox insan öz sağlamlığını yoxlamaq üçün gəlir. İdmanda da belə olmalıdır. Mən deyirəm: idmanla məşğul olun, faydasını görəcəksiniz, sizin fiziki formanızın, əhvalınızın, iş qabiliyyətinizin necə yaxşılaşacağını görəcəksiniz. Buna görə indi mən imkanı olmayanların hamısına məsləhət görürəm: internet resurslarından istifadə edin, orada evdə idmanla məşğul olmaq üçün çoxlu məsləhətlər, çoxlu proqramlar vardır.

Karantin rejiminə gəldikdə isə, mən prinsip etibarilə intizamlı adamam. Buna görə mənim ictimai tədbirlərimdə ən çoxu 9 nəfər olur. Bizdə 10 nəfərdən çox adamın bir yerdə toplaşması qadağandır. Lakin mən ehtiyat üçün həmişə deyirəm, 9 nəfərdən çox olmamalıdır. Ən çoxu 10 və ya 9 nəfər. Bir də məsafəyə riayət edirəm. İctimai xarakterli tədbirlərdə də, görüşlərdə də. İlin birinci rübünün yekunlarına həsr olunmuş iclası videokonfrans rejimində keçirdik. Amma deməliyəm ki, bu iclas əvvəl keçirdiklərimizdən o qədər də fərqlənmədi. Mənim tabeliyimdə olan işçilərlə söhbətlərim də videokonfrans formatında keçirilir. Yəni insan prinsip etibarilə hər şeyə alışır. Buna da vərdiş etmək lazımdır. Amma sualınıza görə sağ olun. Fürsətdən istifadə edib, bir daha hamıya müraciət edirəm: idmanla məşğul olun, özü də müntəzəm surətdə.

**S u a l: Gələcəkdə pandemiyanın başa çatmasından danışarkən Siz, mənim fikrimcə, çox düzgün, dəqiq bir söz işlətdiniz: qələbə. Yəqin bilirsiniz, bəlkə**

**də görmüsünüz: TASS Agentliyinin fotomüxbiri Yevgeni Xaldeyin «Reyxstaq üzərində Qələbə bayrağı» adlı fotoşəkli vardır. Bizim TASS Agentliyi pandemiya üzərində qələbənin rəmzi olacaq gələcək fotoqrafiya üçün ümumdünya müsabiqəsi elan edib. Sizin fikrinizcə, həmin fotoqrafiyada nə ola bilər?**

**C a v a b:** Əlbəttə, çox yaxşı təşəbbüsdür. Buna görə sizə təşəkkür etmək istərdim. Mənim fikrimcə, bu müsabiqə təkcə rəssamların yox, hamının böyük marağına səbəb olacaq. Ona görə ki, bu gün bu mövzu hər kəsi narahat edir və hər kəsi bu xəstəliyə qalib gəlmək, öz yaxınlarını xəstəliyin ağır fəsadlarından qorumaq istəyi birləşdirir. Buna görə düşünürəm ki, həmin fotoqrafiya və ya simvol birləşdirici xarakter daşımalıdır. Bir də şübhəsiz, dünya pandemiyaya qalib gələndə bunun rəmzi insan, onun zəkası olmalıdır. Ona görə ki, vaksin icad ediləndə insanın zəkası bu xəstəliyə qalib gələcək. İnsanın iradəsi. Ona görə ki, çətin dövrdə çox məsələləri məhz iradə qüvvəsi həll edir. Əlbəttə, mərhəmət hissi də. Ona görə ki, vəziyyətin çox mürəkkəb olmasına, çoxsaylı insan tələfatına baxmayaraq, mənim fikrimcə, ictimai şüurda mərhəmət səviyyəsi xeyli yüksəlib, insanlar anlayırlar ki, təbiətin və Allahın qarşısında hamı bərabərdir, hər kəs öz yaxınları qarşısında məsuliyyət göstərməli və özünü ləyaqətlə aparmalıdır. Buna görə mövzular palitrası bir qədər geniş ola bilər, lakin əminəm ki, bu müsabiqə bir simvolika ilə kifayətlənməyəcək. Düşünürəm ki, burada ən yaxşı duyğular, ən yaxşı arzular, insanın və insanlığın ən yaxşı keyfiyyətləri cəmləşməlidir.

**M i x a i l  Q u s m a n:** Çox sağ olun, İlham Heydər oğlu. Allahın izni ilə və necə deyərlər, böyük dünya elminin köməyi ilə pandemiya üzərində o qələbə gününə qədər yaşamaq lazımdır. Faşizm üzərində böyük Qələbə bayramı isə bu günlərdə qeyd ediləcək. Sizinlə bizim söhbətimizi milyonlarla rusiyalı görəcək və düşünürəm ki, bu söhbəti görənlər təkcə rusiyalılar olmayacaq. Sizdən bir xahiş edə bilərəmmi: mayın 9-da Moskvada olsaydınız, deyəcəyiniz sözlərlə müraciət edin.

**İ l h a m  Ə l i y e v:** Mən bizim hamımızı, veteranları, bugünkü nəsli, gəncləri təbrik etmək istəyirəm. Bu, sovet xalqının Qələbəsi, Sovet İttifaqının tarixi əhəmiyyət kəsb edən Qələbəsidir. Bu Qələbəyə keçmiş Sovet İttifaqının hər bir xalqı dəyərli töhfə verib. Söhbətimizin əvvəlində qeyd etdiyimiz kimi, qəhvəyi taun milyonlarla insanın həyatı bahasına məğlub edilib. Buna görə mən ilk növbədə, veteranlara dərin hörmətimi, həlak olanların xatirəsinə ehtiramımı bildirirəm. Bu gün biz onların sayəsində yaşayırıq, müstəqil dövlətlərdə yaşayır və öz taleyimizi qururuq.

Əlbəttə, gənc nəslə müraciətlə demək istərdim ki, onlar öz əcdadları kimi fədakarcasına, yüksək vətənpərvərlik hissi ilə yaşamağı, mübarizə aparmağı öyrənsinlər, qəhrəmanlıq göstərsinlər, öz Vətənini müdafiə edərkən canlarını, həyatlarını əsirgəməsinlər. Bu elə bayramdır ki, biz onu daim qeyd etməliyik. Bu elə bayramdır ki, bütün mütərəqqi bəşəriyyəti, bütün sülhsevər insanları birləşdirir.

Sizinlə artıq müzakirə etdiyimiz kimi, biz tarixi yenidən yazmaq, İkinci dünya müharibəsi haqqında

həqiqəti təhrif etmək cəhdləri ilə barışmamalıyıq. Mən bütün veteranlara, bu gün sırada olanların hamısına arzu edirəm ki, Allah onlara uzun və sağlam ömür versin.

**M i x a i l  Q u s m a n:** Hörmətli İlham Heydər oğlu, bu söhbətə görə çox sağ olun. Sizi qarşıdan gələn Qələbə bayramı münasibətilə təbrik edirəm. Arzum budur ki, Azərbaycan Sizin rəhbərliyinizlə bu pandemiya üzərində tezliklə qələbə qazansın. Sizə ən xoş diləklərimizi bildirirəm. Çox sağ olun.

## İKİ DƏFƏ SOVET İTTİFAQI QƏHRƏMANI HƏZİ ASLANOVUN MƏZARINI ZİYARƏT

*9 may 2020-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva mayın 9-da iki dəfə Sovet İttifaqı Qəhrəmanı Həzi Aslanovun məzarını ziyarət edərək, abidəsi önünə gül dəstələri qoymuş, müharibədə həlak olan bütün Azərbaycan övladlarının xatirəsini ehtiramla yad etmişlər.*

*Azərbaycan xalqı faşizm üzərində tarixi Qələbəyə sanballı töhfələr verib. Bu Qələbənin qazanılmasında çox böyük payı olan xalqımız 600 min oğul və qızını cəbhəyə yola salıb. Onların 300 mindən çoxu döyüşlərdə qəhrəmanlıqla həlak olub. Müharibə zamanı göstərdikləri igidliyə görə Azərbaycanın 123 nümayəndəsi Sovet İttifaqı Qəhrəmanı adına layiq görülüb, 170 mindən çox əsgər və zabitimiz müxtəlif orden və medallarla təltif edilibdir.*

*Azərbaycan diviziyaları Qafqazdan Berlinədək şanlı döyüş yolu keçib, yüzlərlə həmyerlimiz isə partizan dəstələrinin tərkibində vuruşubdur. Bu Qələbədə Azərbaycan nefti həlledici əhəmiyyət kəsb edib. Azərbaycan sovet ordusu üçün yanacaq-sürtkü materiallarının əsas tədarükçüsü olub. Mühərrik yağlarının 90, benzinin 80, neftin isə 70 faizi Azərbaycan tərəfindən təchiz olunubdur.*

*İkinci dünya müharibəsində şərəfli döyüş yolu keçmiş Azərbaycan övladlarının tarixi şücaətləri hər zaman hörmətlə anılıb. Amma 1992-ci ildə Xalq Cəbhəsi çevriliş yolu ilə hakimiyyətə gələndə 9 May bayramını ləğv etmişdi və veteranlar mənəvi terrora məruz qalmışdılar. Xalqımızın ümummilli lideri Heydər Əliyev 1993-cü ildə hakimiyyətə qayıtdıqdan sonra müharibə veteranlarının hüquqlarını bərpa etdi, onları «xalqımızın qızıl fondu» adlandırdı. Prezident İlham Əliyev də müharibə veteranlarının sosial problemlərinin həllini diqqət mərkəzində saxlayır, 9 May – Qələbə Günü ərəfəsində onlara maddi yardımlar göstərilir.*

*İkinci dünya müharibəsi bizim şanlı tariximizdir. O dəhşətli müharibədə misilsiz şücaətlər göstərmiş qəhrəman oğul və qızlarımız bu gün də hörmətlə xatırlanır və 75 il keçsə də onların qazandığı tarixi Qələbə öz əhəmiyyətini itirmir.*

## RUSİYA FEDERASİYASININ PREZİDENTİ VLADİMİR PUTİN İLƏ TELEFONLA GÖRÜŞ

*9 may 2020-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 9-da Rusiya Federasiyasının Prezidenti Vladimir Putinə telefonla zəng etmişdir.*

*Prezident İlham Əliyev İkinci dünya müharibəsində Qələbənin 75 illiyi münasibətilə Rusiya Prezidentini və dost Rusiya xalqını təbrik etdi.*

*Vladimir Putin göstərilən diqqətə və təbrikə görə minnətdarlığını bildirərək, öz növbəsində, bayram münasibətilə Azərbaycan Prezidentinə və dost Azərbaycan xalqına təbriklərini çatdırdı.*

*Dövlət başçıları koronavirusla mübarizə istiqamətində görülən işlər və ölkələrimizin bu sahədə əməkdaşlığı barədə fikir mübadiləsi apardılar.*

*Telefon söhbəti zamanı Azərbaycanla Rusiya arasında strateji tərəfdaşlıq münasibətlərinin gələcək inkişafı ilə bağlı məsələlər müzakirə edildi.*

## RUSİYANIN «NATSİONALNAYA OBORONA» JURNALINA MÜSAHİBƏ

*9 may 2020-ci il*

*Rusiyanın nüfuzlu «Natsionalnaya oborona» («Milli müdafiə»)jurnalının may buraxılışında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müsahibəsi dərc olunmuşdur. Jurnal Rusiyada və beynəlxalq səviyyədə rəsmi dövlət qurumları, diplomatlar, siyasi, hərbi ekspertlər, tədqiqatçılar və digər mütəxəssislərdən ibarət geniş auditoriyaya malikdir.*

*Müsahibəni 9 may tarixindən bir neçə gün əvvəl jurnalın əməkdaşı İqor Korotçenko aparmışdır.*

**S u a l: İlham Heydər oğlu, qarşıdan İkinci dünya müharibəsində Qələbənin 75 illiyi gəlir. Bu ümumi Qələbəyə Azərbaycanın töhfəsi nədən ibarət olub, Azərbaycanda yaşayan İkinci dünya müharibəsi iştirakçılarını necə şərəfləndirmək planlaşdırılır?**

**C a v a b:** İkinci dünya müharibəsində Qələbənin 75 illiyi yaxınlaşır. Biz tarixdə bu əlamətdar günə qayğı ilə yanaşır, döyüş meydanında və arxa cəbhədə Qələbəyə töhfə verənlərin xatirəsini ehtiramla yad edir, öz həyatları bahasına dünyanı faşizmdən xilas etmiş zabit və əsgərlərin igidliklərinə hörmətimizi bildiririk.

Azərbaycan ümumi Qələbəmizə böyük töhfə verib. Azərbaycanın 600 mindən çox nümayəndəsi

müharibədə iştirak edib, onlardan 300 mini həlak olub, 123 nəfər Sovet İttifaqı Qəhrəmanı əslən Azərbaycandandır, bizim 170 mindən çox əsgər və zabitimiz müxtəlif orden və medallarla təltif edilibdir.

Qızıl Ordu üçün neftin 70 faizini, yanacağın 80 faizini və sürtkü yağlarının 90 faizini Azərbaycan təchiz edib, bunlar olmasaydı, müharibədə qalib gəlmək mümkün olmazdı. Təsadüfi deyil ki, faşist Almaniyası Bakını tutmağa can atırdı. Yeri gəlmişkən, mən bu barədə 2019-cu ilin oktyabrında MDB-nin Aşqabad Sammitində demişdim: məlum kadrlar var, orada Hitlerə üzərində alman dilində «Xəzər dənizi» sözləri yazılmış tort verirlər (Xəzər dənizinin sərhədlərinə qara rəngli şokolad süzülüb), o, svastikanı əlinə götürür və «Bakı» sözü yazılmış yerə qoyur. Bu, faşistlərin Azərbaycanın neft yataqlarını tutmaq planını vurğulayırdı.

Bizim müəssisələrdə gecə-gündüz hərbi texnika, o cümlədən məşhur «katyuşa» raketləri istehsal edilirdi. Azərbaycan elminin nümayəndələri də bizim ümumi qələbəmizə sanballı töhfə veriblər.

Bunu bilən azdır, amma böyük Azərbaycan alimi Yusif Məmmədəliyev sonradan «Molotov kokteyli» adı ilə məşhurlaşmış yandırıcı qarışıq ixtira etmişdi.

Azərbaycanda formalaşdırılmış 416-cı Qırmızı Bayraqlı Taqanroq diviziyası Qafqazdan Berlinə qədər şanlı döyüş yolu keçib. İkinci dünya müharibəsi cəbhələrində ləyaqətlə döyüşən, Azərbaycanın bayrağını uca tutan, xalqımıza xas olan vətənpərvərlik, cəsarət, doğma torpağın müdafiəsində dönməzlik kimi ən yaxşı keyfiyyətləri nümayiş etdirən

bu diviziya döyüşçülərinin igidliyi və şücaəti ilə ölkəmizdə fəxr edirlər.

Bu ilin mart ayında Rusiya Federasiyası Rostov vilayətinin qubernatoru Vasili Qolubevin başçılığı ilə nümayəndə heyəti Azərbaycana səfər etmişdi.

Onlarla görüş zamanı mənə 1980-ci ildə Azərbaycanın rəhbəri olmuş ümummilli lider Heydər Əliyevin Rostov vilayətinə səfərinə həsr edilmiş bir videoalbom verdilər.

Heydər Əliyev həmin səfər zamanı Rostov vilayətinin faşizmdən azad edilməsinin rəmzi olan, müstəsna igidliklər göstərmiş 130-cu və 416-cı Azərbaycan atıcı diviziya əsgərlərinin qəhrəmanlığına həsr edilmiş «Sambek yüksəklikləri» memorialının açılışında iştirak etmişdi.

İndi həmin memorialın yanında «Sambek yüksəklikləri» adlı Xalq Hərbi-Tarixi Muzey Kompleksi yaradılır. O görüşdə qeyd edilmişdi ki, bu il həmin kompleksin açılışı planlaşdırılır. Rusiya tərəfinin 416-cı Taqanroq diviziyasının əsgər və zabitlərinin xatirəsini və igidliklərini ehtiramla yad etməsini biz çox yüksək qiymətləndiririk.

Bu gün İkinci dünya müharibəsi veteranları Azərbaycanda dövlət tərəfindən böyük dəstək alırlar. Biz onların qəhrəmanlığını həmişə xatırlayırıq. Hər il mayın 9-da mən bu böyük tarixə həsr edilmiş təntənəli tədbirdə onlarla görüşürəm, biz həlak olanların xatirəsini birlikdə yad edir, onların məzarları üzərinə gül-çiçək, əklillər qoyuruq. Lakin təəssüf ki, müstəqilliyin ilk illərində vəziyyət belə deyildi. Özünü Xalq Cəbhəsi adlandıran bir qrup hər-

bi çevriliş yolu ilə hakimiyyətə gələndə onlar 9 May bayramını ləğv etdilər, müharibə veteranları mənəvi terrora məruz qalırdılar, bəzi ölkələrdə indi də baş verən hadisələr o vaxt praktiki olaraq, bizdə baş verirdi. Yalnız Heydər Əliyev hakimiyyətə qayıtdıqdan sonra tarixi ədalət bərpa olundu, veteranlar yenidən dövlətin dəstəyindən istifadə etməyə başladılar, mayın 9-u ümummilli bayram elan edildi və biz o vaxtdan – 1994-cü ildən bu bayramı qeyd edirik, həmin gün qeyri-iş günüdür.

**M ü x b i r:** Nasist canilərinin, o cümlədən postsovet məkanında qəhrəmanlaşdırılmasına qarşı mübarizə hazırda həmişəkindən daha aktualdır.

**İ l h a m Ə l i y e v:** Bu gün tarixi yenidən yazmaq, faşistləri qəhrəmanlaşdırmaq, tarixi həqiqəti təhrif etmək kimi təhlükəli meyillər müşahidə edirik. Biz buna çox ciddi yanaşmalıyıq. İstər tarixin yenidən yazılması, istərsə də faşizmin qəhrəmanlaşdırılması qətiyyən yolverilməzdir.

Qeyd etmək istərdim ki, bu məsələdə həm Rusiyanın, həm də Azərbaycanın mövqeləri tamamilə eynidir. Biz İkinci dünya müharibəsi haqqında həqiqətin təhrif edilməsi, tarixin yenidən yazılması, faşizmin və faşistlərin qəhrəmanlaşdırılması cəhdlərinə qarşı qətiyyətlə mübarizə aparırıq. Bizim mövqelərimiz həm tarixi həqiqətə, ədalətə, həm də buna əsaslanır ki, gələcək nəsillər kimin təcavüzkar və kimin təcavüz qurbanı olmasına, kimin qalib gəlməsinə və bu Qələbənin nəyin bahasına qazanılmasına heç vaxt şübhə etməsinlər.

Ötən ilin dekabr ayında Sankt-Peterburqda keçirilmiş qeyri-formal Sammitdə Rusiya Prezidenti Vladimir Vladimiroviç Putin İkinci dünya müharibəsi dövrünə aid bir sıra sənədlər təqdim etdi. Bu sənədlərin çoxu əvvəl məlum deyildi. Hesab edirəm ki, bu faktın böyük əhəmiyyəti oldu, çünki müharibənin tarixi ilə bağlı bir sıra məqamlara aydınlıq gətirildi. Real faktların məlum olmaması, onları bilməmək çox vaxt tarixi həqiqətin təhrifinə gətirib çıxarır. İkinci dünya müharibəsinin tarixi məsələsində bu, tarixi yenidən yazmaq və faşizmi qəhrəmanlaşdırmaq kimi təhlükəli meyillərlə bağlıdır. Buna görə belə sənədlərin açılması, əlbəttə ki, tarixi həqiqətə xidmət edir.

Təəssüf ki, MDB məkanında, o cümlədən Ermənistanda da faşizmin qəhrəmanlaşdırılması baş verir. Ermənistanın əvvəlki hakimiyyəti İrəvanın mərkəzində faşist cəllad və satqın, alman faşistlərinə Qaregin Njde ləqəbi ilə xidmət etmiş Qaregin Ter-Arutyunyana heykəl qoyub. MDB ölkələrindən olan müharibə veteranlarının böyük bir qrupu Ermənistanın əvvəlki rəhbərliyinin bu həyasız addımına qarşı dəfələrlə qəti etirazını bildirib. 2019-cu ilin mayında Rusiya Xarici İşlər Nazirliyi «Nasizmin qəhrəmanlaşdırılması, neonasizmin və irqçiliyin müasir formalarının, irqi ayrı-seçkiliyin, ksenofobiyanın və onlarla bağlı dözümsüzlüyün yayılmasına şərait yaradan praktikanın digər növləri ilə bağlı vəziyyət haqqında» məruzə təqdim edib. Məruzədə deyilir: «Ermənistanın keçmiş hakim Respublika Partiyası üçüncü Reyx ilə əməkdaşlıq etməsi barədə məlumat

olan millətçi təmayüllü Qaregin Njde kimi heç də birmənalı olmayan siyasi xadimin xatirəsinin əbədiləşdirilməsi üçün addımlar atıb». Bu, Rusiya Xarici İşlər Nazirliyinin mövqeyidir. Rusiya Federasiyasının Müdafiə naziri, ordu generalı Sergey Şoyqunun sədrliyi ilə Rusiya Federasiyası Müdafiə Nazirliyinin baş redaksiya komissiyası tərəfindən nəşr edilmiş 12 cildlik «1941–1945-ci illərin Böyük Vətən müharibəsi» ensiklopediyasının «Böyük Vətən müharibəsi illərində gizli müharibə, kəşfiyyat və əks-kəşfiyyat» nəşrinin 6-cı cildində dərc edilmiş «Müharibənin son dövründə hərbi əks-kəşfiyyat fəaliyyəti» sərlövhəli məqalədə deyilir: «Dromedar» Abverqrup-114 haqqında agentura işi çərçivəsində əks-kəşfiyyatçılar daşnak ordusunun keçmiş generalı, almanların yanında Njde ləqəbi ilə xidmət etmiş mühacir Ter-Arutyunyanı tapıb və həbs ediblər. O, İkinci dünya müharibəsi dövründə Bolqarıstan ərazisində erməni millətindən olan 30-dan çox agenti cəlb edib, onların təxribat hazırlığında və pozucu fəaliyyət üçün Qızıl Ordunun arxa cəbhəsinə çatdırılmasında iştirak edibdir. SMERŞ əməkdaşları 17 təxribatçını tutub, qalanlar barəsində axtarış elan ediblər». Njde Avropanın yəhudi əhalisinə qarşı Holokostda da iştirak edib. 1942-ci ildə o, Sovet İttifaqına qarşı döyüşən erməni legionu təşkil edib. Yeri gəlmişkən, Njdenin əsas şüarı belə idi: «Almaniya üçün həlak olan Ermənistan üçün həlak olur». Burada, necə deyərlər, şərhə ehtiyac yoxdur. Njde həbs edildi və ömrünü Vladimir həbsxanasında başa vurdu. 2016-cı ildə Ermənistan paytaxtının mərkəzində bu satqın cəllada 6 metr

hündürlüyündə abidə qoyulub. Təəssüf ki, Ermənistanın yeni hakimiyyəti bu heykəli sökmədi. Hesab edirəm ki, MDB məkanında faşizmin qəhrəmanlaşdırılmasına yol verilməməlidir.

**S u a l: Fikrinizcə, Dağlıq Qarabağ münaqişəsinin nizamlanmasının yolları və prinsipləri necədir?**

**C a v a b:** Ermənistanın Azərbaycana qarşı 25 ildən çox davam edən təcavüzü ölkəmizin ərazisinin təqribən 20 faizinin işğal edilməsinə gətirib çıxarıbdır. Nəticədə 1 milyondan çox azərbaycanlı qaçqın və məcburi köçkün vəziyyətinə düşübdür.

Həm tarixi ədalət, həm də beynəlxalq hüquq baxımından Dağlıq Qarabağ Azərbaycanın ayrılmaz tərkib hissəsidir. Qeyd etməliyəm ki, «Qarabağ» adının özü Azərbaycan sözüdür. Tarixdən məlumdur ki, 1805-ci ildə Qarabağ xanı İbrahim xan tərəfindən Rusiya ordusunun generalı Sisianovla imzalanmış sazişə görə Azərbaycanın Qarabağ xanlığı müstəqil ölkə kimi, Rusiya imperiyasının tabeliyinə keçib. Kürəkçay sazişi adlanan bu sənədin mətnini internetdə tapmaq olar. Həmin sənəddə Qarabağın erməni əhalisi barədə heç nə deyilmir. 1813-cü və 1828-ci illərdə imzalanmış Gülüstan və Türkmənçay müqavilələri əsasında Azərbaycanın qalan əraziləri də Rusiya imperiyasının tərkibinə keçib. Həmin dövrdə erməniləri İrandan və Şərqi Anadoludan Azərbaycanın Qarabağ regionuna köçürməyə başlayıblar. Beləliklə, yüz minlərlə erməni köçkün Azərbaycanda yerləşdirilibdir.

Sonradan, 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyəti yaradılanda onun ilk fərmanlarından biri

İrəvanın Azərbaycanın tərkibindən Ermənistanın tərkibinə verilməsi və Ermənistanın paytaxtı elan edilməsi haqqında fərman olub. Bu da tarixi faktdır. 1921-ci ildə bolşeviklər partiyasının Qafqaz bürosu Dağlıq Qarabağın Azərbaycanın tərkibində saxlanılması haqqında qərar qəbul edib. Bəzi erməni tarixçilərinin yazdığı kimi, Azərbaycana verilməsi haqqında yox, məhz saxlanılması haqqında. Bu da tarixi faktdır. Daha bir tarixi fakt ondan ibarətdir ki, 1923-cü ildə Azərbaycan Sovet Sosialist Respublikası Azərbaycanın tərkibində Dağlıq Qarabağ Muxtar Vilayətinin yaradılması haqqında fərman veribdir.

Azərbaycan BMT-yə daxil olanda özünün tam ərazi bütövlüyü çərçivəsində daxil olub. Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi Azərbaycanın ərazi bütövlüyü, bütün dünya tərəfindən qəbul edilmiş BMT Nizamnaməsi və Helsinki Yekun Aktı çərçivəsində həll edilməlidir.

Buraya BMT Təhlükəsizlik Şurasının erməni qüvvələrinin işğal edilmiş ərazilərdən dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb edən 4 qətnaməsini, ATƏT, «Qoşulmama Hərəkatı», İslam Əməkdaşlıq Təşkilatı, Avropa Parlamenti və digər beynəlxalq təşkilatların qətnamələrini, həmçinin «Dağlıq Qarabağ respublikası» adlandırılan qanunsuz qurumun heç bir ölkə tərəfindən tanınmamasını da əlavə etsək görərik ki, münaqişə Azərbaycanın ərazi bütövlüyünün tanınması və onun suverenliyinə hörmət müstəvisində həll edilməlidir. Erməni qoşunları işğal edilmiş ərazilərdən dərhal və qeyd-şərtsiz çıxarılmalı, bu

torpaqlardan qovulmuş qaçqın və məcburi köçkünlər öz tarixi yurdlarına qaytarılmalıdır. İşğal edilən təkcə Dağlıq Qarabağ deyil. Ona bitişik 7 rayon da işğal olunub. Həmin 7 rayonda heç vaxt ermənilər yaşamayıblar.

Münaqişə ilə əlaqədar onu da qeyd etməliyəm ki, bu yaxında erməni təbliğatına və bütövlükdə bu məsələ ilə əlaqədar Ermənistanın mövqeyinə növbəti böyük zərbə vurulub. Əslində bu zərbəni onlar özləri özlərinə vurublar. Əlbəttə, bizim məqsədyönlü fəaliyyətimiz, beynəlxalq təşkilatlarla əlaqələrimiz bu zərbəni gücləndirib. Söhbət qondarma «Dağlıq Qarabağ respublikası»nda keçirilmiş qondarma «prezident seçkiləri» haqqındadır. Bu «seçkilər» bir daha göstərdi ki, heç kəs bu qanunsuz hərbi xunta rejimini tanımır. «Seçkilər»dən sonra aparıcı beynəlxalq təşkilatlar onları tanımadı, bu barədə açıq bəyanatlar səsləndirildi. ATƏT-in Minsk qrupunun həmsədrləri Rusiya, ABŞ və Fransa bəyanatla çıxış etdilər. ATƏT-in Parlament Assambleyası, Avropa İttifaqı, İslam Əməkdaşlıq Təşkilatı, «Qoşulmama Hərəkatı» və Avropa Parlamenti bəyanatlarla çıxış etdilər. Bütün bu təşkilatlar həmin «seçkiləri» tanımadı və bu bir daha göstərdi ki, Dağlıq Qarabağ Azərbaycanın ayrılmaz tərkib hissəsidir. Bu bir daha nümayiş etdirdi – mən bunu demişəm, bir daha demək istəyirəm – Dağlıq Qarabağ Azərbaycandır və nida işarəsi!

Biz beynəlxalq ictimaiyyəti və ATƏT-in Minsk qrupunun həmsədr ölkələrini bu təcavüzkar ölkəyə

ciddi təzyiq göstərməyə çağırırıq ki, sülhyaratma prosesi yerində saymasın.

**S u a l: Azərbaycan Silahlı Qüvvələrinin müasir vəziyyətini necə qiymətləndirərdiniz?**

**C a v a b:** Son illərdə Azərbaycan ordu quruculuğunda böyük uğurlar qazanıb. Bu gün ölkənin Silahlı Qüvvələrini möhkəm intizam, vətənpərvərlik, yüksək mənəvi mübarizlik ruhu və döyüş qabiliyyəti səciyyələndirir. Silahlı Qüvvələr ən müasir silahlar və hərbi texnika ilə təchiz edilib. Şübhəsiz, bütün bunlar son illərdə ölkənin hərbi qüdrətinin möhkəmlənməsinə gətirib çıxarıbdır.

«Global Firepower–2019»un hesabatına görə, Azərbaycan dünyanın ən güclü orduları reytinqində 52-ci yerdədir. Xüsusi qeyd etmək istəyirəm ki, 2006-cı ildə bizdə Müdafiə Sənayesi Nazirliyi yaradılıb. Son illərdə 20-dən çox hərbi zavod fəaliyyətə başlayıb. Bu zavodlarda 2000-dən çox adda hərbi təyinatlı məhsullar istehsal edilir, ordumuz həmin məhsullarla təchiz olunur. Eyni zamanda, biz hərbi məhsulları ixrac edirik.

Son illərdə ən müasir texnika və silahlar alınıb. Onların arasında yüzlərlə zirehli texnika, çoxsaylı keşikçi gəmiləri və hərbi gəmilər, hava hücumundan müdafiə sistemləri, onlarla döyüş təyyarəsi, 100-dən çox döyüş, hərbi-nəqliyyat və nəqliyyat helikopterləri, ən müasir pilotsuz kəşfiyyat və döyüş uçuş aparatları, hava hücumundan, raketdən müdafiə vasitələri, ən müasir rabitə vasitələri, reaktiv yaylım atəşi sistemləri, operativ-taktiki raket kompleksləri vardır.

Biz hərbi qulluqçuların sosial həyatına xüsusi əhəmiyyət veririk, hərbçilərin xidmət şəraiti yaxşılaşdırılır. Son illərdə onlarla hərbi şəhərcik yaradılıb. Hərbçilərin xidmət şəraiti çox yaxşıdır. Son bir neçə ildə hərbi hissələrin, hərbi şəhərciklərin 80 faizdən çoxu yenidən tikilib və ya əsaslı təmir edilibdir. Qarşıdakı 2-3 il ərzində bütün hərbi şəhərciklər tamamilə təmir ediləcək. Hərbi qulluqçuların mənzil-məişət məsələləri həll edilir. Qəbul edilmiş qərar əsasında orduda 20 il qüsursuz xidmət etmiş hərbçilərə dövlət pulsuz mənzillər verir. Bu gün hərbi hissələrdə 20 mindən çox mülki şəxs işləyir. Əvvəllər bu işləri əsgərlər görürdülər. Biz onları məişət işlərindən azad etdik. Eyni zamanda, mülki şəxslər üçün 20 mindən çox iş yeri açılıbdır.

Son illərdə görülmüş bütün tədbirlər Silahlı Qüvvələrin maddi-texniki bazasının daha da möhkəmləndirilməsinə, hərbi qulluqçuların sosial müdafiəsinin gücləndirilməsinə səbəb olub və biz bu istiqamətdə atılan addımları davam etdirəcəyik.

**S u a l: Rusiya ilə Azərbaycan arasında siyasət, iqtisadiyyat, hərbi-texniki əməkdaşlıq sahələrində, eləcə də başqa istiqamətlər üzrə münasibətlərinizi və inkişaf perspektivlərini necə səciyyələndirərdiniz?**

**C a v a b:** Bu gün strateji tərəfdaşlığa əsaslanan Azərbaycan–Rusiya ikitərəfli dostluq münasibətləri bütün istiqamətlər üzrə uğurla inkişaf edir. Ölkələrimiz arasında çox fəal siyasi dialoq mövcuddur. Prezident Vladimir Vladimiroviç Putin ilə mənim çoxsaylı şəxsi görüşlərim ikitərəfli qarşılıqlı əlaqə-

lərin inkişafına çox ciddi təkan verir, həmçinin bizim regionda vəziyyətə də müsbət təsir göstərir.

Biz fəaliyyətimizin, demək olar ki, bütün sahələrini – ticarət, nəqliyyat, energetika, humanitar sahə və turizmi əhatə edən 5 «Yol Xəritəsi» çərçivəsində proqramı fəal reallaşdırırıq. Ötən ilin sonunda bu «Yol Xəritələri»nə daha ikisi – innovasiyalar və gənclər siyasəti üzrə «Yol Xəritələri» əlavə edilibdir.

Keçən il mən Rusiya Prezidenti Vladimir Putinin dəvəti ilə «Valday» Diskussiya Klubunun iclasında iştirak etmişəm. Hər il bütün dünyada siyasətçilərin, politoloqların, ekspertlərin və analitiklərin diqqətini cəlb edən bu tədbirə dəvət almış dörd dövlət başçısından biri mən idim. «Valday» klubu dünya gündəliyindəki mühüm problemlərin müzakirəsi üçün ən vacib diskussiya platformalarından biri kimi özünü göstəribdir.

Rusiya ilə bizim münasibətlərimiz zamanın sınağından çıxıb. Hər iki tərəf bu münasibətləri strateji tərəfdaşlıq münasibətləri adlandırır. Bu həqiqətən, belədir. Biz həm qonşu, həm də mehriban dostlarıq. Son dövrdə bizim münasibətlərimiz daha səmərəli və keyfiyyətli olub. Biz beynəlxalq təşkilatlar çərçivəsində fəal qarşılıqlı əlaqə saxlayır, ən mühüm və ümdə məsələlərdə ənənəvi olaraq, bir-birimizi dəstəkləyirik. Biz BMT, ATƏT və əlbəttə, MDB məkanında sıx qarşılıqlı fəaliyyətdəyik. Bizim çox sıx iqtisadi, ticari münasibətlərimiz vardır. Azərbaycanda Rusiya kapitallı 700-ə yaxın şirkət fəaliyyət göstərir. Həcmi milyard dollarlarla ölçülən qarşılıqlı investisiyalar həyata keçirilir. Ötən il ölkələrimiz

arasında əmtəə dövriyyəsi təqribən 20 faiz artıb və 3 milyard dollardan çox olubdur. Burada bir məqamı qeyd etmək çox vacibdir ki, koronavirus pandemiyası ilə əlaqədar vəziyyətə baxmayaraq, cari ilin birinci rübündə ölkələrimiz arasında əmtəə dövriyyəsi 2 faiz artıb, ixrac-idxal əməliyyatlarının həcmi də artıb. Bu da çox vacibdir ki, Şimal–Cənub nəqliyyat dəhlizi fəaliyyətini davam etdirir, o cümlədən, bu dəhliz çərçivəsində yükdaşımalar və tranzit daşımaları həyata keçirilir. Azərbaycan ərazisindən keçməklə, Rusiyadan Avropa istiqamətində Şimal–Qərb dəhlizi də işə salınıb. Ötən ilin sonunda Azərbaycanla Rusiyanın sərhədində Samur çayı üzərindən körpünün açılışı təkcə bu iki ölkə üçün deyil, bütövlükdə region üçün böyük əhəmiyyət kəsb edən hadisə oldu. Ona görə ki, bu körpü beynəlxalq yükdaşımaların intensivləşdirilməsi, biznes əlaqələrinin genişləndirilməsi, habelə Şimal–Cənub və Şimal–Qərb nəqliyyat dəhlizlərinin inkişafı üçün yeni imkanlar yaradır. Keçən il Şimal–Cənub dəhlizi ilə yükdaşımaların həcmi 60 faiz artıb. Azərbaycan regionda əməkdaşlıq üçün yaxşı perspektivlər açan, Asiyadan Avropaya və əks istiqamətdə yüklərin daşınması məsafəsini və çatdırılması müddətlərini xeyli azaldacaq bu mühüm nəqliyyat layihəsinin reallaşdırılması ilə əlaqədar öz ərazisində bütün işi başa çatdırıbdır.

Hesab edirəm ki, regionda mühüm nəqliyyat arteriyası kimi, Şimal–Cənub dəhlizinə ehtiyac daha da artacaq. Hərbi-texniki əməkdaşlıq fəal inkişaf edir. Rusiya və Azərbaycan prezidentlərinin birgə mət-

buat konfranslarının birində deyildiyi kimi, Azərbaycanın Rusiyadan aldığı hərbi təyinatlı məhsulların həcmi 5 milyard dollara bərabərdir.

Humanitar sahədə əlaqələrimiz də uğurla inkişaf edir. Artıq neçə ildir ki, Azərbaycanda Moskva Dövlət Universitetinin filialı, həmçinin Birinci Moskva Dövlət Tibb Universitetinin filialı fəaliyyət göstərir. Azərbaycanın dövlətə məxsus bütün ali məktəblərində rus dilində bölmələr mövcuddur. Ölkəmizdə 25 min tələbə rus dilində oxuyur. Təhsilin rus dilində olduğu 338 məktəbdə 130 min şagird də rus dilində təhsil alır.

Bizim münasibətlərimizin bir göstəricisi həm ölkələr, həm də xalqlar arasında münasibətlərin ruhuna və xarakterinə ən parlaq sübutdur. 2019-cu ildə Azərbaycana Rusiyadan rekord sayda – 1 milyona yaxın turist səfər edib. Bu ilin əvvəlində də yaxşı dinamika müşahidə olunurdu, lakin koronavirus pandemiyası turist axınını dayandırdı.

Ümidvarıq ki, pandemiya başa çatandan və sərhədlər açılandan sonra rusiyalı turistlərin ölkəmizə səfərləri bərpa olunacaq. Ona görə ki, rusiyalılar burada özlərini rahat, adi şəraitdə olduğu kimi hiss edir, dil baryeri ilə bağlı çətinliklərlə üzləşmirlər.

Bu da sirr deyil ki, turistlər təkcə görməli yerlərə baxmaq və milli mətbəx nümunələrini dadmaq üçün getmirlər, onlar elə yerlərə gedirlər ki, orada özlərini təhlükəsiz, rahat, öz evlərində olduğu kimi hiss etsinlər. Keçən il noyabrın 23-də Moskvada Xalq Təsərrüfatı Nailiyyətləri Sərgisində əsaslı bərpa işlərindən sonra «Azərbaycan» pavilyonunun açılışı oldu. Xalq Təsərrüfatı Nailiyyətləri Sərgisində «Azərbaycan»

pavilyonunun bərpadan sonra açılışı ölkələrimiz arasında münasibətlərin dostluq xarakterinin daha bir təzahürü oldu.

**S u a l: Dünyada strateji və enerji sabitliyinin dəstəklənməsinə Azərbaycanın töhfəsi nədən ibarətdir?**

**C a v a b:** Mən dəfələrlə demişəm ki, hər bir ölkənin enerji təhlükəsizliyi onun milli təhlükəsizliyinin ayrılmaz tərkib hissəsidir. Buna görə də əsas məsələ enerji müstəqilliyinin təmin edilməsi idi və biz buna nail olduq. Son illərdə Azərbaycan elektrik enerjisinin və təbii qazın idxalçısından onların ixracatçısına çevrilib. 2003-cü ildən bəri Azərbaycanda 30-dan çox elektrik stansiyası tikilib. Bir neçə ildir ki, biz istehsal edilən elektrik enerjisinin artıq hissəsini ixrac edirik. Yeri gəlmişkən, biz ölkənin ekoloji vəziyyətinə böyük diqqət yetiririk, buna görə də son illərdə Azərbaycanda inşa edilən elektrik stansiyaları bütün ekoloji tələblərə cavab verir və respublikanın təbii qaz və su ehtiyatları əsasında işləyir.

Biz Azərbaycanda bərpa olunan enerjinin inkişafına da böyük diqqət yetiririk. Bu ilin yanvar ayında ilkin razılıq əldə edildi və bərpa olunan enerji sahəsində böyük təcrübəyə malik olan iki iri xarici şirkət Azərbaycanla ilkin sazişlər imzaladı. Həmin sazişlərə əsasən, ölkəmizdə yalnız əcnəbi investorların hesabına ümumi gücü 440 meqavat olan 2 elektrik stansiyası tikiləcək – biri külək enerjisindən, digəri isə Günəş enerjisindən elektrik enerjisi istehsal edəcək.

Bizdə elektrotexnika sahəsinin infrastrukturu tamamilə modernləşdirilib. Davos Dünya İqtisadi Forumunun reytinqinə əsasən, elektrik enerjisinin əlça-

tanlıq əmsalına görə Azərbaycan dünyada 2-ci yeri tutur. İri transmilli neft-qaz layihələrinin həyata keçirilməsi məsələsinə gəldikdə, bizim enerji resurslarını bir neçə istiqamətdə ixrac edən 7 neft və qaz kəməri inşa olunubdur.

«Cənub Qaz Dəhlizi»nin tikintisi uğurla başa çatmaq üzrədir. Bu dəhliz 4 layihədən ibarətdir: ehtiyatlarının həcmi 1 trilyon kubmetrdən çox olan «Şahdəniz-2» qaz-kondensat yatağı; «Cənubi Qafqaz» qaz kəməri; Trans–Anadolu qaz kəməri (TANAP).

Bu 3 layihənin reallaşması artıq başa çatdırılıb.

Trans–Adriatik qaz kəmərinin (TAP) tikintisi üzrə işlərin 94 faizdən çoxu yerinə yetirilibdir.

Nisbətən yaxın vaxtlarda ehtiyatlarının həcmi minimum 300 milyard kubmetr qaza bərabər olan yeni «Abşeron» qaz-kondensat yatağı açılıb. Bu yataqda hasilatın gələn il başlanılması gözlənilir. Bu ilin mart ayında «Qarabağ» iri neft yatağı kəşf edilib. Daha bir neçə perspektivli neft-qaz strukturu kəşfiyyat və işlənilmə mərhələsindədir. Beləliklə, bütün bunlar neft hasilatının sabit profilini və təbii qaz hasilatının artan həcmini təmin edəcəkdir.

Biz lap əvvəldən OPEC+ formatında fəal iştirak etmişik. Qeyd etmək istəyirəm ki, OPEC+ formatı dieyasını ilk dəfə mən bir neçə il bundan əvvəl Davos Dünya İqtisadi Forumunun panel müzakirələrində irəli sürmüşəm. Azərbaycan bu yaxınlarda da 9-cu və 10-cu OPEC+ görüşlərində fəal iştirak edib. Bu görüşlərin digər iştirakçıları kimi, Azərbaycan da neft hasilatının azaldılması üzrə öhdəlik götürüb, özünü etibarlı və sabit tərəfdaş kimi göstərib-

dir. Məmnuniyyətlə qeyd etmək istəyirəm ki, Azərbaycan Rusiya ilə ikitərəfli münasibətlərimizin bütün başqa sahələrində olduğu kimi, enerji sahəsində də çoxillik uğurlu əməkdaşlıq təcrübəsinə malikdir və mən əminəm ki, bu əlaqələr gələcəkdə də fəal inkişaf edəcəkdir.

Sonda dost Rusiya xalqını İkinci dünya müharibəsində Qələbənin yaxınlaşmaqda olan 75 illiyi münasibətilə təbrik etmək istərdim. Mən Rusiya Federasiyasının Prezidenti Vladimir Vladimiroviç Putin tərəfindən mayın 9-da Qələbə Gününün bayram edilməsi üçün Moskvaya dəvət olunmuşam və bu bayram tədbirində iştirak etmək niyyətində idim. Lakin təəssüf ki, koronavirus pandemiyası ilə əlaqədar bu tədbir başqa vaxta keçirilib. 9 May bizim ümumi bayramımızdır. Bizim ümumi böyük Qələbəmiz günüdür. Azərbaycan və Rusiyanın bu bayrama münasibəti ölkələrimizi və xalqlarımızı daha da yaxınlaşdırır.

## ULU ÖNDƏR HEYDƏR ƏLİYEVİN MƏZARINI ZİYARƏT

*10 may 2020-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva mayın 10-da, xalqımızın xilaskar oğlu Heydər Əliyevin doğum günündə Fəxri xiyabanda ümummilli liderin məzarını ziyarət etmişlər.*

*Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva ümummilli lider Heydər Əliyevin məzarı önünə gül dəstələri qoydular, ulu öndərin xatirəsini ehtiramla andılar.*

*Sonra dövlət başçısı və xanımı ulu öndərin ömür-gün yoldaşı, görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın xatirəsini ehtiramla anaraq, məzarı üzərinə gül dəstələri qoydular.*

*Prezident və xanımı görkəmli dövlət xadimi Əziz Əliyevin və tanınmış həkim-alim Tamerlan Əliyevin məzarları üzərinə də gül dəstələri düzdülər.*

*Xalqımızın ümummilli lideri Heydər Əliyev misilsiz xidmətlərinə görə hər zaman Vətəni, xalqı üçün əziz olaraq qalacaq. Çünki bu böyük insan öz əməlləri ilə hələ sağlığında ikən tarixin yaddaşında əbədiləşmiş böyük azərbaycanlıdır. O, Azərbaycan salnaməsində təkrarolunmaz rəhbər, qüdrətli dövlət başçısı, fədakar insan kimi qalıbdır. Ulu öndər Azərbaycanı*

*dünyaya tanıdıb. Heydər Əliyevin parlaq dühası onu Azərbaycan xalqının ümummilli liderinə, dünya siyasətinin nəhənglərindən birinə çeviribdir. «Mənim həyat amalım yalnız bütün varlığım qədər sevdiyim Azərbaycan xalqına, dövlətçiliyimizə, ölkəmizin iqtisadi, siyasi, mədəni inkişafına xidmət olub» – deyən Heydər Əliyev bütün dövrlərdə qüdrətli Azərbaycan uğrunda çalışıbdır. Dahi siyasi xadimin xidmətləri sayəsində dövlətçilik, azərbaycançılıq, dünyəvilik, müasirlik kimi ideyalar cəmiyyətin dünyagörüşü sisteminin ayrılmaz hissəsinə çevrilib, müasir Azərbaycanın mövcudluğunun və inkişafının ideya əsasını təşkil edibdir. Heydər Əliyev öz fəaliyyəti ilə Azərbaycanda demokratik cəmiyyətə keçid mexanizmini yaradıb, O, vətənpərvər cəmiyyət formalaşdırmaq kimi tarixi missiyanın öhdəsindən uğurla gəlibdir. Onun Azərbaycana rəhbərlik illəri milli intibah dövrü kimi əbədiləşibdir.*

*Dahi Heydər Əliyev ona görə ümummilli liderə çevrildi ki, onun əxlaqi keyfiyyətləri ilə siyasətçi və mütəfəkkir istedadı birləşdi. «Hakimiyyətə qarşı müxalifətdə olmaq olar, amma xalqına, Vətəninə, onun yüksək əxlaqi keyfiyyətlərinə qarşı çıxmaq yolverilməzdir» – deyən ulu öndər Heydər Əliyev bu fikri dəfələrlə öz əməllərində sübuta yetirdi. Buna görə də Azərbaycan tarixinin bütöv bir dövrü məhz Heydər Əliyevin adı ilə bağlıdır. Bu dövrün əsas məzmunu isə azərbaycançılıqdır.*

*Meydana silahsız gələn bu insan qüdrətli Azərbaycan Ordusu yaratdı, cəbhədə atəşkəsə nail oldu, iqtisadiyyatı dirçəltdi, ölkəmizdə böyük neft erasının əsasını qoydu. Azərbaycanın müasir tarixində misilsiz*

*işlərə imza atdı. Heydər Əliyev dövrü Azərbaycan tarixinin, mədəniyyətinin, elminin, təhsilinin qızıl dövrünə çevrildi. Türk dünyasının bu böyük oğlu güclü dövlətçilik məktəbi də yaratdı. Heydər Əliyev ən mürəkkəb ziddiyyətli tarixi proseslərin gərdişindən bacarıqla baş çıxaran, ən çətin vəziyyətlərdə belə, təmkinini itirməyən və dünyadakı geosiyasi dəyişiklikləri realistcəsinə qiymətləndirib mənsub olduğu xalqın, ölkəsinin çıxarlarını praqmatik ağılla və təcrübəsi ilə dəqiqliklə hesablayan bir lider idi. Ulu öndərin müəyyənləşdirdiyi inkişaf strategiyası onun layiqli siyasi varisi Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir.*

## BAKININ SURAXANI RAYONUNDA KEÇMİŞ YOD-BROM ZAVODUNUN ƏRAZİSİNDƏ AĞAC ƏKMƏ MƏRASİMİ

*10 may 2020-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva mayın 10-da ulu öndər Heydər Əliyevin doğum günü münasibətilə Bakının Suraxanı rayonunda keçmiş Yod-Brom zavodunun ərazisində ağac əkmişlər.*

*Dövlət başçısının tapşırığına əsasən, 2018-ci ildən başlayaraq, bu ərazidə 167 hektar sahənin lay suları, neft, duz, yod və digər tullantılardan təmizlənərək, bərpa edilməsinə başlanılıbdır.*

*Qeyd edək ki, son illərdə Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda ekoloji vəziyyətin yaxşılaşdırılmasına, yeni yaşıllıq zolaqlarının, meşə massivlərinin salınmasına, mövcud yaşıllıq sahələrinin daha da genişləndirilməsinə xüsusi diqqət göstərilir.*

*Ölkəmizdə bu siyasətin əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulub. Ümummilli lider Azərbaycana rəhbərlik etdiyi bütün dövrlərdə ətraf mühitin mühafizəsinə, yaşıllığı az olan ərazilərin, o cümlədən də Bakının və Abşeron yarımadasının təbii landşaftının yaşıllıq zolaqları, meşə-parklarla zənginləşdirilməsinə, paytaxtımızın yaşıllıqlar şəhərinə çevrilməsinə çox böyük önəm verib. Hazırda ölkəmizdə həyata*

*keçirilən dövlət siyasətində ekoloji məsələlərin həllinə xüsusi diqqət göstərilir, ekoloji mühitin dayanıqlı mühafizəsinə nail olmaq məqsədilə mühüm layihələr reallaşdırılır.*

*Azərbaycanda ekoloji durumun yaxşılaşdırılması istiqamətində həyata keçirilən işlərə Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu da mühüm töhfələr verib. Mehriban xanımın təşəbbüsü ilə 2019-cu ildə mütəfəkkir şair İmadəddin Nəsiminin yubileyinə həsr olunmuş aksiyada ölkə üzrə bir gündə 650 min ağacın əkilməsi ümumilikdə Azərbaycanın ekoloji durumuna çox müsbət təsir göstərməklə, yaşıllıq zolaqlarının miqyasının artmasına səbəb olubdur. Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın təşəbbüsü ilə ekoloji mühitin sağlamlaşdırılmasına, yaşıllıqların artırılmasına hesablanmış layihələr də əhəmiyyəti ilə seçilir.*

*Neft və digər istehsalat tullantıları ilə çirklənmiş ərazilərin, lay suları altında qalan torpaqların ekoloji vəziyyətinin yaxşılaşdırılması məsələsinə dövlət səviyyəsində xüsusi diqqətlə yanaşılır. İndiyədək bu istiqamətdə çox uğurlu layihələr reallaşdırılıbdır.*

*Abşeron yarımadasında ekoloji mühitin sağlamlaşdırılması istiqamətində həyata keçirilən layihələrdən biri də təhlükəli tullantılarla çirkləndirilmiş keçmiş Yod-Brom zavodunun Suraxanı rayonu ərazisindəki tullantı poliqonu idi. Bu ərazi əvvəllər ekoloji normalara və tələblərə uyğun gəlmirdi. Görülmüş işlər nəticəsində hazırda ərazinin ekoloji durumu normalara tam uyğunlaşdırılıbdır.*

*Burada icra olunmuş layihənin birinci mərhələsində – 2018–2019-cu illər ərzində 67 hektar ərazi yod-brom və digər neft tullantılarından təmizlənib, drenaj və suvarma sistemləri qurulub, əraziyə 52 mindən çox müxtəlif növ ağac və kol tingləri əkilməklə geniş meşə-park salınıbdır. Hazırda həmin ərazinin qalan 100 hektarlıq sahəsində layihənin ikinci mərhələsinin icrası prosesi davam etdirilir. 2020-ci il ərzində təmizlənmiş ərazilərdə Abşeronun iqliminə uyğunlaşdırılmış Eldar şamı, Avropa zeytunu, həmişəyaşıl sərv, Arizona sərvi və digər həmişəyaşıl ağac və kol növlərinə aid ümumilikdə 82 min tingin əkilməsi planlaşdırılır. Layihənin icrası nəticəsində Heydər Əliyev Beynəlxalq Aeroportundan Bakı şəhəri istiqamətində, Zığ şossesi boyu hər iki istiqamət yaşıllıq zolağı olacaqdır.*

## SUMQAYITDA «GİLAN TEKSTİL PARK» MMC-nin TİBBİ MASKA FABRİKİNİN VƏ TİKİŞ FABRİKİNİN NƏZDİNDƏ FƏALİYYƏT GÖSTƏRƏN QORUYUCU KOMBİNEZONLARIN İSTEHSALI MÜƏSSİSƏSİNİN AÇILIŞI MƏRASİMİ

*12 may 2020-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva mayın 12-də Sumqayıtda «Gilan Tekstil Park» Məhdud Məsuliyyətli Cəmiyyəti Tibbi Maska fabrikinin və Tikiş fabrikinin nəzdində fəaliyyət göstərən qoruyucu kombinezonların istehsalı müəssisəsinin açılışında iştirak etmişlər.*

*«Gilan Tekstil Park» Məhdud Məsuliyyətli Cəmiyyətinin baş direktoru Mehriban Axundova dövlət başçısına və xanımına müəssisələrin fəaliyyəti barədə məlumat verdi.*

*Bildirildi ki, Tibbi Maska fabrikində birdəfəlik istifadə üçün maskalar istehsal olunacaq. Maskalar üçqatdır və orta qatı xüsusi süzgəc funksiyasını yerinə yetirən toxunmamış parçadan ibarətdir. Bu maskalar müxtəlif kateqoriyalı virus və infeksiyalara qarşı davamlıdır. İlk mərhələdə fabrikdə gün ərzində 140 min ədəd maska istehsalı nəzərdə tutulur. May ayının sonunadək burada əlavə avadanlıqlar quraşdırılacaqdır. Bu isə öz növbəsində, istehsal gücünü ar-*

*tırmağa imkan verəcəkdir. Beləliklə, fabrikdə mərhələli şəkildə bu göstərici 300 min ədədədək artırılacaq. Hazırda istehsalat prosesinə cəlb olunmuş işçilərin sayı 30 nəfərdir, əlavə avadanlıqlar quraşdırıldıqdan sonra isə 50 nəfərə çatacaqdır.*

*«Gilan Tekstil Park» Məhdud Məsuliyyətli Cəmiyyətində birdəfəlik istifadə üçün qoruyucu kombinezonların da istehsalına başlanılıb. Məhsullar polietilen qoruyucu membranla örtülüb, yüksək sıxlıqlı polipropilendən olan toxunmamış parçadan tikilir. Bu isə öz növbəsində, məhsulun keyfiyyətini artırır. Belə ki, bu parça möhkəmliyi, sukeçirməzliyi, kimyəvi maddələrə davamlılığı, yüngüllüyü ilə fərqlənir. İstehsal olunan qoruyucu kombinezonlar istifadəçiləri virus, infeksiya, zərərli kimyəvi maddələrdən və ya həssaslıq yarada bilən məhsul və proseslərdən qoruyur. Məhsulun uyğunluğu müvafiq standartlar üzrə sertifikatlaşdırılıb. Burada gün ərzində 6000 ədəd qoruyucu kombinezonun istehsalı nəzərdə tutulur. Müəssisənin istifadəyə verilməsi yeni iş yerlərinin açılması baxımından da böyük əhəmiyyət daşıyır. Buradakı istehsalat prosesinə 210 işçi cəlb olunub. Yerli tələbat ödənildikdən sonra həm tibbi maskaların, həm də qoruyucu kombinezonların ixracı da nəzərdə tutulur. Belə müəssisələrin fəaliyyətə başlaması Azərbaycanın ixrac potensialının artırılmasına xidmət etməklə bərabər, qeyri-neft sektorunun inkişafı baxımından da böyük rol oynayır.*

*Sonra Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva müəssisələrin bir qrup işçisi ilə görüşdülər.*

*Dövlət başçısı görüşdə çıxış etdi.*

## Azərbaycan Prezidenti İlham Əliyevin çıxışı

Koronavirus pandemiyası ilə əlaqədar Azərbaycanda tibbi sənayenin inkişafı daha aktual mövzuya çevrilibdir. Bildiyiniz kimi, bu sahə Azərbaycanda az inkişaf edib, bir çox hallarda biz idxaldan asılı idik və bu gün də bu, davam edir. Ancaq koronavirus pandemiyası hər bir ölkə üçün gözlənilməz bir bəla oldu və bütün ölkələr ilk növbədə, öz daxili resurslarını səfərbər etməyə çalışmış və pandemiyaya qarşı mübarizə üçün lazım olan tədbirləri görməyə başlamışdır, o cümlədən də Azərbaycan.

Deyə bilərəm ki, Azərbaycan ilk qabaqlayıcı addımlar atan ölkələrdəndir. Məhz bu addımlar nəticəsində biz bu günə qədər vəziyyəti tam nəzarətdə saxlayırıq və yoluxanların sayı kifayət qədər azdır.

Əlbəttə, indiki şəraitdə karantin rejiminin təmin edilməsi, gözlənilməsi pandemiyaya qarşı mübarizə işində əsas məqsədlərdən biridir. Hesab edirəm, bu müddət ərzində hər bir ölkə gördü ki, çətin vəziyyətdə, çətin şəraitdə bəzi ölkələr özlərinə qapanır, bəzi ölkələrsə ancaq öz daxili bazarlarını təmin etmək üçün çalışır. Əlbəttə, müəyyən çətinliklər də yarandı, xüsusilə tibbi ləvazimatların, tibbi avadanlıqların alınması və ölkəmizə gətirilməsi üçün. Bir daha gördük ki, tibbi sənayenin inkişafı böyük əhəmiyyət daşıyır. Son müddət ərzində bu istiqamətdə müəyyən addımlar atılıb, Pirallahı adasında iki müəssisə fəaliyyətə başlayıbdır, biri dərman preparatları müəssisəsi, digəri isə tibbi şprislərin istehsalı.

Tibbi maska istehsalı Azərbaycanda, ümumiyyətlə, yox idi, nəzərdə də tutulmurdu. Çox sevindirici haldır ki, özəl sektor böyük sosial təşəbbüs göstərərək, dövlətin çağırışına cavab verərək, qısa müddət ərzində bizim üçün – həm həkimlər, həm də adi vətəndaşlar üçün lazım olan bu vasitələri istehsal etməyə başladı. Bu gün bu müəssisədə fəaliyyətə başlamış Tibbi Maska fabriki ölkəmizdə ikinci istehsalat sahəsidir. Birinci müəssisə də Sumqayıt şəhərində yerləşir, Sumqayıt Kimya Sənaye Parkının ərazisində. Əlbəttə, əgər bizim inkişaf etmiş müasir sənaye potensialımız olmasaydı, bu istehsalat sahələrini yaratmaq mümkün olmazdı.

Məhz sənayeləşmə siyasəti nəticəsində və xüsusilə Sumqayıt şəhərində yeni müasir sənaye müəssisələrinin fəaliyyətə başlaması nəticəsində qısa müddət ərzində fabriklər öz profilini dəyişdirərək, artıq tibbi maskaları və qoruyucu kombinezonları istehsal etməyə başlamışdır.

Mən 7 il bundan əvvəl bu müəssisənin açılışında olmuşam və şadam ki, bu müddət ərzində müəssisə uğurla fəaliyyət göstərib. Müəssisənin məhsulları həm daxili bazarda tanınır və eyni zamanda, ixrac potensialı da mövcuddur. Bu onu göstərir ki, müəssisədə istehsal olunan mallar yüksək keyfiyyətə malikdir. Bu gün mənə verilən məlumata görə, kombinezon istehsalı gündə 6000 ədədə çatdırılacaq və həkimlərimizin qorunması üçün bunun xüsusi əhəmiyyəti vardır. Biz bu günə qədər qoruyucu kombinezonları xaricdən alırıq. Problem onda deyil ki, biz buna vəsait ayırırıq, valyuta xərcləyirik, məsələ ondadır ki,

koronavirus pandemiyası dövründə lazım olan vasitələrin alınması probleme çevrilir. Hətta pul olan zamanda belə, bu vasitələrin, avadanlığın gətirilməsi böyük problemdir və biz bu problemlə üzləşmişik. Buna baxmayaraq, biz bütün imkanları səfərbər edib ölkəmiz üçün lazım olan vasitələri gətizdiririk.

Hesab edirəm ki, bu gün çox əlamətdar gündür. Çünki həm birinci, həm də bu gün burada fəaliyyətə başlayan ikinci tibbi maska istehsalı müəssisəsi bizim daxili tələbatımızı tam ödəməlidir, qoruyucu kombinezonlar da həmçinin. Sənaye potensialının inkişafı, əlbəttə, imkan verdi ki, biz buna nail olaq.

Bütövlükdə bu gün Sumqayıtın inkişafı böyük dərəcədə şəhərin sənaye potensialı ilə bağlıdır. Mənə verilən məlumata görə, «Gilan Tekstil Park»da işləyənlərin 95 faizi Sumqayıt şəhərinin sakinləridir. Son illərdə Sumqayıtda onlarla yeni müəssisə yaradılıb və mən bu müəssisələrin açılışlarında iştirak etmişəm. Onların sırasında xüsusilə iki nəhəng, flaqman müəssisəni qeyd etmək istərdim – Azot Gübrələri zavodu və Polimer zavodu. Bu zavodların tikintisinə dövlət çox böyük vəsait xərcləyib. Ancaq digər zavodların fəaliyyəti sırf özəl sektor tərəfindən təşkil edilib, əlbəttə ki, dövlətin dəstəyilə – dövlət ərazi ayırır. Bildiyiniz kimi, Sumqayıtda iki sənaye parkı fəaliyyət göstərir – Sumqayıt Texnologiyalar Parkı və Sumqayıt Kimya Sənaye Parkı. Sumqayıt Kimya Sənaye Parkının ərazisi on hektarlarla ölçülür. Tamamilə təmizlənmiş bu ərazidə yeni infrastruktur layihələri icra edilib. Özəl sektor da artıq bu parkda uğurla fəaliyyət göstərir, hər il burada bir neçə müəssisə açı-

lır. Beləliklə, Sumqayıt nəinki Azərbaycanın, eyni zamanda, Cənubi Qafqazın ikinci böyük sənaye şəhərinə çevrilibdir. Sovet dövründən fərqli olaraq, bu gün burada fəaliyyət göstərən sənaye müəssisələri bütün ekoloji standartlara cavab verir.

Siz gəncsiniz, o illəri xatırlamırsınız. Ancaq sovet dövründə Sumqayıtın yanından keçərkən maşında oturanlar pəncərələri bağlayırdılar, çünki o iydən insanların gözü yaşarırdı. Sumqayıt doğrudan da böyük bir ekoloji bəla mərkəzi idi. Çünki kimya sənayesinin sürətli inkişafı və bir çox hallarda ekoloji standartlara riayət edilməməsi nəticəsində Sumqayıtın ekoloji vəziyyəti çox ağır idi və burada bir neçə növ xəstəlik geniş vüsət almışdı. Biz isə Sumqayıtı müasir, təmiz sənaye mərkəzinə çevirdik. Bu gün Sumqayıtın havası Bakının havasından daha təmizdir. Sumqayıtda aparılan yaşıllaşdırma işləri, yeni parkların salınması, ekoloji tədbirlərin görülməsi, uzun illər sumqayıtlıları narahat edən Acıdərə kanalının tamamilə təmizlənməsi və yenidən qurulması xüsusi əhəmiyyət daşıyır. Ona görə bir sənaye şəhəri kimi, Sumqayıtın siması tamamilə dəyişib və bu gün ən yüksək standartlara cavab verir. Bununla yanaşı, əlbəttə, digər başqa layihələr də icra edilibdir. Sosial layihələr – köçkünlər üçün artıq bir neçə ildir ki, böyük şəhərciklər salınır. Mən bu yaxınlarda növbəti şəhərciyin tikintisi ilə tanış oldum. Abadlıq işləri aparılır, Sumqayıt bulvarı da, nəhayət ki, fəaliyyətə başlayıb. Bu mənim çoxdankı arzum idi və bilirəm ki, sumqayıtlılar da həmişə bunu arzulayırdılar. Artıq neçə ildir ki, Sumqayıt bul-

varı sumqayıtlıların sərəncamına verilib və çox gözəl istirahət zonasıdır. Bir sözlə, biz bu məsələyə kompleks şəkildə yanaşırıq. Hazırda 2 saylı şəhər xəstəxanasının tikintisi gedir. Əvvəlcə oranı təmir etmək istəyirdik, sonra gördük ki, tamamilə dağılmış vəziyyətdədir və ora söküldü. 1 saylı xəstəxana fəaliyyətdədir, ikinci xəstəxananın da tikintisi yaxın zamanlarda başa çatacaqdır. Əlbəttə, bu gün hamımızı və bütün dünyanı narahat edən koronavirus pandemiyasıdır. Bu sahədə də Azərbaycan nümunəvi yanaşma göstərir. Bunu həm Azərbaycan vətəndaşları deyir – mənə ünvanlanmış minlərlə təşəkkür məktubunda bu, əksini tapır – həm də beynəlxalq təşkilatlar. Bu yaxınlarda mən Ümumdünya Səhiyyə Təşkilatının baş direktorundan ikinci məktubu almışam.

Birinci məktub mənə mart ayının sonunda ünvanlanıb, ikinci məktub isə mayın 7-də. İkinci məktubda da Ümumdünya Səhiyyə Təşkilatı Azərbaycanda koronavirusla mübarizə sahəsində görülmüş işlərə çox yüksək qiymət verir, işlərimizi təqdir edir. Əlbəttə, bu, görülmüş işlərə verilən böyük qiymətdir. Ancaq bir daha demək istəyirəm ki, ən böyük qiyməti Azərbaycan xalqı verir.

Bu gün vəziyyəti nəzarətdə saxlamaq o qədər də asan məsələ deyil. Biz bütün səylərimizi insanların sağlamlığının qorunmasına yönəltdik. Pandemiyanın ilk günlərindən, demək olar ki, bizim üçün seçim etməkdə heç bir tərəddüdlü məqam olmamışdır. Mən birmənalı şəkildə demişdim ki, ilk növbədə vətəndaşların sağlamlığı, onların həyatıdır. O ki qaldı iqtisadi vəziyyətə, hər kəs üçün aydın idi, iqti-

sadiyyat zərər çəkəcəkdir, nəinki bizim iqtisadiyyatımıza, bütün dünya iqtisadiyyatına böyük ziyan vurulacaqdır. İndi artıq ilkin hesablamalar üzə çıxır və deyilir ki, inkişaf etmiş ölkələrdə bu il iqtisadiyyat 7–10 faiz düşə bilər və bu da təbiidir. Ancaq bizim əsas vəzifəmiz vətəndaşları qorumaq idi. Ona görə məhdudlaşdırıcı tədbirlərin böyük rolu oldu. Əgər biz bu addımları atmasaydıq, indi vəziyyət nəzarətdən çıxa bilərdi, necə ki, bir çox ölkələrdə, o cümlədən inkişaf etmiş ölkələrdə, səhiyyə sistemi bizdən qat-qat inkişaf etmiş ölkələrdə vəziyyət nəzarətdən çıxıb, xəstələr üçün xəstəxanalarda yataqlar çatmır, xəstələr bəzi hallarda xəstəxanalara, ümumiyyətlə, qəbul edilmir. Artıq sirr deyil ki, bir çox ölkələrdə yüngül simptomlu xəstələri xəstəxanalara qəbul etmirlər. Onlara deyilir ki, gedin öz evinizdə qalın və faktiki olaraq, onlar müalicəsiz qalırlar. Bizdə isə bütün xəstələri, bütün yoluxanları, hətta onun simptomu olmasa belə, mütləq xəstəxanalara qəbul edirik. Biz ən müasir xəstəxanalarımızı koronavirus xəstələrinin ixtiyarına vermişik.

Bu yaxınlarda modul tipli birinci xəstəxananın açılışı oldu. Belə xəstəxanaların sayı 10-a çatacaq. Onların 4-ü özəl sektor tərəfindən inşa ediləcək. Bu bir daha göstərir ki, özəl sektor bizim çağırışımıza cavab verərək, öz sosial məsuliyyətini nümayiş etdirir. Eyni zamanda, mənim təşəbbüsümlə yaradılmış Koronavirusla Mübarizəyə Dəstək Fondunda artıq 100 milyon manatdan çox vəsait yığılıbdır.

Hələ ki, bir manat da xərclənməyib. Biz fondun fəaliyyəti və nəzarət mexanizmi üçün ictimai nəza-

rət formatı da yaratdıq. Bu bir daha göstərir ki, vətəndaşlar, sahibkarlar həmrəylik, birlik nümayiş etdirirlər. Ona görə qabaqlayıcı tədbirlərin görülməsi birinci mərhələdə imkan verdi ki, biz bu vəziyyətdən az itkilərlə çıxaq. Başqa ölkələrlə, o cümlədən əhalisi bizimlə eyni sayda olan ölkələrlə müqayisədə Azərbaycanın vəziyyəti qat-qat yaxşıdır.

Ancaq bu o demək deyil ki, biz əldə edilmiş nailiyyətlərlə kifayətlənməliyik. Koronavirus qeyb olmayıb, koronavirus dolaşır. Peyvənd icad edilənə qədər bu problem mövcud olacaq. Ona görə vətəndaşlar da buna hazır olmalıdırlar. Biz üç həftənin müsbət dinamikasını nəzərə alaraq, aprelin 27-dən etibarən yumşalma addımlarımızı atmağa başladıq. Çünki başa düşürük ki, bu hər kəs üçün çox çətin dövrdür. Ancaq gördük ki, yumşalma tədbirləri başlayan kimi yoluxanların sayı artmağa başladı. Nəyə görə? Çünki vətəndaşlar bir çox hallarda məsuliyyətsizlik göstərirlər, onlara tövsiyə olunan qaydalara əməl etmirlər, maska taxmırlar, məsafə saxlamırlar, dezinfeksiya vasitələrindən istifadə etmirlər. Beləliklə, öz həyatlarını və onlarla təmasda olan yüzlərlə insanın həyatını risk altına atırlar. Ona görə mən bir daha Azərbaycan vətəndaşlarına müraciət etmək istəyirəm, bu qaydalara əməl etmək o qədər də çətin deyil. Həkimlər, mütəxəssislər deyirlər ki, indi ən əsası şəxsi gigiyenaya fikir vermək, dezinfeksiya vasitələrindən istifadə etmək, 1,5–2 metr məsafə saxlamaq və maska taxmaq lazımdır. Çətin məsələ deyil. Ona görə bütün vətəndaşlardan bir daha xahiş edirəm ki, bu qaydalara əməl etsinlər. İndi biz yumşaltma addım-

larımızı artırırıq və siz bilirsiniz ki, bütün dünyada bu proses gedir. Hətta bu gün yüzlərlə vətəndaşı vəfat edən ölkələr artıq açılırlar. Çünki başqa cür mümkün deyil. Biz də yavaş-yavaş bu istiqamətdə gedirik. Ancaq burada əsas məsələ vətəndaşların məsuliyyətidir. Çünki dövlət nə lazımdırsa, onu edir. Bütün resurslar səfərbər edilib. Prezidentin ehtiyat fondundan tibbi avadanlıqların, ləvazimatların alınması üçün təxminən 100 milyon manat vəsait ayrılıb və əlavə olaraq, 150 milyon manat ehtiyatda saxlanılır.

İşini itirənlər üçün dövlət öz sosial dəstəyini göstərir. İşsiz, qeyri-formal məşğulluqda fəaliyyət göstərən və aztəminatlı kateqoriyaya aid olan 600 min insan dövlətdən 2 ay ərzində 190 manat vəsait alır. Pandemiyadan ən çox zərər çəkən özəl sektorda 690 min insanın əməkhaqqının əhəmiyyətli hissəsi dövlət tərəfindən ödənilir. Dövlət sektorunda çalışan 900 min nəfərin hər birinin əməkhaqqı ödənilir. Bu və digər tədbirlərə bütövlükdə 3,5 milyard manat vəsait ayırmışıq və nə qədər lazımdırsa, əlavə o qədər də ayıracağıq. Dövlət bu işləri görür, bütün təşkilati məsələləri uğurla həyata keçirir.

Qeyd etdiyim kimi, bu sahədə aparıcı beynəlxalq təşkilat olan Ümumdünya Səhiyyə Təşkilatı bizim işlərimizə yüksək qiymət verir. Təkcə o qalıb ki, vətəndaşlar məsuliyyət və nizam-intizam göstərsinlər. Nəzarətedici mexanizm daha da təkmilləşdirilməlidir. Əlbəttə, karantin rejimi yumşaldıqca, nəzarət etmək üçün də müəyyən problemlər yaranır. Ancaq buna baxmayaraq, bütün müvafiq orqanlara göstəriş verildi ki, onlar nəzarəti gücləndirsinlər. Yenə də deyirəm

ki, indiki şəraitdə uğurumuzun əsas şərti vətəndaşların məsuliyyəti olmasıdır. Əks təqdirdə, bu xəstəlik nəzarətdən çıxacaq. Biz bunu açıq deməliyik və bilməliyik ki, dövlət nə qədər iş görsə də, vəziyyət nəzarətdən çıxacaq, kütləvi yoluxma halları baş verəcək, insanlar kütləvi qaydada vəfat edəcək, xəstəxanalarda yerlər, reanimasiya şöbələrində süni tənəffüs aparatları çatışmayacaqdır. Beləliklə, Allah eləməsin, biz indi böyük böhran içində olan ölkələrin vəziyyətinə düşə bilərik. Biz buna qətiyyən yol verə bilmərik. Ona görə mən bir daha bütün vətəndaşlara çağırış edirəm, məsuliyyətli olun, intizamlı olun, qaydaları pozmayın, özünüzü, yaxınlarınızı, tanışlarınızı qoruyun ki, biz bu bəladan az itkilərlə çıxa bilək.

Mən əminəm ki, biz buna nail olacağıq. Artıq neçə aydır ki, bu pandemiya bütün dünya üçün böyük problemdir. Amma bu günə qədər vəziyyəti nəzarət altında saxlamaq doğrudan da böyük nailiyyət hesab oluna bilər. Xüsusilə qeyd etməliyəm ki, indiki şəraitdə cəmiyyətdə mövcud olan həmrəylik bəlkə də ən yüksək səviyyədədir. Çünki bütün cəmiyyət bu mübarizədə birləşibdir.

Fürsətdən istifadə edərək, özəl sektorun nümayəndələrinə, ictimai təşkilatlara, ayrı-ayrı adamlara həm ianələrə, həm vətəndaşlara göstərdikləri yardımlara, həm də bu qısa müddət ərzində tibbi sənayeni bizim maraqlarımıza uyğun şəkildə təşkil etdiklərinə görə bir daha təşəkkürümü bildirmək istəyirəm. Bu gün ehtiyac içində yaşayanlara da özəl sektor, ictimai təşkilatlar tərəfindən yardım göstərilir.

Onların arasında birinci yerdə, əlbəttə ki, Heydər Əliyev Fondu dayanır. Fond, ayrı-ayrı adamlar ehtiyacı olan insanlara kütləvi surətdə kömək göstərirlər. Kimin imkanı nəyə çatır etməlidir. Bu bizim xalqımıza xas olan ən yüksək keyfiyyətləri bir daha göstərir. Ümid edirəm ki, pandemiya gec-tez sona çatacaq, ondan sonra bu həmrəylik ovqatı, həmrəylik əhval-ruhiyyəsi cəmiyyətimizdə daha da güclənəcəkdir.

Bugünkü açılışlar münasibətilə sizi təbrik edirəm, fəaliyyətinizdə yeni uğurlar arzulayıram. Sağ olun.

* * *

**Aygün Məhərrəmova** (*müəssisənin əməkdaşı*): Möhtərəm cənab Prezident və çox hörmətli Mehriban xanım.

Sizi ulu öndərimiz Heydər Əliyevin kiçik Azərbaycan adlandırdığı Sumqayıt şəhərinin əhalisi və «Gilan Tekstil» fabrikinin işçiləri adından salamlayıram. Bildirmək istəyirəm ki, özümü çox xoşbəxt və şanslı hesab edirəm, çünki bu gün mən sizin qarşınızda çıxış etmək imkanı qazanmışam.

Ulu öndərimiz Sumqayıta, onun zəhmətkeş əhalisinə və şəhərimizin inkişafına xüsusi diqqət yetirirdi. Sumqayıtın bir şəhər kimi yaranıb formalaşması böyük tarixi şəxsiyyət Heydər Əliyevin adı ilə bağlıdır. Biz çox sevinirik ki, ulu öndərimizin şəhərimizə olan bu xüsusi diqqəti Sizin tərəfinizdən uğurla davam etdirilir.

Cənab Prezident, xüsusən son illərdə birbaşa diqqət və qayğınız nəticəsində şəhərimizdə yaradıl-

mış sosial və sənaye müəssisələri Sumqayıtı daha da inkişaf etdirib, müasir, abad, işıqlı bir şəhərə çeviribdir. Sumqayıt hazırda ulu öndərimizin və Sizin arzuladığınız bir şəhərdir.

Respublika əhəmiyyətli tibbi maska və qoruyucu geyimlər istehsal edən müəssisənin məhz Sumqayıtda açılması Sizin bu şəhərə olan diqqət və qayğısının növbəti nümunəsidir. Müəssisələrdə işləyənlərin sayı 110-dan artıqdır və onların 95 faizindən çoxu Sumqayıt sakinləridir. Şəhərdə müasir tələblərə cavab verməyən köhnə sənaye müəssisələrinin əvəzinə Sizin tapşırığınızla müasir sənaye parkları yaradılıb və bu gün Sumqayıtın ekoloji cəhətdən təmiz şəhər olduğuna görə minnətdarlığımızı bildiririk.

Biz bu gün Sizin və Mehriban xanımın şəhərimizə olan xüsusi hörmət və diqqətinizi əyani şəkildə gördük.

Cənab Prezident və hörmətli Mehriban xanım, şəhərimizə göstərdiyiniz diqqət və qayğıya görə Sizə Sumqayıtın çoxsaylı əhalisi adından dərin ehtiramımızı və təşəkkürümüzü bildirirəm. Xalqımızın rifahı və daha xoşbəxt gələcəyi naminə, cənab Prezident, Sizə və hörmətli Mehriban xanıma, ailənizə möhkəm cansağlığı, daha böyük uğurlar arzulayıram. Uca Tanrı sizi qorusun!

**İlham Əliyev:** Çox sağ ol, təşəkkür edirəm.

**Kərim Babayev** (*müəssisənin əməkdaşı*): Cənab Prezident, «Gilan Tekstil Park»ının işçiləri adından Sizə təşəkkür edir, gənclərə göstərdiyiniz diqqət və qayğıya, etimada görə bir daha minnətdarlığımı bil-

dirirəm. Biz gənclər Sizin etimadınızı doğrultmaq üçün səylə çalışırıq. Allah Sizi və dəyərli ailənizi qorusun! Təşəkkür edirəm.

**İlham Əliyev:** Çox sağ olun. Mən çox şadam ki, bu fabrikdə Sumqayıt şəhərinin sakinləri fəal işləyirlər. İş yerlərinin yaradılması bizim üçün əsas məsələlərdən biridir. Mən bir daha demək istəyirəm, son illər ərzində Sumqayıtda onlarla yeni, müasir müəssisə yaradılıb və orada işləyənlərin mütləq əksəriyyəti bu şəhərin sakinləridir, Bakıdan gələnlər də vardır. Mən keçən dəfə dedim ki, indi Bakı ilə Sumqayıt elə bil birləşib. Ona görə karantin rejimi tətbiq olunanda biz Bakını, Abşeron rayonunu və Sumqayıtı bir ərazi kimi nəzərə aldıq. Çünki bilirik ki, Sumqayıtda yaşayıb Bakıda işləyənlər var və ya əksinə.

Əlbəttə, müasir sənaye potensialının inkişafı müasir kadrlar tələb edir. Bu gün gənclər məhz o təkanverici qüvvədir ki, müasir yanaşmanın, müasir sənayenin təşkilini təmin edir. Mən demişəm ki, bir çox ölkələr indi iqtisadi cəhətdən əziyyət çəkir, o cümlədən də biz. Mənim bu yaxınlarda Avropa Yenidənqurma və İnkişaf Bankının rəhbərləri ilə videokonfrans şəklində görüşüm olmuşdur.

Orada qeyd olundu ki, Azərbaycan pandemiya dövründə də iqtisadi sahədə yaxşı nəticələr göstərir. Təkcə onu demək kifayətdir ki, bu gün dünyada 150-dən çox ölkə yardım üçün beynəlxalq maliyyə qurumlarına müraciət edib. Yəni onların daxili maliyyə resursları imkan vermir ki, lazım olan işlər görülsün. Azərbaycanın bu siyahıda adı yoxdur. Biz o ölkələrdənik ki, öz gücümüzə bu bəla ilə mübarizə

aparırıq. Onu da bildirməliyəm ki, biz artıq 10-dan çox ölkəyə yardım göstərmişik, yük təyyarələri, tibbi ləvazimat, dezinfeksiya materialları göndərmişik. Bəzi ölkələrə maliyyə yardımı göstərmişik. Ümumdünya Səhiyyə Təşkilatına iki dəfə donor ianəsi etmişik. Belə ölkələrin sayı o qədər də çox deyil. Bu bizim məsuliyyətimizi göstərir. Onu göstərir ki, biz pandemiyaya qarşı qlobal müstəvidə də fəal rol oynayırıq.

O ki qaldı bizim iqtisadi göstəricilərimizə, əlbəttə, bu ilin yanvar–fevral ayları çox ümidverici idi. Mən, sözün düzü, fikirləşirdim ki, biz bu ili rekord göstəricilərlə başa vuracağıq. Ancaq bu pandemiya həyatımıza müdaxilə edərək, bizim planlarımızı pozdu. Amma buna baxmayaraq – bir çox ölkələrin indi iqtisadi vəziyyəti ağırdır və iqtisadiyyat tənəzzülə uğrayıb – Azərbaycanda 4 ayın yekunları göstərir ki, iqtisadiyyat az da olsa artıb – 0,2 faiz. Bu, şərti artım sayıla bilər. Amma yenə də hələ ki, düşməyib.

Qeyri-neft sektorunun inkişafına gəldikdə isə, bu sektorun sənaye artımı 16 faizdən çoxdur. Məhz sənayeləşmə, yeni sənaye müəssisələrinin yaradılması, o cümlədən Sumqayıt şəhərində buna imkan verir. Hər kəs bilməlidir ki, bizim valyuta ehtiyatlarımız azalıb. İqtisadiyyatı yenidən canlandırmaq, iş yerlərini bərpa etmək üçün vaxt lazım olacaqdır. Ona görə biz indi 90 min ictimai ödənişli iş yeri yaradırıq, 80 min ailə dövlətdən sosial yardım alır, özünüməşğulluq proqramı çərçivəsində 12 min ailəyə lazım olan vasitələr verilir. Bunları edirik ki, işsizlik artmasın. Bütün ölkələrdə işsizlik artıb, ən

inkişaf etmiş ölkələrdə belə, sürətlə artıb. Yəqin rəqəmlər göstərəcək ki, bizdə də artıb. Ona görə də bundan sonra əsas vəzifəmiz koronavirusla bağlı vəziyyəti həm nəzarətdə saxlamaq, həm də pandemiyadan çıxmağı planlaşdırmaqdır ki, bu çıxış həm hamar, həm səmərəli olsun və biz iqtisadi fəallığı maksimum qısa müddət ərzində bərpa edə bilək. İndi bütün dövlət, hökumət qurumları bu üç istiqamətdə təkliflər hazırlayır. Hesab edirəm ki, biz buna da nail olacağıq.

Sizi bir daha təbrik edirəm, uğurlar arzulayıram.

* * *

*Koronavirus pandemiyası ilə əlaqədar dünyada tibbi maska və qoruyucu geyimlərə son dövrlərdə tələbat kəskin artıb. Pandemiyanın qarşısının alınması ilə bağlı Azərbaycanda ilk günlərdən həyata keçirilən bütün işlər Prezident İlham Əliyevin daim diqqət mərkəzindədir. Bunun nəticəsidir ki, insanların sağlamlığı, virusun yayılmasının qarşısının alınması baxımından mühüm rol oynayan bu məhsullar ölkəmizdə istehsal olunmağa başlanılıb. Bu müəssisələrin fəaliyyətə başlaması ilk növbədə, Azərbaycanda dövlət səviyyəsində əhalinin sağlamlığının qorunması məsələsinə yüksək dərəcədə həssaslıqla yanaşıldığını göstərir.*

## KƏLBƏCƏR RAYONUNUN İCRA BAŞÇISI VƏZİFƏSİNƏ YENİ TƏYİN OLUNMUŞ AZƏR QOCAYEV İLƏ VİDEOFORMATDA GÖRÜŞ

*13 may 2020-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 13-də Azər Qocayevi Kəlbəcər Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsinə təyin olunması ilə əlaqədar videoformatda qəbul etmişdir.*

**İlham Əliyev:** Siz bu gün Kəlbəcər Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsinə təyin edilirsiniz. Bu sizə göstərilən böyük etimaddır. Siz bu etimadı doğrultmalısınız. Siz gəncsiniz, cəmi 34 yaşınız var. Sizin təyinatınız eyni zamanda, onu göstərir ki, gənclərə bu gün çox böyük imkanlar yaradılır, onların fəaliyyəti üçün bütün şərait vardır və gənclər məsul vəzifələrə təyin edilirlər.

Son vaxtlar xüsusilə bu sahədə daha ciddi addımlar atılır. Gənc nəslin nümayəndələri mərkəzi və yerli icra orqanlarının rəhbərliyinə gətirilir. Hesab edirəm ki, bu, düzgün addımdır. Çünki gənclər cəmiyyətimizin fəal təbəqəsidir. Bizim gənclərimizin mütləq əksəriyyəti milli ruhda, vətənpərvərlik ruhunda tərbiyə alıb və bu gün ölkəmizin hərtərəfli inkişafı üçün öz biliklərini ortaya qoymağa hazırdırlar.

Ümumiyyətlə, gənclər son illər ərzində ictimai həyatda çox fəal rol oynayırlar. Mən xüsusilə könüllüləri qeyd etmək istərdim. Bu il mənim sərəncamımla «Könüllülər ili» elan edilibdir. Mən çox şadam ki, qısa müddət ərzində Azərbaycanda çox böyük, çoxminli könüllülər ordusu yaradılıb və könüllülər öz işi, öz əməlləri ilə cəmiyyətdə çox böyük rəğbət qazana biliblər, bizim ümumi işimizə çox böyük töhfə verirlər. Könüllülər hərəkatı ASAN könüllülərdən başlanmışdır. Bu gün ASAN könüllüləri, sözün əsl mənasında, Azərbaycan gəncliyinə xas olan ən gözəl xüsusiyyətləri özlərində birləşdirir, o xüsusiyyətləri təcəssüm etdirirlər. Hazırda digər sahələrdə də könüllülər kifayət qədər geniş fəaliyyət göstərirlər. Mən daim onların fəaliyyətini izləyirəm və onların fəaliyyətinə yüksək qiymət verirəm. Mənim göstərişimlə mərkəzi və yerli icra orqanlarında da könüllülər işə cəlb edilməlidirlər.

Siz də icra hakimiyyəti başçısı kimi, bu məsələyə diqqət yetirin ki, həm ictimai nəzarət baxımından işlər daha yaxşı getsin, həm ictimai fəallıq artsın, həm də bu gün insanları narahat edən məsələlər öz həllini tapsın. Buna nail olmaq üçün ilk növbədə, mərkəzi və yerli icra orqanları səmərəli fəaliyyət göstərməlidir, eyni zamanda, ictimai nəzarət yüksək səviyyədə olmalıdır. Ona görə sizin təyinatınız həm sizə göstərilən etimaddır, eyni zamanda da gənclərə göstərilən diqqətdir. Bir daha demək istəyirəm ki, siz bu yüksək etimadı öz işinizlə doğrultmalısınız.

Kəlbəcər Azərbaycanın ən gözəl diyarlarından biridir. Kəlbəcərin füsunkar təbiəti, gözəl meşələri, dağları, çayları, tarixi abidələri Azərbaycan xalqının milli sərvətidir. Əfsuslar olsun, erməni vandalları tərəfindən Kəlbəcərdə və işğal edilmiş digər torpaqlarda yerləşən tarixi abidələrimizin mütləq əksəriyyəti, demək olar ki, hamısı dağıdılıb, yaxud da yarıdağılmış vəziyyətdədir. O cümlədən Kəlbəcər rayonunun ərazisində Azərbaycan xalqına məxsus qədim tarixi abidələr dağıdılıbdır. Amma gün gələcək, biz işğal edilmiş torpaqlarda hazırda dağılmış vəziyyətdə olan bütün abidələri, bütün infrastrukturu bərpa edəcəyik. Azərbaycan öz suverenliyini bərpa edəcək və bunu deməyə əsas verən bir çox amillər vardır – bizim beynəlxalq mövqelərimizin möhkəm olması, ölkəmizin ərazi bütövlüyünün bütün dünya tərəfindən qəbul edilməsi, son illər ərzində bütün aparıcı beynəlxalq təşkilatların qərar və qətnamələrində ölkəmizin ərazi bütövlüyünə birmənalı şəkildə dəstəyin ifadə edilməsi. Bu yaxınlarda separatçılar tərəfindən keçirilmiş qondarma seçkilərin dünya birliyi tərəfindən tanınmaması və aparıcı beynəlxalq təşkilatların bu məsələ ilə bağlı yekdil fikri bir daha bizim mövqemizi gücləndirdi və separatçılara, onların havadarlarına, işğalçı Ermənistana vurulan növbəti zərbə oldu. Bununla bərabər, əminəm ki, bizim artan iqtisadi potensialımız, hərbi gücümüz və bölgədə artan nüfuzumuz – bütün bu amillər Azərbaycan dövlətinin suverenliyinin tam bərpa olunmasına gətirib çıxaracaqdır. Hər bir Azərbaycan vətəndaşı öz

işi ilə bu günü yaxınlaşdırmalıdır və bu istiqamətdə çox fəal iş aparılır.

Kəlbəcərin işğal altına düşməsinin səbəbkarı xəyanətkar AXC–Müsavat hakimiyyətidir. Məhz onların xəyanətkar və yarıtmaz fəaliyyəti nəticəsində 1993-cü ilin aprel ayında Kəlbəcər işğal altına düşdü, vətəndaşlarımız həlak oldu və Kəlbəcərdən olan bütün soydaşlarımız məcburi köçkün şəraitində yaşamağa məcbur oldular. Bu cinayət AXC–Müsavat hakimiyyətinin birinci cinayəti deyildi. Şuşanın və Laçının işğal altına düşməsində də AXC–Müsavat tandeminin çox böyük mənfi rolu olmuşdur. O vaxt onlar Azərbaycanda hakimiyyət davası aparırdılar. Onların əsas məqsədi nəyin bahasına olursa olsun hakimiyyətə gəlmək idi. Bu gün özünü radikal müxalifət adlandıran, əslində indiki şəraitdə çox aciz durumda olan marginal qruplaşma nəyin bahasına olursa olsun Azərbaycanda vəziyyəti pisləşdirmək istəyir. Təbii ki, onların buna nə gücü, nə də ağlı çatır. Ancaq onların niyyəti məhz budur: Azərbaycanı ləkələmək, ölkəmizin imicinə zərbə vurmaq, pandemiya dövründə apardığımız uğurlu siyasətə kölgə salmaq, xarici havadarlarının maraqlarını təmin etmək, satqın, xain təbəqə, «beşinci kolon» kimi xarici dairələrin əmrlərini yerinə yetirmək.

1992-ci ildə Şuşanın və Laçının işğal olunması AXC–Müsavat cütlüyünün gənc müstəqil Azərbaycan dövlətinə qarşı etdiyi satqınlıq, xəyanət və cinayətdir. Bir daha demək istəyirəm ki, o vaxt onların əsas məqsədi hakimiyyətə gəlmək idi. Hakimiyyət də kifayət qədər zəif idi, ona görə Şuşanın, La-

çının müdafiəsinin lazımi səviyyədə təşkil edilməməsi bilavasitə AXC–Müsavat hakimiyyətinin, o partiyaların rəhbərliyinin və onların üzvlərinin cinayətidir. O vaxt guya ki, Şuşanın müdafiəsini təşkil edən bir ünsür, xain, satqın, başına papaq qoyan, ancaq Şuşanı qorxaq kimi tərk edib qaçan demişdi ki, əgər Şuşa işğal altına düşsə, başıma güllə vuracağam. Bu günə qədər müxtəlif dairələrdə fırlanır. Bax, onların əməli budur. Onlar Şuşanı təhvil veriblər ki, Azərbaycanda vəziyyət gərginləşsin, xalq ayağa qalxsın, hakimiyyət devrilsin və onlar hakimiyyətə gəlsinlər və belə də oldu. Bundan istifadə edərək, öz doğma torpaqlarını ermənilərə təhvil verərək, AXC–Müsavat satqın cütlüyü 1992-ci ildə Şuşanın və Laçının işğalından sonra hakimiyyətə gəldilər.

Bir il ərzində ölkəmizi elə bərbad vəziyyətə qoydular ki, xalq ayağa qalxdı, onları süpürüb zibil yeşiyinə atdı və yeganə nicat yolunu Heydər Əliyevin simasında gördü. O vaxta qədər onlar Kəlbəcəri ermənilərə təhvil verməklə böyük cinayət törətmişdilər. Çünki Kəlbəcərin işğal altına düşməsi coğrafi baxımdan Dağlıq Qarabağla Ermənistan arasında bağlantı yaratdı və artıq bu, dəhliz deyildi, işğal altına düşmüş böyük bir ərazi idi. Bu, əlbəttə ki, ölkəmizə, gənc Azərbaycan dövlətinə vurulmuş böyük zərbə idi. Azərbaycan xalqı bunu unutmamalıdır, xalq düşmənlərini unutmamalıdır. Mən onları öz adları ilə çağırıram. Belə də olmalıdır. Çünki xalqa, dövlətə xəyanət edən xaindir. Xaricin maraqlarını burada təmin etmək istəyən, öz xalqına, öz xal-

qının, dövlətinin maraqlarına zərbə vurmaq istəyən düşməndir. Bunun başqa adı yoxdur. Hamı da bunu bilməlidir.

Siz gənc kadr kimi, ilk növbədə, məcburi köçkünlərə böyük diqqət göstərməlisiniz. Dövlət xətti ilə məcburi köçkünlərə çox böyük diqqət göstərilir. Fəaliyyətimizin bu istiqaməti 2003-cü ildə mənim Prezident kimi fəaliyyətə başladığım dövrdən əsas xətt kimi davam edir. Mən o vaxt demişdim ki, 5 il ərzində Azərbaycanda bir dənə də olsun çadır şəhərciyi qalmayacaq. Ancaq biz buna 4 il ərzində nail ola bildik. 2007-ci ildə artıq Azərbaycanda bir dənə də çadır şəhərciyi qalmamışdı. Onu da bildirməliyəm ki, çadır şəhərciyi, o acı mənzərə də AXC–Müsavat hakimiyyətinin məhsulu idi. Ondan sonra biz köçkünlərin yaşayış şəraitinin yaxşılaşdırılması və məşğulluğunun təmin edilməsi istiqamətində daha fəal işlər apardıq. Bu gün 300 mindən çox məcburi köçkün evlərlə, mənzillərlə təmin edilib. Təkcə keçən il 5000 köçkün ailəsi üçün mənzillər tikilibdir. Bu il isə bu rəqəm 7000-ə, ola bilər 8000-ə çatacaqdır. Ona görə dövlət öz üzərinə düşən bütün vəzifələri icra edir. Keçən il mənim sərəncamımla məcburi köçkünlərin maddi təminatı da yaxşılaşdırılıbdır. Onlara verilən müavinətin həcmi 50 faiz artıbdır.

Siz daim xalq içində, vətəndaşlarla bir yerdə olmalısınız, onların problemlərini təhlil etməlisiniz. İlk növbədə, əlbəttə ki, vəziyyəti tam təhlil etməlisiniz və xalqın, məcburi köçkünlərin problemlərinin həlli işində fəal olmalısınız. Elə məsələlər ola bilər ki, yerli icra orqanlarının buna gücü çatmasın, onda siz müt-

ləq mərkəzi icra orqanlarına müraciət etməlisiniz. O məsələlər ki, sizin səlahiyyətinizdə olacaq, təbii ki, bütün bu məsələlər imkan daxilində öz həllini tapmalıdır.

Əlbəttə, sosial ədalət prinsipləri üstünlük təşkil etməlidir. Ədalət hər bir sağlam cəmiyyətdə aparıcı ideya, aparıcı tezis olmalıdır. Çünki ədalətsizlik insanları incidir, ədalətsizlik insanlarda inamı qırır. Ədalətsizlik nəticə etibarilə böyük problemlərə gətirib çıxarır. Ona görə hər bir sahədə ədalət prinsipi bərqərar olmalıdır. Məsələn, bu il köçkünlərə 8000-ə yaxın mənzil veriləcək. Bu mənzillərin verilməsində tam şəffaflıq olmalıdır. Həm Dövlətqaçqınkom, həm də yerli icra orqanları burada birgə işləməlidir. Köçkünlərin dəqiq uçotu aparılmalıdır. Əfsuslar olsun ki, əvvəlki illərdə bu uçot lazımi səviyyədə aparılmırdı. Belə məlumatlar var ki, bəzən qəsdən aparılmırdı. Çünki dəqiq uçotun olmaması müxtəlif manipulyasiyaya yol açırdı. İndi biz araşdırma, təftiş aparırıq, görürük ki, köçkünlər üçün tikilmiş evlərdə bəzi hallarda heç köçkün statusuna aid olmayan insanlar yaşayır. İndi biz bəzi ictimai binaları boşaldırıq, köçkünləri yeni mənzillərə köçürürük, sonra da görürük ki – məsələn, bu yaxınlarda mənə məlumat verildi – bir binada yaşayanların 20 faizi heç köçkün deyildi. Necə gəliblər oraya? Kim onları yerləşdirib? Kim onları qeydiyyata alıb? Dövlət orqanları. Nəyinsə müqabilində bunu ediblər. Yoxsa necə ola bilər ki, köçkünlər üçün nəzərdə tutulmuş binada başqa insanlar yaşayır. Belə hallar vardır. Mənzillərin bölgüsündə mənfi hallar kifayət qədər çox idi. Mənə veri-

lən məlumata görə, bəzi hallarda köçkünlərdən pul alırdılar. Halbuki dövlət onları pulsuz mənzillərlə təmin edir. Bu faktlar da araşdırılır. Ona görə ilk növbədə, dəqiq uçot aparılmalıdır.

Dövlətqaçqınkoma bu məsələ ilə bağlı göstərişlər verilib. Aidiyyəti yerli icra orqanlarının rəhbərliyi bu məsələdə çox diqqətli olmalıdır və bu işlər birgə tənzimlənməlidir.

Xoşagəlməz hallara qarşı ciddi mübarizə aparılmalıdır. Bu mübarizə bu gün öz nəticələrini verir. Mən bunu bir neçə dəfə demişəm, xoşagəlməz hallara, rüşvətxorluğa, korrupsiyaya qarşı mübarizə amansız olacaq. Bugünkü mənzərə bunu göstərir. Artıq 5 icra hakimiyyəti başçısı həbs olunub və bütün o videomateriallar, ondan sonra istintaq materialları göz qabağındadır. Yəni kasıb insanın çörəyini kəsmək, ona çatacaq vəsaiti mənimsəmək ən böyük cinayət sayıla bilər. Pandemiya dövründə aztəminatlı təbəqə üçün nəzərdə tutulmuş yardımı vəhşicəsinə mənimsəmək vicdansızlıq və cinayətdir. Tutulmuş o beş icra hakimiyyəti başçısının beşi də bu çirkin əməllərlə məşğul olub. Biz bu vəsaiti ona görə ayırırıq ki, özünə iş tapa bilməyən adam heç olmasa, minimum əməkhaqqı səviyyəsində pul alsın, evinə çörəkpulu aparsın. Bunlar ona da göz dikiblər, gözləri doymur. Bu bir xəstəlikdir və bu xəstəliyin müalicəsi artıq işə salınıb. Mən bir neçə dəfə xəbərdarlıq etmişəm, açıq demişəm ki, əgər əyri yoldan düz yola dönməsəniz, sonunuz pis olacaq, cəza tədbirləri tətbiq ediləcək. Ancaq bəziləri hesab edirdi ki, bu onlara aid deyil. Bəziləri hesab edirdi ki, onlar qanundan üstündür. Yaxud da hesab

edirdilər ki, kimsə onlara kömək göstərəcək – onların havadarları, onlara uzun illər ərzində dəstək verən yüksəkvəzifəli şəxslər. Mən demişəm ki, bu olmayacaq. Həyat da bunu göstərdi. Ödəniş kartlarının, sosial yardımın oğurlanması bu cinayətin hələ cüzi bir hissəsidir.

Bir çox rayonlarda yararsız vəziyyətə düşən çoxmərtəbəli binaların sökülməsi və onların yerində yeni binaların tikilməsi üçün mənim sərəncamımla milyonlarla manat vəsait ayrılıb, milyonlarla! Sonra bəlli olur ki, o binalarda dövlət tərəfindən mənzillərlə təmin edilmiş insanlardan pul alınıb. Dövlət pul ayırır, rayon icra hakimiyyəti tikinti ilə məşğul olur. Tikintilərdə də nə qədər pozuntular var, nə qədər pul mənimsənilir, bütün bu faktların hamısı üzə çıxır. Ondan sonra da o mənzillər ki, pulsuz verilməlidir həmin insanlara, onlardan da rüşvət tələb olunur. Hər addım cinayət, hər addım rüşvət!

Buna son qoyulacaq! Heç kimdə şübhə olmasın! Bizim iradəmiz möhkəmdir, heç kim bizim iradəmizə təsir edə bilməz. Xalq da cinayətkarları, rüşvətxorları, gözü doymayanları deyil, bizi dəstəkləyir. Mən bu dəstəyi hər gün hiss edirəm.

Mən demişdim ki, xoşagəlməz hallar təkcə yerli icra orqanlarında deyil, mərkəzi icra orqanlarında da var, siqnallar var, məlumatlar daxil olub. Demişdim, xəbərdarlıq etmişdim, əl çəkin bu işlərdən, əl çəkin! Hesab edirdilər ki, onlara aid deyil. İndi isə bunun acı nəticələrini yaşayırlar. Ona görə siz gənc kadr kimi, icra başçısı vəzifəsində bu amilləri daim nəzərdə saxlamalısınız. Dürüstlük, şəffaflıq,

ədalət hər bir dövlət məmurunun iş prinsipi olmalıdır. İş prinsipi bu olmalıdır, rüşvət yox, yalan yox, talançılıq yox, saxtakarlıq yox, vicdansızlıq yox! Dürüstlük, şəffaflıq, xalqa xidmət, ədalət – budur prinsiplər! Bir daha deyirəm, əgər kimsə hələ də hesab edir ki, kimsə onlara kömək edəcək, səhv edir. Tutulmuş dövlət məmurlarının acı həyatını yaşamaq istəmirlərsə, düz yola qayıtsınlar.

Mən bir daha demək istəyirəm ki, sizə böyük etimad göstərilir və siz öz işinizlə bu etimadı doğrultmalısınız. Mən göstəriş vermişəm ki, bütün icra hakimiyyəti başçılarının və mərkəzi icra orqanlarının rəhbərlərinin fəaliyyəti ilə əlaqədar müntəzəm olaraq təhlillər aparılsın, onların əldə etdikləri nəticələr təhlil edilsin. Çünki hər bir rayonun inkişafı əsasən rayona rəhbərlik edən şəxsdən asılıdır. Mən demişəm ki, bizim bütün rayonlarımız artıq dotasiya sistemindən çıxmalıdır. Bu istiqamətdə böyük işlər görülüb. Əvvəllər bütün rayonlarımız dotasiya ilə dolanırdı, dotasiyasız öz tələbatını ödəyə bilmirdi. İndi bir çox rayonlar artıq özləri özlərini təmin edir, bu proses davam etdirilməlidir. Yerli vergilərin yığılması ilə əlaqədar şəffaflıq olmalıdır, dövlət vəsaitinin xərclənməsində tam şəffaflıq olmalıdır və rayonların sosial-iqtisadi inkişafı təmin edilməlidir.

Onsuz da regionların sosial-iqtisadi inkişafı dövlət proqramlarında – indi dördüncü proqram icra edilir – bütün bu məsələlər təsdiq edilib, bütün infrastruktur layihələri, bütün əsas tikintilər, bütün sosial infrastruktur layihələri dövlət tərəfindən həyata keçirilir. Yerli icra orqanları bu istiqamətdə öz səylərini gös-

tərməlidir. Bir daha demək istəyirəm, artıq tapşırıq verilib ki, vəzifəli şəxslərin fəaliyyətinin səmərəliliyi və buraxılan nöqsanlar ilə bağlı təhlillər aparılsın. Bu məlumat nəzarətdə olacaqdır. Eyni zamanda, ictimai nəzarət olmalıdır. Mən vətəndaşlara üz tutub deyirəm, ictimai nəzarət olmayan yerdə, adətən, pozuntular olur. Ona görə siz də ictimaiyyəti bu işlərə cəlb edin, xalqla bir yerdə olun, xalqın problemləri ilə yaşayın və elə işləyin ki, vətəndaşlar da sizdən razı olsunlar, hakimiyyət də. Əgər vətəndaşlar sizin fəaliyyətinizdən razı olsalar, mən də razı olacağam. Sizə uğurlar arzulayıram, əminəm ki, öz işinizlə bu etimadı doğruldacaqsınız.

**Azər Qocayev:** Çox sağ olun, cənab Prezident. Biz gənclərə göstərdiyiniz dəstəyə və böyük etimada görə Sizə dərin təşəkkürümü bildirirəm. Mən də öz növbəmdə, Sizi əmin etmək istəyirəm ki, göstərdiyiniz yüksək etimadı doğrultmaq, yüksək nəticələr, nailiyyətlər əldə etmək üçün dayanmadan çalışacağam. Sizə minnətdarlığımı bildirirəm, cənab Prezident.

## «CİSCO» ŞİRKƏTİNİN İCRAÇI VİTSE-PREZİDENTİ VƏ BAŞ MALİYYƏ DİREKTORU KELLİ KRAMER, VİTSE-PREZİDENTİ QAY DİTRİX VƏ ŞİRKƏTİN DİGƏR NÜMAYƏNDƏLƏRİ İLƏ VİDEOBAĞLANTI FORMATINDA GÖRÜŞ

*15 may 2020-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 15-də «Cisco» şirkətinin təşəbbüsü ilə bu şirkətin icraçı vitse-prezidenti və baş maliyyə direktoru xanım Kelli Kramer, vitse-prezidenti Qay Ditrix və «Cisco» rəhbərliyinin digər nümayəndələri ilə videokonfransda iştirak etmişdir.*

**Kelli Kramer:** Sabahınız xeyir, cənab Prezident.

**İlham Əliyev:** Sizi görməkdən çox şadam, sabahınız xeyir. Amma sizin üçün axşamınız xeyir olsun. Sizdə indi axşamdır.

**Kelli Kramer:** Bəli. Sizi görməkdən olduqca məmnunam. Sizi sonuncu dəfə Davosda görmüşdüm. Üstündən, görünür, son hadisələrdən sonra çox vaxt keçir.

**İlham Əliyev:** Bəli, sizi yenidən görməyimə çox şadam və çox yaxşıdır ki, bizim bir-birimizlə danışmaq və Davosda keçirdiyimiz görüşdən sonra gö-

rülmüş işləri nəzərdən keçirmək, eləcə də növbəti addımları planlaşdırmaq üçün bu fürsətimiz vardır.

**K e l l i  K r a m e r:** Elədir ki, var. Hesab edirəm ki, bir çox maraqlı hadisələr baş verməkdədir. Mən Sadəcə, bizimlə görüşdüyünüzə görə Sizə bir daha təşəkkürümü bildirmək istərdim. İcazənizlə, başqa bir məsələni də deyərdim. Əslində yaxşı və xoş təəssürat bağışlayan haldır ki, COVID-19 virusu ilə əlaqədar Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının toplantısında və «Qoşulmama Hərəkatı»nın görüşünün təşkil edilməsində liderlik səylərinizi nümayiş etdirdiniz. Çox böyük təəssürat bağışladı. Bir daha bu işlərə rəhbərlik etdiyinizə görə Sizə minnətdarıq.

Onu da söyləməliyəm ki, «Cisco»nun teleiştirak texnologiyasından istifadəni görmək də çox yaxşı hal oldu. Əgər bununla Sizə kömək edə bildiksə, bu çox xoşdur. Sizi görmək fürsətini də dəyərləndiririk. Buna görə minnətdarıq.

**Q a y  D i t r i x**: Sizi görməyimə çox məmnunam. Bu gün bizə vaxt ayırdığınıza görə olduqca minnətdaram. Mən 3 sahəni əhatə edəcəyəm. Müzakirə etmək istədiyimiz 3 sahə bunlardır: «Smart ölkə», təhsil və kibertəhlükəsizlik. Onların hamısı Sizin əsas prioritetlərinizlə bağlıdır. Siz onları təxminən 2 il əvvəl bizim qarşımızda təsvir etdiniz. Biz ildə 2 dəfə Bakıda, yaxud Davosda keçirdiyimiz görüşlərdə Sizə yenilikləri çatdırırdıq.

«Ağıllı şəhər» layihəmiz yəqin ki, xatirinizə gəlir. Biz əslində «Ağıllı avtovağzal» ilə başladıq və şəhərdə həmin sahəyə aid bütün müxtəlif cəhətləri əlavə etdik. Özü də bu addımı hərtərəfli sınaq for-

matında atdıq. Nəticə inanılmaz dərəcədə uğurlu oldu. Çoxsaylı müsbət rəylər daxil oldu. Çox yaxşı məlumatlar toplanıldı.

*Qay Ditrix ölkəmizdə icra olunan birgə layihələrdən danışdı, bu layihələrin çox gözəl nəticələr verdiyini bildirdi. «Cisco» şirkətinin vitse-prezidenti Azərbaycanın müvafiq strukturları ilə çox uğurlu əməkdaşlığın həyata keçirildiyini dedi və bu əməkdaşlığın təcrübə qazanmaq baxımından əhəmiyyətini vurğuladı. O, təmsil etdiyi şirkətlə «Quantelo» şirkəti arasında həyata keçiriləcək əməkdaşlığın perspektivləri barədə də danışdı, vahid məlumatlar sisteminin yaradılması istiqamətində görülən işləri qeyd etdi və bunun ümumi daxili məhsulun artımı, iş yerlərinin yaradılması və innovasiyaların tətbiq edilməsi işinə xidmət edəcəyini bildirdi. Qay Ditrix «Ağıllı məktəblər» layihəsinə toxundu:*

– Cənab Prezident, ümumi məqsədimiz bir-biri ilə bağlantısı olan «Ağıllı məktəblər» və təhsil proqramlarını yaratmaqdır ki, bu sahədə qlobal liderlik qazanılsın. Sizin qeyd etdiyiniz miqyas və öhdəlik tam uyğundur. Biz bunun öhdəsindən gələ və təhsilin səviyyəsini qaldıra bilərik. Bir-biri ilə bağlantısı olan həmin məktəblər vasitəsilə sizin dünyadakı statusunuz qalxacaqdır.

**İlham Əliyev:** Çox sağ olun. Haqlı olaraq qeyd etdiyiniz kimi, biz iki mühüm tədbirin təşkilində sizin əla avadanlığınızı istifadə etdik. Texniki nöqteyi-nəzərdən deyə bilərəm ki, hər iki tədbir çox gözəl baş tutdu, çünki bu iş asan deyildi. Əgər türkdilli dövlətlərin Sammiti cəmi bir neçə dövləti əhatə edir-

disə, ikinci tədbirə gəldikdə, iştirakçılar 40-dan artıq idi. Orada, həmçinin beynəlxalq təşkilatlar var idi. Yeri gəlmişkən, ilk dəfə idi ki, «Qoşulmama Hərəkatı» və Avropa İttifaqı eyni tədbirdə iştirak edirdi. Əvvəllər bu heç zaman baş verməmişdir. Azərbaycan həmin iki mühüm beynəlxalq tədbiri aparırdı. Təbii ki, onların hər ikisi koronavirusla və beynəlxalq səviyyədə onunla mübarizə ilə əlaqəli idi. Sizə deyə bilərəm ki, texniki dəstək əla idi. Mən bu fürsətə görə minnətdaram. Hazırda bu imkanlardan sizinlə söhbət etmək üçün istifadə edirik. Yeri gəlmişkən, deyə bilərəm ki, mənim sizin əla sisteminiz vasitəsilə həmkarlarımızla, yəni dövlət başçıları ilə artıq bir neçə söhbətim olub. Lakin bu, ilk dəfədir ki, mən şirkət rəhbərləri ilə belə söhbət edirəm. Fikrimcə, xoş təsadüfdür ki, bu «Cisco»dur.

Bu, ölkələrimiz arasında çox sıx və deyərdim ki, strateji tərəfdaşlığı nümayiş etdirir. İlk belə söhbət apardığım şirkət Birləşmiş Ştatları təmsil edən şirkətdir. Yeri gəlmişkən, dünən mən Prezident Trampdan məktub almışam. O məni və Azərbaycan xalqını qarşıdan gələn Respublika Günü münasibətilə təbrik edir. Öz məktubunda Prezident Tramp yazır ki, təxminən 30 ildir Birləşmiş Ştatlar və Azərbaycan beynəlxalq təhlükəsizliyi, enerji təchizatının şaxələndirilməsini, siyasi islahatlar məsələlərini təmin etmək üçün birgə işləyir. Həmin məktubda o, xüsusi olaraq qeyd edir ki, iki böyük dövlət gələcəkdə daha çox işlər görəcək. Bu, ABŞ ilə Azərbaycan arasında dostluğun çox mühüm təzahürüdür.

Qeyd etdiyiniz məsələlərə gəldikdə, biz onları əvvəllər müzakirə etmişik. Şadam ki, Davosda keçirdiyimiz görüşdən sonra böyük irəliləyişə nail olmuşuq. Heyətim mənə məlumat verib ki, bu sahələrdə, xüsusən də müzakirə etdiyimiz kimi, «Ağıllı şəhər» layihəsi sahəsində işlər yaxşı gedir. İndi isə siz yeni «Smart ölkə» ideyası ilə çıxış edirsiniz. Nəinki şəhər infrastrukturu, nəqliyyat, dayanacaq yerləri və bəzi digər şəhər infrastrukturu, o cümlədən qlobal «Smart ölkə» konsepsiyası ortaya çıxır və biz onu tam dəstəkləyirik. Söylədiyiniz kimi, o, təhsili, kibertəhlükəsizliyi, səhiyyəni və əvvəlcə müzakirə etdiyimiz kimi, əlavə edərdim ki, kənd təsərrüfatı və su ehtiyatlarının idarə olunmasını əhatə edir. Mən buna sonra qayıdacağam. Lakin ilk olaraq, mənə sizin «Quantelo» şirkəti ilə əməkdaşlığınız haqqında məlumat verildi. Əlbəttə, biz bunu tam dəstəkləyirik. «Smart ölkə» layihəsinin inkişaf gündəliyi üzrə tam tədqiqatın, bir növ «Yol Xəritəsi»nin hazırlanması da, fikrimcə, çox faydalı olardı.

Bundan sonra qarşımızda tam mənzərə aydınlaşacaq. Atacağımız addımların planı hazır olacaq, yekun nəticə çıxacaq və bu nəticəyə nail olmaq üçün hansı növ ehtiyatların toplanılmasına ehtiyac duyulduğunu da biləcəyik. Hazırkı vəziyyətdə «bir-biri ilə bağlantısı olan məktəblər» və təhsil proqramı üçün verdiyiniz dəstək çox vacibdir, çünki sizə məlumat vermək istəyirəm ki, məktəblərimiz və universitetlərimiz koronavirusa görə martın əvvəlindən bağlanıb və tədris ilinin sonuna qədər onlar, birmənalı olaraq, açılmayacaq. Koronavirusla bağ-

lı işlərin gedişini, onun necə olacağını hələ görməliyik. Bu günə qədər vəziyyət nəzarət altındadır. Çox az sayda ölənlər var və ciddi məhdudlaşdırıcı tədbirlər sayəsində yoluxmuş insanların sayı da nisbətən aşağıdır. Lakin hazırda biz dünyanın, demək olar ki, bütün ölkələri kimi, artıq açılış prosesindəyik. Buna görə məsafədən təhsil imkanları həqiqətən, çox vacibdir. Əgər bizdə bütün məktəblərimizin tam bağlantısı olan sistem olarsa, onda bu çox böyük imkana çevriləcək. Dediyiniz kimi, bu halda Azərbaycan aparıcı ölkələrdən biri olacaqdır.

Kibertəhlükəsizliklə bağlı məsələyə gəldikdə, biz bunu, həmçinin əvvəllər müzakirə etmişik. Əvvəlcə müzakirə etdiyimiz kimi və mən də qeyd etdiyim kimi, həmin yeni islahatlar gündəliyində əsas məqsəd ümumi daxili məhsulu artırmaq, iş yerlərini açmaq və bunun üçün innovativ texnologiyalardan istifadə etməkdən ibarətdir.

Hazırkı koronavirus şəraitində, əvvəlcə qeyd etdiyim kimi, bu məsələlər daha da vacibdir. Çünki demək olar ki, bütün ölkələrin ümumi daxili məhsulu zərbə altındadır. Bununla belə, bu ilin dörd ayında bizdə ümumi daxili məhsulun artımı 0,2 faiz səviyyəsində olubdur. Lakin anlayırıq ki, növbəti ay çox güman, bu göstərici də aşağı düşəcək. Sənaye sektorunda vəziyyət daha yaxşıdır. Bizim qeyri-enerji sənayesində 13 faizdən artıq artım olub. Lakin koronavirus ümumi daxili məhsula və iş yerlərinə zərbə vurur, çünki biz təbii ki, işsizliyin artmasını hesablayacağıq. Amma onun qarşısını almaq üçün 2 milyard avro həcmində çox ciddi iqtisadi və

sosial paketi işə salmışıq. İqtisadiyyatın hazırda tam bağlandığı sahələrdə işlərini itirmiş insanları qorumaq üçün bunu edirik. Məsələn, turizm indi sıfır səviyyəsindədir. Bir sözlə, bu məsələlər hazırda daha çox əhəmiyyət kəsb edir. Hesab edirəm ki, biz diqqətimizi onun üzərinə yönəldəcəyik.

İndicə danışdığımız məsələlərdən başqa, fikrimcə, biz digər sahələrdə də işləyə bilərik. Bilirəm ki, siz kənd təsərrüfatının rəqəmsallaşdırılması ilə bağlı artıq təmasdasınız. Bu sektor hazırkı vəziyyətdə qiymətlərinin tənəzzülü ilə aparıcı sektorlardan biri olacaqdır. Buna görə kənd təsərrüfatı məşğulluq, ərzaq təhlükəsizliyi və ixrac deməkdir. Gözəçarpan nəticələrə nail olmaq üçün bizim su ehtiyatlarımıza çox ciddi elektron nəzarət sistemimiz olmalıdır. Elə bu yaxınlarda mən Baş Nazirin müavininin rəhbərliyi altında xüsusi Dövlət Komissiyasının yaradılması ilə bağlı sərəncam imzalamışam. Onlar artıq işə başlayıblar. Bir çox nazirlər həmin Komissiyanın üzvləridir, çünki bizim çoxlu itkilərimiz olub. Ötən il isə bizdə çox ciddi quraqlıq oldu. Bu il də, həmçinin gözlənilir. Düzdür, daha yüngül olsa da, amma yenə də proqnozlaşdırılmayan haldır. Hava şəraiti gözlənilməz şəkildə dəyişir.

Beləliklə, su ehtiyatlarımızın düzgün qiymətləndirilməsi, layihənin prioritetlərinin müəyyənləşdirilməsi, su ehtiyatlarının və balansın elektron idarə edilməsi qarşıdan gələn illərdə bizim üçün ən vacib məsələlərdir.

Azərbaycanda infrastruktur layihələrinin əksəriyyətinin artıq tamamlandığını nəzərə alsaq, bu, infrastruktur layihələri sırasında bir nömrəli layihə olacaq-

dır ki, onun icrası nəticəsində su ehtiyatlarına nəzarət, idarəedilmə və bərabər bölgü təmin olunacaqdır. Çünki burada narahatlıq doğuran məsələlərdən biri də odur ki, bəzən su ehtiyatlarının paylanılması zamanı yerli icra orqanları bunu qeyri-bərabər şəkildə edirlər və nəticədə müəyyən şirkətlər qrupu əsassız üstünlük əldə edir. Bu ədalətsizlik isə öz növbəsində, ciddi çətinliklər yaradır. Bu səbəbdən hesab edirəm ki, bu məsələ də bizim gündəliyimizə əlavə edilə bilər, biz gələcəkdə hansı işlərin görüləcəyi ilə bağlı geniş mənzərəyə malik olacağıq.

**Q a y D i t r i x:** Çox gözəl. Cənab Prezident, biz çağırışları sevirik. Su ehtiyatlarının idarə edilməsi dünyanın hər yerində çağırışdır. Biz bu sahədə bir sıra layihə və texnologiyalara malikik. Bu, təkcə su ehtiyatlarının idarə edilməsi və nəzarət deyil. Buraya müvafiq sahədə qanunvericilik də daxildir. Çünki dünyanın elə bölgələri var ki, orada infrastruktur olduqca inkişaf etmiş səviyyədədir, lakin orada boru kəmərlərinin zədələnməsi nəticəsində böyük su itkisi baş verir. Mən iki layihəni nəzərdə tuturam ki, biz pilot layihə çərçivəsində orada sensor texnologiyasının tətbiqi və su ehtiyatları sahəsində qanunvericiliklə bağlı məlumatın toplanılması ilə məşğuluq. Biz Sizinlə də bu sahədə çalışa bilərik.

Daha bir mövzu «Ağıllı kənd təsərrüfatı»dır. Siz bu sahədə olduqca irəlidəsiniz və Sizin kənd təsərrüfatının inkişafı ilə bağlı baxışınızı reallaşdırmaq üçün müvafiq texnologiyalar artıq mövcuddur.

**Ş a h m a r  M ö v s ü m o v** (*Azərbaycan Prezidentinin köməkçisi*): «Cisco» şirkəti ilə çox yaxşı əməkdaşlığımız var. Biz irəli sürülmüş və tərəfinizdən qəbul edilmiş «Smart ölkə» ideyası üzərində çalışacağıq.

Düşünürəm ki, bu istiqamətdə «Yol Xəritəsi»nin, büdcənin və bütün vacib göstəricilərin olması çox önəmlidir. Ümid edirəm ki, «Ağıllı şəhər» layihəsinin icrası mərhələsi yaxınlaşanda biz artıq bu koronavirus məsələsini geridə qoyaraq, normal həyata dönəcəyik. Təşəkkür edirəm.

**R a m i n  Q u l u z a d ə** (*Azərbaycanın Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar naziri*): Cənab Prezident, hörmətli həmkarlar. «Cisco» şirkəti ilə əməkdaşlığımız koronavirus pandemiyası dövründə də uğurla davam edir. «Cisco» şirkətinin «bulud» platforması və şəbəkə texnologiyalarından istifadə etməklə, videokonfrans şəklində mühüm tədbirlər təşkil edilir. Bununla yanaşı, müvafiq texnologiyalar vasitəsilə tərəfimizdən dövlət qurumları üçün virtual görüşlərin təşkili və onlayn xidmətlər təklif edilir. Hazırda biz 8 rəqəmsal prioritet üzərində çalışırıq.

**İ l h a m  Ə l i y e v:** Hesab edirəm ki, bugünkü müzakirəmiz olduqca vacib və ümidverici idi. Bu təşəbbüslərin tərəfinizdən dəstəklənməsinə görə sizə bir daha təşəkkür edirəm. Biz ölkəni müasirləşdirmək arzusunda olduğumuzla bağlı çoxlu müzakirələr aparmışıq və hər kəs anlayır ki, müasir texnologiyalar olmadan bu mümkün deyil. Bu səbəbdən, zənnimcə, bu gün müzakirə etdiklərimiz icra olunacaq, çünki əvvəl planlaşdırdığımız bütün təşəbbüslər artıq həyata keçirilibdir.

Su ehtiyatlarının idarə edilməsi məsələsinə qayıdaraq, siz su itkisi məsələsini düzgün qeyd etdiniz və bizdə də belə problem vardır. Bəzi hallarda Azərbaycanda su itkisi 40 və hətta 50 faiz təşkil edir. Biz yalnız su itirmirik, biz həm də torpağa ziyan vururuq, çünki torpaq yuyulur və daha sonra kənd təsərrüfatı üçün yararsız olur. Düşünürəm ki, səylərimizi birləşdirərək və sizin təcrübənizdən faydalanaraq, biz məhsuldarlığı artırmaqla böyük uğura nail ola bilərik.

Bizim münbit torpaq ehtiyatımız məhduddur. Kənd təsərrüfatı məhsulları ilə özümüzü təmin etmək və ixrac qabiliyyətimizi gücləndirmək üçün biz məhsuldarlığı artırmalıyıq. Bu isə yalnız müasir texnologiyaların tətbiqi nəticəsində mümkündür.

**Conatan Spərrou** («*Cisco» şirkətinin Rusiya və MDB ölkələri üzrə vitse-prezidenti*): Cənab Prezident, həmkarlarımın burada dediklərinə mən də qoşuluram. «Cisco» şirkətinin Azərbaycan Respublikası ilə əməkdaşlığı fantastik olmuşdur və biz bu əməkdaşlığın davamlı olmasını arzulayırıq.

**Vladimir Orlov** («*Cisco»nun Azərbaycan üzrə regional direktoru*): İstərdik ki, Beynəlxalq Avtovağzal Kompleksi regionda icra etdiyimiz bütün pilot layihələr sırasında parlayan bir ulduz olsun. İstərdik ki, şəhərdə tətbiq oluna biləcək bütün texnologiyalar burada istifadə edilsin və biz daha sonra bu layihəni digər dövlətlərə də təklif edəcəyik. «Smart ölkə» layihəsi uzunmüddətli perspektivdə ölkə üçün faydalı olacaq. Burada söhbət yalnız vahid ölkə idarə lövhəsi layihəsindən getmir. Buraya səhiyyə, neft-qaz və digər arzuladığınız sahələr də

əlavə edilə bilər. Kibertəhlükəsizlik sahəsində biz «Azərenerji» ilə əməkdaşlıq edirik.

**İ l h a m  Ə l i y e v:** Təşəkkür edirəm. Hesab edirəm ki, yeni əməkdaşlıq formatımızın strukturu rəsmi müəyyən edildikdən sonra bizim qısamüddətli icra planımız olmalıdır, çünki bizim bu məsələlərə ciddi ehtiyacımız vardır. Müasir dünyada təhlükəsizlik bir nömrəli məsələdir və buraya enerji təhlükəsizliyi də daxildir. Bu səbəbdən kiberhücumlara qarşı müdafiənin bizim üçün əhəmiyyəti daha da artacaqdır. Bu yaxınlarda, pandemiya vaxtı mən «Azərenerji»nin əməliyyat mərkəzinin açılışında iştirak etdim və burada SCADA sistemi daxil olmaqla, bütün əməliyyat sistemləri çalışır. Bizim enerji infrastrukturunun müasirləşdirilməsi ilə bağlı böyük planımız vardır. Mövcud elektrik stansiyalarında yenidənqurma və təmir işləri aparmaqla, biz elektrik enerjisi istehsalında ən azı 600 meqavatlıq artım əldə edə bilmişik. Yəni yalnız resursların optimallaşdırılması sayəsində biz səmərəliliyi artıraraq, böyük generasiya gücü əldə etmişik.

Beləliklə, bu bizim üçün prioritet təşkil edən məsələ olacaq. Səhiyyəyə gəldikdə, hər kəsə aydın oldu ki, koronavirusla uğurlu mübarizədə bu, mühüm amildir. Bütün məhdudlaşdırıcı və təşkilati tədbirlərlə yanaşı, burada həlledici rolu xəstələri müalicə edən həkimlər oynayır. Bu səbəbdən, çox qısa müddət ərzində bizim səhiyyə sistemimiz restrukturizasiya olundu. Biz ən yaxşı xəstəxanalarımızı koronavirus xəstələrinin ixtiyarına verdik. Bu gün 20-dən artıq xəstəxanadan istifadə edilir. Deyə bilərəm ki, bəzi ölkələrdə

ölüm hallarının yüksək səviyyədə olmasının səbəbi xəstəxanalarda çarpayı qıtlığı ilə əlaqəlidir. Onlar fiziki olaraq, bütün xəstələri qəbul edə bilmir. Koronavirusun ikinci dalğası baş verdiyi halda, Azərbaycanda kifayət qədər əlavə çarpayı mövcuddur. Beləliklə, səhiyyə sisteminin müasirləşdirilməsi heç vaxt olmadığı qədər əhəmiyyətlidir, çünki koronavirusun nə vaxta qədər yayılacağını heç kəs bilmir.

**O l e q  B o d n a r** (*«Cisco»nun Ukrayna üzrə regional direktoru*): Su itkisi məsələsinə gəldikdə, bu, maraqlı mövzudur və bu sahədə regionda bizim hazırda həyata keçirdiyimiz layihə yoxdur. Bu baxımdan, Avropa və Amerikada olan təcrübəni Azərbaycana gətirmək çox yaxşı olardı. Sizinlə çalışmaq fürsətinə görə təşəkkür edirəm.

**K e l l i  K r a m e r:** «Cisco» heyəti və Azərbaycan arasında keçirilən bu görüş çox səmərəlidir. Cənab Prezident, Sizin kimi liderin texnologiyaya belə açıq olması və onun ölkə üzrə tətbiqinə hazır olması məmnunedici haldır. Şadam ki, «Cisco» bu sahədə Sizinlə əməkdaşlıq edir və hesab edirəm ki, qeyd etdiyimiz məsələlərin icrasını sürətləndirə bilərik. Bu əməkdaşlığın davamlı olmasını arzulayıram. Siz təkcə regionda deyil, dünya çapında texnologiyaya dəstək verən liderlərdənsiniz və bu işdə öndə getdiyinizə görə Sizə təşəkkür edirəm. Düşünürəm ki, biz bu tərəfdaşlığı yaratmaqla, ölkəniz haqqında da çox şey öyrənə bilərik.

**İ l h a m  Ə l i y e v:** Çox təşəkkür edirəm. Əməkdaşlığa və dəstəyinizə görə sizə minnətdaram. Əminəm ki, bizim strateji tərəfdaşlığımız yalnız güclə-

nəcək. Çünki bizim ölkənin müasirləşdirilməsi ilə bağlı gündəliyimiz, sizin isə texnologiyanız vardır.

Bizim uzun illərdir ki, əməkdaşlıq təcrübəmiz vardır. Burada layihələrin uğurlu icrası birgə səylərimizin ən yaxşı təzahürüdür. Bizim baxışlarımız tam üst-üstə düşür və potensialımızı səfərbər etməklə, biz nisbətən qısa müddət ərzində çox işlər görə bilərik. Bu isə bizim Azərbaycanın müasirləşdirilməsi baxışımıza tam uyğun olacaqdır. Koronavirus pandemiyası başa çatdıqdan sonra sizi Bakıda görməyə ümid edirəm. Xatırlayıram ki, sizi buraya dəvəm etmişəm və beləliklə, müzakirəmizi regional formatda davam etdirə bilərik.

**Kelli Kramer:** Əlbəttə. Biz bu qorxunc pandemiyaya qədər artıq hər şeyi planlaşdırmışdıq və vəziyyət yaxşılaşdıqdan sonra mütləq səfər edəcəyik. Hər şeyə görə çox sağ olun.

**İlham Əliyev:** Çox sağ olun. Sizə ən xoş arzularımı çatdırıram. Müzakirələrə görə də çox sağ olun.

## QAZAXISTAN RESPUBLİKASININ PREZİDENTİ KASIM-JOMART TOKAYEV İLƏ TELEFONLA GÖRÜŞ

*17 may 2020-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 17-də Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayevə telefonla zəng etmişdir.*

*Dövlət başçısı Qazaxıstan Prezidentini ad günü münasibətilə təbrik etdi, ona Qazaxıstanın inkişafı naminə fəaliyyətində uğurlar və möhkəm cansağlığı arzuladı.*

*Qazaxıstan Prezidenti göstərilən diqqət və təbrikə görə İlham Əliyevə minnətdarlığını bildirdi.*

*Telefon söhbəti zamanı dövlət başçıları koronavirus pandemiyası əleyhinə mübarizə ilə bağlı görülən işlər barədə fikir mübadiləsi apardılar.*

*Dövlət başçıları bu yaxınlarda Türk Şurasının videokonfrans formatında keçirilmiş Zirvə toplantısına toxunaraq, bu tədbirin ölkələr arasında əməkdaşlığın möhkəmləndirilməsi və həmrəyliyin gücləndirilməsi baxımından önəmini qeyd etdilər.*

*Prezident İlham Əliyev və Prezident Kasım-Jomart Tokayev ölkələrimiz arasında uğurla inkişaf edən ikitərəfli münasibətlərin müxtəlif sahələrinin perspektivləri ilə bağlı məsələləri müzakirə etdilər.*

## MOLDOVA RESPUBLİKASININ PREZİDENTİ İQOR DODON İLƏ VİDEOKONFRANS FORMATINDA GÖRÜŞ

*18 may 2020-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 18-də Moldova tərəfinin təşəbbüsü ilə Moldova Respublikasının Prezidenti İqor Dodon ilə videokonfrans formatında görüş keçirmişdir.*

**İqor Dodon:** Sabahınız xeyir.

**İlham Əliyev:** Sabahınız xeyir.

**İqor Dodon:** Hörmətli cənab Prezident, hörmətli dostumuz. Sizinlə heç olmasa, belə rejimdə ünsiyyət qurmaq imkanına görə çox şadam. Əvvələn, Sizi ötən böyük bayram – Qələbə Günü münasibətilə təbrik etmək istərdim. Həmçinin pandemiyaya qarşı mübarizədə bizə kömək göstərmək barədə qəbul etdiyiniz qərara görə təşəkkürümü bildirmək istərdim. Ötən həftə biz xüsusi təyyarə ilə Sizin göndərdiyiniz yardımı qəbul etdik. Xalqımız adından Sizə təşəkkürümü bildirirəm ki, Bakıdan olan qardaşlarımız bu ağır vəziyyətdə bizə kömək etmək qərarına gəliblər. Bilirəm ki, Sizin ölkədə də pandemiya ilə mübarizə aparılır. Onu da bilirik ki, Siz bunun öhdəsindən layiqincə gəlirsiniz. Ümidvaram ki, əməkdaşlığımızın bu və digər bəndləri barədə bu gün biz telekonfrans rejimində söhbət açacağıq.

**İ l h a m Ə l i y e v:** Bəli. Sizi görməyimə çox şadam, hörmətli cənab Prezident. Mən də Sizi və Sizin şəxsinizdə bütün Moldova xalqını ötən Qələbə bayramı münasibətilə təbrik etmək istərdim.

Bizim ölkələrimizdə bu bayram həmişə çox əziz tutulur. Qələbəmiz uğrunda canlarından keçənlərin xatirəsini əziz tutmağımız fərəhlidir. Hazırda sağ olanlar – düzdür, onların sayı getdikcə azalır – ölkələrimizdə böyük hörmətə sahibdirlər. Əlbəttə ki, biz ikitərəfli planda daim aktiv qarşılıqlı fəaliyyətə istiqamətlənmişik. Mən sizinlə həm Bakıda, həm də beynəlxalq məkanlarda görüşlərimizi xatırlayıram. Buna görə də Azərbaycanın bu çətin gündə Moldovaya həmrəylik göstərməsi təbiidir. Çünki məhz çətin vaxtda bir-birinə dəstək göstərilməlidir. Hamıda hər şey yaxşı olanda hamı bir-birini təbrik edir və uğurlarına sevinir. Lakin ağır dəqiqədə, əlbəttə, imkan daxilində biz bir-birimizi dəstəkləməliyik. Mən Sizin bununla bağlı məktubunuza, həmçinin bu gün bunu qeyd etdiyinizə görə təşəkkür edirəm. Əlbəttə, pandemiya bütün ölkələrdə hadisələrin gedişatına, o cümlədən beynəlxalq siyasət məsələlərinə öz təsirini göstərib. Lakin müasir texnologiyalar fəal işləməyə və hətta bu rejimdə ünsiyyət qurmağa imkan verir. Beləliklə, əminəm ki, bugünkü müzakirəmiz də çox faydalı olacaq və nəticəyə istiqamətlənəcəkdir.

*Söhbət zamanı dövlət başçıları koronavirus pandemiyasi ilə mübarizə sahəsində həyata keçirilən tədbirlər barədə fikir mübadiləsi apardılar, pandemiya-*

*nın sosial-iqtisadi fəsadlarının aradan qaldırılması istiqamətində gələcəkdə görüləcək işlərdən danışdılar.*

*Prezident İlham Əliyev və Prezident İqor Dodon ikitərəfli münasibətlərimizin inkişafından məmnunluq ifadə edərək, siyasi əlaqələrin yaxşı səviyyədə olduğunu qeyd etdilər.*

*Söhbət zamanı dövlət başçıları pandemiya başa çatdıqdan sonrakı dövrdə ölkələrimiz arasındakı əməkdaşlığın müxtəlif sahələrdə inkişaf etdirilməsi məsələlərinə toxunaraq bildirdilər ki, ticarət, iqtisadiyyat, nəqliyyat, energetika və digər sahələrdə əlaqələrimizin genişləndirilməsi, eləcə də investisiya layihələrinin həyata keçirilməsi üçün əlverişli imkanlar vardır. Prezidentlər bu baxımdan postpandemiya dövründə hökumətlərarası birgə Komissiyanın iclasının keçirilməsinin iqtisadi əməkdaşlığımızın möhkəmləndirilməsi işinə töhfə verəcəyini vurğuladılar.*

*Dövlət başçıları eyni zamanda, ölkələrimizin biznes dairələri arasında əlaqələrin genişləndirilməsi və gələcəkdə biznes-forumun keçirilməsi perspektivlərini də müzakirə etdilər. Moldova Prezidenti dövlət başçımızı ölkəsinə rəsmi səfərə dəvət etdiyini bir daha diqqətə çatdırdı. Prezident İlham Əliyev də öz növbəsində, münasib vaxtda Moldova Prezidenti İqor Dodonu Azərbaycana rəsmi səfərə dəvət etdi.*

## RUSİYA FEDERASİYASININ PREZİDENTİ VLADİMİR PUTİN İLƏ TELEFONLA GÖRÜŞ

*18 may 2020-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə mayın 18-də Rusiya Federasiyasının Prezidenti Vladimir Putin telefonla zəng etmişdir.*

*Telefon söhbəti zamanı koronavirus pandemiyası ilə mübarizə sahəsində görülən işlər diqqətə çatdırıldı, bu istiqamətdə ölkələrimizin sərhəd-keçid məntəqələrində qarşılıqlı əlaqələndirmə şəraitində həyata keçirilən tədbirlər barədə fikir mübadiləsi aparıldı.*

*Dövlət başçıları Azərbaycanla Rusiya arasında strateji tərəfdaşlıq əlaqələrinin bütün sahələrdə uğurla inkişaf etdiyini vurğulayaraq, əməkdaşlığımızın postpandemiya dövründə inkişaf perspektivlərini də müzakirə etdilər.*

## ƏMƏK VƏ ƏHALİNİN SOSİAL MÜDAFİƏSİ NAZİRLİYİNİN TABELİYİNDƏ OLAN DAYANIQLI VƏ OPERATİV SOSİAL TƏMİNAT AGENTLİYİNİN BAKININ NİZAMİ RAYONUNDA YERLƏŞƏN 3 SAYLI DOST MƏRKƏZİNİN AÇILIŞI MƏRASİMİ

*19 may 2020-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva mayın 19-da Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində olan Dayanıqlı və Operativ Sosial Təminat Agentliyinin Bakının Nizami rayonunda yerləşən 3 saylı DOST Mərkəzinin açılışı mərasimində iştirak etmişlər.*

*Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Sahil Babayev dövlət başçısına və xanımına mərkəzdə yaradılmış şərait barədə məlumat verdi.*

*Bildirildi ki, Heydər Əliyev prospektində yerləşən 3 saylı DOST Mərkəzi paytaxtın Nizami, Suraxanı və Sabunçu rayonlarının sakinlərinə xidmət göstərəcəkdir. Mərkəzdə əhaliyə pensiya, sosial sığorta, sosial müavinət, övladlığa götürmə, əlillik, əmək və məşğulluq, bank, notariat, həmçinin Tibbi Sosial Ekspertiza Komissiyasının xidmətləri göstəriləcəkdir. Burada 130 nəfərdən çox işçi və «Könüllü DOST» proqramı üzrə 50 könüllü çalışacaq. Mərkəz gün ərzində 500, il*

*ərzində isə ümumilikdə 150 mindən artıq vətəndaş qəbul edə biləcəkdir.*

*Dövlət başçısına və xanımına 2020-ci ilin əvvəllərindən indiyədək sosial sahədə əldə olunmuş uğurlar, pandemiya ilə əlaqədar məşğulluğa və sosial rifaha dəstək tədbirləri, elektron sistemlər üzərindən göstərilən proaktiv xidmətlər, şəhid ailələri və müharibə əlillərinin mənzil və avtomobil təminatı, icma əsaslı sosial reabilitasiya və yardım mərkəzləri, habelə DOST Agentliyinin regional və beynəlxalq səviyyədə əldə etdiyi nailiyyətlər barədə də məlumatlar verildi. Ölkəmizdə əlilliyi olan şəxslər tərəfindən hazırlanmış əl işləri nümayiş etdirildi. 2019–2025-ci illərdə 31 DOST Mərkəzinin istifadəyə verilməsi nəzərdə tutulub. Onlardan 5-i Bakıda, 26-sı isə regionlarda olacaq. Ümumilikdə DOST mərkəzlərində «bir pəncərə» prinsipi ilə 2,8 milyon insana 132 xidmət göstəriləcək. Ötən il istifadəyə verilmiş 1 və 2 saylı Bakı DOST mərkəzlərində indiyədək 100 mindən çox şəxsə xidmət göstərilib, vətəndaşların xidmətlərdən məmnunluq səviyyəsi isə 96 faiz təşkil edibdir. «Könüllü DOST» proqramı üzrə artıq 300-dən çox könüllü, o cümlədən 22 yaşlı şəxs bu mərkəzlərə cəlb edilibdir.*

*Azərbaycanda əhalinin sosial rifah halının yüksəldilməsi, sosial məsələlərin həlli, həssas qrupların hərtərəfli dövlət qayğısı ilə əhatə olunması istiqamətində görülən işlər Prezident İlham Əliyevin daim diqqət mərkəzindədir. Təsadüfi deyil ki, bu istiqamətdə həyata keçirilən tədbirlər ölkəmizdə etibarlı sosial müdafiə sisteminin formalaşmasına imkan yaradıbdır. Eyni zamanda, son illərdə icra olunan sosial is-*

*lahatlar proqramının əsas hədəfi dövlət sosial xidmətlərinin innovativ yanaşmalara əsaslanan modern, çevik və optimal mexanizmlər üzərində qurulması, xidmətlərdə sosial ədalət, şəffaflıq, ünvanlılıq, əlçatanlıq və bərabərlik prinsiplərinin təmin edilməsidir. Bu baxımdan Prezident İlham Əliyevin 2018-ci ildə imzaladığı fərmanla Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki DOST Agentliyinin yaradılması mühüm əhəmiyyət kəsb edir. Birinci vitse-prezident Mehriban xanım Əliyevanın təşəbbüsü olan DOST layihəsi əmək, məşğulluq, sosial müdafiə, əlillik, reabilitasiya sahələrində xidmət keyfiyyətinin yüksəldilməsi, bu sahələrdə şəffaflığın artırılması, innovativ həllərin tətbiqi və vətəndaş məmnunluğunun təmin edilməsi məqsədi daşıyır.*

*Yeni istifadəyə verilən DOST Mərkəzi ilə tanışlıqdan sonra Prezident İlham Əliyev Azərbaycan Televiziyasına müsahibə verdi.*

### Azərbaycan Prezidenti İlham Əliyevin müsahibəsi

**M ü x b i r:** Cənab Prezident, xoş gördük Sizi.

**İ l h a m Ə l i y e v:** Salam.

**S u a l: Azərbaycanda bu gün həyata keçirilən sosial siyasətin tərkib hissələrindən biri də DOST mərkəzləridir. Bu gün yeni DOST Mərkəzinin açılışında iştirak etdiniz. Ümumiyyətlə, Siz DOST mərkəzlərinin açılışını necə qiymətləndirirsiniz?**

**C a v a b:** Bu çox gözəl sosial təşəbbüsdür. Bildiyiniz kimi, Azərbaycan bu sahədə də liderlik göstə-

rir və DOST mərkəzlərinin fəaliyyətə başlaması sosial sahədə görülən işlərin, aparılan islahatların əyani təzahürüdür. Artıq üçüncü mərkəz açılır və ilk açılan iki mərkəzin fəaliyyəti də çox uğurludur. Vətəndaşların bəyənmə əmsalı 96 faizə çatıbdır. Burada göstərilən xidmətlər, əlbəttə, sosial təminat sahəsində böyük bir yenilikdir. Təsadüfi deyil ki, artıq bir neçə ölkə bu təcrübə ilə bağlı bizə müraciət edib və Azərbaycan öz təcrübəsini bölüşməyə hazırdır.

Bütövlükdə 30-dan çox mərkəzin fəaliyyətə başlaması nəzərdə tutulur. Ümid edirəm ki, yaxın bir neçə il ərzində Bakıda və bütün ölkə üzrə DOST mərkəzləri fəaliyyətə başlayacaq. Eyni zamanda, burada iş yerləri yaradılır. Mənə verilən məlumata görə, bu DOST Mərkəzində 130-dan çox iş yeri yaradılıb, o cümlədən könüllülər də işlərə cəlb olunublar. Bütövlükdə 130-dan çox xidmətin göstərilməsi, demək olar ki, sosial sahənin bütün xidmətlərini ehtiva edir. Beləliklə, bu mərkəzlərin fəaliyyəti insanlara rahatlıq verəcək, eyni zamanda, şəffaflıq istiqamətində önəmli addım artıq özünü doğruldubdur. Eyni zamanda, burada tətbiq olunan innovasiyalar bizim gələcəyə baxışımızla tam uzlaşır. Çünki innovativ inkişaf bizim siyasətimizin əsas istiqamətlərindən biridir.

DOST mərkəzləri məhz bu innovasiyalar əsasında fəaliyyət göstərir və gələcəkdə bu istiqamətdə əlavə addımların atılması da nəzərdə tutulur.

**S u a l: Cənab Prezident, açılışında iştirak etdiyiniz DOST Mərkəzində digər mərkəzlərdə olduğu kimi, əməkdaşların mütləq əksəriyyəti gənclərdir. Siz**

**tez-tez çıxışlarınızda gənclərin Azərbaycanın inkişafındakı rolunu xüsusi vurğulayırsınız. Ümumiyyətlə, Azərbaycanın bugünkü inkişafında gənclərin rolunu necə qiymətləndirirsiniz?**

**C a v a b:** Mən gənclərin rolunu həmişə çox yüksək qiymətləndirmişəm. Bu gün də Azərbaycan gəncləri ölkəmizin uğurlu inkişafında öz fəal rolunu oynayır. Deyə bilərəm ki, gənclər cəmiyyətimizin ən fəal təbəqəsidir və bu gün gənclərə geniş imkanlar yaradılır. Gənclər önəmli vəzifələrə təyin olunurlar: nazir, icra başçısı vəzifələrinə. Eyni zamanda, Milli Məclisdə kifayət qədər gənclərimiz var və DOST Mərkəzində çalışan insanların, demək olar ki, hamısı gənclərdir. Məhz innovasiyaya olan maraq, gənclərin fəallığı, onların müasir bilikləri imkan verir ki, Azərbaycan öz daxili intellektual resursları hesabına belə mərkəzləri yaratsın və eyni zamanda, dediyim kimi, digər ölkələrlə də bu təcrübəni bölüşsün. Ona görə gənclərlə çoxsaylı görüşlərim əsnasında mən onları həmişə biliklərə cəlb edirəm, dəvət edirəm ki, yaxşı oxusunlar, peşəkar olsunlar və öz fəaliyyətləri ilə ölkəmizin inkişafına daha böyük xidmət göstərsinlər. Şadam ki, bu gün bizim gənclərimiz ən yüksək meyarlara cavab verirlər – bilik, peşəkarlıq, yenilik, müasirlik baxımından. Eyni zamanda, onu da bildirməliyəm ki, gənclər xoşagəlməz hallara qarşı da mübarizədə bizə böyük dəstək olurlar. Bütövlükdə gələcəkdə Azərbaycanı idarə edəcək insanlar bugünkü gənclərdir. Ona görə onların bilikləri və eyni zamanda, vətənpərvərliyi bizim müstəqilliyimizi daim gücləndirəcək və ölkəmizin uzun illər, onilliklər

bundan sonra da dayanıqlı inkişafını təmin edəcəkdir.

**S u a l: Cənab Prezident, son illərdə Azərbaycanda əhalinin sosial təminatı ilə bağlı dünyanın çox nadir ölkələrində rast gəlinən kompleks tədbirlər həyata keçirilir. Bu sahədə icra olunan layihələr barədə nə deyə bilərsiniz?**

**C a v a b:** Sosial sahə daim prioritet sahə olub və mənim əvvəlki illərdə də çıxışlarımda daim bu məsələyə böyük diqqət yetirilib. Xüsusilə son müddət ərzində – keçən il və bu il sosial sahə daha da böyük prioritet kimi gündəlikdə mövcuddur. Təsadüfi deyil ki, ötən il müstəqillik dövründə ən geniş sosial paket təqdim olundu və uğurla icra edildi. Bu sosial paketin əhatə dairəsi çox geniş idi – 4 milyon 200 min insan dövlət tərəfindən sosial paketlə təmin edildi. Bunun içərisində minimum əməkhaqqının təxminən 2 dəfə, minimum pensiyanın 70 faizdən çox qaldırılması məsələləri var idi. Minimum pensiyanın alıcılıq qabiliyyətinə görə bu gün Azərbaycan MDB məkanında lider dövlətdir. Müavinətlər qaldırıldı – bəzi müavinətlər 50 faiz, bəziləri isə 2 dəfə. Problemli kreditlərlə bağlı məsələ öz həllini tapdı. Yəni biz bu məqsədlər üçün milyardlarla manat ayırdıq və dediyim kimi, 4,2 milyon insanın güzəranı əhəmiyyətli dərəcədə yaxşılaşdırıldı.

Bu ilin əvvəlindən bu meyillər daha da güclənibdir. Minimum əməkhaqqı və orta əməkhaqqının, orta pensiyanın artırılması göz qabağındadır. Nəzərə alın ki, manatın məzənnəsi sabitdir, insanların real gəlirləri artır, inflyasiya aşağı səviyyədədir. Ona görə

bu sahədə bu il görülən işlər keçən il görülmüş işlərin məntiqi davamıdır. Bu ilin xüsusiyyəti ondadır ki, biz indi pandemiya dövründə yaşayırıq və pandemiyaya bizim cavabımız çoxşaxəlidir. O cümlədən sosial təminatla bağlı çox ciddi, operativ və məqsədə hesablanmış addımlar atılıbdır. Artıq sirr deyil ki, dövlət sektorunda fəaliyyət göstərən 900 min insanın əməkhaqqı tam ödənildi, özəl sektorda təxminən 700 min insanın əməkhaqqının əhəmiyyətli hissəsi dövlət tərəfindən ödənildi. Nəzərə alsaq ki, bu sektorda fəaliyyət göstərən insanlar işsiz qalmışdılar, işsiz vətəndaşların, aztəminatlı təbəqənin, o cümlədən qeyri-formal məşğulluqla fəaliyyət göstərən insanların sosial təminatı təşkil edildi, hər birinə 190 manat vəsait ayrıldı. Bu kateqoriyadan olan insanların sayı az deyil, 600 mindir. Bu işlərin hamısı, əlbəttə ki, böyük maliyyə resursları tələb edir. Buna ünvanlı sosial yardım proqramını da əlavə etsək, bu proqramla əhatə olunmuş insanların sayı kəskin artır.

Hazırda 80 min ailə bu proqramla əhatə olunur və orta hesabla hər bir ailəyə hər ay 220 manatdan çox vəsait ödənilir.

Eyni zamanda, ödənişli ictimai iş yerlərinin – 90 min iş yerinin açılması nəzərdə tutulur. Özünüməşğulluq proqramında 12 min insan əhatə olunur. Biz bu proqramın bir hissəsini Dünya Bankı ilə birlikdə icra edirik. Bütövlükdə bu sahəyə ayrılan diqqəti və vəsaiti nəzərə alsaq görərik ki, bu gün bizim üçün bu prioritetdir və belə də olmalıdır. Çünki pandemiyadan bütün dünya əziyyət çəkir, bütün ölkələr böyük çətinliklərlə üzləşib. İnkişaf etmiş ölkələrin

bəzilərində iqtisadi tənəzzül 7–10 faiz səviyyəsindədir. Bu hələ ilkin rəqəmlərdir. Azərbaycanda maliyyə sabitliyini qorumaq üçün bütün lazımi tədbirlər görülüb. Hər kəs bilməlidir ki, əgər maliyyə sabitliyi pozularsa, onda sosial proqramların icrasına da bizim imkanımız çatmayacaq.

Mən ilin əvvəlində və pandemiyanın artıq alovlanan dövründə demişəm ki, bir dənə də olsun sosial proqram ixtisar edilməyəcək və biz bunu təmin edirik. Eyni zamanda, sosial infrastruktur layihələrinin heç biri ixtisar olunmayıb. Ona görə bu sahəyə göstərilən diqqət və əməli-praktiki addımlar bir daha bizim siyasətimizin mahiyyətini göstərir. Bir də onu göstərir ki, siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı dayanır.

**S u a l: Cənab Prezident, informasiya-kommunikasiya texnologiyalarının inkişafı və innovasiyanın tətbiqi Sizin fəaliyyətinizin prioritet istiqamətlərindən biridir. Bu yaxınlarda Cisco şirkətinin rəhbərliyi ilə görüşdə də Sizin liderliyiniz və Azərbaycanda həyata keçirilən bu işlər yüksək qiymətləndirildi. Bununla bağlı fikirlərinizi bölüşərsinizmi?**

**C a v a b:** Bu sahə bir neçə il bundan əvvəl mənim təşəbbüsümlə Azərbaycanda geniş vüsət almağa başlamışdır. Xatırlayıram, biz kosmik sənayenin yaradılması ilə məşğul olmağa başlayanda bəziləri təəccüb edirdi, bəziləri düşünürdü ki, Azərbaycan o qədər də böyük ölkə deyil – kosmik klub dünya miqyasında çox məhdud bir klubdur – və Azərbaycan üçün orada özünə yer tapmaq çətin olacaq. Ancaq həyat göstərdi ki, biz düzgün yoldaydıq.

Çünki kosmik sənayenin yaradılması, 3 peykin orbitə çıxarılması təkcə iqtisadi və digər maraqlarımızı təmin etmir, bu, kadrların hazırlanması, gənc kadrların yeni texnologiyalara sahib çıxması baxımından da çox önəmlidir. Kadr hazırlığı olmadan müasir texnologiyalar heç bir ölkədə inkişaf edə bilməz. Ona görə biz həm dövlət resurslarımızı bu istiqamətə cəlb etdik və çox düzgün proqram tərtib etdik, həm də kadr hazırlığı ilə əlaqədar əməli-praktiki addımlara start verdik. Çünki bax, bu gözəl DOST Mərkəzinin timsalında görürük ki, əgər burada peşəkar kadr olmasa, bu mərkəz fəaliyyət göstərə bilməz. Azərbaycan əksər ölkələr kimi, texnologiyaları idxal edir. Ancaq bu texnologiyaları işlətmək, onları mənimsəmək, bu texnologiyalar əsasında yeni intellektual məhsul yaratmaq artıq kadr peşəkarlığından, kadr hazırlığından bilavasitə asılıdır.

Ona görə informasiya-kommunikasiya texnologiyalarının inkişafı ilə bağlı bütün addımlarımız düzgün idi və Cisco şirkətinin rəhbərləri ilə videokonfrans çərçivəsində keçirdiyim görüş də bunu bir daha göstərdi. Biz təkcə Cisco şirkəti ilə əməkdaşlıq etmirik, biz, demək olar ki, dünyanın informasiya-kommunikasiya texnologiyaları sahəsində fəaliyyət göstərən bütün aparıcı şirkətləri ilə sıx əməkdaşlıq edirik. Cisco şirkəti ilə biz, deyə bilərəm ki, artıq strateji tərəfdaşlıq əlaqələrinə yaxınlaşırıq. Əlbəttə, onların təklif etdiyi intellektual məhsul bizim gələcək inkişafımıza çox lazımdır. Misal üçün biz hazırda «Ağıllı şəhər» – «Smart city» layihəsi üzərində işləyirik. Bu layihənin ilkin təzahürləri artıq görünməkdədir. Biz

daha uzağa gedərək, artıq «Smart nation» – yəni «Ağıllı ölkə» proqramı üzərində işləməyə başlamışıq. Ölkəmizin rəqəmsallaşdırılması, informasiya texnologiyalarının bütün sahələrdə tətbiq edilməsi bizim prioritet sahəmizdir.

Pandemiya dövründə, özünütəcrid şəraitində informasiya texnologiyaları olmadan iş görmək mümkün deyil. Misal üçün, mənim görüşlərim, videokonfrans şəklində keçirdiyim Zirvə görüşləri müasir texnologiyalar olmadan mümkün deyil. Ona görə hazırda iqtisadi, təhsil, səhiyyə, kənd təsərrüfatı və digər sahələrdə, o cümlədən bizim su resurslarının nəzarəti, su balansının formalaşması və itkilərin azaldılması istiqamətində də məsələ qaldırılıb. Bu sahə, hər kəs bunu bilməlidir, gələcəyə atılan addımdır. Biz gecikə bilmərik, yubana bilmərik, geciksək uduzarıq. Ona görə bütün resurslarımızı, o cümlədən maliyyə, intellektual və kadr resurslarımızı səfərbər etmişik. Əminəm ki, gələcək illərdə Azərbaycan informasiya-kommunikasiya texnologiyaları sahəsində liderlik mövqelərini daha da möhkəmləndirəcəkdir.

**M ü x b i r:** Cənab Prezident, şəhid ailələrinin sosial məsələlərinin həlli, onların mənzil-məişət şəraitinin daha da yaxşılaşdırılması istiqamətində ölkəmizdə kompleks şəkildə tədbirlər həyata keçirildi. İstərdik bu barədə fikirlərinizi bölüşəsiniz.

**İ l h a m Ə l i y e v:** Bu, daim diqqət mərkəzində olan məsələdir. Bu günə qədər 7600 şəhid ailəsi dövlət tərəfindən evlərlə, mənzillərlə təmin edilibdir. Bu il şəhid ailələrinə veriləcək mənzillərin, evlərin sayı rekord həddə çatıb – 1500 şəhid ailəsinə evlər, mən-

zillər veriləcək və beləliklə, növbədə duran şəhid ailələrinin sayı 2000-dən az olacaqdır. Ümid edirəm ki, maksimum 2 il ərzində bütün şəhid ailələri dövlət tərəfindən evlərlə təmin ediləcəkdir.

Bununla paralel olaraq, biz minik maşınları da veririk – həm şəhid ailələrinə, həm də Qarabağ qazilərinə. Bu günə qədər 6000-dən çox minik maşını verilib, bu il də 400 maşının verilməsi nəzərdə tutulubdur. Deyə bilərəm ki, bu sahədə də Azərbaycan liderlik göstərir. Çünki dünyanın bir çox yerlərində müharibələr, münaqişələr, insan itkisi olub. Mən Azərbaycanı heç bir ölkə ilə müqayisə etmək istəməzdim, ancaq həqiqət ondan ibarətdir ki, Azərbaycanda müharibədən əziyyət çəkmiş, öz yaxınlarını itirmiş ailələrin dövlət tərəfindən dəstəklənməsi, hesab edirəm, ən yüksək səviyyədədir.

İndi bir daha demək istəyirəm ki, heç kimlə müqayisə aparmaq istəmirəm, amma baxın, Ermənistanda müharibədə ölənlər olubdur. Onlara mənzil verilir? Onlara avtomobil verilir? Yox. Orada pullar faşistlərin abidələrinin ucaldılmasına xərclənir. Amma biz bütün bu işləri görürük və görməliyik. Bu bizim mənəvi borcumuzdur. Mənim şəhid ailələri ilə çoxsaylı görüşlərim, əlbəttə ki, cəmiyyət üçün də, şəhid ailələri üçün də çox önəmlidir. Biz şəhidlərin ruhu qarşısında baş əyirik və öz işimizi təkcə sözlə yox, əməllə təsdiq etməliyik. Ona görə artıq 7600 şəhid ailəsinə verilmiş evlər – bu il onların sayı 9000-ə çatacaq – bizim əməli işlərimizin gözəl nəticəsidir.

**S u a l: Cənab Prezident, Azərbaycanda koronavirusun qarşısının alınması ilə bağlı görülən işlər və həyata keçiriləcək tədbirlər barədə nə deyə bilərsiniz?**

**C a v a b:** Koronavirusla bağlı işlər əvvəldən Azərbaycanda çox düzgün istiqamətdə aparıldı və bunu həm Azərbaycan xalqı görür və təqdir edir, həm də beynəlxalq təşkilatlar. Bu günə qədər mən vətəndaşlardan gündə yüzlərlə məktub alıram. Yəni pandemiyanın ilk günlərindən minlərlə məktub almışam və bütün bu məktublar təşəkkür xarakterli məktublardır. Çünki doğrudan da qabaqlayıcı tədbirlərin görülməsi bizi böyük bəladan xilas etdi.Yenə də hər şey müqayisədə ölçülür. Əhalisinin sayı Azərbaycanla eyni olan inkişaf etmiş ölkələrdə vəziyyət necədir, Azərbaycanda vəziyyət necədir? O ölkələrin bəzilərində bu günə qədər 10 minə yaxın insan vəfat edib. Azərbaycanda vəfat edənlərin sayı kifayət qədər azdır. Eyni zamanda, qabaqlayıcı, məhdudlaşdırıcı tədbirlər imkan verdi ki, biz pandemiyanın geniş vüsət almasının qarşısını alaq və buna nail olduq.

Təsadüfi deyil ki, Ümumdünya Səhiyyə Təşkilatı bizim bu sahədə gördüyümüz işləri yüksək qiymətləndirir və Azərbaycanı nümunəvi ölkə adlandırır. Bu bizim gördüyümüz işlərə verilən böyük qiymətdir. Mən bilmirəm başqa bir ölkəyə belə bir ad verilib, yoxsa yox. Bu doğrudan da görülmüş işlərin məntiqi nəticəsidir. Çünki bəri başdan bizim əsas məqsədimiz xalqımızı, vətəndaşlarımızı bu xəstəlikdən qorumaq idi. Bütün digər iqtisadi məsələlər, iqtisadiyyatın tənəzzülə uğraması, iqtisadiyyatda yarana biləcək problemlər arxa plana keçdi. Halbuki

biz bu məsələlərlə də ciddi məşğul olmuşuq. Amma birinci məsələ insanların sağlamlığı, ikinci məsələ insanların sosial təminatı idi ki, biz hər ikisini də təşkil etdik.

Deyə bilərəm ki, səhiyyə sistemimizi qısa müddət ərzində yenidən qura bildik. Mən burada xüsusilə İcbari Tibbi Sığorta Agentliyinin və TƏBİB-in fəaliyyətini yüksək qiymətləndirirəm. Orada da fəaliyyət göstərənlərin mütləq əksəriyyəti gənclərdir, burada da gənclərdir və onlar göstərdilər ki, nəyə qadirdirlər. Çünki belə bir çətin şəraitdə heç bir ölkənin səhiyyə sistemi buna hazır deyildi və bütün təşkilati işləri görmək doğrudan da böyük nailiyyətdir. Xəstəxanaları müəyyən etmək, logistika işlərini təmin etmək, xəstələri regionlar üzrə bölmək, karantin rejimində saxlanılanların təminatını təşkil etmək, onlar üçün bütün bu təşkilati-logistik məsələləri həll etmək, xaricdən vətəndaşları təxliyə etmək – biz bütün bunları Operativ Qərargah çərçivəsində, o cümlədən həkimlərin və TƏBİB-in fəal iştirakı ilə təmin edə bildik. Ona görə biz artıq aprelin sonunda gördük ki, üç həftə ərzində dinamika müsbətdir, yoluxanların sayı sağalanların sayından azdır və biz yumşaltma tədbirlərinə keçdik. Əfsuslar olsun ki, yumşaltma tədbirləri yoluxanların sayına mənfi təsir göstərdi.

Ancaq bu gün vəziyyət tam nəzarətdədir və bütün ölkələr, hətta pandemiyanın geniş vüsət aldığı ölkələr də açılır. Biz də yavaş-yavaş açılırıq, amma vəziyyəti tam nəzarətdə saxlayırıq.

Bizdə hazırda 20-dən çox xəstəxana sırf koronavirusla bağlı fəaliyyət göstərir,orada ancaq koronavirus xəstələri müalicə olunur – hal-hazırda 19 xəstəxanada. Çünki indi bəzi xəstəxanalarda artıq xəstə qalmır. Ancaq 20-dən çox xəstəxana hazırdır, modul tipli 10 xəstəxananın inşasına başlanılıb, birinin açılışında mən iştirak etmişəm. Bu da bizə əlavə 2000 yataq verəcəkdir. Bütün tibbi avadanlıqlar təmin edilib, süni tənəffüs aparatları gətizdirilib, reanimasiyada kifayət qədər boş yerlərimiz var, yataqlar kifayət qədərdir, karantində saxlanılanların sayı xaricdən gələnlərin sayı ilə birbaşa əlaqəlidir. Çünki xaricdən təxliyə edilən vətəndaşları biz iki həftə karantində saxlayırıq. Deməliyəm ki, 20 mindən çox Azərbaycan vətəndaşı mütəşəkkil qaydada xaricdən təxliyə edilib. Biz bu işləri kortəbii görə bilmərik. Mütəşəkkil qaydada, qrafik üzrə, ölkələr üzrə bölgü aparılıbdır: hansı ölkədən nə vaxt, nə qədər Azərbaycan vətəndaşı gələcək. Bu işlər bu qaydada davam etdiriləcək. Ən çox təxliyə edilmiş vətəndaşlarımız Rusiyadan gəlib. Bu günə qədər Rusiyadan 6500 Azərbaycan vətəndaşı gəlib və bu proses davam etdirilir. Hər kəs öz adını qeydiyyata salmalıdır, xüsusi portal – «Evə gedirəm» portalı mövcuddur. Dediyim kimi, təxliyə işləri də mütəşəkkil qaydada aparılacaqdır.

Karantin şəraiti çox gözəldir və mən karantində qalanlardan da çoxsaylı məktublar alıram, onları 4 və ya 5 ulduzlu hotellərdə saxlayırıq. Biz özümüz indi tibbi maska, kombinezon, dezinfeksiya vasitələrinin istehsalına başlamışıq. Bu kompleks tədbir-

lər, əlbəttə ki, bizi böyük bəladan qoruya bildi. İndiki şəraitdə isə artıq yumşaltma prosesi gedir, əsas amil vətəndaşların məsuliyyəti olacaqdır. Mən bir daha demək istəyirəm ki, vətəndaşlar bu məsuliyyəti dərk etməlidirlər. Pandemiya başa çatmayıb, virus qeyb olmayıb, bu virus dolaşacaq. Ona görə hər kəs özünü, öz yaxınlarını qorumalıdır, öz məsuliyyətini hiss etməlidir və nizam-intizama da əməl etməlidir.

**M ü x b i r:** Cənab Prezident, belə bir çətin şəraitdə əhalinin sosial təminatı, pandemiyanın törətdiyi iqtisadi fəsadların aradan qaldırılması ilə yanaşı, Azərbaycan bir sıra xarici ölkələrə yardım da edir. İstərdik bu məsələ ilə bağlı da fikirlərinizi bildirəsiniz.

**İ l h a m Ə l i y e v:** Mən hesab edirəm ki, bu bizim apardığımız siyasətin tərkib hissəsidir. Çünki xarici siyasətə gəldikdə, biz həmişə əməkdaşlığa üstünlük vermişik və bunun faydasını görmüşük. Harada imkanımız olub, kömək etməyə çalışmışıq və etmişik. Bizim bir neçə önəmli transmilli layihəmiz məhz bu prinsip əsasında qurulub və uğur da məhz bu prinsip əsasında qazanılır. Xarici siyasətdə qarşılıqlı dəstək, həmrəylik sözdə yox, əməldə olmalıdır.

Biz indi 2 təşkilata sədrlik edirik və bu 2 təşkilatın Zirvə görüşünü ən yüksək səviyyədə keçirmişik – Türk Şurası və «Qoşulmama Hərəkatı». «Qoşulmama Hərəkatı»nın və Türk Şurasının yekun Bəyannaməsində Azərbaycanın xüsusi rolu qeyd olunub. Biz hər bir işə çox məsuliyyətlə yanaşırıq və bizim sədrliyimiz formal xarakter daşımamalıdır və daşımır. Bu çətin gündə kimin imkanı varsa kömək etməlidir, hə-

yatda da, siyasətdə də. Bu bizim adət-ənənələrimizə də uyğundur. Ona görə bu gün bu yardımın göstərilməsi, hesab edirəm ki, düzgün addımdır. Bu günə qədər biz 13 ölkəyə yardım göstərmişik və bu haqda ancaq son vaxtlar danışmağa başlamışıq. Biz təyyarələrlə yüzlərlə ton yardım göndərmişik. Azərbaycanda istehsal olunan dezinfeksiya vasitələri, qoruyucu vasitələr və digər əşyalar göndərmişik, amma bunu reklam etməmişik. Bunu mənəvi borc bilərək etmişik, o ölkələrə ki, onlar bizə müraciət edib. Biz bilirik, o ölkələrin maliyyə vəziyyəti imkan vermir ki, onlar lazımi tədbirləri görsün. Əminəm ki, bu yardım bir çox insanın həyatını xilas edib. Əsas məsələ budur.

Beləliklə, 13 ölkəyə və 3 beynəlxalq təşkilata artıq yardım göstərilibdir. Bu bir daha bizim məsuliyyətimizi təsdiqləyir.

Təsadüfi deyil ki, Azərbaycan dünya miqyasında çox böyük hörmətə və yüksək imicə malik olan ölkədir. Əks təqdirdə, biz 8 il bundan əvvəl 155 ölkənin dəstəyi ilə BMT Təhlükəsizlik Şurasına seçilməzdik. Əks təqdirdə, «Qoşulmama Hərəkatı»nın yekdil qərarı ilə, yəni 120 ölkənin qərarı ilə sədr seçilməzdik. Çünki bu təsisatda bir çox bir-biri ilə yola getməyən ölkələr cəmləşib. Amma onların hər biri Azərbaycanı dəstəklədi. Nəyə görə? Çünki biz məsuliyyətli, özümüzə hörmət edən, öz ləyaqətimizi qoruyan, tərəfdaşlarımıza hörmət edən ölkəyik. Yardım edəndə bunu elə formada edirik ki, bu, yardımı alan üçün də məqbul olsun və öz işimizi bu istiqamətdə davam etdirəcəyik.

Pandemiya dövründə həm insanlar, həm də ölkələr özünün əsl simasını üzə çıxardı. Elə insanlar var

ki, pandemiya dövründə onlara əl vermək böyük günah olar. Elə ölkələr var ki, pandemiya dövründə özlərinə qapanıblar, xüsusilə ilkin mərhələdə bəzi addımlar atıblar və indi yəqin utanırlar. Azərbaycan isə o ölkələrdəndir ki, həmişə üzüağ, alnıaçıq olub və pandemiya bunu bir daha təsdiqlədi.

**M ü x b i r:** Cənab Prezident, suallarımızı ətraflı cavablandırdığınız üçün Sizə minnətdarıq, çox sağ olun.

**İORDANİYA KRALI ƏLAHƏZRƏT
II ABDULLAH BİN HÜSEYNƏ**

Əlahəzrət!

Ölkənizin milli bayramı – Müstəqillik Günü münasibətilə Sizə və bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən xoş arzularımı və təbriklərimi yetirirəm.

Belə bir əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə müvəffəqiyyətlər, dost İordaniya xalqına daim firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *21 may 2020-ci il*

**GÜRCÜSTAN PREZİDENTİ
XANIM SALOME ZURABİŞVİLİYƏ**

Hörmətli xanım Prezident!

Dost Gürcüstanın milli bayramı – Müstəqillik Günü münasibətilə Sizə və bütün xalqınıza şəxsən öz adımdan və Azərbaycan xalqı adından ən xoş arzularımı və səmimi təbriklərimi yetirirəm.

Azərbaycan–Gürcüstan mehriban qonşuluq və strateji tərəfdaşlıq münasibətlərinin bugünkü səviyyəsi məmnunluq doğurur. Ölkələrimiz arasındakı yüksək səviyyəli təmaslar, siyasi, iqtisadi və digər sahələrdə daim genişlənən qarşılıqlı faydalı əməkdaşlıq əlaqələrimizin səciyyəvi cəhətlərindəndir. Əminəm ki, bu əməkdaşlıq xalqlarımızın rifahı naminə bundan sonra da uğurla davam edəcəkdir.

Bəşəriyyətin üzləşdiyi COVID-19 pandemiyasının yaratdığı bu çətin zamanda da Azərbaycan xalqının Gürcüstan xalqı ilə həmrəy olduğunu bildirmək istəyirəm. Fürsətdən istifadə edərək, Sizə möhkəm cansağlığı, işlərinizdə müvəffəqiyyətlər, dost Gürcüstan xalqına daim rifah diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *21 may 2020-ci il*

## AĞSTAFA VƏ İMİŞLİ RAYONLARINA YENİ TƏYİN OLUNMUŞ İCRA HAKİMİYYƏTİ BAŞÇILARI SEYMUR ORUCOV VƏ ELÇİN RZAYEV İLƏ VİDEOFORMATDA GÖRÜŞ

*21 may 2020-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 21-də Seymur Orucovu Ağstafa Rayon İcra Hakimiyyətinin, Elçin Rzayevi isə İmişli Rayon İcra Hakimiyyətinin başçısı vəzifələrinə təyin olunmaları ilə əlaqədar videoformatda qəbul etmişdir.*

*Dövlət başçısı videoqəbulda çıxış etdi.*

### Azərbaycan Prezidenti İlham Əliyevin çıxışı

Mən sizi bu gün Ağstafa və İmişli rayonlarının icra hakimiyyəti başçısı vəzifəsinə təyin edirəm. Sizə böyük etimad göstərilir. Siz bu etimadı öz işinizlə doğrultmalısınız.

Ağstafa və İmişli rayonlarının icra hakimiyyəti başçıları həbs olunublar. Bu barədə ictimaiyyətə məlumat verilib. İndi istintaq gedir və hüquq-mühafizə orqanları hər şeyi müəyyən edəcək. Artıq ictimaiyyət məlumatlandırılıb. Ağstafa və İmişli rayonlarında icra hakimiyyəti başçıları tərəfindən edilmiş pozuntular digər rayonlarda da mövcud

olub və bir neçə icra hakimiyyəti başçısı artıq istintaqa cəlb edilib. Bu bir daha göstərir ki, Azərbaycanda korrupsiyaya, rüşvətxorluğa, talançılığa qarşı mübarizə sözdə yox, əməldə aparılır və bu mübarizə bundan sonra da aparılacaqdır. İndi həm yerli, həm də mərkəzi icra orqanlarının fəaliyyəti araşdırılır və yol verilmiş bütün pozuntular üzə çıxacaqdır.

Azərbaycanda korrupsiyaya, rüşvətxorluğa qarşı mübarizə amansız aparılmalıdır. Bu məsələ ilə bağlı mən fikirlərimi bildirmişdim, bir daha demək istəyirəm ki, Azərbaycanın uğurlu, dayanıqlı inkişafı üçün xoşagəlməz hallara son qoyulmalıdır. Siz də rəhbərlik edəcəyiniz rayonlarda bütün xoşagəlməz hallara qarşı öz işinizlə ciddi mübarizə aparmalısınız. Korrupsiyanın, rüşvətxorluğun, talançılığın kökü kəsilməlidir. Bu sahədə sizin dövlət tərəfindən böyük dəstəyiniz olacaq, eyni zamanda, geniş ictimaiyyəti də bu işlərə cəlb edin. Çünki ictimai nəzarət xoşagəlməz hallara qarşı mübarizədə çox önəmli amildir. Mən şadam ki, son müddət ərzində ictimai nəzarət mexanizmləri təkmilləşir. Birinci növbədə, siz vəziyyəti təhlil etməlisiniz və insanları narahat edən problemləri həll etməlisiniz. Sizin həll etməyə gücünüz çatmayan məsələlər barədə müvafiq mərkəzi icra orqanlarına məlumat verin ki, bu məsələlər operativ şəkildə öz həllini tapsın.

Bizim bölgələrdə gördüyümüz işlərin mənbəyi xalqın iradəsidir. Bildiyiniz kimi, artıq regionların dördüncü sosial-iqtisadi inkişafı Dövlət Proqramı icra olunur. Bütün proqramların tərtibatında yerlərdən gələn təkliflər üstünlük təşkil edir. Mənim böl-

gələrə, rayonlara çoxsaylı səfərlərim və səfərlər əsnasında vətəndaşlarla görüşlərim bu proqramların hazırlanmasında xüsusi rol oynayır. Çünki bölgələrdə elə işlər görülməlidir ki, o işlər öz həllini gözləyir, insanlar əziyyət çəkir. Ona görə vəziyyəti təhlil edərkən siz ilk növbədə, vətəndaşları narahat edən məsələləri aşkarlamalısınız.

O ki qaldı infrastruktur layihələrinə, üç Dövlət Proqramının icrası nəticəsində infrastruktur layihələrinin böyük hissəsi öz həllini tapıb. Bunu indi hər kəs görür, bölgələrdə yaşayan insanlar görür və eyni zamanda, beynəlxalq təşkilatlar da bunu qeyd edir. Təsadüfi deyil ki, Davos Dünya İqtisadi Forumunun hesabatında elektrik enerjisinin əlçatanlığına görə Azərbaycan dünyada 2-ci yerdədir. Yolların keyfiyyətinə görə 30-cu yerdədir. Bu gün Azərbaycan nadir ölkələrdəndir ki, demək olar, qazlaşdırılma layihələrinin böyük əksəriyyəti başa çatıb, qazlaşdırılmanın səviyyəsi 96 faizdir. İçməli su layihələri bütün şəhərlərdə icra edilir, ya artıq başa çatıb, ya da ki, başa çatmaq üzrədir. Bütün bunlar dövlət tərəfindən görülmüş işlər, qoyulmuş investisiyalardır. İnfrastruktur layihələrinin əsas hissəsi öz həllini tapıb. Sizin əsas vəzifəniz ondan ibarət olmalıdır ki, öz işinizlə artıq bu möhkəm təməl üzərində rayonların sosial-iqtisadi inkişafını təmin edəsiniz. Eyni zamanda, bütün işlər ədalətli görülməlidir. Ədalət sizin işinizdə əsas prinsip olmalıdır və indiki şəraitdə, pandemiya dövründə insanlara daha çox yardım, kömək göstərilməlidir. Yerlərdə ilk

növbədə, bunu icra başçıları, icra strukturları etməlidir.

Əlbəttə, Azərbaycan dövləti bütün lazımi tədbirləri görür. Azərbaycanda pandemiya ilə əlaqədar tətbiq olunan mexanizm hesab edirəm ki, ən yüksək qiymətə layiqdir. Biz yüz minlərlə insanın sosial vəziyyətinin pisləşməsini nəzərə alaraq, onlara yardım göstəririk. Bu yardım insanları ağır vəziyyətdə ruhlandırır, eyni zamanda, onların maddi imkanlarının təmin edilməsində rol oynayır. Biz bunu edirik ki, insanlar bu vəziyyətdən az itkilərlə çıxsınlar. İlk növbədə, koronavirusla bağlı mübarizədə görülmüş işlər yüksək qiymətə layiqdir. Eyni zamanda, koronavirusa görə işini itirən, yaxud da ki, müvəqqəti olaraq itirən insanların da yardımına dövlət gəlməlidir. Ona görə dövlət hər zaman bu işlərdə aparıcı rolunu oynayacaq və siz də yerlərdə Azərbaycan dövlətinin nümayəndələrisiniz. Sizin işinizdən eyni zamanda, ümumiyyətlə, Azərbaycanda görülən işlər haqqında da təsəvvür yaranır. Əgər icra hakimiyyəti başçısı öz vəzifə borcunu yerinə yetirmirsə, əksinə, insanları incidir, insanların əmlakına göz dikir, kimsəsiz insanlara çatacaq yardımı, ictimai işlərə cəlb edilmiş insanların ödəniş kartlarını oğurlayır, talançılıqla, rüşvətxorluqla, korrupsiya ilə məşğul olursa, onda insanlar hansı fikirdə ola bilərlər? Siz işdə də, məişətdə də nümunə göstərməlisiniz və elə işləməlisiniz ki, insanlar sizdən razı olsunlar. İnsanlar sizdən razı olsalar, mən də sizin işinizdən razı olacağam. Ona görə vəziyyəti dərindən təhlil edin, həllini gözləyən məsələləri həll etmək üçün səylər göstərin və gücünüz

çatmayan işlərin həll edilməsi üçün Prezident Administrasiyasına, Nazirlər Kabinetinə, müvafiq dövlət orqanlarına müraciət edin.

İndiki şəraitdə ölkəmizin uğurlu inkişafı ilk növbədə, qeyri-neft sektorunun hesabına təmin ediləcək və əlbəttə ki, sahibkarlığın inkişafı daha böyük əhəmiyyət daşıyır. Biz bu işlərlə çox uğurla məşğul oluruq və bu gün Azərbaycanda çox böyük sahibkarlıq sinfi formalaşıb. Ancaq bəzi hallarda sahibkarlar çətinliklərlə üzləşirlər. Hansısa layihəni icra etmək, hansısa investisiyanı qoymaq istəyəndə məmurlar tərəfindən problemlərlə üzləşirlər. Bəzi məmurlar onların layihələrinə şərik çıxmaq istəyirlər, onların gəlirlərinə göz dikirlər. Buna qətiyyən yol vermək olmaz. Əksinə, siz sahibkarları cəlb etməlisiniz, siz onları inandırmalısınız. İndi dünyada investisiyalar uğrunda mübarizə aparılır. Ölkələr öz təkliflərini irəli sürürlər ki, investorları cəlb etsinlər. Ona görə siz ilk növbədə, yerli sahibkarları inandırmalısınız ki, onlar gəlib məhz sizin rayonlarınıza sərmayə qoysunlar, iş yerləri yaratsınlar və beləliklə, rayonların inkişafına töhfə versinlər. Amma bəzi hallarda sahibkar iş görmək istəyir, ona min cür əziyyət verilir. Buna yol vermək olmaz.

Kənd təsərrüfatının inkişafı prioritet sahə olaraq qalır. İndiki şəraitdə kənd təsərrüfatının müasir üsullarla inkişafı ilə əlaqədar çox geniş proqramlar icra edilir. Bu sahədə də yerli icra orqanlarından çox şey asılıdır. Ona görə müvafiq dövlət qurumları ilə birlikdə kənd təsərrüfatının inkişafı ilə bağlı işlər görülməlidir, insanlar işlə təmin edilməlidir, məh-

suldarlıq artmalıdır və kənd təsərrüfatının inkişafını şərtləndirən bütün amillər təmin edilməlidir, o cümlədən suvarma suyunun ədalətli bölüşdürülməsi məsələsi. Bu sahədə də böyük pozuntular var, yerlərdən mənə şikayətlər gəlir. Keçən il də quraqlıq olub, bu il də quraqlıqdır və biz sudan böyük qənaətlə istifadə etməliyik. Bu işləri düzgün təhlil etmək və tədbirlər planı hazırlamaq üçün mənim sərəncamımla xüsusi komissiya yaradılıb və komissiyanın ilkin araşdırmaları mənə təqdim edilibdir. Biz bunu, demək olar ki, təxmin edirdik, bəzi hallarda itkilər 40–50 faiz səviyyəsindədir. Bu dözülməzdir. Belə israfçılıq böyük problemlərə gətirib çıxarır. Ona görə siz bu sahədə bütün vəziyyəti təhlil edin. Əlbəttə, mərkəzi icra orqanları bu məsələ ilə məşğuldur və komissiyanın tərkibində nazirlər təmsil olunur. Amma siz yerlərdə bu işlərə ciddi fikir verin, təftiş aparın və məlumat verin. Əgər bu itkiləri azaltsaq, kənd təsərrüfatında daha böyük irəliləyişə nail ola bilərik. Suyun ədalətli bölüşdürülməsi məsələsi çox aktualdır. Mənə verilən məlumatlara görə, bəzi hallarda icra başçılarına yaxın olan sahibkarlara su verilir, kənar adamlara su verilmir. Bu ədalətsizlikdir və buna son qoyulmalıdır.

Ödənişli ictimai iş yerlərinin yaradılması bir neçə ildir ki, təmin edilir və bu kateqoriyaya aid insanların sayını ildən-ilə artırırıq. Biz 30 mindən başlamışıq. Bu il mənim göstərişimlə 90 min ödənişli ictimai iş yeri yaradılmalıdır və bu istiqamətdə artıq nəticələr vardır. Əfsuslar olsun ki, bəzi icra başçılarının cinayətkar əməllərinə görə bu sahə də ən kor-

rupsiyalaşmış və ən çirkin sahəyə çevrilibdir. O işlərə cəlb edilən insanların ödəniş kartları icra başçıları tərəfindən oğurlanır. Həbs olunmuş bütün icra başçılarının iş otaqlarından və onların yaxınlarının iş otaqlarından yüzlərlə ödəniş kartı çıxır. Bu pul kasıb, özünə iş tapa bilməyən insanlara çatmalıdır. Pandemiya dövründə bütün ölkələrdə iş yerləri ixtisar edilir, bütün ölkələrdə işsizlik artır, o cümlədən Azərbaycanda. Belə bir vəziyyətdə kasıb insanın puluna göz dikmək vicdansızlıq və cinayətdir. Ona görə bu gün Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə tapşırıq verilib ki, onlar ümumi nəzarət və monitorinq aparsınlar. Siz də rəhbərlik edəcəyiniz rayonlarda bu işləri ciddi təhlil edin, görün nə qədər insan cinayətkar icra başçıları tərəfindən bu imkandan məhrum edilib. Biz bu ədaləti bərpa etməliyik.

Bir sözlə, sizin fəaliyyətiniz rəhbərlik edəcəyiniz rayonların sosial-iqtisadi inkişafında özünü göstərməlidir. Çünki açıq demək istəyirəm, təxminən son 17 il ərzində bölgələrdə görülmüş işlərin ən azı 90 faizi mənim təşəbbüsümlə görülüb, dövlət proqramları çərçivəsində görülüb, 16 min kilometr avtomobil yolu çəkilib, bütün elektrik təsərrüfatı, demək olar ki, yenidən qurulubdur. Biz qazlaşdırılmanı təxminən 100 faizə çatdırmışıq, 3500-dən çox məktəb, 700-dən çox tibb ocağı, 50-yə yaxın Olimpiya İdman Mərkəzi, nə qədər Gənclər evi, Mədəniyyət sarayları, digər sosial obyektlər tikilib. Bütün bunları biz bilavasitə mənim göstərişimlə dövlət büdcəsi hesabına etmişik. İndi baxaq görək icra başçıları nə iş görüblər,

hansı daşı daş üstünə qoyublar?! İndi bütün bu işlər təftiş edilir. Mənim ayırdığım vəsait hesabına tikilmiş evlər, yəni qəzalı evlərin əvəzinə tikilmiş evlərin tikintisində də oğurluq baş verir, həm tikintidə, həm də ondan sonra mənzillərin bölüşdürülməsində. Bu evlərin insanlara tamamilə pulsuz verilməsi nəzərdə tutulubdur. Amma həm tikintidə pul oğurlanır, həm də mənzillər rüşvət müqabilində paylanılır. Deməli, insanlardan pul qopardılır. İndi təftiş aparılır və bütün bu pozuntularda əli olan vəzifəli şəxslər məsuliyyətə cəlb ediləcəklər. İcra başçısı ona göstərilən etimadı öz işi ilə doğrultmalıdır.

Bölgələrdə gedən işlər daim mənim nəzarətimdədir. Mənim çoxsaylı səfərlərim eyni zamanda, o məqsədi güdür ki, görülmüş işlərin icrasını görüm, tanış olum, insanları narahat edən problemləri insanlardan eşidim və biz bunları həll edək. Amma deyə bilərəm ki, bir çox hallarda icra hakimiyyəti başçısı öz iş otağından çıxmır. Bütün icra hakimiyyəti başçıları, o cümlədən siz bütün kəndlərdə insanlarla görüşməli, insanları narahat edən problemləri insanların dilindən eşitməli və ondan sonra qərar qəbul etməlisiniz. Elə məsələ var ki, sadəcə olaraq, laqeydlik, biganəlik və məsuliyyətsizlik ucbatından həll olunmur. Elə məsələ var ki, heç böyük vəsait, böyük əziyyət tələb etmir. Sadəcə, onların vecinə deyil. Onlar hesab edirlər ki, orada ağa kimi rəhbərlik etməlidirlər, insanları incitməlidirlər, öz şəxsi maraqlarını təmin etməlidirlər. Belə təfəkkürlə yaşayan insanların bizim aramızda yeri yoxdur. Onların yeri başqa yerdədir. Siz bütün kənd-

lərdə olmalısınız, bütün problemləri vətəndaşlardan öyrənməlisiniz və onları həll etməlisiniz. Bir daha demək istəyirəm ki, yerli səviyyədə həlli mümkün olmayan problemlər dərhal müvafiq mərkəzi icra orqanlarına çatdırılmalıdır.

Bu gün Azərbaycan yeniləşir, müasirləşir və yeni kadrlardan çox şey asılıdır. Sizin fəaliyyətinizdən çox şey asılıdır və insanların əhval-ruhiyyəsi, ədalətə inanması bir çox hallarda yerli rəhbərlərin işindən asılıdır. Siz elə işləməlisiniz ki, insanlar sizə inansınlar, sizi dəstəkləsinlər və sizin işinizdən razı qalsınlar.

Bunu da bilməlisiniz ki, sizin fəaliyyətinizə diqqət göstəriləcək, nəzarət olunacaqdır. Elə işləməlisiniz ki, mənim tərəfimdən verilən bütün tapşırıqlar yerinə yetirilsin, Ağstafa və İmişli rayonlarının uğurlu inkişafı təmin edilsin.

* * *

**Elçin Rzayev:** Möhtərəm cənab Prezident, göstərdiyiniz bu böyük etimada görə Sizə dərindən təşəkkür edirəm. Bu etimaddan irəli gələn məsuliyyətin dərinliyini dərk edərək, Sizi əmin etmək istəyirəm ki, üzərimə düşən, dövlətimizə bağlı vəzifələrin həyata keçirilməsinə və qarşıya qoyulan məqsədlərə ləyaqətlə nail olmaq üçün var qüvvəmlə çalışacağam. Çox sağ olun, cənab Prezident.

**Seymur Orucov:** Möhtərəm cənab Prezident, mən də bu çox böyük və məsuliyyətli etimada görə öz adımdan və Yeni Azərbaycan Partiyasının gəncləri adından Sizə dərin minnətdarlığımızı bildirirəm. Bu

etimad mənim timsalımda bu partiyanın gənclərinə olan etimaddır və Azərbaycan gəncliyinə böyük stimuldur. Siz dəfələrlə öz çıxışlarınızda demisiniz ki, Azərbaycan gəncliyinə güvəniniz və etimadınız böyükdür.

Gənclərin bu gün ölkənin ictimai-siyasi həyatında fəal olmasının əsası ulu öndərimiz tərəfindən qoyulmuşdur. Çünki keçən əsrin 90-cı illərinin əvvəllərində hakimiyyəti zəbt etmiş AXC–Müsavat dövründə Azərbaycan gəncliyini zorla ali təhsil ocaqlarından, iş yerlərindən mitinqlərə və onların yarıtmaz liderlərinə dəstək tədbirlərinə aparırdılar. Gənclərimiz çox bədbin ruhda idilər. Lakin ulu öndərimiz hakimiyyətə gəldikdən sonra Azərbaycan gəncliyində gənclik ruhu özünə qayıtdı. Ulu öndər bütün Azərbaycan gəncliyini vahid azərbaycançılıq ideologiyası ətrafında birləşdirdi. Siz də bu gün bu siyasəti yeni üslubda, çox möhtəşəm formada həyata keçirirsiniz.

Möhtərəm cənab Prezident, bu gün Azərbaycan gəncliyi Sizə borcludur. Ona görə borcludur ki, Siz bizi dövlət orqanlarında önə çəkirsiniz. Bununla bərabər, Siz və Birinci vitse-prezidentimiz biz gənclərin, Azərbaycan xalqının canını da qoruyursunuz. Çünki bu gün dünyada baş verən bəladan göründü ki, bir çox dövlətlər bu prosesi Sizin qədər dəqiq, vaxtında, az itki ilə idarə edə bilmədi. Bu da Sizin liderlik xüsusiyyətinizdən irəli gəlir. Çünki lider çox çətin gündə bilinir. Biz gənclər bununla fəxarət hissi keçiririk.

İstər Türk Şurasının, istərsə də «Qoşulmama Hərəkatı»nın Zirvə görüşlərinin keçirilməsi ilə bağlı bütün dövlət və hökumət başçılarının Sizin çağırışını-

za səs verməsi, dünyanı bu bəladan birgə qurtarmaq səyləriniz nümunədir və Azərbaycanın dünyada artan nüfuzundan xəbər verir.

Möhtərəm cənab Prezident, mən də Sizə söz verirəm ki, var gücümlə Heydər Əliyev siyasətinə, rayonun inkişafı və abadlaşması üçün var qüvvəmi səfərbər edərək dövlətimə, millətimə, Sizə ləyaqətlə xidmət edəcəyəm. Yolunuz yolumuzdur, cənab Prezident. Bir daha təşəkkür edirəm, minnətdarlığımı bildirirəm.

**İ l h a m  Ə l i y e v:** Sizə uğurlar arzulayıram.

## RAMAZAN BAYRAMI MÜNASİBƏTİLƏ AZƏRBAYCAN XALQINA TƏBRİK

Hörmətli həmvətənlər!

Sizi və dünyanın müxtəlif guşələrində yaşayan bütün soydaşlarımızı mübarək Ramazan bayramı münasibətilə ürəkdən təbrik edir, hamınıza ən səmimi arzu və diləklərimi yetirirəm.

İlahi hikmətlər xəzinəsi Quranın hidayət yolu olaraq bəşəriyyətə göndərildiyi Ramazan ayı insanları saflığa, vəhdətə, şəfqət və mərhəmətə dəvət edir. Bu ayda möminlər uca Yaradan qarşısında mənəvi borclarını ödəmək fürsəti qazanır, əxlaqi-ruhi kamilliyin nəfs üzərində qələbəsinin sevincini yaşayırlar.

Builki Ramazan ayını dünyanın böyük təhlükə ilə üz-üzə qaldığı mürəkkəb bir şəraitdə başa vururuq. Mövcud vəziyyət əhalimizin sağlamlığı və rifahı üçün təxirəsalınmaz tədbirlərin həyata keçirilməsini zəruri edir. Qarşılaşdığımız qlobal bəla ilə mübarizənin uğuru daha çox cəmiyyətin hər bir üzvünün yüksək məsuliyyəti və intizamlı davranışından asılıdır. Müqəddəs kitabımız Quran da daim birlik və bərabərliyə, sosial yardımlaşma və xeyirxahlığa çağırır. Əminəm ki, həmişə belə nəcib keyfiyyətləri ilə seçilən və milli-mənəvi dəyərlərini uca tutan xalqımız öz mütəşəkkilliyi və həmrəyliyi sayəsində bu çətinliyi də geridə qoyacaqdır.

Əziz bacı və qardaşlarım!

Orucluğun sınaqlarından alnıaçıq çıxan inanclı vətəndaşlarımız Ramazan ayını qürur və şükranlıq duyğuları ilə yola salırlar. Bu mübarək bayram günlərində ölkəmizin firavanlığı və əmin-amanlığı naminə etdiyiniz dualara qatılır, Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda canından keçən qəhrəman Vətən övladlarının xatirəsini bir daha ehtiramla yad edirəm.

Oruc və ibadətlərinizin Allah dərgahında qəbul olunması diləyi ilə hər birinizə möhkəm cansağlığı, ailələrinizə xoşbəxtlik, süfrələrinizə xeyir-bərəkət arzulayıram.

Ramazan bayramınız mübarək olsun!

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *22 may 2020-ci il*

## «SİGNİFY» ŞİRKƏTİNİN BAŞ İCRAÇI DİREKTORU ERİK RONDOLAT, MDB ÜZRƏ BAŞ MENECERİ ERİK BENEDETTİ VƏ DİGƏR NÜMAYƏNDƏLƏRİ İLƏ VİDEOKONFRANS FORMATINDA GÖRÜŞ

*22 may 2020-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 22-də «Signify» (əvvəlki adı Philips Lighting) şirkətinin təşəbbüsü ilə bu şirkətin baş icraçı direktoru Erik Rondolat, MDB üzrə baş meneceri Erik Benedetti və «Signify» rəhbərliyinin digər nümayəndələri ilə videokonfransda iştirak etmişdir.*

*1891-ci ildə yaradılmış bu şirkət dünyanın 74 ölkəsində fəaliyyət göstərir, 140 ölkədə xidmət və məhsul satışı həyata keçirir. «Signify» işıqlandırma avadanlıqları, sistemləri və xidmətləri sahəsində dünyada birinci yerdə olmaqla yanaşı, 10 «yaşıl» şirkətdən biridir.*

**İlham Əliyev:** Sabahınız xeyir. Sizi görməyə çox şadam.

**Erik Rondolat:** Sabahınız xeyir. Belə çətin dövrdə bizə vaxt ayırdığınıza görə minnətdaram. Mən də Sizi görməyimə çox şadam.

**İlham Əliyev:** Təşəkkür edirəm. Davosdakı görüşümüzü xatırlayıram. Mənə verilən məlumata görə, o vaxtdan bəri bizim yaxşı irəliləyişimiz olub.

Baxmayaraq ki, koronavirusla bağlı vəziyyət bizim planlarımıza bir az müdaxilə etdi, lakin mənə məlumat verildiyi kimi, bizim müzakirə etdiklərimizin və razılaşdırdıqlarımızın hamısı indi icra mərhələsindədir.

**Erik Rondolat:** Bəli, tamamilə doğrudur. Çox məmnunuq ki, Bakı şəhərində 33 min LED işıq quraşdırılacaq və onların sayəsində çox böyük həcmdə enerjiyə qənaət ediləcəkdir. Qənaət göstəricisi minimum 50 faiz təşkil edir. Həmin layihə davam etdirilir. Eyni zamanda, çox şadıq ki, bizə tam dəstək verirsiniz. Bu işə bağlantının yaradılması ilə başladıq. Bu ona görə edilir ki, sonrakı mərhələdə quraşdırılan işıqlar arasında bağlantı mümkün olsun.

**İlham Əliyev:** Çox yaxşı. Şadam ki, bayaq da qeyd etdiyim kimi, hər şey cədvələ uyğun olaraq gedir. Mənə məlumat verildi ki, Davosdakı görüşdən sonra sizin komandanız bizi mart ayında ziyarət edibdir. Sizin də qeyd etdiyiniz kimi, sentyabrın sonunadək bizdə Bakı üçün minlərlə yeni küçə işığını özündə ehtiva edəcək birinci mərhələ artıq icra edilmiş olacaqdır. Bu da birinci növbədə, küçələrin işıqlandırılması baxımından vəziyyəti yaxşı olmayan əraziləri əhatə edəcəkdir. Eyni zamanda, biz böyük miqdarda enerjiyə qənaət etmiş olacağıq. İnsanlar da bunun faydasını görəcəkdir. Bizim müzakirə etdiyimiz kimi, bu birinci layihədən sonra birgə fəaliyyətimizin genişləndirilməsinə, Bakı və digər şəhərlərin əhatə edilməsinə dair böyük planlarımız vardır. Birinci mərhələdə ola bilsin ki, böyük şəhərlər əhatə olunacaq. Biz Sumqayıt şəhərinin küçə

işıqları barədə danışdıq. Mənim bildiyimə görə qiymətləndirmə prosesi gedir. Beləliklə, ümid edirəm ki, bizim bu sahədə uzunmüddətli əməkdaşlığımız olacaqdır.

**Erik Rondolat:** Bəli, biz də dəqiqliklə həmin işləri görmək istərdik. COVID-19 səbəbindən bizdə işin icrası ilə bağlı müəyyən yubanma ola bilər. Lakin hesab edirəm ki, hamımız işin başa çatdırılmasına köklənmişik.

*Erik Rondolat işıqlandırma sistemlərinin quraşdırılmasının şəhərin yol hərəkəti təhlükəsizliyinin təmin edilməsində rolunu qeyd etdi. Pandemiya bitəndən sonra təmsil etdiyi şirkətin Azərbaycanla əməkdaşlığının uğurla davam edəcəyinə ümidvar olduğunu bildirdi:*

– Biz çox fərəhlənirik ki, işıqlandırılmanın ən son yeniliklərini Bakıda tətbiq edə biləcəyik.

**İlham Əliyev:** Bəli, təşəkkür edirəm. Bilirəm ki, şirkətiniz artıq Azərbaycanda dövlət və özəl sektorla bir neçə layihə həyata keçirib. Lakin Davosda müzakirə etdiyimiz və indi birgə icra etdiyimiz bu layihə ən böyükmiqyaslı layihədir. Əvvəllər də müzakirə etdiyimiz kimi, onun gələcək üçün böyük potensialı vardır. Çünki bu, birinci təcrübədir. Mən əminəm ki, bu çox uğurlu bir təcrübə olacaq və sonra da bələdiyyə, şəhər idarəetmə orqanları bunun faydasını görəcəkdir.

*Bildirildi ki, biz çoxlu enerjiyə, yerin təkindən hasil edilən yanacağa digər məqsədlər üçün, ixrac üçün qənaət edəcəyik.*

**Erik Rondolat:** Əvvəlcə qeyd etdiyim kimi, biz sonrakı mərhələdə bağlantını da təmin edəcəyik

və onun sayəsində əlavə imkanlar ortaya çıxacaqdır. Beləliklə, Bakı şəhərinin işıqları «Ağıllı şəhər»in komponentinə çevriləcəkdir. Bir daha verdiyiniz dəstəyə görə minnətdaram.

**N a t i q  Ə m i r o v** (*Prezidentin köməkçisi*): Cənab Prezident, əvvəla, sıx iş qrafikinizə baxmayaraq, bu görüşü təşkil etdiyinizə və bizə «Signify» şirkəti ilə birlikdə bu layihə ilə bağlı bütün məsələləri müzakirə etmək imkanı yaratdığınıza görə Sizə təşəkkürümü bildirmək istəyirəm. Əslində «Bakı – ağıllı şəhər» işıqlandırılması layihəsi üzrə işlərin gedişi hazırda çox yaxşıdır və bir çox işlər görülübdür. Onlar bizim müqaviləni tamamlayıblar. İyul ayından başlayaraq, bütün lampaların ölkəmizə idxalı prosesi başlayacaq və idxal prosesi sentyabrın sonu – oktyabrın əvvəlində başa çatacaqdır.

**E r i k  R o n d o l a t:** Cənab Prezident, bir məsələni də qeyd edim. Bütün dünyada hazırda böhrandır. Bilirik ki, Siz pandemiyanı dayandırmaq üçün Azərbaycan Respublikasında çox ciddi tədbirlər görürsünüz.

*«Signify» şirkətinin baş icraçı direktoru COVID-19 virusu ilə mübarizə sahəsində müasir texnologiyalar üzərində iş aparıldığını qeyd etdi və bu sahədə ölkəmizlə əməkdaşlığa hazır olduğunu vurğuladı.*

**İ l h a m  Ə l i y e v:** Virus bütün ölkələrə təsir edib. Aydındır ki, o, yoxa çıxmayacaq, biz bu virusla yaşamalı olacağıq. Ona görə də düşünürəm ki, bu ehtiyat tədbirləri, əlbəttə, artıq bizim həyatımıza çox uzun müddətə daxil olub. Bu səbəbdən də bizim müasir, ən mürəkkəb texnoloji tələblərə cavab ve-

rən qabaqlayıcı vasitələrə ehtiyacımız vardır. Biz insanlarımızı qorumaq üçün əlimizdən gələni edirik. Lap əvvəldən çox mühüm qabaqlayıcı tədbirlər gördük, bu da bizə insanlarımızı qorumağa və minimum itki ilə bu vəziyyətdən çıxmaq üçün yol tapmağa imkan verdi. Bizim səylərimiz Azərbaycanı koronavirusa qarşı mübarizədə nümunə adlandıran Ümumdünya Səhiyyə Təşkilatı tərəfindən də qiymətləndirilib. Əlbəttə ki, mən sizin bəşəriyyətin özünü qorumasına yardım etmək üçün texnologiyalar təşəbbüsünüzü tam dəstəkləyirəm.

*Şirkətin MDB üzrə baş meneceri Erik Benedetti Bakının müxtəlif hissələrinin, o cümlədən şəhərin mərkəzi tarixi hissəsinin müvafiq şəkildə işıqlandırılması ilə bağlı aparılan işlərdən söz açdı.*

*Şirkətin Qafqaz və Mərkəzi Asiya ölkələri üzrə satış meneceri Andrey Zaxarkiv Bakıda həyata keçiriləcək «Ağıllı şəhər» layihəsindən danışdı və pilot layihənin icrası üçün işlərin hazır olduğunu bildirdi.*

*Erik Rondolat kənd təsərrüfatında, o cümlədən heyvandarlıq, quşçuluq və əkinçilik sahələrində məhsuldarlığın əhəmiyyətli dərəcədə artırılması, ekoloji təmiz kənd təsərrüfatı məhsullarının istehsalı, su istehlakının azaldılması sahələrində əməkdaşlıq məsələlərinə toxundu, ölkəmizlə bu istiqamətlərdə təcrübəni bölüşməyə hazır olduğunu vurğuladı. Söhbət zamanı kənd təsərrüfatı sahəsində müasir texnologiyaların tətbiqi və bu işdə gənc kadrların hazırlanması məsələləri də müzakirə olundu.*

**İ l h a m Ə l i y e v:** Bu sahədə aparılan islahatlar sayəsində biz daha çox gəncin kənd təsərrüfatı üzrə

mütəxəssis olmaq istəyini və Aqrar Universitetdə bu peşəni seçmək istəyən gənclərin sayının artdığını görürük. Biz yeni elektron kənd təsərrüfatı sistemini həyata keçiririk. Bu, artıq bizə həyatımızın və iqtisadiyyatımızın mühüm sahəsinin səmərəliliyini artırmağa çox kömək edir. Çünki ölkə əhalisinin, demək olar ki, 50 faizi kənd yerlərində yaşayır. Beləliklə, əminəm ki, bu bizim birgə həyata keçirə biləcəyimiz çox mühüm yeni layihə ola bilər.

Ümumilikdə Azərbaycan yeni texnologiyalara, innovasiyalara hazırdır. Biz artıq bunun üçün əhəmiyyətli insan kapitalı yaratmışıq və bizim dövlət xidmətləri, sosial xidmətlərlə bağlı texnologiyalarımız bu gün bəzi başqa ölkələr tərəfindən istifadə olunur. Biz yeni texnologiyalara tam açığıq, çünki onlar yeni miqyasa, dinamizmə, tərəqqiyə, iş yerlərinə və rifaha gətirib çıxarır.

**Erik Rondolat:** Təşəkkür edirəm, cənab Prezident. Bilirəm ki, Siz çox məşğulsunuz. Bizə bu səhər vaxt ayırdığınıza və Davosdakı son görüşümüzdən sonra işlərin olduqca sürətli həyata keçirilməsinə görə çox təşəkkür edirəm. Siz bizim şirkətə və şəxsən mənə arxalana bilərsiniz. Biz planlaşdırdığımız bütün birgə layihələri dəstəkləməyə hazırıq. Mən çox şadam ki, Siz ölkənizdə texnologiyaların inkişafına önəm verirsiniz. Çünki bir çox hallarda bəzi ölkələr texnologiyanın ölkənin inkişafı üçün bir vasitə olduğunu bilmir və ya buna əhəmiyyət vermir. Azərbaycanda isə Siz bu texnologiyaların çox mütərəqqi olduğunu nümayiş etdirirsiniz. Vaxtınızı çox almaq istəmirik. Sizinlə danışmaq imkanına görə çox şadam

və Azərbaycan Respublikasına tərəqqi arzulayıram. Bilirəm ki, bu ayın 28-i Azərbaycanda Respublika Günü qeyd edilir. Mən Ramazan ayının qeyd edildiyi bir ölkədə doğulmuşam və bilirəm ki, bu gün Ramazan ayının son günləridir. Bu münasibətlə də Sizi təbrik edirəm və bir daha dərin minnətdarlığımızı bildirirəm.

**İlham Əliyev:** Çox sağ olun. Çox təşəkkür edirəm. Mən bizim şəxsi münasibətlərimizi yüksək qiymətləndirirəm, onlar nəticəyə hədəflənmiş münasibətlərdir. Düşünürəm ki, bu, insanların həyatını yaxşılaşdırmaq, iqtisadiyyatı gücləndirmək, resurslara qənaət etmək və kənd təsərrüfatında daha çox nəticə əldə etmək üçün sizin müasir texnologiyalarla bizim ölkənin bu texnologiyaların tətbiqində liderlərdən biri olmaq istəyinin çox yaxşı vəhdətidir. Mən bilirəm ki, sizin şirkətiniz bu sahədə dünyada aparıcı şirkətlərdən biridir. Ona görə də nə qədər çox yeni texnologiya ixtira etsəniz, birgə əməkdaşlığımız üçün bir o qədər də çox imkan yaranacaqdır. Buna görə sizə təşəkkür edirəm. Tezliklə sizinlə şəxsən görüşməyə ümid edirəm.

**PAKİSTAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ARİF ALVİYƏ**

Hörmətli cənab Prezident!

Kəraçi şəhəri yaxınlığında Pakistan Beynəlxalq Hava Yollarına məxsus sərnişin təyyarəsinin qəzaya uğraması nəticəsində çoxsaylı insan tələfatı xəbəri məni olduqca kədərləndirdi.

Bu faciə ilə əlaqədar Sizə, həlak olanların ailələrinə və yaxınlarına şəxsən öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verirəm.

Allah rəhmət eləsin.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *22 may 2020-ci il*

## TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ RƏCƏB TAYYİB ƏRDOĞAN İLƏ TELEFONLA GÖRÜŞ

*24 may 2020-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə mayın 24-də Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan telefonla zəng etmişdir.*

*Türkiyə Prezidenti dövlət başçımızı və xalqımızı Ramazan bayramı münasibətilə təbrik etdi, firavanlıq arzularını çatdırdı.*

*Prezident İlham Əliyev göstərilən diqqətə və təbrikə görə minnətdarlığını bildirdi, öz növbəsində, bayram münasibətilə Türkiyə Prezidentinə və Türkiyə xalqına təbriklərini və ən xoş arzularını ifadə etdi.*

*Telefon söhbəti zamanı koronavirus pandemiyası ilə mübarizə sahəsində görülən işlərdən danışıldı, qardaş ölkələrimiz və xalqlarımızın həmişə olduğu kimi, bu ağır dövrdə də bir-birinin yanında olduqları vurğulandı.*

*Prezident İlham Əliyev və Prezident Rəcəb Tayyib Ərdoğan Azərbaycan–Türkiyə dostluq və qardaşlıq münasibətlərinin bundan sonra da bütün istiqamətlərdə uğurla inkişaf edəcəyinə əmin olduqlarını bildirdilər.*

## ŞAMAXI RAYONUNA SƏFƏR

*25 may 2020-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva mayın 25-də Şamaxı rayonuna səfərə gəlmişlər.*

*Dövlət başçısı və xanımı xalqımızın ümummilli lideri Heydər Əliyevin Şamaxı şəhərinin mərkəzində ucaldılmış abidəsini ziyarət edərək, önünə gül dəstəsi qoydular.*

### Pirsaat Baba ziyarətgahının yenidən qurulması çərçivəsində görülmüş işlərlə tanışlıq

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva mayın 25-də Şamaxı şəhərində Pirsaat Baba ziyarətgahının yenidən qurulması çərçivəsində görülmüş işlərlə tanış olmuşlar.*

*Prezidentin köməkçisi Anar Ələkbərov dövlət başçısına və xanımına tikinti-bərpa və yenidən qurulma tədbirləri barədə məlumat verdi. Bildirildi ki, zəlzələ zamanı ziyarətgahın divarlarında çatlar əmələ gəlmişdi.*

*Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva Pirsaat Babanın məzarını ziyarət etdilər.*

*Pirsaat Baba ziyarətgahı bütün ölkə əhalisinin ziyarət etdiyi müqəddəs ocaqlardan biridir və hər gün buraya yüzlərlə zəvvar gəlir. Ziyarətçilərin rahatlığını təmin etmək məqsədilə Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın təşəbbüsü ilə burada geniş yenidən qurulma işlərinə başlanılıbdır.*

*Qeyd edək ki, təxminən IX–XV əsrlər arasında tikilmiş türbə 1918-ci ildə Hacı Cəfərqulu tərəfindən yenidən ucaldılıb. Heydər Əliyev Fondu tərəfindən 2020-ci ildən başlanılmış yenidən qurulma işləri həm tarixi abidə, həm də müqəddəs ziyarətgah olan Pirsaat pirinin tamamilə yeni görkəmdə əhalinin ixtiyarına verilməsinə imkan yaradacaqdır.*

*Dini ziyarətgahlarımız da xalqımızın milli-mənəvi dəyərlərinə həssas münasibətinin əyani nümunələrindəndir. Azərbaycanın müasir tarixində müstəsna xidmətləri olan ulu öndər Heydər Əliyevin prinsipial vətəndaşlıq mövqeyi, iradəsi, qətiyyəti, milli-mənəvi dəyərlərə dərindən bağlılığı nəticəsində ölkəmizdə ziyarətgahlara yeni həyat verildi.*

*Ulu öndərin müəyyənləşdirdiyi mükəmməl siyasi kursun layiqincə davam etdirilməsinə və daha da zənginləşdirilməsinə Prezident İlham Əliyevin xüsusi diqqəti sayəsində ziyarətgahların və dini məbədlərin yenidən qurulmasının miqyasına görə heç bir ölkə Azərbaycanla müqayisə edilə bilməz. Bu baxımdan Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu da səylərini əsirgəmir, istər ölkəmizdə, istərsə də xaricdə silsilə layihələr reallaşdırır. Bunlardan biri də Şamaxı şəhərinin girəcəyində, Bakı–Şamaxı–Yev-*

*lax avtomobil yolunun kənarında, Pirsaat çayının sahilində yerləşən Pirsaat Baba ziyarətgahıdır.*

## Şamaxı rayonuna ayrılmış nəqliyyat vasitələri və xüsusi texnikaya baxış

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva mayın 25-də Şamaxı rayonuna ayrılmış nəqliyyat vasitələri və xüsusi texnikaya baxmışlar.*

*Bir sıra sahələrdə, o cümlədən şəhər təsərrüfatı, kommunal, səyyar tibbi və digər sahələrdə xidmət keyfiyyətini yaxşılaşdırmaq üçün Prezident İlham Əliyevin sərəncamına uyğun olaraq, Şamaxı rayonuna çoxlu sayda nəqliyyat vasitələri və xüsusi texnika ayrılıbdır.*

*Şamaxıya səfəri zamanı həmin nəqliyyat vasitələri və texnika dövlət başçısı İlham Əliyevə və xanımı Mehriban Əliyevaya təqdim olundu.*

*Bildirildi ki, texnika və nəqliyyat vasitələri seçilərkən rayonun turizm potensialı, seysmik ərazidə yerləşməsi və landşaftı nəzərə alınıb. Rayonda sərnişindaşımanın lazımi səviyyədə təşkili üçün 10 avtobus ayrılıb. Rayonun kommunal təsərrüfatında bundan sonra məişət tullantıları daşıyan, küçə süpürən və yuyan, qartəmizləyən və digər müasir texniki vasitələrdən istifadə ediləcəkdir. Şamaxının səhiyyə potensialına 3 təcili tibbi yardım avtomobili və 1 reanimasiya maşını əlavə olunacaqdır. Bundan başqa, rayonun bərpa-quruculuq və abadlıq işlərində istifadə etmək üçün çoxlu sayda ağır və yüngül tonnajlı yük*

*maşını, ağır tonnajlı buldozer, çoxfunksiyalı ekskavator və digər texniki vasitələr ayrılıb. Bu təşəbbüs dövlət başçısının regionların daha da müasirləşməsi, şəhər, qəsəbə və kəndlərdə rahat həyat şəraitinin yaradılması üçün apardığı sosial-iqtisadi siyasətin daha bir əyani göstəricisidir.*

*Dövlət başçısı başqa şəhərlərin də belə texnika və nəqliyyat vasitələri ilə təchizatını təşkil etmək üçün təkliflər hazırlanması barədə tapşırıq* verdi.

**İ l h a m  Ə l i y e v:** Avtobuslar gərək bu gündən xətlərə çıxsın. Ondan sonra isə təcili tibbi yardım maşınları. Şamaxı rayonunun təchizatı ilə bağlı görülən işlər indiki mərhələdə kifayətdir. Həm Prezidentin ehtiyat fondundan, həm də dövlət büdcəsindən vəsait ayrılıb. Gərək biz prinsipcə bütün şəhərlərimizdə texnika ilə təchizatı yüksək səviyyəyə qaldıraq. Bu baxımdan Şamaxı birinci şəhərdir. Mən demişəm, digər şəhərlərdə, bir çox yerlərdə şəhər nəqliyyatı bərbad vəziyyətdədir. Kommunal texnikanın çatışmazlığı problemlər yaradır, təkliflər hazırlayın, bizim bütün şəhərlərimizdə müasir texnika təchizatı təmin edilməlidir – həm sərnişin nəqliyyatı, həm kommunal texnika, həm də təcili tibbi yardım maşınları. Bakı şəhərində bu öz həllini tapıb. Baxmayaraq ki, Bakıda hələ də köhnədən qalan avtobuslar var, onlar da yavaş-yavaş yeniləri ilə əvəzlənir. Bir çox şəhərlərə təcili tibbi yardım maşınlarının göndərilməsi təmin edilibdir. Ancaq vaxt keçir, onların da istismar müddəti başa çatır, sıradan çıxır, qəzaya uğrayır. İndi Şamaxı rayonunun timsalında biz prinsipcə görürük ki, əhalini nəzərə

alaraq nə qədər texnika lazımdır. Ona görə digər rayonlarda da nə qədər texnika lazımdır, biz bunları kompleks şəkildə, tədricən həll edək.

**Anar Ələkbərov** (*Prezidentin köməkçisi*): Oldu, cənab Prezident, aydındır.

**İlham Əliyev:** Mən göstəriş vermişdim ki, Şamaxı şəhərinin avtomobil yollarının təmiri ilə bağlı tədbirlər görülsün. Kənd yollarının bir çoxu asfaltlanıb, hətta ucqar kəndlərə də asfalt yollar çəkilibdir. Amma şəhər yolları o qədər də yaxşı vəziyyətdə deyil. Ona görə də həm kənd yollarının çəkilişinin davam etdirilməsi, həm də Şamaxı şəhərinin yol infrastrukturunun müasirləşməsi ilə əlaqədar əlavə tədbirlər görülməlidir. Dayanacaqlar da pis vəziyyətdədir.

Bu yeni texnika bütün şəhər infrastrukturunun müasirləşdirilməsinə xidmət göstərəcəkdir. Əsas məsələ insanların sağlamlığı və təhlükəsizliyidir. Bu müasir təcili tibbi yardım maşınları hər yerdə lazımdır, özü də ən aparıcı şirkətlərin istehsalıdır. Əlbəttə, yeni avtobuslar da həm rahatlıq gətirəcək, həm də təhlükəsizlik baxımından çox vacibdir.

**Anar Ələkbərov:** Cənab Prezident, Sizə təşəkkür edirik.

## HEYDƏR ƏLİYEV FONDU TƏRƏFİNDƏN ŞAMAXI ŞƏHƏRİNDƏ İNŞA EDİLMİŞ 2 SAYLI KÖRPƏLƏR EVİ-UŞAQ BAĞÇASININ VƏ RAYONUN MEYSƏRİ KƏNDİNDƏ ƏSASLI TƏMİR OLUNMUŞ KÖRPƏLƏR EVİ-UŞAQ BAĞÇASININ AÇILIŞI MƏRASİMİ

*25 may 2020-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva mayın 25-də Heydər Əliyev Fondu tərəfindən Şamaxı şəhərində inşa edilmiş 2 saylı Körpələr evi-uşaq bağçasının və rayonun Meysəri kəndində əsaslı təmir olunmuş Körpələr evi-uşaq bağçasının açılışı mərasimlərində iştirak etmişlər.*

*Dövlətimizin həyata keçirdiyi sosial-iqtisadi siyasətdə uşaqların təlim-tərbiyəsinin təşkili, onların sağlamlığının qorunması diqqət mərkəzində saxlanılır. Bu sahədə həyata keçirilən layihələrə Heydər Əliyev Fondu mühüm töhfələr verir. Fondun ölkəmizdə məktəbəqədər tərbiyə müəssisələrinin yenidən qurulması, müasir uşaq müəssisələrinin inşası sahəsindəki fəaliyyəti müstəsna əhəmiyyətə malikdir. Uşaqların təlim-tərbiyəsinin Heydər Əliyev Fondunun əsas fəaliyyət istiqamətlərindən birini təşkil etdiyini «Məktəbəqədər təhsil müəssisələrinin inkişafı» proqramı bir daha təs-*

*diqləyir. Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Fondun təhsillə bağlı fəaliyyət dairəsində məktəbəqədər təhsil müəssisələrinin yenidən qurulmasına, bu sahədə ciddi keyfiyyət dəyişikliyinə nail olunmasına geniş yer ayrılıb və bu sahədə çox mühüm nəticələr əldə edilibdir. Şamaxı rayonunun ehtiyacları nəzərə alınaraq, Heydər Əliyev Fondunun təşəbbüsü ilə bu rayonda inşa olunmuş 2 uşaq bağçası Fondun həyata keçirdiyi belə layihələrin ardıcıl xarakter aldığını bir daha aydın göstərir.*

*Şamaxıda 2 saylı Körpələr evi-uşaq bağçası ilə tanışlıq zamanı dövlət başçısına və xanımına məlumat verildi ki, 110 yerlik bu müəssisədə uşaqların təlim-tərbiyəsi ilə məşğul olmaq üçün hərtərəfli şərait yaradılıb. Bir sözlə, binada uşaqların gələcəyin sağlam vətəndaşı kimi yetişmələri üçün hərtərəfli şərait qurulub. Qruplar yaradılarkən müasir təlim-tərbiyə qaydaları rəhbər tutulub. Uşaqların istirahəti və əyləncəsi üçün geniş imkanlar açılıb. Təhsil ocağındakı bütün otaqlar lazımi avadanlıqlarla təchiz edilib. Burada balacaların ilk yaşlarından intellektual, fiziki və əqli inkişafı, onların istedad və qabiliyyətlərinin üzə çıxması, sağlamlıqlarının qorunması, insanlarla ünsiyyətin qurulması diqqət mərkəzində saxlanılacaqdır.*

*Bütövlükdə Heydər Əliyev Fondunun təşəbbüsü ilə gənc məcburi köçkün ailələri üçün 16 mənzilli 1 yaşayış binası, rayonun Məlikçobanlı, Birinci Çaylı, Quşçu, Avaxıl, Dədəgünəş və Meysəri kəndlərində ümumilikdə 1212 şagird-yerlik orta məktəb binaları, Şamaxı şəhəri, Şəhriyar qəsəbəsi, Quşçu kəndlərində*

*ümumilikdə 290 yerlik körpələr evi-uşaq bağçaları, Həmyəli, Birinci Çaylı, Quşçu, Mərzəndiyə, Avaxıl, Məlhəm və Meysəri kəndlərində tibb məntəqələri inşa edilib, Qəleybuğurd və Saqiyan kəndlərində 320 şagird-yerlik orta məktəblər, 210 yerlik Şamaxı Texniki Humanitar və Təbiət Fənləri Təmayüllü Liseyi və rayon Mədəniyyət Mərkəzi əsaslı təmir olunubdur.*

*Açılışı olan tədris-tərbiyə ocaqlarından biri də Şamaxının Meysəri kəndindəki Körpələr evi-uşaq bağçasıdır. 1926-cı ildən fəaliyyətə başlamış Meysəri kənd 120 şagird-yerlik tam orta məktəbin köhnə binası istismar üçün yararsız olduğuna görə, 2018-ci ildə Heydər Əliyev Fondunun təşəbbüsü ilə kəndin giriş hissəsində 132 şagird-yerlik yeni məktəb inşa edildikdən sonra Fond tərəfindən məktəbin köhnə binası Körpələr evi-uşaq bağçasına uyğunlaşdırılmış layihə üzrə əsaslı təmir edilibdir. Körpələr evi-uşaq bağçasında 2019-cu ildə başlanılmış təmir işləri 2020-ci ilin aprel ayında yekunlaşdırılıbdır.*

*Qırx yerlik Körpələr evi-uşaq bağçasında yataq və oyun otaqları, idman və musiqi zalları və digər otaqlar mövcuddur. Bağçanın həyətyanı ərazisində yenidən qurulma və yaşıllaşdırma işləri aparılıb, uşaq əyləncə qurğuları, müasir işıqlandırma sistemləri quraşdırılıbdır. Kənd yerlərində belə bağçaların və digər sosial, mədəni, təhsil obyektlərinin istifadəyə verilməsi ölkəmizdə şəhərlə kənd arasında fərqin getdikcə aradan qaldırılması üçün atılan mühüm addımlardandır. Belə layihələr göstərir ki, Azərbaycanda həyata keçirilən sosial layihələrin miqyası və coğrafiyası getdikcə daha da genişlənir.*

## İSTİSMAR MÜDDƏTİ BAŞA ÇATMIŞ BİNALARDA YAŞAYAN VƏTƏNDAŞLARIN MƏNZİL-MƏİŞƏT ŞƏRAİTİNİN YAXŞILAŞDIRILMASI ÜÇÜN TİKİLMİŞ 51 MƏNZİLLİ BİNAYA BAXIŞ

*25 may 2020-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva mayın 25-də Şamaxı şəhərində istismar müddəti başa çatmış binalarda yaşayan vətəndaşların mənzil-məişət şəraitinin yaxşılaşdırılması üçün tikilmiş 51 mənzilli binada olmuşlar.*

*İstismar müddəti başa çatmış binalarda yaşayan vətəndaşların mənzil-məişət şəraitinin yaxşılaşdırılması üçün Prezident İlham Əliyevin sərəncamı ilə tikilmiş binada sakinlərin rahatlığı üçün hər cür şərait yaradılıbdır.*

*Qeyd edək ki, bu gün ölkədə həyata keçirilən sosial islahatların əsas təsiri özünü insanların yaşayış səviyyəsində göstərir. Dövlət daha çox aztəminatlı və xüsusi diqqət tələb edən təbəqənin sosial qayğılarının həllinə çalışır. Bu zaman dövlət məsələyə həm də kompleks şəkildə yanaşır və bu yanaşma əhalinin bütün təbəqələrini əhatə edir. Bu sırada qaçqın və məcburi köçkünlərin həyat şəraitinin yaxşılaşdırılması diqqət mərkəzində saxlanılır. Artıq bu kateqoriyadan olan insanlar*

*üçün ölkənin müxtəlif ərazilərində salınmış yeni qəsəbələrdə və müasir yaşayış komplekslərində 300 mindən çox insan məskunlaşıb. Şəhid ailələrinin, müharibə veteranlarının mənzillərlə təmin olunması da dövlətin sosial siyasətinin prioritetləri sırasına daxildir. Dövlət həm də təbii fəlakətdən zərər çəkən vətəndaşların problemlərinin həllinə xüsusi qayğı ilə yanaşır. Baxmayaraq ki, təbii fəlakət hər bir ölkədə baş verir, amma başqa ölkələrdən fərqli olaraq, Azərbaycanda təbii fəlakətin fəsadları vətəndaşın dövlətə etimadının, dövlətin isə vətəndaşın qayğısına qalmaq vəzifəsinin birliyi sayəsində həll olunur. Ötən ilin fevralında baş vermiş zəlzələ zamanı Şamaxıda xeyli sayda ev qəzalı vəziyyətə düşmüşdü. Dərhal hadisə yerinə gələn dövlət başçısı təbii fəlakətin fəsadlarının aradan qaldırılması üçün təcili tədbirlər görülməsi ilə bağlı müvafiq tapşırıqlar verdi və sərəncamlar imzaladı. Bunun nəticəsi olaraq, indiyədək çoxlu sayda yeni ev və çoxmərtəbəli bina tikilib və bərpa olunubdur.*

*Dövlət başçısı və xanımı daha sonra zəlzələdən zərər çəkənlər üçün inşa olunmuş 110 mənzilli binalardakı mənzillərə baxdılar. Ötən il baş vermiş zəlzələdən sonra rayonda bütövlükdə 205 ev tikilib, 1219 ev bərpa və 1125 ev isə təmir olunubdur. Ümumilikdə 174 mənzilli, o cümlədən 4 mərtəbəli 44 mənzilli, 5 mərtəbəli 20 mənzilli və 5 mərtəbəli 110 mənzilli binaların tikintisi başa çatdırılıb. 1560 şagird-yerlik şəhər 2 saylı tam orta məktəb üçün yeni korpusun inşası və digər korpusun əsaslı təmiri davam etdirilir.*

*Görülmüş bütün bu işlərə Heydər Əliyev Fondu çox mühüm töhfələr verir. İndiyədək Fond tərəfindən 35 fər-*

*di ev inşa edilib, 12 evdə bərpa işləri aparılıb, 290 yerlik 4 Körpələr evi-uşaq bağçası, 360 şagird-yerlik Məlikçobanlı kənd tam orta məktəbi üçün yeni binalar tikilib və 408 şagird-yerlik Çarhan kənd tam orta məktəbin tikintisi davam etdirilir.*

**Pir Ömər Sultan ziyarətgahında**

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva mayın 25-də Şamaxıda Pir Ömər Sultan ziyarətgahında olmuşlar.*

*Heydər Əliyev Fondunun təşəbbüsü ilə burada zəruri konservasiya və bərpa işləri aparılmaqla, ərazinin arxeoparka çevrilməsi planlaşdırılır.*

*Məlumat verildi ki, Pir Ömər Sultan ziyarətgahının xəlvəti sufi məktəbinin banisi Əbu Siracəddin Ömər Avaxılıyə aid olduğunu müəyyən etmək məqsədilə tədqiqatlar aparılır. Arxeoloqlar hesab edirlər ki, bu ərazi Azərbaycanda və dünyada xəlvətiliklə bağlı ilk xanəgahdır. 133 kvadratmetr sahədə aparılmış ilkin arxeoloji tədqiqatlar zamanı XIV əsrin ortalarına aid türbə qalıqları və onun məhz xəlvətilik təliminin banisi Pir Ömər Avaxılıyə aid olduğunu təsdiqləyən artefaktlar aşkar olunub. Türbə qaya və çay daşlarından istifadə olunmaqla inşa edilib. Türbənin üstü tağvarı formada olan giriş qapısı cənub tərəfdəndir. Türbənin içərisində kənarları birqat bişmiş kərpiclə əhatələnən iki qəbir kamerası, şirəli və şirəsiz keramika nümunələri, müxtəlif tarixi dövrlərə aid pullar aşkar olunub. Ziyarətgahın ətrafında çoxlu sayda insan dəfn olunub. Onlardan türbənin şərq*

*tərəfində tədqiq olunan iki qəbir üzərindəki kitabə Pir Ömər ziyarətgahının məhz xəlvətilik sufi təlimi-nin banisi Pir Ömər Avaxılıyə aid olduğunu təsdiq-ləyən çox mühüm tarixi mənbə kimi dəyərləndirilə bilər.*

*Tədqiqatların davamlı və səmərəli aparılması, zi-yarətgahın təbii və antropogen təsirlərdən qorunması məqsədilə abidənin üstü yüngül konstruksiyalardan istifadə olunmaqla örtülübdür.*

## UKRAYNA PREZİDENTİ VLADİMİR ZELENSKİ İLƏ TELEFONLA GÖRÜŞ

*27 may 2020-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə mayın 27-də Ukrayna Prezidenti Vladimir Zelenski telefonla zəng etmişdir.*

*Ukrayna Prezidenti koronavirusla mübarizə ilə bağlı Azərbaycanın Ukraynaya göstərdiyi humanitar yardıma görə minnətdarlığını bildirdi, bunu bu ağır dövrdə dostluq münasibətlərinin təzahürü kimi dəyərləndirdi.*

*Prezident İlham Əliyev bu yardımın ölkələrimiz və xalqlarımız arasında münasibətlərin ruhunu əks etdirdiyini bildirdi. Telefon söhbəti zamanı Azərbaycan investisiyası hesabına Ukraynada həyata keçirilən layihələrin icrası ilə bağlı məsələlər də müzakirə olundu.*

*Azərbaycan Prezidenti İlham Əliyev və Ukrayna Prezidenti Vladimir Zelenski postpandemiya dövründə də siyasi, iqtisadi, ticari, nəqliyyat sahələrində əməkdaşlığın davam etdirilməsinin zəruriliyini vurğuladılar.*

*Ukrayna Prezidenti Ramazan ayının başa çatması və Respublika Günü münasibətilə Prezident İlham Əliyevi və Azərbaycan xalqını təbrik etdi.*

*Dövlət başçısı təbrikə görə minnətdarlığını bildirdi.*

*Söhbət zamanı ikitərəfli və beynəlxalq məsələlərlə bağlı fikir mübadiləsi aparıldı.*

## AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİNİN ŞƏRƏFİNƏ UCALDILMIŞ ABİDƏNİ ZİYARƏT

*28 may 2020-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 28-də Azərbaycan Xalq Cümhuriyyətinin şərəfinə Bakının İstiqlaliyyət küçəsində ucaldılmış abidəni Respublika Günü münasibətilə ziyarət etmişdir.*

*Dövlət başçısı abidənin önünə gül dəstəsi qoydu.*

* * *

*102 il əvvəl – 1918-ci il mayın 28-də Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması ölkəmizin həyatına böyük tarixi hadisə kimi daxil oldu. Müstəqil, azad, demokratik respublika qurmaq məqsədini qarşıya qoyan Azərbaycan Xalq Cümhuriyyəti cəmi 23 aylıq fəaliyyəti dövründə xalqın milli mənlik şüurunu özünə qaytardı, onun öz müqəddəratını təyin etməyə qadir olduğunu nümayiş etdirdi. 1918-ci il mayın 28-də qəbul edilmiş İstiqlal Bəyannaməsindən – Əqdnamədən də göründüyü kimi, bu möhtəşəm tarix xalqımızın müstəqillik hisslərini daha da gücləndirdi.*

*Yeni qurulmuş Azərbaycan Xalq Cümhuriyyəti öz üzərinə götürdüyü çətin tarixi vəzifəni şərəflə yerinə yetirdi. Azərbaycanın ilk parlamenti və hökuməti,*

*dövlət aparatı təşkil edildi, ölkənin sərhədləri müəyyənləşdirildi, bayrağı, himni və gerbi yaradıldı, ana dili dövlət dili elan edildi, ordu quruculuğu sahəsində ciddi tədbirlər həyata keçirildi, maarif və mədəniyyətin inkişafına xüsusi diqqət yetirildi. Azərbaycanın ilk universiteti təsis olundu, təhsil milliləşdirildi, xalqın sonrakı illərdə mədəni yüksəlişi üçün zəmin hazırlayan, ictimai fikir tarixi baxımından müstəsna əhəmiyyətli işlər görüldü.*

*Mövcudluğunun ilk günlərindən xalq hakimiyyəti və insanların bərabərliyi prinsiplərinə əsaslanan Azərbaycan Xalq Cümhuriyyəti bütün ölkə vətəndaşlarına eyni hüquqlar verərək, irqi, milli, dini, sinfi bərabərsizliyi ortadan qaldırdı. Dünya birliyi tərəfindən tanınan Xalq Cümhuriyyətinin fəaliyyəti sayəsində ölkəmizin beynəlxalq hüququn subyekti olması 1920-ci ilin aprel ayında bolşevik işğalından sonra Azərbaycanın bir dövlət kimi dünyanın siyasi xəritəsindən silinməsinin qarşısını aldı.*

*XX əsrin sonlarında yenidən müstəqilliyinə qovuşmuş Azərbaycan öz suverenliyini qoruyub saxlamağı bacardı. Yenidən hakimiyyətə qayıdan ümummilli lider Heydər Əliyev Azərbaycan dövlətçiliyinin qorunması üçün qətiyyətli tədbirlər gördü, ölkədə davamlı ictimai-siyasi sabitliyi bərqərar etdi. Beləliklə, Heydər Əliyevin şah əsəri olan müasir müstəqil Azərbaycan dövləti quruldu və sürətli inkişaf yoluna qədəm qoydu.*

*Ulu öndərimiz dəfələrlə bildirmişdir ki, biz bu gün demokratik Azərbaycan dövlətini qururuqsa, ayağa qaldırırıqsa, Xalq Cümhuriyyətinə borcluyuq. Azərbaycan Xalq Cümhuriyyətinin tariximizdəki yeri və*

*roluna xüsusi qiymət verən Heydər Əliyev deyirdi: «Biz ilk Demokratik Cümhuriyyətin yaranması gününü əziz tutaraq, onu Azərbaycanın dövlət müstəqilliyi günü – Respublika Günü elan etmişik və bu bizim milli bayramımızdır».*

*Ümummilli liderin bu siyasətini Prezident İlham Əliyev uğurla davam etdirir. Dövlət başçısının sərəncamları ilə 2018-ci il ölkəmizdə «Azərbaycan Xalq Cümhuriyyəti ili» elan olundu və AXC-nin 100 illik yubileyi təntənəli şəkildə qeyd edildi. Xalqımız cümhuriyyətin yarandığı 28 May – Respublika Gününü bu il də milli bayram kimi qeyd edir.*

## QARADAĞ RAYONUNDA MƏCBURİ KÖÇKÜNLƏR ÜÇÜN SALINMIŞ «QOBU PARK-3» YAŞAYIŞ KOMPLEKSİNİN AÇILIŞI MƏRASİMİ

*28 may 2020-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva mayın 28-də Bakının Qaradağ rayonunda məcburi köçkünlər üçün salınmış «Qobu Park-3» yaşayış kompleksinin açılışı mərasimində iştirak etmişlər.*

*Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri Rövşən Rzayev və «Paşa Holdinq» şirkətinin nümayəndəsi, layihə rəhbəri Kamil Əliyev dövlət başçısı İlham Əliyevə və xanımı Mehriban Əliyevaya təməli ötən ilin iyulunda qoyulmuş kompleksdə yaradılmış şərait barədə məlumat verdilər.*

*Bildirildi ki, sifarişçisi «Paşa Holdinq», podratçısı isə «Kristal Abşeron» MTK olan yeni qəsəbə Lökbatanda istifadəyə verilmiş «Qobu Park-1» və «Qobu Park-2» yaşayış komplekslərinin yanında inşa edilib. Bütün bu yaşayış komplekslərinin inşası Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın təşəbbüsü ilə həyata keçirilib. Məcburi köçkünlər üçün salınmış bu yaşayış komplekslərinin yeri əvvəllər baxımsız sahə*

*olub. Burada yaşamaq üçün heç bir sosial infrastruktur mövcud olmayıb. 2018-ci ildə bu ərazidə «Qobu Park-1», ötən il isə «Qobu Park-2» yaşayış kompleksləri istifadəyə verilib. Birinci yaşayış kompleksində 1026 ailəlik doqquzmərtəbəli 11 yaşayış binası, ikinci yaşayış kompleksində isə 1300 ailəlik onmərtəbəli 13 bina inşa olunub. Bu komplekslərin ərazisində məktəblər, uşaq bağçaları, poliklinika, tibb, poçt məntəqələri, idman zalları və digər zəruri sosial infrastruktur obyektləri yaradılıb. «Qobu Park-3» yaşayış kompleksində isə onmərtəbəli 13 yaşayış binası inşa olunubdur.*

*Dövlət başçısına və xanımına ərazidə özəl şirkətlər tərəfindən inşa olunan yaşayış kompleksi barədə də məlumat verildi. Burada 2 bina inşa olunur və bu binalarda 100-ə yaxın mənzil olacaqdır. Kompleksin ərazisində 280 yerlik uşaq bağçası da inşa olunubdur.*

*Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva uşaq bağçasında yaradılmış şəraitlə tanış oldular. Bağçada balacalara bilik öyrətməklə yanaşı, onların istedadlarını üzə çıxarmaq, potensiallarını aşkarlamaq üçün hərtərəfli imkan vardır.*

*Qeyd edək ki, gələcəyimiz olan körpələrin sağlam və bilikli böyüməsi üçün son illərdə dövlət səviyyəsində və Heydər Əliyev Fondu tərəfindən olduqca əhəmiyyətli layihələr icra olunur. Bütün bunlar göstərir ki, ölkədə həyata keçirilən strategiyanın əsas prioritetlərindən biri də uşaqların sağlam, firavan böyüməsi, gələcəklərinin tam təmin olunmasıdır. Həyata keçirilən bütün bu mühüm layihələr uşaqların sosial müdafiəsinin daha da möhkəmləndirilməsi istiqamə-*

*tində Azərbaycanda aparılan siyasətin uğurlu və ardıcıl olduğunu nümayiş etdirir.*

*Dövlət başçısı və xanımı kompleksdə inşa olunmuş Füzuli rayon 4 saylı tam orta məktəbdə yaradılmış şəraitlə də tanış oldular.*

*Bildirildi ki, 960 şagird-yerlik məktəb binası zəruri tədris avadanlığı ilə təchiz edilib, şagirdlərin yüksək səviyyədə təhsil alması üçün hərtərəfli imkan yaradılıbdır.*

*Son illərdə Prezident İlham Əliyevin rəhbərliyi ilə təhsil sahəsinin maddi-texniki bazasının möhkəmləndirilməsi, yeni təhsil ocaqlarının inşası, mövcud məktəb binalarının müasir səviyyədə yenilənməsi baxımından çox mühüm layihələr icra olunub. Dövlət səviyyəsində bu istiqamətdə görülən işlərə Birinci vitse-prezident Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu da böyük töhfələr verib. Belə müasir məktəb binasının inşası bir daha göstərir ki, ölkədə təhsilin inkişafı istiqamətində atılan addımlardan doğma yurdlarından didərgin düşən soydaşlarımız da yüksək səviyyədə bəhrələnirlər.*

*Sonra Prezident İlham Əliyevə və xanımı Mehriban Əliyevaya Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin layihəsi olan «Xarı bülbül» xalçaçılıq və naxış emalatxanası haqqında məlumat verildi.*

*Qeyd edildi ki, ilk dəfə həyata keçirilən bu layihənin məqsədi məcburi köçkünlərin məşğulluğunun artırılması, sosial rifah halının daha da yaxşılaşdırılmasıdır. Burada həm xalça toxumağın sirləri öyrədiləcək, həm də istehsal prosesi təmin ediləcəkdir. La-*

*yihəyə il ərzində «Qobu Park-1», «Qobu Park-2» və «Qobu Park-3» yaşayış komplekslərində, həmçinin Qaradağ rayonu ərazisində yaşayan 70 məcburi köçkün cəlb ediləcək. Toxuculuğun sirlərinə daha dərindən yiyələnənlər emalatxanalarda müəllim kimi çalışacaq, digərləri isə evlərində dəzgahlarla təmin olunacaqlar. Onlar hədiyyəlik xalçalar toxuyacaqlar. Layihə çərçivəsində xalçaların satışı da təmin ediləcək. Emalatxanada Qarabağın maddi-mədəni irsinə aid zərgərlik nümunələrinin hazırlanması da planlaşdırılır. Məhsullar yerli bazarla yanaşı, məcburi köçkünlərin əl işləri kimi, xarici bazara da çıxarılacaq. Uşaqlar üçün ustad dərslərin, rəsm dərnəyi və xarici dil kurslarının təşkili də nəzərdə tutulur. «Qobu Park-3» yaşayış kompleksində inşa olunmuş mənzillərlə tanışlıq zamanı dövlət başçısına və xanımına məlumat verildi ki, kompleksdə mənzillərin ümumi sayı 1336-dır. Onların 156-sı bir, 580-i iki, 384-ü üç, 216-sı dördotaqlıdır.*

*Bütün mənzillər mətbəx mebeli, soyuducu, fərdi kombi sistemi ilə təchiz edilib. Bu kompleksə əsasən Yasamal rayonundakı yataqxanalarda məskunlaşmış məcburi köçkünlərin köçürülməsi nəzərdə tutulubdur.*

*«Qobu Park-3» yaşayış kompleksi qaçqın və məcburi köçkünlər üçün salınmış 111-ci qəsəbədir. Kompleksin ərazisində istehsalat sahələri, ticarət obyektləri və digər zəruri infrastruktur yaradılıb. Ərazidə sakinlərin asudə vaxtının səmərəli təşkili məqsədilə istirahət parkı salınıb, uşaq əyləncə meydançaları quraşdırılıb, geniş yaşıllıq və işıqlandırma işləri görü-*

*lübdür. Burada həm də 3 idman meydançası və 360 yerlik açıq avtomobil dayanacağı sakinlərin ixtiyarına veriləcəkdir.*

*Prezident İlham Əliyevə və xanımı Mehriban Əliyevaya kompleksdə reallaşdırılan iki biznes layihəsi barədə də məlumat verildi.*

*Qeyd olundu ki, Kiçik və Orta Biznesin İnkişafı Agentliyi ilə Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin birgə əməkdaşlığı çərçivəsində reallaşdırılan layihələr məcburi köçkünlərin məşğulluğunun biznes layihələr vasitəsilə təmin olunması məqsədi daşıyır. İlk dəfədir ki, qaçqın və məcburi köçkünlərin məskunlaşdığı ərazidə istehsal müəssisələri qurulub. Yumşaq, plastik oyuncaqlar və tekstil məhsullarının istehsal olunacağı müəssisədə 40-dan çox iş yerinin yaradılması nəzərdə tutulur. Müəssisədə gün ərzində 1000-ə yaxın yumşaq və 500-ə yaxın plastik oyuncaq istehsal ediləcək. Yumşaq oyuncaqlar təxminən 15–20, plastik oyuncaqlar isə 10 çeşiddə olacaqdır.*

*Sterilizə olunmuş tibbi ləvazimatların istehsalı müəssisəsində isə tibbi heyət üçün üst geyimləri və kombinezonlar istehsal ediləcək. Burada 25 nəfər işlə təmin olunacaq. Müəssisələrdə çalışacaq işçi heyətin 80 faizi «Qobu Park-3»ün sakinlərindən formalaşdırılacaqdır. Şirkətlər icarə xərclərindən azad olunub ki, bu da müvafiq layihələrin kompleksdə reallaşdırılmasını sahibkarlar üçün cəlbedici edir. Layihələr yalnız sosial əhəmiyyəti ilə seçilmir. Onlar eyni zamanda, biznes yönümlüdür. Belə ki, hər iki müəs-*

*sisədə istehsal olunacaq məhsullar rəqabətqabliyyətlidir və idxalı əvəz edəcəkdir.*

*Sonra Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva məcburi köçkünlərlə görüşdülər.*

*Dövlət başçısı görüşdə çıxış etdi.*

**Azərbaycan Prezidenti İlham Əliyevin çıxışı**

Bu gün biz Respublika Gününü qeyd edirik. Sizi və bütün Azərbaycan xalqını Respublika Günü münasibətilə təbrik edirəm. Bu bayram günündə məcburi köçkünlər üçün salınmış «Qobu Park-3» yaşayış kompleksinin açılışını qeyd edirik. Burada bütün şərait yaradılıb. İndi mən şəraitlə tanış oldum, ən yüksək səviyyədə işlər görülüb. «Qobu Park-3» bu qəsəbədə salınmış üçüncü böyük yaşayış kompleksidir. «Qobu Park-3» kompleksində 1336 məcburi köçkün ailəsi yerləşdiriləcəkdir. 960 şagird-yerlik məktəb – özü də çox gözəl məktəbdir – fəaliyyət göstərəcək və böyük uşaq bağçası artıq tikilib, istifadəyə hazırdır. Bütövlükdə Qobu qəsəbəsində 3 layihədə toplam 3700-ə yaxın məcburi köçkün ailəsi yerləşdiriləcəkdir.

«Qobu-1» və «Qobu-2» layihəsi artıq 2018-ci və 2019-cu illərdə istifadəyə verilib. Bildirməliyəm ki, bu şəhərciklərin tikintisinin təşəbbüskarı Mehriban xanım olub və 2017-ci ildə onun iştirakı ilə burada təməl daşı qoyulubdur. O vaxt bura boş ərazi idi, heç nə yox idi və demək olar ki, 3 il ərzində ardıcıllıqla burada gözəl bir şəhər yaradılıb. Çünki bu 3 şəhərcikdə toplam 20 minə yaxın insan yaşayacaq və

bu bir daha göstərir ki, əgər iradə varsa, əgər siyasət düzgün aparılarsa və əgər insanların ürəyində ən ülvi hisslər reallıqda öz əksini taparsa, istənilən təşəbbüs, istənilən gözəl ideya həyata keçər. Beləliklə, boş bir ərazidə böyük infrastruktur layihələri icra edildi. Çünki bütün bu binaların kommunikasiyaları, təchizatı ən yüksək səviyyədə təşkil edildi – su, qaz, elektrik enerjisi, daxili yollar, nəqliyyat məsələləri öz həllini tapdı. Burada eyni zamanda, tibb məntəqəsi, ticarət yerləri, iş yerləri yaradılıb – bu da nəzərə alınıb – kompleksdə yaşayacaq vətəndaşlar artıq işlə də təmin ediləcəklər. Xüsusilə qadınlar üçün xalçaçılıq emalatxanası fəaliyyət göstərəcək və digər istehsal yönümlü kiçik müəssisələr artıq fəaliyyətə hazırdır. Nəzərə alsaq ki, burada yaşayacaq insanlar uzun illər çox ağır vəziyyətdə yaşayıblar – bugünkü təqdimatda onların indiki yaşayış yeri göstərilir – əlbəttə ki, bu, ailələrə böyük sevinc bəxş edəcəkdir.

Bu qəsəbənin xüsusiyyəti ondan ibarətdir ki, burada bütün işlər özəl sektor tərəfindən görülübdür. Bu da çox sevindirici haldır. Şadam ki, mənim bir neçə il bundan əvvəlki çağırışımdan sonra özəl sektor artıq bu önəmli sosial layihələrə də qoşuldu. O vaxt mən özəl sektoru bu işlərə dəvət etmişdim və şadam ki, mənim çağırışım cavabsız qalmayıb. Bütün tikinti işləri, bütün investisiyalar özəl sektor tərəfindən təmin edilib. Xüsusilə «Paşa Holdinq» şirkətinin fəaliyyətini qeyd etmək istəyirəm. Bu şirkət çoxşaxəli fəaliyyətlə məşğuldur. Bu şirkətin bütün dövrlərdə sosial yönümlü layihələri təqdirəlayiqdir. Onu da

bildirməliyəm ki, heç bir reklam etmədən, necə deyərlər, özünü tərifləmədən bu işləri ardıcıl şəkildə görür. Bu gün koronavirus şəraitində «Paşa Holdinq» şirkəti və digər özəl şirkətlər ehtiyacı olan insanların yanındadır. Bu böyük tikinti layihəsi bir daha onu göstərir ki, biznesin sosial məsuliyyəti artır. Şadam ki, bu təşəbbüsə digər özəl şirkətlər də qoşulub və bu yaxınlıqda digər şirkətlər tərəfindən iki bina tikilir. Ümid edirəm ki, bizim başqa şirkətlərimiz də bu işə qoşulacaqdır. Çünki Azərbaycanda bir çox böyük şirkətlər, holdinqlər vardır. Onlar Azərbaycanda pul qazanırlar, ölkəmizdə hökm sürən sabitlikdən, biznesə göstərilən dəstəkdən faydalanırlar. Əlbəttə, onların sosial məsuliyyəti də lazımi səviyyədə olmalıdır. Bu yaşayış komplekslərinin tikintisi rəmzi xarakter daşıyır. Birinci növbədə, dövlət öz iradəsini ortaya qoyur. Bildiyiniz kimi, məcburi köçkünlərin problemlərinin həlli Prezident kimi, mənim ən başlıca vəzifələrimdən biridir. Digər tərəfdən, özəl sektor artıq sosial məsuliyyət göstərərək, belə gözəl imkanlar yaradır. Ümumiyyətlə, Azərbaycanda 300 mindən çox məcburi köçkün bu günə qədər mənzillərlə, fərdi evlərlə təmin olunubsa, onlardan təqribən 20 mini bir şirkət tərəfindən görülmüş işlərin nəticəsində evlərlə təmin edilibdir.

Məcburi köçkünlərin problemləri ardıcıl şəkildə öz həllini tapır. Bildiyiniz kimi, hələ 2003-cü ildə Prezident seçkiləri ərəfəsində mənim proqramımın tərkib hissəsi məhz bu məsələ idi. Söz vermişdim ki, 5 il ərzində Azərbaycanda bir dənə də olsun çadır şəhərciyi qalmayacaq və nəinki 5 il, biz buna 4 il ərzində nail ol-

duq. Bu çox böyük uğur idi. Çünki ölkəmizin, demək olar ki, bütün yerlərində çadır şəhərcikləri var idi, köçkünlər çox acınacaqlı vəziyyətdə – uzun illər vaqonlarda, vaqonların altında, çadırlarda yaşayıblar.

Çadır şəhərciklərinin ləğv olunması hesab edirəm ki, bizim çox böyük uğurumuzdur və indiyədək 100-dən çox qəsəbə-şəhərcik salınıbdır. Son bir neçə il ərzində dünyada iqtisadi və maliyyə böhranı hökm sürür. Son 4-5 il ərzində neftin qiymətinin bir neçə dəfə kəskin düşməsinin şahidi olmuşuq. Buna baxmayaraq, məcburi köçkünlərlə bağlı olan heç bir layihədə heç bir yubanma yoxdur, heç bir proqramın ixtisarı nəzərdə tutulmur. Keçən il məcburi köçkünlər üçün rekord sayda evlər tikildi – 5000-ə yaxın. Bu il qarşıya hədəf qoyulub ki, 7000, bəlkə də 8000 məcburi köçkün ailəsi evlərlə, mənzillərlə təmin edilsin. Əgər biz buna nail olsaq, 1 il ərzində Bakıda, Sumqayıtda və digər şəhərlərdə təqribən 40 minə yaxın insan yeni evlərə köçürüləcək. Bu işlər ardıcıllıqla aparılır. Biz gələn ilin investisiya proqramında da bu məqsədlər üçün vəsait ayıracağıq.

Eyni zamanda, məcburi köçkünlərin sosial təminatı yaxşılaşır. Keçən il köçkünlərə verilən müavinətin həcmi 50 faiz artıbdır. Hər bir məcburi köçkün uzun illər ərzində dövlət tərəfindən aylıq müavinətlə təmin edilir. Əlbəttə, indi dünyanın bir neçə ölkəsində məcburi köçkünlər var və bu ölkələrin sayı artır. Çünki müharibələr, toqquşmalar geniş vüsət alır, yeni köçkün şəhərcikləri salınır. Ancaq hesab edirəm ki, Azərbaycanda bu sahəyə göstərilən diqqət nümunəvi xarakter daşıyır, beynəlxalq təşkilatlar da bunu

dəfələrlə təsdiqləyibdir. Çünki biz köçkünləri belə gözəl evlərlə təmin edirik. Evlərin həm quruluşu, həm daxili dizaynı, həm də təchizatı göz oxşayır. Azərbaycan bu sahədə də qabaqcıl yerlərdədir və hesab edirəm ki, bu bizim borcumuzdur, biz bunu edirik və edəcəyik.

Ancaq onu da bilməliyik və bütün Azərbaycan xalqı bilməlidir ki, bu sizin üçün müvəqqəti yaşayış yeridir. Torpaqlarımız işğaldan azad ediləndən sonra biz bu gün hələ də işğal altında olan torpaqlarda buna oxşar gözəl binalar, şəhərciklər tikəcəyik, ermənilər tərəfindən dağıdılmış şəhərlərimizi yenidən quracağıq. Ermənilər tərəfindən dağıdılmış və məhv edilmiş milli irsimiz sənədləşdirilib. Biz öz tarixi keçmişimizi yaxşı bilirik və çox yaxşı bilirik ki, Dağlıq Qarabağ əzəli Azərbaycan torpağıdır. İşğal olunmuş torpaqlar azad edildikdən sonra bütün binalar yenidən qurulacaq, o cümlədən dağıdılmış tarixi abidələrin mövcudluğunu əks etdirən əməli memarlıq tədbirlərinin görülməsi də nəzərdə tutulur.

Mən tam əminəm ki, Azərbaycan öz ərazi bütövlüyünü bərpa edəcək, bunu deməyə əsas verən bir çox amillər var – bizim hərbi gücümüz və biz bunu göstərmişik. 2016-cı və 2018-ci illərdə uğurlu hərbi əməliyyatlar nəticəsində minlərlə hektar torpaq işğalçılardan azad edildi. Cocuq Mərcanlı kəndinin timsalında biz görürük ki, işğaldan azad olunacaq digər torpaqlarda hansı işlər görüləcək və hansı sürətlə görüləcəkdir.

Biz Cocuq Mərcanlını uğurlu hərbi qələbədən sonra bir il ərzində yenidən qurduq və indi orada həyat

qaynayır, köçkünlər öz doğma torpağına qayıdıblar. Bəzən belə fikirlər səsləndirilir ki, bəzi köçkünlər torpaqlar işğaldan azad olunduqdan sonra qayıtmaya bilərlər. Amma mən tam əminəm ki, bütün köçkünlər öz doğma torpaqlarına qayıdacaqlar, necə ki, Cəbrayıl köçkünləri. Onlar uzun illər başqa yerlərdə yaşayıblar, o cümlədən Bakı şəhərində. Ancaq imkan olan kimi, onlar hətta növbəyə durmuşdular ki, tezliklə öz doğma torpaqlarına qayıtsınlar. Eyni zamanda, işğaldan azad olunmuş Şıxarx qəsəbəsi. İndi orada da böyük şəhərcik salınıb. O, keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinin ərazisində yerləşən Azərbaycanın tarixi məkanıdır, işğaldan azad olunmuş ərazidə böyük şəhərcik salınıb. Biz bu gün işğal altında olan bütün digər torpaqlarda da bərpa işləri görəcəyik. Azərbaycan öz suverenliyini təmin edəcəkdir.

Yenə də deyirəm – hərbi güc, bizim beynəlxalq mövqelərimiz, beynəlxalq təşkilatların münaqişə ilə bağlı sərgilədiyi mövqe. Xüsusilə son illər ərzində, demək olar ki, bütün beynəlxalq təşkilatlar ölkəmizin ərazi bütövlüyünü qətiyyətlə dəstəkləyir, dünyanın bütün aparıcı ölkələri də həmçinin. Bu yaxınlarda Dağlıq Qarabağda keçirilmiş qondarma «prezident seçkiləri» bunu bir daha göstərdi. O saxta «prezidenti» heç kim tanımadı. Dünyanın aparıcı ölkələri açıq formada bəyanat verdilər. ATƏT-in Minsk qrupunun həmsədrləri – Amerika, Fransa, Rusiya, ondan sonra isə Avropa İttifaqı, «Qoşulmama Hərəkatı», İslam Əməkdaşlıq Təşkilatı, Avropa Parlamenti və digər təşkilatlar bəyanat verdilər ki, bu seçkilər ta-

nınmır, Dağlıq Qarabağ Azərbaycan torpağıdır. Ona görə beynəlxalq hüquq, hərbi qüdrətimiz, eyni zamanda, iqtisadi üstünlüyümüz, əlbəttə ki, torpaqlarımızın azad olunmasında əsas rol oynayacaqdır.

Danışıqlar öz yerində, ancaq indi dünyada siz də yaxşı görürsünüz ki, güc amili ön plana çıxır, bəzi ölkələr, hətta böyük demokratik ənənələri olan ölkələr də bəzi hallarda beynəlxalq hüquqa məhəl qoymadan öz maraqlarını təmin edir. Nəyin hesabına? Gücün hesabına. Ona görə ordu quruculuğu mənim Prezident kimi fəaliyyətimdə həmişə ön plandadır. Bu gün biz elə bir qüdrətli ordu yaratmışıq ki, istənilən vəzifəni icra edə bilərik.

Sadaladığım bu müsbət amillər, eyni zamanda, demoqrafik vəziyyət bizim üstünlüyümüzü bundan sonra da təmin edəcək. Dağlıq Qarabağ probleminin həlli tarixi məsələdir və biz bu məsələni birdəfəlik və tam həll etməliyik. Azərbaycanın ərazi bütövlüyü tam bərpa olunmalıdır. Bu gün müzakirə edilən və danışıqlar masasında olan məhz mərhələli həldir. Baxmayaraq ki, Ermənistan rəhbərliyi öz rəsmi populist çıxışlarında bunu inkar etməyə çalışır, ancaq mahiyyət etibarilə danışıqlar çərçivəsində həmin bu mərhələli həll məsələsi müzakirə edilir. Burada da riyakarlıq edir, öz xalqını aldadır, vasitəçiləri aldatmaq istəyir. Mərhələli həldən başqa, heç bir həll mümkün deyil, o da nə deməkdir? Birinci mərhələdə torpaqların bir hissəsi işğaldan azad olunur. Bundan başqa variant ola bilməz. Amma mənim dediyim söz odur ki, bu ancaq mərhələli yanaşma ola bilər. Bizim məqsədimiz, amalımız suverenliyimizi tam və bir-

dəfəlik təmin etməkdir və biz bunu edəcəyik. Heç kimdə şübhə olmasın. Sadəcə, daha güclü olmalıyıq, məsələnin həlli üçün vaxtı və geosiyasi vəziyyəti düzgün qiymətləndirməliyik. Mənim fikrim budur və bilirəm ki, Azərbaycan xalqı mənim mövqemi dəstəkləyir. Mən bunu dəfələrlə bildirmişəm və bir daha demək istəyirəm ki, Dağlıq Qarabağ məsələsi ancaq ölkəmizin ərazi bütövlüyü çərçivəsində öz həllini tapa bilər. Bir daha demək istəyirəm ki, Dağlıq Qarabağ Azərbaycandır və nida işarəsi!

Ancaq yenə də bu məsələ ilə məşğul olanda hər zaman mən keçmişə qayıdıram, tarixə qayıdıram və sual verirəm: nə üçün torpaqlarımız işğal altına düşdü? Necə oldu ki, biz bu torpaqları qoruya bilmədik? Necə oldu ki, ermənilər xarici dəstəyin hesabına torpaqları işğal etdilər, insanları öz doğma torpaqlarından didərgin saldılar? Mən bu suallara cavabı bilirəm və Azərbaycan xalqı da bilir. Amma yenə də həmişə fikirləşirəm ki, əgər o vaxt Azərbaycanın başında Heydər Əliyev olsaydı, heç vaxt bir qarış torpaq da düşmən tərəfindən işğal edilə bilməzdi. Çünki onun dövründə Azərbaycan hakimiyyəti Dağlıq Qarabağda elə bir möhkəm iradəyə sahib idi ki, bir erməni belə, səsini çıxarda bilmirdi. Düzdür, Moskvaya, Siyasi Büroya donoslar yazırdılar ki, guya onları orada incidirlər və yaxud da onlar diskriminasiyaya uğrayırlar. Hamısı yalan idi. Çünki iqtisadi göstəricilər var, onlar göstərir ki, Dağlıq Qarabağda yaşayan insanlar heç də Azərbaycanın o biri torpaqlarında, rayonlarında yaşayan insanlardan pis yaşamayıblar. Ancaq Heydər Əliyevin qətiyyəti, iradəsi,

cəsarəti imkan vermirdi ki, orada bir dənə də olsun hadisə baş versin. Ondan əvvəl – keçən əsrin 60-cı illərində hadisələr baş verib. Ancaq Heydər Əliyev Azərbaycana rəhbərlik etməyə başladıqdan sonra və Bakıdan Moskvaya gedənə qədər orada heç bir hadisə olmayıb. Mən şəxsən atamla birlikdə Dağlıq Qarabağda olmuşam, Xankəndidə, Şuşada. Mən o ab-havanı görmüşəm, ötən əsrin 80-ci illərinin əvvəllərində həm qış aylarında – o məşhur fotolar, videolar var – həm də yaz aylarında. Orada – nə Xankəndidə, nə də başqa yerlərdə heç bir problem yox idi.

Mənim gözümün qabağında ermənilər Heydər Əliyevin qarşısında fərəqət dururdular, onu salamlayırdılar. Orada Azərbaycan dilində poeziya günü keçirilmişdi. Erməni, Azərbaycan şairləri Azərbaycan dilində şeirlər deyirdilər. Heydər Əliyevin qətiyyəti, iradəsi, cəsarəti, müdrikliyi imkan vermirdi ki, bir dənə də erməni baş qaldırsın.

Şuşada olan zaman o qədim Azərbaycan şəhərinin tarixini görərkən biz bir daha şahidi olurduq ki, bizim nə qədər böyük tarixi irsimiz vardır. Yadımdadır, ulu öndər Üzeyir Hacıbəylinin, digər görkəmli şəxsiyyətlərin ev-muzeyləri haqqında və digər göstərişlər vermişdi ki, Azərbaycan mədəniyyəti orada daim yaşasın. Ermənilər və burada yerli satqınlar Heydər Əliyev Moskvada işləyəndə donoslar, anonim məktublar yazırdılar. Aydın məsələdir ki, Heydər Əliyev amili qoymurdu ki, ermənilər baş qaldırsınlar. Buradakı satqınlar, xainlər, Azərbaycan millətinin düşmənləri donos yazırdılar.

İndikilər də yazırlar. O vaxt Siyasi Büroya yazırdılar. Bunlar isə bizdən Qərb ölkələrinə donos yazırlar. İndiki milli satqınlar, dediyim o cinayətkar ünsür dəstəsi o vaxtın donos yazanlarından fərqlənmirlər. Onlar da özlərinə başqa ölkədə himayədar axtarırdılar, bunlar da. Onların da, bunların da əsas məqsədi hakimiyyətdir, nəyin bahasına olursa olsun. Bax, buna görə torpaqlar işğal altına düşüb. Heydər Əliyev Siyasi Bürodan, Sovet İttifaqının Nazirlər Sovetindən yüksək vəzifələrdən gedəndən sonra iki həftə keçməmiş nə baş verdi? Bir erməni millətçisi məqalə ilə çıxış etdi ki, Dağlıq Qarabağ Ermənistana verilməlidir. Özü də harada? Fransa qəzetində. Artıq erməni diasporu bu işlərə qoşulmuşdu. Sovet İttifaqının başında dayanan adamlar da öz ermənipərəst mövqeləri ilə fərqlənirdilər. Biz bunu yaxşı bilirik və artıq hərəkət başlandı. O vaxt Azərbaycan hakimiyyəti nə etdi? 1987-ci ilin noyabrı idi. Heydər Əliyev vəzifədən gedəndən sonra cəmi iki həftə keçmişdi. Buradakılar nə etdilər? Heç nə. Veclərinə də almadılar. Onlar elə bil ki, bu torpağın övladları deyildilər. Biganə qaldılar, reaksiya vermədilər. Vəziyyəti nəzarət altında saxlaya bilmədilər və nəticə etibarilə, çox da keçmədi, təxribat törədildi. Bu tarixə bu nöqteyi-nəzərdən baxın. Cəmi 3–4 ay keçdi, 1988-ci ilin fevral ayında Sumqayıt təxribatı törədildi. Nə idi o təxribat? Erməni quldurları orada dəstə yaratdılar, bir neçə ermənini öldürüb bunu Azərbaycan xalqının ayağına yazdılar. Bu da tarixi faktlardır.

İstintaqı biz aparmamışıq. İstintaqı Moskvadan gələn istintaq qrupu aparırdı. Orada bilindi ki, bu dəstənin başında dayanan ermənidir. Onun təcavüz etdiyi şahidlər üzünə demişdilər, o kadrlar vardır. Onun qətlə yetirdiyi insanların qohumları, yaxınları demişdilər ki, bizi öldürən odur. Sonra nə olur? Bu adam həbs olunur, ona hökm verilir. Bir ildən sonra o cəza çəkmək üçün Ermənistana göndərilir. Ermənistanda nə edirlər? Onu buraxırlar. Yaxşı, bu adam erməniləri öldürüb, bu da təsdiq olunub, istintaq materialları vardır. Nə üçün siz onu buraxırsınız? Deməli, bu, bəri başdan qurulmuş təxribat idi. Bu təxribatı ermənilər törədiblər, sonra yıxıblar Azərbaycan xalqının üstünə. Bu da onlara fürsət verib ki, Dağlıq Qarabağ məsələsini qaldırsınlar. Bax, budur tarix. Azərbaycan hakimiyyəti nə etdi? Heç nə. O vaxt Azərbaycanın başında duran adam bilmirdi ki, Moskvanın o çinovniklərinin dabanını necə yalasın. Budur milli rəzalət. Sovet İttifaqı dağılandan sonra bir neçə ay keçməmiş, dərhal Xocalı soyqırımı törədildi. Azərbaycan hakimiyyəti öz vətəndaşlarını qoruya bilmədi. Xalqımıza qarşı qanlı cinayət, soyqırımı törədildi. Ondan bir neçə ay sonra – 1992-ci ilin may ayında Şuşa və Laçın işğal olundu. Kimdir günahkar? Azərbaycan Xalq Cəbhəsi. Bir nömrəli günahkar odur. Əlbəttə, ovaxtkı hakimiyyətin də günahı vardır. Çünki öz şəhərlərimizi qoruya bilmədi. Ancaq Azərbaycan Xalq Cəbhəsi hakimiyyətə gəlmək üçün xəyanət etmişdi. Şuşanın guya müdafiəsini təşkil edən adamlar satqınlıq edib, xəyanət edib, qaçıb gizlənmişdilər. Şuşa alınmaz

qaladır. Onu almaq mümkün deyil. Az kontingentlə oranı illərlə müdafiə etmək olar, satdılar ki, hakimiyyəti yıxsınlar, hakimiyyətə gəlsinlər. Belə də oldu. Sonra Laçını da satdılar. Hakimiyyətə gəldilər. Onların əsas məqsədi hakimiyyətə gəlmək və olan-qalan sərvətləri talamaq idi.

Azərbaycan Xalq Cəbhəsinin cinayətkar əməlləri bununla bitmir. Ondan sonra onların yarıtmaz fəaliyyəti nəticəsində Kəlbəcər işğal olundu. Müdafiəni düzgün qura bilməmişdilər. Kim quracaqdı müdafiəni? Kim məşğul idi müdafiə ilə? Hərbi işdən heç bir xəbəri olmayan savadsız və xəyanətkar adamlar. Kim idi dövlətin başında? Xalq arasında heç bir hörməti olmayan boşboğaz. Kim saldı bizim xalqımızı bu bəlaya? Onlar. O vaxt Heydər Əliyev olsaydı, qoyardımı ki, belə vəziyyət yaransın? Kəlbəcər əldən gedəndən sonra neylədilər? Vəziyyəti bərpa etmək əvəzinə başladılar öz ordumuza qarşı mübarizəyə. Burada torpaqlar əldən gedir, onlar isə Gəncəni bombalayırdılar. Kəlbəcər, Laçın, Şuşa rayonları işğal olunandan sonra Dağlıq Qarabağla Ermənistan arasında bağlantı yarandı. Onlar isə Gəncəni bombalayırdılar. Kim edib bunu? Azərbaycan Xalq Cəbhəsi. Bu gün elə orada-burada fırlananlar da bu işdə əli olan cinayətkarlardır. Xalq da buna dözmədi, birdəfəlik bunları süpürüb atdı. Məhz ondan sonra Heydər Əliyev xalqın tələbi ilə hakimiyyətə gəldi və vəziyyət sabitləşdi.

Budur səbəbkarlar, budur tarixi həqiqətlər. Bu gün vəziyyəti düzəltmək, torpaqları işğaldan azad etmək üçün nə qədər böyük səylər göstərilir. Ancaq

aprel döyüşləri və uğurlu Naxçıvan əməliyyatı göstərdi ki, Azərbaycan Ordusu istənilən vəzifəni icra edə bilər.

Bu gün Respublika Günüdür. Əlbəttə ki, Azərbaycan Xalq Cümhuriyyəti qürur mənbəyimizdir. Hər bir Azərbaycan vətəndaşı haqlı olaraq fəxr edir ki, müsəlman aləmində ilk respublika məhz Azərbaycanda yaranıb, Azərbaycan xalqı bunun təşəbbüskarı olubdur. Eyni zamanda, biz bu gün də tarixdən ibrət götürməliyik. Nə üçün Respublika 2 ildən də az yaşadı? Nə üçün süqut etdi? Nə üçün müstəqilliyi qoruya bilmədi? Bu suallardır. Biz düzgün nəticə çıxarmaq üçün tarixi bilməliyik. Burada heç bir mifologiyadan söhbət gedə bilməz. Hansısa hadisələri şişirtməklə biz özümüzü aldatmamalıyıq. Nə üçün? Çünki o hadisələr təkrarlanmasın. Nə üçün? Çünki müstəqilliyimiz əbədi olsun. Azərbaycan Xalq Cümhuriyyəti rus imperiyasının dağılması nəticəsində yaranmışdı. Ancaq cəmi 2 ilə yaxın yaşadı. Çox önəmli addımlar atılmışdı.

Müstəqillik elan olundu, dövlət atributları təsis edildi. Milli Ordu, Bakı Dövlət Universiteti yaradıldı, mütərəqqi qanunlar qəbul edildi. Amma biz bilməliyik ki, o müstəqillik şərti xarakter daşıyırdı. Bakıda söz sahibi xarici generallar idi və Azərbaycan Xalq Cümhuriyyəti öz addımlarını, hətta dövlət atributları ilə bağlı planlarını gərək onlarla razılaşdıraydı. Respublika Azərbaycan ərazisinə tam nəzarət etmirdi. Əlbəttə, biz heç vaxt unutmamalıyıq ki, Azərbaycan Xalq Cümhuriyyətinin ilk qərarlarından biri İrəvanı, bizim qədim şəhərimizi Ermənistana vermək

idi. Bunu heç cür əsaslandırmaq və heç vaxt bağışlamaq olmaz. Biz bu həqiqətləri bilməliyik və gənc nəsil də bilməlidir. Biz tarixi olduğu kimi yazmalıyıq və bilməliyik. Həqiqəti bilməliyik ki, bu təkrarlanmasın. Xalq Cümhuriyyəti cəmi 2 ilə yaxın yaşadı, müstəqilliyini qoruya bilmədi. Azərbaycanın başında duranların bir çoxu ölkəni tərk etdi, müstəqillik əldən getdi. Bilirsiniz, gözəl şüarlar demək olar, amma bu şüarların arxasında gərək iradə, güc və əməl olsun.

Bizim 1920-ci ildə endirilən üçrəngli bayrağımızı 70 ildən sonra Heydər Əliyev Naxçıvanda yenidən qaldırdı. Gücün varsa, bayraq həmişə yüksəklərdə olacaq. O vaxt Naxçıvan Ali Sovetinin sessiyasında Azərbaycan Xalq Cümhuriyyətinin Dövlət bayrağı rəsmi bayraq kimi qəbul edildi. Azərbaycan Ali Soveti qarşısında vəsatət qaldırıldı ki, onlar da eyni addımı atsınlar. Etmədilər. Çünki qorxurdular. O vaxt hələ Sovet İttifaqı dağılmamışdı. Qorxurdular ki, Moskvadan onları tənbeh edərlər. Ona görə bu tarixi gün həmişə qürur mənbəyimiz olmalıdır. Daim yadda saxlamalıyıq ki, biz müstəqilliyi əbədi, dönməz etməliyik. Bunu kim etməlidir? Biz – Azərbaycan xalqı, Azərbaycan hakimiyyəti. Ona görə ölkəmizin gücləndirilməsi, mövqelərimizin möhkəmləndirilməsi, ölkəmizdə iqtisadi, sosial sahədə aparılan islahatlar, milli dəyərlərlə bağlı olan tədbirlərimiz, gənclərin milli ruhda tərbiyə olunması bu məqsədi güdür ki, bundan sonra Azərbaycan heç vaxt müstəmləkə olmasın, həmişə qürurlu, həmişə möhkəm ayaqda dayanan, müstəqil dövlət olsun və xalqımız həmişə azad olsun.

Bir daha sizi və Azərbaycan xalqını təbrik edirəm. Bu gözəl bayram münasibətilə bütün Azərbaycan xalqına yeni uğurlar, xoşbəxtlik arzulayıram.

* * *

**İbrahim Teymurov** (*Zəngilan rayonundan məcburi köçkün*): Hörmətli cənab Prezident!

Hörmətli Birinci vitse-prezident Mehriban xanım!

İcazə verin, bu əziz gündə Sizi 28 May – Respublika Günü münasibətilə səmimi-qəlbdən təbrik edim. Bəli, biz o vaxtlar yiyəsizlik ucbatından didərgin düşdük. Gəlib respublikamızın müxtəlif bölgələrində məskunlaşdıq. Allah rəhmət eləsin, o vaxt ulu öndər bizə harada məskunlaşmışdıqsa yaxşı şərait yaratdı və biz mümkün qədər respublikanın ovaxtkı gücü səviyyəsində lazımi şəraitdə məskunlaşdıq. Düzdür, çətin zamanlar idi, yataqxanalar, çadırlar yaradılmışdı. O vaxtdan bəri mərhələ-mərhələ, davamlı olaraq çadır şəhərcikləri yeni-yeni şəhərlərin tikilməsi ilə ləğv olundu. Üzü bu yana yenə də, möhtərəm Prezident, Sizin sayənizdə, Sizin quruculuğunuz nəticəsində davamlı surətdə neçə-neçə şəhərcik salındı. Bu heç də sadə iş deyil. Bu gün biz bura gəlib evlərə baxdıq. Müasir məktəb, hər bir şərait, infrastruktur çox gözəldir. Biz hamımız Sizə çox böyük alqış edirik, minnətdarlığımızı bildiririk. Çox sağ olun ki, Siz məcburi köçkünləri həmişə yadda saxlayırsınız, həmişə qayğımıza qalırsınız. Minnətdarıq Sizə. Möhtərəm Prezident, bayaq qeyd etdiniz, Allahın köməyi, Sizin iradəniz və başçılığınız ilə biz o bayrağı aparıb

Şuşada və işğal olunmuş digər torpaqlarda Sizinlə birgə sancacağıq. Allah o günü bizə göstərsin. Sağ olun.

**K ö n ü l  İ s m a y ı l o v a** (*Şuşa rayonundan məcburi köçkün*): Möhtərəm cənab Prezident!

Hörmətli Mehriban xanım!

Mən də bu gözəl gündə çıxış etmək istəyirəm. Biz elə bir gündə qarşılaşmışıq ki, bu gün həm bu gözəl «Qobu Park» açılır, həm də Respublika Günü qeyd edilir. Hamımızı təbrik edirəm. Bu gözəl gündə demək istəyirəm ki, məcburi köçkünlərin üzərində Sizin daim qayğınız və diqqətiniz olubdur. Bu bizim nəzərimizdən heç vaxt yayınmayıb. Biz həmişə Sizdən bu qayğını və diqqəti görmüşük. Mehriban xanım, Siz məcburi köçkünlərlə, xalqla tez-tez ünsiyyətdə olursunuz, onlarla söhbət edirsiniz. Səmimi söhbətlərinizə həmişə qulaq asmışam, diqqətlə izləmişəm. Siz onların dərdlərini həmişə dinləmisiniz və köməyinizin də bəhrəsini biz həmişə görmüşük. Ona görə biz sizə xalqın Prezidenti, xalqın Mehriban xanımı deyirik. Biz Sizi bu gözəl gün münasibətilə ürəkdən alqışlayırıq. Bu gözəl həyat, övladlarımızın oxuyacağı bu gözəl məktəb, uşaq bağçası, poliklinika üçün Sizə təşəkkür edirik. Mən bir şuşalı məcburi köçkün kimi, arzu edirəm və inanıram ki – Sizin gördüyünüz işlərin, həyata keçirdiyiniz layihələrin şahidiyəm – Şuşada da mənzillərimizin açarını Sizin əlinizdən alacağıq. Biz buna inanırıq və Sizə çox minnətdarıq. Bu gözəl gün münasibətilə Sizi ürəkdən təbrik edirik. Sizin yaxşılıqlarınız heç vaxt yadımızdan çıxmayacaq, heç vaxt unudulmayacaqdır. Gördüyünüz işlər davamlıdır, olub və həmişə də olacaq. Sağ olun.

**İ l h a m Ə l i y e v:** Çox sağ olun, təşəkkür edirəm. Bir daha bayramınız mübarək olsun!

* * *

*Dünya bazarında neftin qiymətinin kəskin aşağı düşməsinə, pandemiyanın qlobal iqtisadiyyatın müxtəlif sahələrinə vurduğu ciddi zərbələrə baxmayaraq, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda sosial-iqtisadi inkişafa hesablanmış layihələrin uğurlu icrası ardıcıllıqla davam etdirilir.*

*Bunun nəticəsini hər bir vətəndaş, o cümlədən qaçqın və məcburi köçkünlər öz həyatlarında hiss edirlər. Ölkədə həyata keçirilən dövlət siyasətinin əsas istiqamətlərindən biri də bu qəbildən olan soydaşlarımızın sosial problemlərinin həllidir. Bununla bağlı dövlət başçısı tərəfindən ümumilikdə 2004–2019-cu illər ərzində 75 fərman və sərəncam imzalanıb, Dövlət Proqramı təsdiqlənibdir.*

*Həyata keçirilən tədbirlər nəticəsində bu günədək 315 min məcburi köçkünün, yəni 62494 ailənin mənzil-məişət şəraiti yaxşılaşdırılıb. Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva da qaçqın və məcburi köçkünlərin sosial məsələlərinin həllinə olduqca həssaslıqla yanaşır, bu qəbildən olan soydaşlarımızın həyat şəraitinin yaxşılaşdırılması, məşğulluğunun artırılması, sosial rifahının daha da yüksəldilməsi məsələsinə xüsusi qayğı göstərir. Bu qayğı yeni inşa olunmuş «Qobu Park-3» yaşayış kompleksində də özünü aydın nümayiş etdirir.*

## İTALİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB SERCİO MATTARELLAYA

Hörmətli cənab Prezident!

Dost İtaliya Respublikasının milli bayramı – Respublika Günü münasibətilə Sizə və xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi və arzularımı yetirirəm.

Azərbaycan ilə İtaliya arasında mövcud olan sıx dostluq və strateji tərəfdaşlıq münasibətlərinin bugünkü səviyyəsi və dinamikası böyük məmnunluq hissi doğurur. Bu ilin fevralında gözəl ölkənizə səfər zamanı Sizinlə səmimi şəraitdə keçən görüşlərimizi, apardığımız danışıqları, mənə və Mehriban xanım Əliyevaya göstərilən yüksək diqqət və qonaqpərvərliyi ən xoş təəssüratlarla xatırlayıram.

Əminəm ki, ölkələrimiz arasında siyasi, iqtisadi-ticari, enerji, sənaye, təhsil, mədəniyyət, müdafiə və digər sahələrdə mövcud olan yüksək səviyyəli dialoq və əməkdaşlıq münasibətləri birgə səylərimizlə bundan sonra da uğurla inkişaf edəcəkdir.

Eyni zamanda, koronavirus xəstəliyinə qarşı mübarizədə Azərbaycan xalqının dost İtaliya xalqı ilə həmrəy olduğunu bir daha qeyd etmək istəyirəm.

Belə bir xoş gündə Sizə möhkəm cansağlığı, işlərinizdə müvəffəqiyyətlər, xalqınıza daim rifah arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *29 may 2020-ci il*

## ASİYA İNKİŞAF BANKININ PREZİDENTİ MASATSUQU ASAKAVA, VİTSE-PREZİDENTİ ŞİKSİN ÇEN VƏ BANK RƏHBƏRLİYİNİN DİGƏR NÜMAYƏNDƏLƏRİ İLƏ VİDEOKONFRANS FORMATINDA GÖRÜŞ

*1 iyun 2020-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 1-də Asiya İnkişaf Bankının təşəbbüsü ilə bankın prezidenti Masatsuqu Asakava, vitse-prezidenti Şiksin Çen və bank rəhbərliyinin digər nümayəndələri ilə videokonfrans keçirmişdir.*

**İlham Əliyev:** Sabahınız xeyir, sizi görmək çox xoşdur.

**Masatsuqu Asakava:** Sabahınız xeyir, cənab Prezident. Çox sağ olun. Gərgin iş qrafikinizə baxmayaraq, vaxt tapıb bizimlə görüşdüyünüzə görə Sizə təşəkkür edirik. Azərbaycanla Asiya İnkişaf Bankı arasında əməkdaşlıq 1999-cu ildən bəri dərinləşməkdədir. Burada söhbət təkcə bir sıra layihələrdən getmir, həmçinin bizim birgə regional əməkdaşlığımız da mövcuddur. Asiya İnkişaf Bankının Rəhbərlər Şurasının 48-ci illik toplantısının 2015-ci ildə Bakıda uğurla keçirilməsi qarşılıqlı etimad və hörmət üzərində qurulmuş tərəfdaşlığımızın bariz nümunəsidir.

Şəxsən Sizinlə və hökumətinizlə birbaşa əlaqə mən və heyətim üçün olduqca vacibdir. Biz etibarlı tərəfdaşınız olaraq, COVID-19 pandemiyasının yayıldığı və neftin qiymətinin kəskin aşağı düşdüyü bir vaxtda Azərbaycanın atdığı addımları tam şəkildə dəstəkləyirik. Bu bizə ölkənizin ehtiyaclarına uyğun optimal cavab tədbirləri hazırlamağa imkan verəcək. Bu videokonfransa Asiya İnkişaf Bankının Direktorlar Şurasında Azərbaycan üzrə icraçı direktor Antoni Makdonald, bankın vitse-prezidenti Şiksin Çen, Mərkəzi və Qərbi Asiya üzrə baş direktor Verner Lipax və bankın Azərbaycan ofisinin direktoru Nariman Mannapbekov da qoşulublar.

**İlham Əliyev:** Təşəkkür edirəm, cənab prezident. İlk növbədə, sizi Asiya İnkişaf Bankının prezidenti seçilməyiniz münasibətilə təbrik etmək və fəaliyyətinizdə uğurlar arzulamaq istərdim. Əminəm ki, sizin rəhbərliyiniz dövründə Azərbaycan və Asiya İnkişaf Bankı son 20 ildə olduğu kimi, sıx şəkildə işləməyə davam edəcək. Qeyd etdiyiniz kimi, biz çox güclü tərəfdaşlıq qurmuşuq. Biz hamımız Asiya İnkişaf Bankının illik toplantısının 2015-ci ildə Bakıda keçirildiyini xatırlayırıq. Bu həqiqətən də əməkdaşlığın çox yaxşı əlaməti idi və görüş çox uğurla keçdi.

Bildiyiniz kimi, biz bir sıra mühüm layihələr üzərində işləyirik. Asiya İnkişaf Bankının Azərbaycana ayırdığı kredit və zəmanətlərin ümumi məbləği 3 milyard ABŞ dollarını ötür. Bu vəsait bizə infrastruktura investisiya yatırmağa kömək edir. Biz elektrik enerjisinin istehsalı, dəmir yolu tikintisi, yol tikintisi, su və kanalizasiya ilə bağlı çoxsaylı in-

frastruktur layihələrini dəstəklədiyinə görə Asiya İnkişaf Bankına çox minnətdarıq. Biz «Cənub Qaz Dəhlizi» layihəsinin həyata keçirilməsinə sadiqliyinizə və maliyyə dəstəyinizə görə sizə çox minnətdarıq. Mən deyə bilərəm ki, Asiya İnkişaf Bankı bu layihəyə kredit verən ilk böyük beynəlxalq banklar arasında birinci olub. Sizin çox mühüm və vaxtında göstərdiyiniz dəstək bizə, həmçinin çox geniş kreditorlar qrupu yaratmağa kömək etdi. Bildiyiniz kimi, «Cənub Qaz Dəhlizi» tamamlanmağa çox yaxındır, 3 layihə artıq tamamlanıb. 4-cüsü – Trans–Adriatik boru kəməri 95 faizdən çox tamamlanıb. Bu həqiqətən də əməkdaşlığın çox yaxşı əlamətidir.

Hazırda biz yeni layihələr üzərində işləyirik. Mənə verilən məlumata görə, bizim portfelimizdə suvarma və təhsillə bağlı icra olunacaq bəzi layihələr vardır. Bütün bunlar çox böyük əhəmiyyət kəsb edir.

Əminəm ki, qarşıdakı illərdə əməkdaşlığımız davam edəcək. Sizin burada – Bakıda və mənzil-qərargahınızdakı komandanız bizim prioritetlərimizi, inkişafımız üçün prioritetlərin nədən ibarət olduğunu bilir. Bu əsasən, özəl sektor, infrastrukturun inkişafı, kiçik və orta müəssisələrə dəstək məsələləri ilə əlaqədardır.

Əlbəttə, pandemiya dövründə göstərdiyimiz bütün səylər insanları necə xilas etmək, onların sağlamlığını, həyatlarını necə qorumaq məqsədi daşıyır. Azərbaycanın vaxtında gördüyü tədbirlər sayəsində biz minimum itki vermişik. Ümumdünya Səhiyyə Təşkilatının bəyanatlarına əsasən, Azərbaycan pandemiya ilə mübarizədə nümunə hesab olu-

nur. Biz həmçinin böyük həcmdə vəsait ayırmışıq. İqtisadiyyatın pandemiyadan zərər çəkən sektorlarını dəstəkləmək, eləcə də işsizləri, işini itirmiş insanları, aztəminatlı, hətta qeyri-formal məşğulluğa cəlb olunmuş insanları dəstəkləmək üçün 2 milyard avrodan çox vəsait ayırmışıq.

Biz qeyri-formal məşğulluqla mübarizə aparırıq və ciddi tədbirlər görmüşük. Təkcə bu il işçilərlə şirkətlər arasında 100 mindən çox müqavilə imzalanıb. Lakin bununla belə, biz insanların bu problemdən əziyyət çəkdiyini başa düşürük. Bu səbəbdən də 4 ay ərzində iqtisadi artımımız çox az olub – 0,2 faiz təşkil edibdir. Mən bilirəm ki, hazırda bir çox ölkələr, əfsuslar olsun, resessiyadadır. Beş ayın nəticələri hələ ki, bizə məlum deyil, ola bilsin, 1 həftə ərzində məlum olacaqdır. Lakin düşünürəm ki, biz bu vəziyyətin öhdəsindən gələ biləcəyik. Sizin doğru olaraq qeyd etdiyiniz kimi, neftin qiymətinin kəskin şəkildə aşağı düşməsi bizim üçün çağırışdır. Lakin biz addımlarımızı, büdcəmizi yeni reallıqlara uyğunlaşdırmağa nail olmuşuq və reallıqlar necə olsa, biz bunu nəzərə almalıyıq. Sosial layihələrin heç birini ixtisara salmamışıq, onların hamısı büdcəmizdə qalır. Lakin o layihələr ki, bir neçə il gözləyə bilər, onlar, ola bilsin, bir qədər təxirə salınsın. Düşünürəm ki, ümumilikdə Azərbaycan yaxşı nəticələr nümayiş etdirən ölkələr sırasında olacaqdır.

Eşitdiyimə görə, 150-dən çox ölkə maliyyə dəstəyi üçün artıq beynəlxalq maliyyə institutlarına müraciət edib. Azərbaycan onların arasında deyil. Bilirsiniz ki, biz üzərimizə düşən işi layiqincə yerinə yetiririk və

bizim xərclərimiz daim mənfəətimizdən aşağı olub. Mən deyərdim ki, ehtiyatları qorumaq və artırmaq bizim başlıca iqtisadi hədəfimiz olubdur.

**Masatsuqu Asakava:** Təşəkkür edirəm, cənab Prezident. Pandemiya ilə mübarizə və onun Azərbaycana təsiri ilə bağlı həyata keçirdiyiniz nəhəng islahat paketi barədə mənə məlumat verilib. Sizin rəhbərliyinizlə beynəlxalq platformalarda – Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası və «Qoşulmama Hərəkatı» çərçivəsində pandemiyaya qarşı səylərin əlaqələndirilməsi məndə dərin təəssürat yaratdı. Azərbaycanın Ümumdünya Səhiyyə Təşkilatına COVID-19-la mübarizə fonduna toplam 10 milyon ABŞ dolları, o cümlədən bu sahədə ehtiyacı olan «Qoşulmama Hərəkatı»na üzv dövlətlərə 5 milyon ABŞ dolları həcmində ianə ayırması da təqdirəlayiq haldır. Həmçinin bilirəm ki, pandemiyadan əziyyət çəkən 13 ölkəyə, o cümlədən Çin Xalq Respublikası, Pakistan, Qırğızıstan, Tacikistan və Özbəkistana da Azərbaycan tərəfindən yardım göstərilib. Bununla yanaşı, fürsətdən istifadə edərək, hökumətinizin 13-cü Asiya İnkişaf Fonduna töhfə vermək qərarına görə Sizə təşəkkürümü bildirmək istəyirəm. Dünyanın yoxsul və həssas vəziyyətdə olan ölkələri bu imkandan yararlanacaqdır. Təşəkkür edirəm.

COVID-19-la bağlı vəziyyətə gəldikdə, mənə hökumətiniz tərəfindən pandemiya əleyhinə atılan qabaqlayıcı tədbirlər, ölüm hallarının aşağı səviyyədə olması və aparılan test sayının artması barədə mə-

lumat verilib. Bu onu nümayiş etdirir ki, ölkədə səhiyyə sahəsində risklər çox yaxşı idarə edilir.

Cari ilin ilk 4 ayı ərzində ölkənizin makroiqtisadi göstəriciləri kifayət qədər sabit olubdur. Dövlət büdcəsinə daxilolmalarda artımın olması təqdirəlayiqdir, lakin ilin ikinci yarısında güclü azalma riskləri ehtimalı mövcuddur. Bu baxımdan, tərəfinizdən ümumi daxili məhsulun 4,3 faizinə bərabər, geniş iqtisadi yardım paketinin qısa müddətdə qəbul edilməsini, pandemiyanın yayılmasının qarşısının alınması üçün səhiyyə sahəsində addımların atılmasını, sosial tədbirləri və biznesin dəstəklənməsini alqışlayırıq.

Bilirəm ki, Azərbaycanın Mərkəzi Bankı da maliyyə sektorunun dəstəklənməsi üçün bir sıra tədbirlər həyata keçiribdir.

*Asiya İnkişaf Bankının prezidenti Masatsuqu Asakava rəhbərlik etdiyi qurumun COVID-19-la mübarizə sahəsində dəstək paketi haqqında məlumat verdi. Bildirdi ki, bu paketə tibbi ləvazimat və şəxsi qoruyucu vasitələrin alınması üçün qrantların ayrılması, iqtisadiyyata və cəmiyyətə təsirin azaldılması üçün büdcə dəstəyi, özəl sektorda işlə təminatın və fəaliyyətin dayanıqlı olması üçün kredit və zəmanətlərin verilməsi məsələləri daxildir. O, 2016-cı ildə neftin qiymətinin kəskin aşağı düşdüyü bir şəraitdə iqtisadiyyatın şaxələndirilməsi ilə bağlı bankın Azərbaycanla əməkdaşlığı məsələsinə də toxundu. Bildirdi ki, bank tərəfindən hazırda ölkələrin bütün ehtiyaclarının qarşılanması və Asiya İnkişaf Bankı ilə uzunmüddətli əlçatanlığın təmin edilməsi məqsədilə müvafiq meyarlara cavabvermənin dəyərləndirilməsi*

*aparılır və beləliklə, hər bir ölkə üçün kreditin maksimal məbləği müəyyən edilir.*

**İlham Əliyev:** Çox sağ olun, cənab prezident. Əvvəla, qeyd etmək istərdim ki, koronavirusla mübarizədə və dünya miqyasında göstərdiyimiz təşəbbüslərlə bağlı yaxşı məlumatlı olmağınız məni çox sevindirir. Belə təsadüf edib ki, Azərbaycan hazırda sizin də qeyd etdiyiniz kimi, iki təşkilata – Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasına və «Qoşulmama Hərəkatı»na sədrlik edir. Ötən il bizim çox uğurlu Zirvə görüşümüz oldu və Azərbaycan 120 ölkənin yekdil qərarı ilə bu təşkilata sədr seçildi. Buna görə düşündük ki, bütün dünya üçün bu önəmli vaxtda liderlik göstərmək və çox mühüm əməkdaşlıq formatını yaratmaq bizim öhdəliyimizdir. Hər iki Zirvə görüşü uğurla keçdi. Sizə deyə bilərəm ki, biz nəinki təkcə koronavirusla mübarizə sahəsində fikir mübadiləsi apardıq, eyni zamanda, bir-birimizə qarşılıqlı dəstək göstərdik. Zirvə görüşündən sonra üzv ölkələrin müvafiq nazirlərinin iştirakı ilə koronavirusla mübarizə sahəsində birgə səylərlə bağlı çox mühüm məsələlərə həsr olunmuş bir sıra konfranslar keçirildi.

Həmçinin bizim Ümumdünya Səhiyyə Təşkilatına ianəmiz haqqında da sizin yaxşı məlumatınız vardır. Düşünürəm ki, biz ilk dəfə 5 milyon dollar ayırmış ölkələr sırasında birinci idik, sonra isə «Qoşulmama Hərəkatı»nın sədri qismində də əlavə 5 milyon dollar ayırdıq. Biz Azərbaycan tərəfindən verilmiş humanitar dəstəklə artıq 14 ölkəni əhatə etmişik. Bu həm maliyyə, həm avadanlıq, həm də tibbi ləvazimatlar

dəstəyidir. Ümumdünya Səhiyyə Təşkilatı vasitəsilə biz yardıma ən çox ehtiyacı olan 15 ölkəyə dəstək göstərəcəyik.

Ümumdünya Səhiyyə Təşkilatı ilə razılaşmada bu 15 ölkə müəyyən olunub. Ona görə də bu müddət ərzində Azərbaycan, demək olar ki, 30 ölkəyə dəstək verib. Düşünürəm ki, bu bizim üzərimizə düşən məsuliyyətdir. Çünki bu çətin zamanda ölkələr və insanlar bir-birini dəstəkləməlidir.

Əməkdaşlığımızla bağlı yeni ideyalara gəlincə, biz bunda çox maraqlıyıq. Çünki mən xatırlayıram ki, 5-6 il bundan əvvəl bizim maliyyə dəstəyinə ehtiyacımız olanda Asiya İnkişaf Bankı çox tez reaksiya göstərdi. Həqiqətən də bu mənə çox xoş təsir bağışladı və mən bir daha çox vaxtında göstərilmiş dostcasına yanaşmaya görə minnətdarlığımı ifadə etmək istəyirəm. Biz bunun əməkdaşlığın çox yaxşı əlaməti olduğunu nəzərə aldıq. Əvvəl qeyd etdiyim kimi, «Cənub Qaz Dəhlizi» layihəsini ilk dəstəkləyən siz oldunuz. Yeri gəlmişkən, biz «Cənub Qaz Dəhlizi» Məşvərət Şurasının illik toplantılarını təşkil edirik. Mən xatırlayıram, bəzi başqa banklar layihəyə maliyyə öhdəliyini nəzərdən keçirdiyi vaxtda qeyd etdim ki, «Şahdəniz»dən hasil olunan qaz Avropaya nəql ediləcək. Lakin Avropa banklarında hələ proses getdiyi halda, Asiya İnkişaf Bankı maliyyələşməni təmin etdi. Düşünürəm ki, sizin çox dostcasına verdiyiniz dəstək böyük bir qrupun birləşməsində mühüm rol oynadı.

**Samir Şərifov** (*Azərbaycanın Maliyyə naziri*): Cənab Prezident, söhbətinizin davamı olaraq, bil-

dirmək istərdim ki, hazırda biz Asiya İnkişaf Bankı ilə ölkə üzrə biznes əməliyyatları strategiyası əsasında işləyirik. Bu strategiya çərçivəsində Asiya İnkişaf Bankı qarşıdakı 3-4 il üçün Azərbaycanla bağlı kredit prioritetlərini müəyyənləşdirməyə çalışır. Bildirmək istərdim ki, hazırda onlar Azərbaycanla bağlı çox mühüm texniki yardım proqramlarında olduqca fəal iştirak edirlər. Onların bir neçəsi həqiqətən də çox mühümdür, xüsusilə layihəyə hazırlıq mexanizmi. Bu da həmçinin kredit vasitəsilə tamamlana bilən texniki yardım proqramıdır.

Cənab Prezident, başqa bir mühüm layihə startapların yaradılması üçün texniki yardım layihəsidir. Onlar olduqca mühüm layihələrdir.

*Maliyyə naziri Samir Şərifov Azərbaycanda peşə təlimi sisteminin gücləndirilməsi məsələsi ilə bağlı bankla əməkdaşlığa toxunaraq bildirdi ki, hazırda Asiya İnkişaf Bankının təqdim etdiyi peşə təhsili təlimi layihəsi ilə əlaqədar bu qurumla Təhsil Nazirliyi arasında müzakirələr başlayıb. Nazir qeyd etdi ki, digər layihə əsasən özəl və maliyyə sektoru ilə bağlıdır. Bildirdi ki, ənənəvi layihələr arasında suvarma layihələri vardır. Asiya İnkişaf Bankı dövlət başçısının imzaladığı fərmanla Azərbaycanda sudan istifadə məsələləri ilə məşğul olmaq üçün hökumət yanında Operativ Qərargahın yaradılmasından məlumatlıdır və bu məsələyə töhfə vermək niyyətindədir. Samir Şərifov nəzərə çatdırdı ki, Asiya İnkişaf Bankı bu sahədə Naxçıvan Muxtar Respublikasında layihəni nəzərdən keçirməyi təklif edir.*

**M a s a t s u q u  A s a k a v a:** Azərbaycanın dayanıqlı inkişafına verdiyimiz töhfənin hansı şəkildə olması aydın oldu. İcazə verin, bir neçə məqamı qeyd edim. Asiya İnkişaf Bankı Sizin hökumətinizin iqtisadiyyatın şaxələndirilməsinin sürətləndirilməsinə və inklüziv artımın təşviqinə, eləcə də koronavirus böhranından tez bir zamanda iqtisadiyyatın bərpa olunmasına yönəlmiş strateji inkişaf gündəliyinə verdiyi dəstəyi davam etdirəcək. Bu halda, şaxələndirilmiş iqtisadiyyatın tələbatlarına daha yaxşı cavab vermək, dövlət və özəl sektorlar arasında tərəfdaşlığı təşviq etmək üçün infrastrukturun da inkişafı nəzərdə tutulur. Bütün bunlar Sizin ölkənizlə apardığımız tərəfdaşlığın strateji prioritetləridir. Dövlət və özəl sektorlar arasında tərəfdaşlıq hökumətlə həyata keçirdiyimiz layihələrin əsas mövzusu kimi qalmaqdadır. İdarəçilik sahəsində olduqca fəal mövqedən çıxış etməliyik. Bu sahəyə xarici borcun ümumi daxili məhsula nisbəti məsələsi aiddir və bu nisbət gözlənildiyindən daha sürətli templə azalmaqdadır. Mən mövqenizi tam anlayıram, siz innovativ, yeni texnoloji layihələrə sərmayələrin yatırılmasını dəstəkləyirsiniz. Bundan irəli gələrək, rəhbərlik etdiyim heyət əlindən gələni edir ki, bütün həmin layihələrin hiss olunan nəticələri yüksək texnologiyalar sahəsində olsun. İstərdik ki, onların hökumətin strateji hesab etdiyi sahələrə böyük təsiri özünü göstərsin. Məsələn, su ehtiyatları, idarəçilik, maliyyə, enerji səmərəliliyi və digər sahələr.

Bir sözlə, yuxarıda qeyd olunanlardan irəli gələrək və hökumət orqanları ilə məsləhətləşərək, əməkdaşlarım bir sıra sənədlər hazırlayıblar. Birincisi, cənab Prezident, Siz də qeyd etdiyiniz kimi, suvarma və drenaj sistemlərin inkişaf etdirilməsi layihəsi xüsusi əhəmiyyət kəsb edir. İkincisi, peşə təhsili və ticarətin liberallaşdırılması da nəzərdə tutduğumuz proqramın bir hissəsidir. Nəhayət, üçüncüsü, katalizator rolunu oynayacaq kiçik və orta sahibkarlığın maliyyələşdirilməsidir. Biz həmçinin elektrik enerjisinin paylanması sahəsində götürdüyümüz öhdəliklərə sadiq qalırıq. Bu məqsədlə, elektrik şəbəkəsinin təkmilləşdirilməsinə sərmayə proqramı nəzərdə tutulur. Əgər Sizin hökumət müsbət qərar verərsə, bu proqramlar icra oluna bilər.

Cənab Prezident, Siz həmçinin «Cənub Qaz Dəhlizi» layihəsini qeyd etdiniz. Mən bu layihənin əsas mərhələlərinin başa çatması münasibətilə Sizi təbrik edirəm. Asiya İnkişaf Bankı da bu layihənin cari il ərzində tam başa çatdırılması məqsədilə maliyyə dəstəyini davam etdirəcəkdir.

**Verner Lipax** (*Bankın Mərkəzi və Qərbi Asiya departamentinin baş direktoru*): Təşəkkür edirəm, cənab Prezident. Burada iştirak etdiyimə görə çox şadam. İcazənizlə xatırladım ki, biz Sizinlə 2018-ci ildə görüşmüşük. Həmin vaxt Siz bizi kənd təsərrüfatı torpaqlarında suvarmanın yüksək texnologiyalarını tətbiq etməyə dəvət etdiniz. Siz Asiya İnkişaf Bankının Naxçıvan Muxtar Respublikasında aparılan işlərə verdiyi töhfəsini qeyd etdiniz. Bunun əsasında, biz Naxçıvanda suvarma sistemlərinin in-

kişaf layihəsini hazırlamağa başladıq. Bu ilin yanvar ayında suvarma sistemlərinin texniki əsaslandırılması məqsədilə 1,2 milyon dollar həcmində qrant ayrılıbdır. May ayında biz bu sənədi Sizin sərəncamınızla 2020-ci ilin aprel ayında yaradılmış Dövlət Su Ehtiyatları Komissiyasına rəy almaq üçün təqdim etdik. Əslində bu layihə su kanallarında geomembran texnologiyasının tətbiqini, kanal istiqamətinin seçilməsində Coğrafi İnformasiya Sistemindən istifadəni, nəzarət qurğuları və məlumat bazasının qurulmasını, o cümlədən SCADA sistemindən istifadəni nəzərdə tutur. Həmçinin kənardan idarə edilməsi, peyklə baxış üsulu ilə suyun məhsuldarlığı və sistemin işləməsi də sınaqdan keçiriləcək. Bütün bu işlər torpaqların şoranlaşmasının azaldılmasına və kənd təsərrüfatında məhsuldarlığın artırılmasına yönəlibdir.

*Verner Lipax peşə təhsili sistemində ölkəmizlə əməkdaşlığın genişləndirilməsi sahəsində görülmüş tədbirlərdən danışdı. Qeyd etdi ki, bu ilin fevralında peşə təhsilinin inkişafı ilə bağlı təklif edilmiş proqram Dördüncü Sənaye İnqilabına uyğunlaşmaq baxımından seçilmiş sənaye sahələrinə və peşə bacarıqlarının formalaşdırılmasına yönəldilib. Bu həm də Davosda əldə olunmuş razılıq əsasında Bakıda Dördüncü Sənaye İnqilabının regional mərkəzinin yaradılması ideyası ilə üst-üstə düşür. Daha sonra o, kiçik və orta müəssisələr üçün maliyyə işlərinin tənzimlənməsi layihəsi barədə danışdı və bildirdi ki, kiçik şirkətlərin həvəsləndirilməsi, onların maliyyəyə çıxışının təkmilləşdirilməsi üçün hökumət ilkin mər-*

*hələ üzrə maliyyələşdirmə portfelini hazırlaya bilər. Verner Lipax bu məqsədlə hökumətə pul vəsaitləri ayırmalarının və həmin kreditlər portfelinin yerli valyuta ilə, yəni manatla formalaşdırılmasının mümkünlüyünü vurğuladı.*

**İlham Əliyev:** Təşəkkür edirəm. Burada qaldırılmış bütün məsələlər böyük əhəmiyyətə malikdir və mən onların bəziləri ilə bağlı şərhlərimi bildirəcəyəm. Peşə təlimi ilə bağlı məsələlər üzərində uğurla irəlilədiyimizdən məmnunam. Bu bizim üçün prioritet məsələlərdən biridir. Biz artıq bəzi ölkələrlə təmaslar yaratmışıq və bəzi layihələri icra etmişik. Biz Azərbaycanda binalar inşa etməklə, avadanlıqlar almaqla, bütün infrastruktura sərmayə yatırmışıq və onlar da öz texnologiyalarını gətiriblər. Buna görə də xüsusilə indi, fəal sənaye inkişafını yaşadığımız bir dönəmdə yaxşı mütəxəssislərin hazırlanması böyük əhəmiyyətə malikdir. Bu ilin bir göstəricisini sizə deyə bilərəm. İlk 4 ay ərzində ümumi daxili məsul artımının çox az – 0,2 faiz olmasına baxmayaraq, həmin dörd ay ərzində bizdə qeyri-neft sənayesində 16 faizdən çox artım müşahidə olunubdur. Bu həqiqətən onu göstərir ki, bizim sənayeləşmə, şaxələnmə və sənaye inkişafına təkan verən infrastruktura sərmayə üzrə səylərimiz həqiqətən, yaxşı nəticələr verir. Buna görə də qeyri-enerji sektorunun sürətli artımı əminəm ki, davam edəcəkdir və bunun üçün də bizə bu biznesi apara bilən yaxşı mütəxəssislər lazım olacaqdır. Odur ki, mən peşə təlimi ilə məşğul olmağımızı çox dəstəkləyirəm və həmçinin kiçik və orta müəssisələrə yerli valyuta ilə dəstəyin göstəril-

məsi vasitəsilə özəl sektora dəstəyiniz də çox faydalıdır. Bildiyiniz kimi, bizim borcalma ilə bağlı strategiyamız çox mühafizəkardır və bu bizə öz milli valyutamızda borc götürməyə imkan verəcəkdir.

Suvarma ilə bağlı məsələlərə gəldikdə, sizin mənim müraciətimə cavabınız üçün minnətdaram. Naxçıvandakı suvarma layihəsi indi artıq razılaşdırılmağa çox yaxındır. Mənə məlumat verilib ki, kreditin ümumi məbləği təqribən 100 milyon ABŞ dolları olacaqdır. Hesab edirəm ki, bu, Naxçıvanda kənd təsərrüfatının inkişafı üçün çox faydalı olacaqdır. Biz Dövlət İnvestisiya Proqramı vasitəsilə Naxçıvanın irriqasiya sahəsində inkişafına hər il sərmayə yatırırıq. Lakin, əlbəttə ki, əlavə vəsait və sizin mütəxəssis təcrübəniz çox faydalı olacaqdır. Bundan əlavə, sizin bütün ölkə ərazisində suvarma ilə bağlı planlarımızı nəzərdən keçirməyinizi istərdim. Biz hazırda vəziyyəti qiymətləndiririk və çox böyük su itkiləri ilə üzləşdiyimizi görürük. Bəzi hallarda köhnəlmiş infrastruktura və səmərəli olmayan su idarəetmə sisteminə görə biz suyun 40–50 faizini itiririk. Buna görə də müxtəlif nazirlərin təmsil olunduğu və Baş Nazirin müavininin rəhbərlik etdiyi, digər nümayəndələrin iştirak edəcəyi xüsusi hökumət komissiyası yaradılıbdır. Onlar bizim bütöv su potensialımızı qiymətləndirəcək və prioritetləri, hansı işləri görməli və hansı investisiyaları yatırmalı olduğumuzu müəyyən edəcəklər. Buna görə sizdən bu layihəni nəzərdən keçirməyi xahiş etmək istərdim. Ümidvaram ki, bir neçə aydan sonra bu komissiyanın fəaliyyətinin ilk nəti-

cələri bizdə olacaq. Biz suvarmanın inkişafı üzrə Dövlət Proqramının qəbul edilməsi və suvarmanın daha da səmərəli olması ilə nəticələnəcək addımları müəyyən etməyə başlaya bilərik. Buna görə də texniki dəstək və maliyyə dəstəyi baxımından biz bu məsələ üzərində sizinlə çalışmağa məmnun olarıq.

Bu gün toxunmaq istədiyim digər bir məsələ – siz artıq onu qeyd etdiniz – enerji səmərəliliyi məsələsidir. Biz indi iki şirkətdə – «Azərenerji» və «Azərişıq»da bu işləri aparırıq. Bu il və ötən il yatırılmış müəyyən investisiyalara görə «Azərenerji» minimum 600 meqavat səviyyəsində mövcud elektrik enerjisi stansiyalarının məhsuldarlığını artıra bilibdir və bu proses davam edir. Bizim və eyni zamanda, Qafqazda ən böyük olan Mingəçevir Elektrik Stansiyamız tamamilə bərpa edilib və ola bilsin ki, 1 və ya 2 ay müddətində bərpa işlərindən sonra açılacaqdır. Bundan əlavə, biz hazırda bərpa olunan enerji mənbələri üzərində fəal şəkildə işləyirik və bu sahədə fəaliyyət göstərən iki böyük şirkətlə bu ilin yanvar ayında artıq iki ilkin müqavilə imzalanıbdır. Ümumi enerji hasilatının həcmi 400 meqavat olacaqdır. İnvestisiya tamamilə xaricdən gələcək. Günəş və küləklə işləyən 2 elektrik stansiyası olacaqdır. Kifayət qədər Günəş və külək mənbəyinə malik olduğumuzu nəzərə alaraq, enerjinin bu sektorunu inkişaf etdirmək üçün bizim planlarımız vardır. Ona görə sizdən bu variantı da nəzərdən keçirməyi xahiş edirəm.

Həmçinin sizin də düzgün qeyd etdiyiniz kimi, Davos Dünya İqtisadi Forumu ilə bizim münasibətlərimiz indi yeni mərhələyə qədəm qoyub. Yan-

var ayında cənab Börge Brende və mən Davosda Azərbaycanda region üzrə Dördüncü Sənaye İnqilabının regional «hab»ının yaradılması üzrə sənədi imzaladıq. Hesab edirəm ki, bu bizim sənaye inkişafında gördüyümüz səylərin yaxşı qiymətləndirilməsinin bir nümunəsidir. Biz nəinki təkcə Azərbaycan üçün, eyni zamanda, region üçün çox güclü platformanın necə inkişaf etdirilməsi ilə bağlı sizinlə işləməyə hazırıq ki, çoxlu imkanlar yaratmaq məqsədilə mövcud infrastrukturumuzdan, bağlılıqdan və Azərbaycanın coğrafi mövqeyindən istifadə etmək mümkün olsun.

Toxunmaq istədiyim digər bir məsələ də dəmir yolu layihəsi ilə bağlıdır. Biz artıq bu sahədə birlikdə işləmişik. İndi biz şimal–cənub istiqamətində dəmir yolumuzun bərpa edilməsi prosesindəyik. Azərbaycan artıq bu dəhlizə böyük həcmdə sərmayə yatırıbdır. Onun çox böyük potensialı vardır. Biz artıq şimaldan – Rusiyadan daxil olan, Azərbaycan ərazisindən qərb və cənub istiqamətində yükləri qəbul edirik. Lakin İranla sərhəddən başlayaraq, Rusiya ilə sərhədə qədər dəmir yolumuzun keyfiyyəti yaxşı deyil. Buna görə də biz qatarların sürətini artırmaq üçün bəzi vəsaiti sərmayə olaraq yatırmışıq və bunu etməyi planlaşdırırıq. Çünki ola bilər ki, bütün yüklərin öhdəsindən gəlmək üçün bizim mövcud infrastrukturumuz kifayət etməsin. Bu gün artıq bizim Rusiya ilə sərhədimizdə tıxaclar vardır. Çünki həm Azərbaycandan, həm də İrandan artan ixrac malları artıq yük maşınları ilə gətirilməsini mümkünsüz edir. Buna görə də bizə Şi-

mal–Cənub dəhlizinin bir hissəsi olacaq müasir dəmir yolu sistemi lazımdır. Mən sizdən bu layihəni də nəzərdən keçirməyi xahiş etmək istərdim. Gələcək kommunikasiya prosesində sizə hansı işlərin görüldüyü və bizim planlarımız ilə bağlı daha ətraflı məlumat veriləcəkdir.

**Masatsuqu Asakava:** Çox sağ olun, cənab Prezident. Çox şadam ki, biz Asiya İnkişaf Bankının suvarma, peşə təhsili, kiçik və orta sahibkarlığın maliyyələşdirilməsi layihələri vasitəsilə Azərbaycanın dayanıqlı inkişafına hansı şəkildə töhfə verəcəyi ilə bağlı eyni fikirdəyik. Cənab Prezident, Siz həmçinin bərpa olunan enerjini qeyd etdiniz. Bu sahəyə də biz böyük töhfə vermək istərdik. Eyni zamanda, Siz dəmir yolu sisteminin bərpasını qeyd etdiniz. Asiya İnkişaf Bankının ciddi şəkildə hansı töhfəni verə biləcəyi üzərində düşünəcək və qısa zamanda Sizə cavab verəcəyik.

**Verner Lipax:** Bir sözlə, əvvəlki təcrübəmizə əsaslanaraq, yeni işləri icra edə bilərik. Fikrimcə, həmkarlarımız Sizinlə bu gündəliyin icrası üçün işləməkdən çox məmnun olardı. Sağ olun.

**Masatsuqu Asakava:** Biz Azərbaycandakı vəziyyətlə bağlı çox faydalı müzakirə üçün Sizə olduqca minnətdarıq. Biz qadağalar aradan götürülən kimi, mümkün qədər qısa müddətdə və Sizin vaxtınız olarsa, Azərbaycana səfər etməyi arzulayırıq.

**İlham Əliyev:** Bu mühüm məsələlərlə bağlı sizinlə müzakirə aparmaq imkanına görə təşəkkür edirəm. Cənab prezident və iştirakçılar, əminəm ki, pandemiya bitən kimi, bizə sizi Azərbaycanda qə-

bul etmək şərəfi nəsib olacaq. Mən sizi bu məsələləri həll etməyə dəvət edirəm. Komandalarımız bu gün müzakirə etdiyimiz məsələlər üzərində çalışmağa davam edəcək. Çox sağ olun.

**Masatsuqu Asakava:** Sağ olun.

## TƏRTƏR RAYONUNA SƏFƏR

*3 iyun 2020-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 3-də Tərtər rayonuna səfərə gəlmişdir.*

*Dövlət başçısı ümummilli lider Heydər Əliyevin Tərtər şəhərinin mərkəzində ucaldılmış abidəsini ziyarət edərək, önünə gül dəstəsi qoydu.*

### Dövlət Rəmzləri Muzeyinin açılışı mərasimi

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 3-də Tərtərdə Dövlət Rəmzləri Muzeyinin açılışında iştirak etmişdir.*

*Tərtər Rayon İcra Hakimiyyətinin başçısı Müstəqim Məmmədov dövlət başçısına muzeydə nümayiş etdirilən eksponatlar barədə məlumat verdi.*

*İnşasına 2019-cu ilin aprel ayında başlanılmış və noyabr ayında başa çatdırılmış muzey binasının ümumi sahəsi 720 kvadratmetrdir. Muzeyin sərgi zalında ümumilikdə 8 bölmə yaradılıb. Burada Azərbaycanın müxtəlif dövrlərə aid xəritələri sərgilənir.*

**İlham Əliyev:** Bizim tarixi adlarımız burada gərək öz qədim adları ilə əks olunsun. Sisyanın əsl adı Qarakilsədir. Sonradan ermənilər Sisyan adı veriblər. Ona görə bunu pozun və Qarakilsə yazın.

**Müstəqim Məmmədov:** Baş üstə.

**İ l h a m Ə l i y e v:** İndiki Ermənistan Respublikasının toponimlərinin mütləq əksəriyyəti Azərbaycan mənşəlidir. Onlar müxtəlif vaxtlarda bu toponimləri dəyişdiriblər.

* * *

*Muzeydə xanlıqlar dövrünün xəritəsi, orta əsrlərə aid döyüşçüləri əks etdirən manekenlər, orta əsrlərdə xanlıqların istifadə etdiyi bayraqlar, XIX əsr Azərbaycan şəhərlərinin gerbləri, qədim metal sikkələr, kağız pullar, Azərbaycan Xalq Cümhuriyyəti, Azərbaycan SSR və müstəqillik dövrlərində qəbul edilmiş konstitusiyalar, gerblər, bayraqlar, Silahlı Qüvvələrin geyim formaları, ümummilli lider Heydər Əliyevin andiçmə mərasiminə dair fotoşəkillər, dövlət rəmzləri haqqında kəlamları nümayiş etdirilir. Burada, həmçinin tarixi fotoşəkillər, poçt markaları, orden və medallar sərgilənir. Dövlət Rəmzləri Muzeyinin yerləşdiyi ərazidə hündürlüyü 72 metr olan Dövlət bayrağı ucaldılıb, ətrafındakı fəvvarə kompleksi yenidən qurulubdur.*

*Xatırladaq ki, xalqımızın qədim tarixinin öyrənilməsində, gənclərdə vətənpərvərlik ruhunun formalaşması və inkişafında muzeylərin mühüm əhəmiyyəti vardır. Onların sırasında mədəni dəyərləri və milli rəmzləri əks etdirən dövlət atributlarının bir arada ictimaiyyətə təqdim olunmasında son vaxtlar bölgələrdə rəmzlər muzeylərinin yaradılması ölkəmizin mədəni həyatı üçün çox mühüm yenilikdir. Belə muzeylərin yaradılması ideyası Prezident İlham Əliyevə məxsusdur. Dövlət başçısı bu ideyanı reallaşdırmaq-*

*la, dövlət atributlarının tariximizdəki əhəmiyyətinə diqqət çəkib. Dövlət rəmzləri muzeylərinin əhəmiyyətini artıran və onları dünyada mövcud olan muzeylərdən fərqləndirən əsas cəhət də buradakı eksponatların Azərbaycanın dövlətçilik tarixini tam əhatə etməsidir. Müxtəlif dövrlərə aid dövlətlərin bayraqları, sikkələr, tarixi keçmişə dair bir çox materiallar bu muzeylərin qiymətli eksponatları sırasına daxildir. Bu baxımdan Tərtər rayonunda yaradılmış Dövlət Rəmzləri Muzeyi də eksponatlarla zəngindir.*

## Burc–Güləbatlı–Xoruzlu–Kəbirli–Bayandurlu–Qaradağlı avtomobil yolunun yenidən qurulmadan sonra istifadəyə verilməsi mərasimi

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 3-də Tərtər rayonunda Burc–Güləbatlı–Xoruzlu–Kəbirli–Bayandurlu–Qaradağlı avtomobil yolunun yenidən qurulmadan sonra istifadəyə verilməsi mərasimində iştirak etmişdir.*

*Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi İdarə Heyətinin sədri Saleh Məmmədov dövlət başçısına yolun texniki göstəriciləri barədə məlumat verdi.*

*Bildirildi ki, 6800 nəfər əhalinin yaşadığı 6 yaşayış məntəqəsini birləşdirən yolun uzunluğu 21,5 kilometrdir. 4-cü texniki dərəcəli yolun hərəkət hissəsinin eni 6 metr, hərəkət zolaqlarının sayı isə 2-dir. Yolboyu avtobus dayanacaqları, suötürücü borular, yol nişanları və göstərici lövhələr quraşdırılıb, cizgi xətləri çəkilibdir.*

*Prezident İlham Əliyevə Tərtərdə icra olunan digər yol layihələri barədə də məlumat verildi. Dövlət başçısının müvafiq tapşırıqlarına və sərəncamlarına uyğun olaraq, bu gün Tərtər rayonunda avtomobil yollarının 81 faizi tam asfalt-betonla örtülüb. Qalan 17 kilometr kənd yollarının yenidən qurulması yaxın zamanlarda başa çatdırılacaqdır.*

*Ölkəmizdə yol-nəqliyyat kompleksinin yenidən qurulması işi uğurla davam etdirilir. Əgər əvvəllər ən müasir standartlara uyğun beynəlxalq və respublika əhəmiyyətli magistral yolların salınması diqqət mərkəzində idisə, indi yerli əhəmiyyətli yolların inşasına xüsusi diqqət yetirilir. Dövlət başçısının tapşırıqlarına müvafiq olaraq, ölkəmizin, demək olar ki, bütün yaşayış məntəqələrində mövcud avtomobil yolları əsaslı təmir edilir və ya yenidən qurulur. Şəhər və rayon mərkəzlərini qəsəbə və kəndlərlə birləşdirən yollar, eləcə də qəsəbə və kəndlərin daxili yolları yenilənir. Cəbhəyanı yaşayış məntəqələrinin sosial problemlərinin həlli istiqamətində dövlət başçısının tapşırıq və sərəncamları ilə həyata keçirilən müxtəlif infrastruktur layihələri içərisində yolların tikintisi və təmirinə xüsusi diqqət yetirilir.*

*Məhz bunun nəticəsidir ki, təmas xəttində yerləşən yaşayış məntəqələrinə gedən yolların əsaslı şəkildə yenidən qurulması davam etdirilir. Tərtər rayonunda da bu istiqamətdə genişmiqyaslı işlər görülür.*

## Tərtər Olimpiya İdman Kompleksinin açılışı mərasimi

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 3-də Tərtər Olimpiya İdman Kompleksinin açılışında iştirak etmişdir.*

*Dövlət başçısı kompleksdə yaradılmış şəraitlə tanış oldu.*

*Prezident İlham Əliyevə məlumat verildi ki, 4 hektar ərazidə inşa edilmiş Olimpiya İdman Kompleksinin ümumi sahəsi 10773 kvadratmetr, açıq idman meydançalarının sahəsi isə 8558 kvadratmetrdir. Qurğuda müxtəlif idman növləri üzrə məşqlərin və yarışların keçirilməsi üçün nəzərdə tutulmuş universal zal, üzgüçülük hovuzu, sauna, güləş, boks, basketbol və trenajor zalları, tennis kortu inşa edilib. Burada, həmçinin mehmanxana, konfrans zalı, restoran, qış və yay kafeləri, mətbəx, hakim otaqları, inzibati kabinetlər, digər texniki və köməkçi otaqlar da yaradılıb. Fiziki imkanları məhdud olan tamaşaçıların və idmançıların da kompleksdən tam və təhlükəsiz istifadə etmələri üçün zəruri şərait yaradılıb. Kompleksin ərazisində 1043 tamaşaçı-yerlik tribunası olan stadion, mini-futbol, voleybol və basketbol meydançaları, transformator, qazanxana, nasosxana, hər biri 400 kubmetrlik içməli və yanğın su anbarları, avtodayanacaq, nəzarət-buraxılış məntəqəsi də inşa edilibdir.*

*Bu kompleksin tikintisi Prezident İlham Əliyevin fərmanı ilə təsdiq edilmiş «Azərbaycan Respublikası*

*regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı»na əsasən aparılıbdır.*

*Tərtər şəhərində Olimpiya İdman Kompleksinin inşa edilməsi cəbhə bölgəsində yaşayan gənclərin sağlam həyat tərzi sürmələrində, onların idmanla sərbəst məşğul olmalarında mühüm rol oynayacaq. Komplekslə tanışlıqdan sonra Prezident İlham Əliyev rayonun bir qrup idmançısı ilə görüşdü.*

*Dövlət başçısı görüşdə çıxış etdi.*

**Azərbaycan Prezidenti İlham Əliyevin çıxışı**

Bu gün Tərtər rayonunda müasir Olimpiya İdman Kompleksi açılır. Bu münasibətlə sizi təbrik edirəm. Komplekslə tanış olarkən görürəm ki, bütün işlər çox yüksək səviyyədə görülüb. İndi Tərtərdə də idmanla məşğul olmaq üçün çox gözəl imkanlar olacaqdır.

Bildiyiniz kimi, Azərbaycanın bölgələrində idman qurğularının tikintisi geniş vüsət alıb. Hesab edirəm ki, Azərbaycan bu parametr üzrə dünya miqyasında qabaqcıl yerlərdədir. Bölgələrdə tikilmiş olimpiya komplekslərinin sayı artıq 46-ya çatıbdır. Onu da bildirməliyəm ki, 5 rayonda Olimpiya idman komplekslərinin tikintisi davam edir. O layihələr də başa çatandan sonra, ümumiyyətlə, rayonlarda 51 idman kompleksimiz olacaqdır.

Əlbəttə, bu, imkan verəcək ki, rayon idmançıları öz peşəkarlığını artırsın. Burada bütün şərait yaradılıb – böyük oyun zalı, güləş, boks, trenajor zalları, üzgüçülük hovuzu. Hətta mehmanxana da var-

dır. Tərtərdə heç vaxt üzgüçülük hovuzu olmayıb. Böyük stadion inşa edilib. Stadion da heç vaxt olmayıb. Mini-futbol, voleybol, yəni idmanın əksər növləri ilə burada məşğul olmaq olar. Əminəm ki, Tərtər idmançıları bu imkanlardan istifadə edərək, həm ölkə daxilində, həm beynəlxalq arenada yaxşı nəticələr göstərəcəklər. Tərtərdə idman həmişə inkişaf edib. İndiki şəraiti nəzərə alsaq, əlbəttə ki, daha da böyük ümidlərimiz vardır.

Bütövlükdə isə ölkəmizin idman infrastrukturu istənilən beynəlxalq yarışın keçirilməsi üçün imkan yaradır. Bakı şəhərində artıq iki çox böyük beynəlxalq idman yarışı keçirilib. Yay Olimpiya oyunlarından sonra öz miqyasına görə Avropa oyunları ikinci yeri tutur. Bildiyiniz kimi, Avropa oyunları tarixdə heç vaxt keçirilməmişdi və birinci Avropa oyunları məhz Azərbaycanda keçirildi. Bir çox ölkələr bundan imtina etdi, çünki bu bir yenilik idi. Bir çox ölkələr tərəddüd edirdilər ki, bunu bacaracaqlar, yoxsa yox. Biz isə bunu bacardıq, özü də yüksək səviyyədə. Onu da bildirməliyəm ki, həm Avropa oyunları, həm IV İslam Həmrəyliyi oyunlarının Azərbaycanda keçirilməsi idman potensialımızı gücləndirdi, eyni zamanda, Azərbaycanı dünyada müasir ölkə kimi təqdim etdi. Avropa və İslam Həmrəyliyi oyunlarında 100-dən çox ölkədən 10 mindən artıq idmançı, minlərlə qonaq iştirak etdi. Əminəm ki, onların hər biri Azərbaycandan ən xoş təəssüratlarla ayrılıb. Ölkəmizin tarixi, inkişafı, xalqımızın qonaqpərvərliyi, müasir həyatı ilə bağlı onlarda dolğun təsəvvür vardır. Sirr deyil ki, hətta

bu günə qədər bəzi dairələr Azərbaycan haqqında müxtəlif uydurmalar, həqiqəti əks etdirməyən saxta informasiyalar yayır. Ona görə Azərbaycana gələn hər bir qonaq – əgər o qərəzsizdirsə – öz gözü ilə ölkəmizin inkişafını, xalqımızın rahat yaşamasını, ölkəmizdə hökm sürən sabitliyi görür. Görür ki, bu gün müasir və müstəqil Azərbaycan dövləti ən yüksək zirvədədir. Mən tam əminliklə deyə bilərəm ki, Azərbaycan tarixdə heç vaxt indiki qədər güclü, indiki qədər müstəqil və azad olmamışdır.

Bizim idmanla bağlı tədbirlərimizin əsas məqsədi insanların sağlamlığını təmin etməkdir. İdmançılar yaxşı bilirlər ki, idman insan sağlamlığı üçün ən əsas amillərdən biridir. Ona görə mən həm idmançılarla görüşlərdə, həm digər auditoriyalarda çıxışlarımda həmişə vurğulayıram ki, hər bir insan idmanla məşğul olmalıdır. Söhbət ondan getmir ki, hər kəs idmançı olsun. Amma idmanla məşğul olan insan sağlam olur. İdman insanı fiziki cəhətdən gücləndirir, eyni zamanda, bizim idmançılarımız bu gün məişətdə də bir çoxları üçün nümunədir.

Beləliklə, idmanın kütləviliyini təmin edərək, biz xalqımızın sağlamlığını qoruyacağıq və bizim gənclərimiz, gənc nəsil sağlam olacaq – həm fiziki cəhətdən, həm mənəvi baxımdan. Çünki fiziki cəhətdən güclü insan, adətən, öz gücündən yalnız çətin məqamda istifadə etməlidir. Güclü insanda özünə əminlik vardır. Fiziki cəhətdən güclü insan heç vaxt ondan zəif insana qarşı zor tətbiq etməməlidir. Ancaq özünü, öz yaxınlarını, öz torpağını qorumalıdır. Ona görə idmanın inkişafı, sadəcə olaraq, idman

nəticələri əldə etmək üçün vasitə deyil, idmanın inkişafı xalqın sağlamlığıdır və Azərbaycan xalqı sağlam olmalıdır.

Mən bir neçə il bundan əvvəl təşəbbüs irəli sürdüm ki, Azərbaycanda hər bir insan ildə bir dəfə pulsuz müayinədən keçsin. Buna nail olmaq üçün, əlbəttə, bütün şəhərlərdə müasir xəstəxanalar olmalı idi və biz artıq bunu təmin etmişik. Bir neçə ildir ki, 5 milyondan çox insan hər il pulsuz müayinədən keçir, öz fiziki vəziyyətini müəyyən edir və xəstəlik aşkar olunan təqdirdə lazımi müalicə alır. Beləliklə, bu və digər tədbirlər nəticəsində Azərbaycanda uzunömürlülük artıb. Azərbaycan xalqı indi daha sağlamdır və həm tibbi müayinədən keçmək, həm də idmanla məşğul olmaq – bu iki amil hesab edirəm ki, insanların sağlamlığı üçün əsas rol oynayır. Əlbəttə, biz çalışmalıyıq ki, uşaqlarımız, yeniyetmələr idmanla müntəzəm məşğul olsunlar. İdmançılar yaxşı bilirlər ki, yalnız müntəzəm məşqlər nəticəyə gətirib çıxarır. Ümid edirəm ki, bu imkanlardan həm idmançılar, həm də rayonun digər sakinləri istifadə edəcəklər. Hesab edirəm ki, bu Olimpiya İdman Kompleksi rayon üçün gözəl sağlamlıq və istirahət mərkəzinə çevriləcəkdir.

Tərtər rayonunun inkişafı daim diqqət mərkəzindədir. Azərbaycan xəritəsində Tərtər rayonunun xüsusi yeri vardır. Tərtər rayonu cəbhə bölgəsində yerləşir və təbii ki, bu rayona diqqət həmişə yüksək səviyyədə olub. Təsadüfi deyil ki, Tərtər rayonunun sosial-iqtisadi inkişafı üçün son illər ərzində bir çox işlər görülüb. Bu mənim rayona sayca 6-cı

səfərimdir və hər dəfə burada olanda açılışlarda iştirak edirəm, vəziyyətlə tanış oluram, müvafiq tapşırıqlar verirəm ki, işlər daha da sürətlə getsin. Deyə bilərəm ki, son illər ərzində rayonun infrastrukturunun inkişafı çox sürətlə gedir və bu gün açılacaq yeni yarımstansiya Tərtərin elektrik enerjisi ilə təchizatında mühüm rol oynayacaqdır.

Bu günə qədər görülmüş tədbirlər nəticəsində bu sahədə çox böyük irəliləyiş vardır. Tərtərdə yaşayan insanlar yaxşı bilirlər ki, vaxtilə burada elektrik enerjisi ilə bağlı böyük problemlər var idi, fasilələrlə verilirdi, tez-tez kəsilirdi. İndiki dövrdə artıq bu, tarixdə qalıb. Düzdür, hərdənbir qəzalar baş verir, ancaq bütövlükdə enerji təminatının dayanıqlığı təmin edilir. Bu gün açılacaq yarımstansiya həm Tərtər rayonu, həm də qonşu rayonlar üçün əlavə imkanlar yaradacaqdır.

Tərtərdə qazlaşdırılma 98 faizə çatır. Təqribən 10 il əvvəl, ümumiyyətlə, qazlaşdırılmadan söhbət belə, getmirdi. Nəinki kəndlərdə, şəhərdə qaz yox idi. İndi isə əksər kəndlərə qaz xətləri çəkilib və 98 faiz göstərici bu işlərə xüsusi diqqət yetirildiyinin sübutudur.

Yol təsərrüfatı tamamilə yenilənir. Bu gün biz yeni yolun açılışını qeyd etdik və təqdimatda o yolun əvvəlki vəziyyəti əks olunmuşdu. Heç asfalt da yox idi, payız-qış aylarında keçilməz torpaq yollar idi. Hazırda Tərtər rayonunda yolların salınması və təmiri ilə bağlı çox böyük işlər görülür. Yolların 80 faizi əsaslı təmir edilib və bir layihə də icra edildikdən sonra 100 faiz olacaqdır.

Beləliklə, əsas infrastruktur layihələri – elektrik enerjisi, qaz və yollarla bağlı məsələlər öz həllini tapıb. Sosial infrastruktur, gözəl Olimpiya İdman Kompleksi yaradılıb, bir neçə il əvvəl Rayon Mərkəzi Xəstəxanası əsaslı təmir edilib və ən müasir avadanlıqlar quraşdırılıbdır. Tərtər şəhərinin su-kanalizasiya layihəsi artıq 4 il bundan əvvəl tamamlanıb və mənim iştirakımla onun açılışını qeyd etmişik. Hazırda içməli su və suvarma layihələrinin icrası davam etdirilir.

Təkcə subartezian quyularının qazılması nəticəsində rayonun su ilə təminatı böyük dərəcədə yaxşılaşıb. Bu günə qədər 72 subartezian quyusu qazılıb. İmzalanacaq yeni sərəncamla əlavə 21 subartezian quyusunun qazılması nəzərdə tutulub.

Beləliklə, Tərtər rayonunun suvarma ilə bağlı problemləri öz həllini tapacaq və bu, kənd təsərrüfatının inkişafına xidmət göstərəcəkdir.

Taxılçılıq, pambıqçılıq Tərtər üçün ənənəvi kənd təsərrüfatı sahələridir. Pambıqçılığa gəldikdə, Tərtərdə məhsuldarlıq ölkə üzrə orta məhsuldarlıqdan üstündür. Hər hektardan 34 sentner pambıq götürülüb. Ölkə üzrə də bu göstərici yaxşı səviyyədədir – 29 sentnerdir. Amma Tərtər burada qabaqcıl yerlərdədir. Nəzərə almalıyıq ki, mənfur qonşularımız uzun illər ərzində Tərtərin suyunu kəsiblər. O suyu ki, Azərbaycan Respublikası onun yığılması ilə bağlı vaxtilə, keçən əsrin 70-ci illərində böyük işlər görübdür.

Sərsəng su anbarının inşası Azərbaycan Respublikası tərəfindən, respublika büdcəsi tərəfindən hə-

yata keçirilib. İndi isə mənfur qonşular bizim suyumuzu kəsiblər. Bu, ekoloji terrordur.

Sirr deyil ki, Ermənistan terror dövlətidir və bunu bu dövlət dəfələrlə göstərib, hətta öz rəhbərlərinə qarşı terror törədiblər. 20 il bundan əvvəl Ermənistan rəhbərliyinin bir çox üzvü bu ölkənin parlamentində qətlə yetirildi və o cinayətin üstü hələ də açılmayıb. Halbuki hər kəs bilir ki, o cinayətin sifarişçiləri kimdir. Ancaq onu ört-basdır edirlər.

Çünki onların terrorçu mahiyyəti bu gün də yaşayır. Kiminsə suyunu kəsmək cinayətdir. Bu, faşizmin təzahürüdür və təsadüfi deyil ki, Ermənistanda faşistlərə abidələr ucaldılır. Azərbaycanda quruculuq, abadlıq işləri aparılır, hər bir şəhərdə sosial obyektlər, belə gözəl olimpiya mərkəzləri, xəstəxanalar, məktəblər tikilir, yollar çəkilir, qazlaşdırılma aparılır. Kasıb Ermənistanda isə ondan-bundan dilənə-dilənə, güc-bəla ilə yaşayırlar, amma faşistlərə 6 metrlik abidə ucaldırlar. O adama ki, onun Hitlerlə əməkdaşlığı sənədlərlə təsdiq edilib. O adama ki, müharibə zamanı demişdir: «Almaniya uğrunda ölən, Ermənistan uğrunda da ölür». Həmin adam Sovet İttifaqının müvafiq orqanları tərəfindən həbs olunub, ona 25 il hökm oxunub, həbsxanada da ölüb və reabilitasiya olunmayıbdır. O adama 6 metrlik abidə ucaldılır və bugünkü Ermənistan rəhbərliyi bu adamı qəhrəman kimi təqdim edir. Bu nəyi göstərir? Onu göstərir ki, Ermənistanda hakimiyyət dəyişə bilər, amma bu ölkənin terrorçu və faşist mahiyyəti dəyişməz olaraq qalır və bunu hər kəs bilməlidir. Bütün dünya bilməlidir.

Bu gün beynəlxalq təşkilatların Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı sərgilədiyi mövqe həqiqəti, ədaləti əks etdirir. Bizim səylərimiz nəticəsində bütün aparıcı beynəlxalq təşkilatlar münaqişənin ölkəmizin ərazi bütövlüyü çərçivəsində həll olunması ilə əlaqədar müvafiq bəyanatlar veriblər. Bizim bir çox ölkələrlə ikitərəfli formatda imzaladığımız strateji tərəfdaşlıq haqqında bəyannamələrdə ölkəmizin ərazi bütövlüyü dəstəklənir və münaqişənin məhz bu prinsiplər əsasında həll olunması təsbit edilir.

Bildiyiniz kimi, bu yaxınlarda qondarma «Dağlıq Qarabağ respublikası»nda qondarma prezident seçkiləri keçirildi. Qondarma, saxta prezident guya ki, seçildi. Bu gün Dağlıq Qarabağda hakimiyyəti zəbt etmiş xunta rejimidir və əvvəlki rejimin tör-töküntüləridir. Ermənistanın əvvəlki rejiminin bəd əməlləri haqqında bütün faktları Ermənistanın indiki rəhbərliyi açıb, ictimaiyyətə təqdim edibdir. Onların generalları oğru, «qəhrəmanları» cinayətkar, rəhbərləri rüşvətxordur. Keçmiş rejimin nə qədər nümayəndələri həbs olunub, nə qədər axtarışa verilibdir. Bu nə deməkdir? O deməkdir ki, 2018-ci ilə qədər 20 il ərzində Ermənistana cinayətkarlar rəhbərlik ediblər. Onlardan biri indi həbsxanadadır, o birisi isə hələ ki, azadlıqda. Halbuki onun da ölkədən çıxışına qadağa qoyulub. Yəni bir ölkənin müstəqilliyi hələ 30 ilə çatmayıb, ölkənin 20 ili cinayətkarların ixtiyarına buraxılıbdır. Əlbəttə, bu cinayətkar dəstə cinayətkar rejim yaradıb. O cinayətkar rejim ki, bütün milli azlıqları əzibdir. Orada

bir dənə də olsun milli azlıq yoxdur. Azərbaycanın qədim torpaqlarında bir nəfər də olsun azərbaycanlı qalmayıbdır. Bizim tarixi abidələrimiz, məscidlərimiz dağıdılıb, azərbaycanlıların tarixi irsi silinibdir. Nəinki azərbaycanlıların, heç bir başqa millətin nümayəndəsi orada yoxdur. Baxın, dünyanın əksər ölkələrində müxtəlif xalqlar yaşayır. Bu baxımdan Azərbaycan bir örnəkdir. Bunu bütün dünya etiraf edir ki, Azərbaycanda hökm sürən millətlərarası münasibətlər, dinlərarası dialoq dünya üçün nümunədir. Ermənistanda isə əhalinin 99,9 faizi ermənidir. Bu cinayətkar kriminal rejim bütün digər millətlərdən olan insanları müxtəlif yollarla qovub. İndi Dağlıq Qarabağda da xunta rejimi hökm sürür. Əlbəttə, xunta rejimi tərəfindən keçirilmiş saxta seçkilər bir şoudur, bir təlxəklər tamaşasıdır.

Bütün aparıcı ölkələr bu «seçkiləri» qınadı və tanımadı. Baxın, bəyanatlar da qəbul ediblər. ATƏT-in Minsk qrupunun həmsədrləri – Amerika, Fransa, Rusiya bəyan edibdir ki, seçkiləri tanımır. Avropa İttifaqı bəyan edib ki, seçkiləri tanımır. Avropa Parlamenti, həmçinin İslam Əməkdaşlıq Təşkilatı, «Qoşulmama Hərəkatı», digər təşkilatlar – bütün aparıcı beynəlxalq təşkilatlar bu seçkiləri qınadı, təkcə Avropa Şurasından başqa. Avropa Şurası susdu. O da nəyə görə? Bəllidir. Çünki Avropa Şurası Parlament Assambleyasının əsas hədəflərindən biri Azərbaycanı ləkələmək, ölkəmizi gözdən salmaq, ölkəmiz haqqında uydurmalar yaymaq, saxta məruzələr qəbul etdirmək, Azərbaycanda «beşinci kolon»u, satqınları və münaqişə ilə bağlı Ermənistan

tərəfini dəstəkləməkdir. Ona görə Avropa Şurası bu saxta seçkilərlə bağlı səsini belə, çıxarmadı. Bu halda hansı obyektivlikdən, hansı ədalətdən söhbət gedə bilər?!

Mən deyəndə ki, Avropa Şurası tərəfindən Azərbaycan ilə əlaqədar qəbul edilmiş sənədlər mənim üçün bir kağız parçasından artıq deyil, bunu nəzərdə tuturdum. Bütün Azərbaycan ictimaiyyəti gördü ki, Avropa Şurası anti-Azərbaycan mövqedədir və bu təşkilatda anti-Azərbaycan meyilləri, azərbaycanofobiya hökm sürür və bizə ünvanlanmış bütün ittihamların təməlində məhz azərbaycanofobiyadır. Biz bütün bu ittihamları artıqlaması ilə onların özlərinə qaytarırıq. Qoy bir bəyanat versinlər ki, indi dünyada bəzi ölkələrdə nələr baş verir. Polis zorakılığı, nümayişçilərə qarşı tətbiq edilən güc, nümayişçilərin öldürülməsi, kütləvi surətdə həbs edilməsi, jurnalistlərin döyülməsi, həbs edilməsi – bunlar harada baş verir? Qərb ölkələrində. Açsınlar gözlərini, baxsınlar və utansınlar ki, susublar. Nəyə görə? Çünki güclü dövlətlərdən qorxurlar. Hesab edirlər ki, bu məsələnin insan haqlarının qorunmasına aidiyyəti yoxdur. Ona görə bu qurumun riyakar mahiyyəti heç kim üçün sirr deyil və bizi də heç maraqlandırmır, onlar bu saxta seçkiləri tanıyıblar, yoxsa yox. Əsas odur ki, dünyanın sanballı və hörmətə layiq olan təşkilatları Dağlıq Qarabağda keçirilmiş saxta seçkiləri tanımayıb və qınayıbdır. Ona görə bu beynəlxalq təşkilatların və bir çox ölkələrin mövqeyi bizim mövqemizi gücləndirir. Siyasi və hüquqi baxımdan bizim mövqemiz

mükəmməldir, Ermənistanın mövqeyi qüsurludur. Biz iqtisadi sahədə, hərbi sahədə Ermənistandan qat-qat güclüyük və bunu göstərmişik, o cümlədən döyüş meydanında. Onlar bizə hücum etdi, biz cavab verib onları yerinə oturtduq. Ağdərə, Füzuli, Cəbrayıl rayonlarının bir hissəsini azad etdik. Onlar nə etdilər? Bizim kəndlərimizi bombaladılar, bax, burada – Tərtərdə. Mən aprel döyüşlərindən sonra gəlib o bombaları, o mərmiləri görmüşdüm, evlərə getmişdim. Tərtər şəhərini, Tərtərin, Ağdamın kəndlərini bombalayıblar. Bu, faşizm deyil, nədir? Dinc əhaliyə qarşı müharibə aparıla bilməz. Onların bizim ordumuza gücü çatmayıb, öz mövqelərini qoyub qaçmışdılar və nə etdilər? Dinc əhaliyə qarşı güc tətbiq etdilər. Hesab edirdilər ki, bu, tərtərlilərə, ağdamlılara təsir edəcək. Bir nəfər də tərpənmədi yerindən, bir nəfər də! Onlar bir daha gördülər ki, Azərbaycan xalqı böyük xalqdır. Mən aprel döyüşlərindən sonra burada olarkən bir daha tərtərlilərin mərdliyini gördüm. Gördüm ki, onlar öz torpağından heç bir yerə gedən deyillər. Gördüm ki, bütün təhlükələrə baxmayaraq, öz torpağında möhkəm dayanıblar. Aprel döyüşləri mənfur qonşumuza dərs olmalı idi. Ondan sonra 2018-ci ildə Naxçıvan əməliyyatı. Orada da minlərlə hektar torpaq bizim nəzarətimizə keçdi. İşğal olunmuş torpaqları azad etdik. Azərbaycan Ordusu gücünü göstərdi. Bizim gücümüzün mənbəyi Azərbaycan xalqıdır. Ermənistan ordusunun mənbəyi xarici ianələrdir və bunu açıq etiraf edirlər ki, xarici dəstək olmadan bu ölkə batacaq, bu ölkənin gələcəyi

yoxdur. Çünki onların, demək olar ki, bütün qonşulara – Azərbaycan ilə Türkiyəyə qarşı açıq şəkildə, digər qonşu ölkəyə gizli şəkildə ərazi iddiaları vardır. Baxmayaraq ki, onlar bizim tarixi torpaqlarımızda yaşayırlar. Bu tarixi hər kəs bilməlidir, xüsusilə gənclər olduğu kimi bilməlidirlər. İndiki Ermənistan Respublikasının ərazisi qədim Azərbaycan torpağıdır. Bu, tarixi faktdır. Heç uzağa getmək lazım deyil. XX əsrin əvvəllərində çar Rusiyası tərəfindən dərc edilmiş xəritələrə baxmaq kifayətdir. Hər kəs görər ki, indiki Ermənistanın bütün ərazisindəki toponimlərin, demək olar ki, mütləq əksəriyyəti Azərbaycan mənşəlidir. Mən xahiş edirəm alimlərimiz bunu dərc etsinlər ki, hər kəs görsün. Balaca bir kitabça dərc etsinlər.

İndiki Ermənistan ərazisində tarixi Azərbaycan adları, şəhərlərin, kəndlərin adları dəyişdirilib. Bu adlar neçənci ildə dəyişdirilib? Biz deyəndə ki, indiki Ermənistan tarixi Azərbaycan torpağında yaradılıb, tam həqiqəti deyirik. Biz yaxşı bilirik ki, ermənilər bizim torpağımıza, o cümlədən indiki Ermənistan ərazisinə XIX əsrin əvvəllərində köçürülüblər, Rus–İran müharibəsindən sonra. Tərtərlilər yaxşı bilirlər və Azərbaycan xalqı da bilir ki, 1978-ci ildə keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinin ərazisindəki kəndlərin birində ermənilərin bu bölgəyə gəlməsinin 150 illiyini əks etdirən abidə ucaldılmışdı. 1978-ci ildən 150 ili çıxın, deməli 1828-ci ildə gəliblər. Müharibə başlayan kimi, o abidəni dağıtdılar, amma onun qalıqları qalıb və indi istənilən adam gedib baxa bilər. Onun şəkillərini də göstərmək lazımdır. On-

lar gəlmədirlər, Şərqi Anadoludan və İrandan bizim torpaqlarımıza köçürülüblər. Bu proses XIX əsrin əvvəllərindən başlanmış və sonralar daha geniş vüsət almışdır. Mən deyəndə ki, İrəvan bizim qədim torpağımızdır, tam həqiqəti deyirəm. Bunu hər kəs bilir. Əgər belə olmasaydı, onda Azərbaycan Demokratik Respublikası nə üçün qərar qəbul edib ki, İrəvanı Ermənistana versin, bağışlasın. Özü də nə vaxt? Müstəqillik elan olunandan bir gün sonra. Müstəqillik 1918-ci il mayın 28-də elan edilib. 1918-ci il mayın 29-da isə qərar qəbul edilib, özü də yekdilliklə yox. Bu qərarın əleyhinə çıxanlar da olub, amma onların rəyi nəzərə alınmayıbdır. Azərbaycan Demokratik Respublikası tərəfindən qərar qəbul edilib ki, İrəvan Ermənistana bağışlanılsın, verilsin. Bunu unutmaq olmaz və bunu bağışlamaq da olmaz. Hər kəs bunu bilsin. Guya ki, bundan sonra Ermənistan Azərbaycana qarşı digər iddialarından əl çəkəcəkdi. Amma əl çəkdimi? Yox! Bizim qədim diyarımız Zəngəzur da Ermənistana verildi. Zəngəzurun verilməsi ilə böyük türk dünyasında coğrafi parçalanma baş verdi, Azərbaycanın əsas hissəsi Türkiyə ilə sərhəddən məhrum edildi. Bizim Türkiyə ilə sərhədimiz yalnız Naxçıvan Muxtar Respublikasındadır. İrəvan onlara veriləndən sonra ermənilər öz iddialarından əl çəkdilərmi? Yox! Dağlıq Qarabağ münaqişəsi. Yenə də torpaq iddiası. Kim əsaslandıra bilər ki, azərbaycanlıların tikdikləri İrəvan – qədim şəhərimiz Ermənistana verilsin. Kim bunu əsaslandıra bilər? Dursun, desin ki, mən hesab edirəm Azərbaycan Demokratik Respublikası

düz edib, bu işi görüb. Qoy desin. Mifologiyaya düçar olmaq ən axırıncı şeydir. Siz gənclər, bütün gənclər tarixi olduğu kimi bilməlisiniz. Onu da bildirməliyəm ki, bu hadisə 1918-ci ildə baş verib, ancaq ilk dəfə bu tarixi faktla bağlı məsələni mən qaldırmışam. Mənə qədər heç kim bunu qaldırmayıb. Bizim tarixi kitablarımızda buna rast gəlmək bəlkə nadir hallarda mümkündür. Sanki belə bir fakt olmayıb. Mən bunu qaldırdım. Müxtəlif kürsülərdən, o cümlədən xaricdə olarkən qaldırdım və dedim ki, bu bizim şəhərimizdir, bizim torpağımızdır. Hər kəs tarixini bilməlidir.

Münaqişəyə gəldikdə, bunun həllinin bir yolu var, o da ölkəmizin ərazi bütövlüyünün bərpasıdır. Başqa yol yoxdur. Azərbaycan öz ərazi bütövlüyünü bərpa edəcək. Mən bu yaxınlarda demişəm, biz güc toplayırıq, daha da güclü olmalıyıq və olacağıq. Eyni zamanda, geosiyasi vəziyyət elə olmalıdır ki, bizim bütün addımlarımız uğurla nəticələnsin. Mən demişəm ki, Qarabağ Azərbaycandır və bir daha bunu təkrarlamaq istəyirəm: Qarabağ və onun tərkib hissəsi olan Dağlıq Qarabağ Azərbaycandır və nida işarəsi! Bütün Azərbaycan ictimaiyyəti, xalqımız bu mövqeni dəstəkləyir. Mənim apardığım siyasəti, o cümlədən bu məsələ ilə bağlı apardığım siyasəti dəstəkləyir.

Mən bir daha sizi bu gözəl hadisə münasibətilə təbrik etmək istəyirəm. Olimpiya İdman Kompleksinin Tərtərdə açılması böyük məna daşıyır. Burada öz gücünü artıran gənclər ölkəmizin uğurlu inki-

şafına töhfələrini verəcəklər. Mən buna əminəm. Sizi bir daha təbrik edirəm.

* * *

**Faiq Məmmədov** (*Boks üzrə Əməkdar məşqçi*): Möhtərəm cənab Prezident, Sizi Tərtər idmançıları adından səmimi-qəlbdən salamlayır, bu gözəl Olimpiya İdman Kompleksini bizə bəxş etdiyinizə görə Sizə ürəkdən təşəkkürümüzü, minnətdarlığımızı bildirirəm.

Qeyd etmək istəyirəm ki, Tərtər rayonunda idmanın inkişafı davam edir. Bundan sonra bu möhtəşəm Olimpiya İdman Kompleksi və içərisindəki müasir avadanlıqlar imkan verəcək ki, biz daha da böyük həvəslə məşq edək və yeni-yeni uğurlara imza ataq.

Cənab Prezident, onu da demək istəyirəm ki, bu gün bütün dünyada yayılmış koronavirus pandemiyasına görə sosial layihələrin və eyni zamanda, idman tədbirlərinin keçirilməsi dayandırılıbdır. Buna baxmayaraq, Siz və Mehriban xanım ölkəmizdə yeni-yeni sosial layihələrin həyata keçirilməsini davam etdirirsiniz. Bu gün cəbhə bölgəsində yerləşən Tərtər rayonunda açılışını qeyd etdiyimiz bu möhtəşəm Olimpiya İdman Kompleksi bunu deməyə əsas verir. Biz bunu da qeyd etməliyik ki, bu gün pandemiya ilə əlaqədar insanların sağlamlığını nəzərə alaraq, bütün qabaqlayıcı tədbirləri həyata keçirmisiniz. Bu günə görə Sizə və Mehriban xanıma dərin minnətdarlığımızı bildiririk. Azərbaycan xal-

qı Sizi sevir və dəstəkləyir. Tanrı Sizi və ailənizi qorusun, cənab Prezident.

## 110/35/6 kilovoltluq «Tərtər» elektrik yarımstansiyasının yenidən qurulmadan sonra istifadəyə verilməsi mərasimi

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 3-də 110/35/6 kilovoltluq «Tərtər» elektrik yarımstansiyasının yenidən qurulmadan sonra istifadəyə verilməsi mərasimində iştirak etmişdir.*

*«Azərişıq» Açıq Səhmdar Cəmiyyətinin sədri Vüqar Əhmədov dövlət başçısına elektrik yarımstansiyasının fəaliyyəti barədə məlumat verdi.*

*Diqqətə çatdırıldı ki, bu yarımstansiya istehlakçıların elektrik təchizatının yaxşılaşdırılması məqsədilə əsaslı şəkildə yenidən qurulub. Bu qurğu vasitəsilə Tərtər şəhərində olan sosial-iqtisadi təyinatlı obyektlərin, həmçinin bütün ətraf kənd və qəsəbələrin, cəbhəyanı hərbi hissələrin, meliorasiya və suvarma sistemlərinin fasiləsiz və dayanıqlı elektrik enerjisi təchizatı təmin olunacaqdır. Yarımstansiyanın istismara verilməsi ilə 17103-ü əhali, 1290-ı qeyri-əhali olmaqla, ümumilikdə 18393 abonentin elektrik enerjisinin təchizatı daha da yaxşılaşdırılacaqdır.*

*Yarımstansiya 110 kilovoltluq Naftalan və 110 kilovoltluq Bərdə hava xətləri vasitəsilə əlaqələndirilməklə, «Azərbaycan» İstilik Elektrik Stansiyası və 330 kilovoltluq «Gəncə» yarımstansiyası arasında dairəvi elektrik təchizat sxeminə qoşulub. Bundan başqa, həmin yarımstansiya Tərtər və Bərdə rayon-*

*larında, habelə Naftalan şəhərində yerləşən 110 kilovoltluq yarımstansiyalararası 35 kilovoltluq dairəvi elektrik təchizatı sxeminin etibarlılığını və təhlükəsizliyini təmin etməklə, regionda olan bütün istehlakçıların, xüsusən də əhalinin enerji təchizatının dayanıqlılığını daha da artıracaqdır.*

*Yarımstansiya beynəlxalq standartlara cavab verən müasirtipli elektrik avadanlıqları, elektron tipli rele mühafizəsi və avtomatika sistemləri ilə təchiz edilib, məsafədən idarə olunan SCADA dispetçer sisteminə qoşulubdur. Burada növbətçi heyət üçün lazımi iş şəraiti yaradılıb, müvafiq xidmət otaqları, o cümlədən mühafizə, texniki xidmət və idarəetmə otaqları inşa edilibdir. Prezident İlham Əliyev yarımstansiyanı işə saldı.*

* * *

*Prezident İlham Əliyevin rəhbərliyi ilə son illərdə ölkəmizdə elektroenergetika sahəsində mühüm işlər görülüb, mövcud çatışmazlıqların aradan qaldırılması, yeni yarımstansiyaların tikintisi diqqət mərkəzində saxlanılıbdır. Bu sırada Tərtər rayonunda energetika sisteminin yenidən qurulması, əhalinin fasiləsiz elektrik enerjisi ilə təchiz olunması prioritet məsələlərdən olub. Bu ərazidə son illərdə aparılan geniş tikinti, yenidən qurulma və bərpa işləri nəticəsində rayonun kəndlərinin və ətraf ərazilərin elektrik təchizatının yaxşılaşdırılması, həmçinin kənd təsərrüfatı obyektlərinin artan elektrik tələbatının qarşılanması üçün geniş imkanlar yaranıbdır. Bu illərdə rayonda xeyli elektrik hava xətləri çəkilib, kəndlərin*

*elektrik şəbəkəsi özünüdaşıyan izolyasiyalı naqillərlə əvəzlənib və hazırda bu işlər digər kəndlərdə davam etdirilir. Bununla da mövcud elektrik şəbəkəsinin qoyuluş gücü artıb, texniki itkilər xeyli azalıbdır.*

## «Azərxalça» Açıq Səhmdar Cəmiyyətinin Tərtər filialının açılışı mərasimi

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 3-də «Azərxalça» Açıq Səhmdar Cəmiyyətinin Tərtər filialının açılışında iştirak etmişdir.*

*Dövlət başçısı filialın açılışını bildirən rəmzi lenti kəsdi. «Azərxalça» ASC-nin İdarə Heyətinin sədri Vidadi Muradov dövlət başçısına müəssisədə yaradılmış şərait barədə məlumat verdi.*

*Burada müxtəlifölçülü 43 dəzgahda Azərbaycan xalçaları toxunulacaq və əsas üstünlük orijinal Qarabağ xalça çeşnilərinə veriləcəkdir. Bu çeşnilər dünya muzeylərində, şəxsi kolleksiyalarda mühafizə olunan, həmçinin respublikamızın ayrı-ayrı bölgələrindən toplanılan qədim və orijinal xalçalar əsasında «Azərxalça»nın rəssamları tərəfindən hazırlanıbdır.*

*Diqqətə çatdırıldı ki, bina toxuculuq emalatxanası, konfrans zalı, tibb otağı, anbar, yeməkxana, xalça və xalça məmulatlarının sərgilənməsi və satışı üçün xalça-satış salonu və digər bölmələrdən ibarətdir. Emalatxana zəruri xammal və ləvazimatlarla təmin edilib. Filialda 150 nəfər toxucunun və 14 nəfər inzibati-təsərrüfat işçisinin çalışması nəzərdə tutulub və hazırda 85 nəfər, o cümlədən 71 nəfər toxucu və 14 nəfər inzibati-təsərrüfat işçisi işlə təmin edilibdir.*

*Toxucular bir neçə ay ərzində «Azərxalça»nın burada təşkil olunmuş hazırlıq-tədris kurslarında iştirak edib, xalçaçılıq üzrə bacarıq və vərdişlərini təkmilləşdiriblər. Tədris-hazırlıq kursu filial fəaliyyətə başladıqdan sonra da öz işini davam etdirəcək. Bu kursun məzunları «Azərxalça» ASC-nin tədris sertifikatı ilə təmin olunacaq. Cəmiyyətin digər filiallarında olduğu kimi, Tərtər filialı da işçilərin daşınması üçün avtobusla təmin edilibdir.*

* * *

*Azərbaycanda xalçaçılıq tətbiqi sənət növünün ən qədim sahələrindən biridir. Ölkəmiz ərazisində aparılan arxeoloji qazıntılara və yazılı mənbələrə görə, Azərbaycanda xalça toxuculuğu Tunc dövründə, yəni 5000 il bundan əvvəl meydana gəlib. Azərbaycan xalçası boyalarının tükənməz zənginliyi, naxışlarının bənzərsizliyi, yaradıcılıq təxəyyülünün gücü və yüksək sənətkarlığı ilə fərqlənir.*

*Xalçalarımız dünyanın ən məşhur muzeylərini bəzəyir. Quba–Şirvan, Gəncə–Qazax, Qarabağ, Təbriz xalçaçılıq məktəbləri bütün dünyada məşhurdur. Bu zonalarda toxunan xalçalar ilmələrinin sıxlığına, rəng çalarlarına, üz ipliyinin xovuna, toxunuşuna və ornamentlərinə görə seçilir.*

*Hazırda Azərbaycan xalça sənəti özünün əsl dirçəliş dövrünü yaşayır. Prezident İlham Əliyevin həmin sahənin inkişafı ilə bağlı verdiyi tapşırıqlar və imzaladığı sərəncamlar bu baxımdan xüsusi əhəmiyyətə malikdir.*

*Dövlət başçısının sərəncamlarına uyğun olaraq, yaradılması nəzərdə tutulmuş 31 xalça müəssisəsindən 13-ü istifadəyə verilib, 8-i isə istifadəyə hazırdır. Daha 10 fabrikin tikintisi layihələndirilir. Bundan başqa, Əyirici–Boyaq fabrikinin, hazır xalçaların emalı mərkəzinin, yun və boyaq tədarükü məntəqələrinin yaradılması istiqamətində mühüm işlər görülür.*

## AĞDAM RAYONU ƏRAZİSİNDƏ YERLƏŞƏN «N» SAYLI HƏRBİ HİSSƏDƏ OPERATİV MÜŞAVİRƏ

*3 iyun 2020-ci il*

*Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev iyunun 3-də Ağdam rayonu ərazisində yerləşən «N» saylı hərbi hissədə olmuşdur.*

*Müdafiə naziri, general-polkovnik Zakir Həsənov və Müdafiə nazirinin birinci müavini, Silahlı Qüvvələrin Baş Qərargah rəisi, general-polkovnik Nəcməddin Sadıkov dövlət başçısı, Ali Baş Komandan İlham Əliyevə raport verdilər.*

*Sonra Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev Müdafiə Nazirliyinin rəhbərliyi ilə operativ müşavirə keçirdi.*

*Dörd hektar ərazidə salınmış hərbi hissənin tikintisi yüksək keyfiyyətlə həyata keçirilib. Qərargah binasında ideoloji otaq, brifinq, akt zalları və digər xidməti iş otaqları yerləşir. Burada 4 yataqxana binası da vardır. Yataqxana binalarının hamısında hərbçilər üçün hamam otaqları yaradılıb. Hamam-camaşırxana binası da bütün tələblərə tam cavab verir.*

*Bundan əlavə, ərazidə stomatoloq, fizioterapiya, funksional diaqnostika, prosedur otaqlarının yerləşdiyi tibb məntəqəsi qurulub. Yeməkxana binasında*

*hərbçilərin qidalanması üçün hər cür şərait yaradılıb. Fasiləsiz elektrik enerjisi ilə təmin olunan hərbi hissədə su təminatı üçün 180 metr dərinlikdə subartezian quyusu qazılıb. Ərazidə daimi təhlükəsizliyi təmin etmək məqsədilə 24 saat xidmət göstərən qarovul evi, döyüş hazırlığı qabiliyyətini təkmilləşdirmək məqsədi ilə daxilində döyüş hazırlığı üçün təlim meydançaları olan qarovul şəhərciyi də istifadəyə tam hazırdır. Bundan əlavə, hərbi qulluqçuların ailələri üçün 48 xidməti mənzildən ibarət ikimərtəbəli 3 yaşayış binasının tikintisinə başlanılıbdır.*

*Azərbaycanda ordu quruculuğu sahəsində mühüm tədbirlər ardıcıl surətdə, dünya təcrübəsi nəzərə alınmaqla həyata keçirilir. 2003-cü ildən Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Silahlı Qüvvələrin maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində atılan addımlar ordumuzun gücünə əlavə güc qatır. Bu gün Azərbaycanı dünya birliyində layiq olduğu yerə gətirən amillər sırasında Silahlı Qüvvələrin döyüş qabiliyyəti, texniki təchizatı, zabit kadrlarının hazırlıq səviyyəsi, əsgərlərin mənəvi-psixoloji durumu mühüm yer tutur. Bu həm də geosiyasi amil kimi ölkəmizin beynəlxalq aləmdə qlobal və regional yerini müəyyənləşdirir. Silahlı Qüvvələrin modernləşdirilməsi, hərbi hissələrin müasirləşdirilməsi istiqamətində görülən işlər ardıcıl davam etdirilir.*

## AĞCABƏDİ RAYONUNA SƏFƏR

*3 iyun 2020-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 3-də Ağcabədi rayonunda səfərdə olmuşdur.*

*Dövlət başçısı ümummilli lider Heydər Əliyevin Ağcabədi şəhərinin mərkəzində ucaldılmış abidəsini ziyarət edərək, önünə gül dəstəsi qoydu.*

### Hindarx qəsəbəsindəki fermer təsərrüfatın əkin sahəsində taxıl biçininə başlanılması mərasimi

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 3-də Ağcabədi rayonunun Hindarx qəsəbəsindəki fermer təsərrüfatın əkin sahəsində taxıl biçininə başlanılması mərasimində iştirak etmişdir.*

**İnam Kərimov** (*Kənd Təsərrüfatı naziri*): Cənab Prezident, Sizin xeyir-duanızla artıq bu gündən taxıl biçininə başlanılır. Ölkə üzrə 1 milyon hektar taxıl sahəsində biçin aparılacaq, onun 370 min hektara yaxını arpa sahəsidir.

**İlham Əliyev:** Arpa biçilir?

**İnam Kərimov:** Bəli. Bir neçə gündən sonra da buğda biçininə başlanılacaq. Bütün texnika biçinə tam hazırdır.

**İ l h a m Ə l i y e v:** Məhsuldarlıq nə qədər gözlənilir?

**İ n a m K ə r i m o v:** Keçən il hektardan məhsuldarlıq 32 sentnerə yaxın idi, bu il hələ dəqiq demək mümkün deyil. Çünki hava quraqlıq keçdi.

**İ l h a m Ə l i y e v:** Bu il də quraqlıqdır, keçən il də quraqlıq idi. Azərbaycanda heç vaxt hektardan məhsuldarlıq 32 sentner olmamışdı. Amma keçən il biz rekord səviyyədə məhsuldarlığı təmin edə bildik. İri fermer təsərrüfatlarında təqribən 50 sentner idi. Təkrar əkinlə bağlı işlər görülür? Mən demişəm, Nazirlər Kabineti vəsait ayırıb.

**R a f i l H ü s e y n o v** (*Ağcabədi Rayon İcra Hakimiyyətinin başçısı*): Bəli, cənab Prezident, Siz göstəriş verdiniz, qarğıdalı əkiləcək.

**İ l h a m Ə l i y e v:** Orada əsas problem su problemidir. Onu gərək çatdırasınız.

**R a f i l H ü s e y n o v:** Biz planlaşdırmışıq ki, su olan yerlərdə bu il 2000 hektarda təkrar əkin aparaq.

**İ l h a m Ə l i y e v:** Sizdə 2000 hektar, ölkə üzrə 100 min hektara yaxın. Bu hədəfdir, indi nə qədər olar, olar.

**R a f i l H ü s e y n o v:** Su ilə bağlı əsas odur ki, suvarma pambıq becərilməsi ilə üst-üstə düşməsin. Bu il Ağcabədidə təxminən 30 min hektarda taxıl əkilib. Onun da 8000 hektara yaxını arpadır, 22 min hektarı buğdadır.

**İ l h a m Ə l i y e v:** Keçən il Ağcabədidə məhsuldarlıq nə qədər idi?

**R a f i l H ü s e y n o v:** Keçən il 35 sentner olub. Bu ildən növbəli əkinə qayıtmaq məsələsini nəzərdə tu-

turuq. Növbəli əkinə qayıtmasaq, məhsuldarlığı da təmin edə bilmərik. Razılaşmışıq ki, eyni sahədə növbəli qaydada həm yonca əkək, çünki maldarlığı da dayandıra bilmərik, həm də pambıq. Yonca sahələrində pambıq əkiləndə çox yaxşı məhsul götürmək olur. Biz pambıq, taxıl, yonca sahələrində növbəli əkin hesabına pambığı da 20 faizə qədər artırmağı nəzərdə tuturuq.

**İ l h a m Ə l i y e v:** Məhsuldarlığı?

**R a f i l H ü s e y n o v:** Pambığın özü də, məhsuldarlıq da xeyli artacaq. Bu il yaxşı pambıq vardır.

**İ l h a m Ə l i y e v:** Sizdə məhsuldarlıq keçən il də yaxşı idi.

**R a f i l H ü s e y n o v:** Bu il məhsul keçənilkindən daha yaxşıdır.

**İ l h a m Ə l i y e v**: Əkin sahələri eyni qalıb?

**R a f i l H ü s e y n o v:** Eyni qalıb, amma gələn il üçün nəzərdə tuturuq ki, pambıq əkinini 25 faiz artıraq. Çünki taxıl və yonca sahələri 50 min hektara qədərdir. 50 min hektar 500 iş yeridir, 10 min hektar pambıq isə 15 min iş yeridir.

**İ l h a m Ə l i y e v:** Əlbəttə, əməktutumlu sahədir. Həm də yaxşı maaş, məvacib götürülür.

**R a f i l H ü s e y n o v:** Bəli, gəlir bundan 3 dəfə artıqdır. Həm xalis gəlir, həm də ümumi gəlir artır.

**İ n a m K ə r i m o v:** Cənab Prezident, artıq fermerlər maraqlıdırlar ki, pambıq əkib, gəlir əldə etsinlər.

**İ l h a m Ə l i y e v:** Biz pambığa olan marağı qaytardıq. Keçən il hektardan məhsuldarlığı 29 sentnerə qaldırmışıq. Bu da Azərbaycanın tarixində ən yüksək göstəricilərdən biridir. Sovet vaxtında hektar-

dan məhsuldarlıq bəlkə cəmi 3-4 il təqribən 30 sentnerdən artıq olub. İndi biz, demək olar ki, 30 sentnerə yaxınlaşmışıq. Bu il də məhsuldarlıq daha yaxşı olsa, onda, əlbəttə ki, fermerlər və işləyənlər daha da böyük gəlir götürəcəklər.

**R a f i l  H ü s e y n o v:** Cənab Prezident, keçənilkinə nisbətən indi sıxlıq yüksəkdir, təxminən 100 faiz bitiş alınıb. Ona görə bu il pambıqda xeyli yaxşı nəticə gözlənilir.

**İ l h a m  Ə l i y e v:** Bir də ki, təkrar əkinlə bağlı bizim yem bazası da genişlənəcək. Hesablamısınız qarğıdalıdan nə qədər yem əldə edəcəyik? İdxaldan asılılıq nə qədər azalacaq?

**İ n a m  K ə r i m o v:** Təxminən 1,2 milyon ton silos üçün yaşıl yem, 350 min ton qarğıdalı olacaqdır.

**İ l h a m  Ə l i y e v:** Yəni xaricə pul az gedəcək.

**İ n a m  K ə r i m o v:** Bəli, az gedəcək.

**R a f i l  H ü s e y n o v:** Elektron uçotun qurulması çox böyük kömək etdi. Artıq biz uçotu bildik. İndi də başlamışıq rayon üzrə ev təsərrüfatlarının uçotunu qurmağa ki, onların nə qədər sahəsi var, orada nə dəyişiklik baş verir.

**İ l h a m  Ə l i y e v:** Fermerlər də öz işlərini bilirlər.

**İ n a m  K ə r i m o v:** Cənab Prezident, xeyir-dua versəniz, biçinə başlayardıq.

**İ l h a m  Ə l i y e v:** Başlayın.

*Sonra fermer Nizami Hüseynovun əkin sahəsində taxıl biçininə başlanıldı.*

## Dənli bitki toxumlarının emalı müəssisəsinin istifadəyə verilməsi mərasimi

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 3-də Ağcabədi rayonunda dənli bitki toxumlarının emalı müəssisəsinin istifadəyə verilməsi mərasimində iştirak etmişdir.*

*Dövlət başçısının rəhbərliyi ilə ölkədə qeyri-neft sektorunun inkişafı, ixrac yönümlü məhsullar istehsal edən müəssisələrin yaradılması və ümumilikdə iqtisadiyyatın şaxələndirilməsi istiqamətində çox mühüm layihələr icra olunur. Bu baxımdan, həyata keçirilən işlər sırasında Aqrar sənaye komplekslərinin yaradılması müstəsna əhəmiyyət kəsb edir. Aqrar sektorun inkişafında, regionlarda iqtisadi potensialın artırılmasında, ərzaq təhlükəsizliyinin möhkəmləndirilməsində yeni metod və üsulların tətbiqi, qabaqcıl texnologiyalara əsaslanan aqroparkların və iri fermer təsərrüfatlarının yaradılması özündə mühüm amilləri və hədəfləri birləşdirir.*

*Son illərdə ölkədə toxumçuluğun inkişaf etdirilməsi məqsədilə 5 rayonda, o cümlədən Ağcabədi rayonunda dənli bitki toxumlarının emalı müəssisəsi qurulub. Müəssisə 1 hektar ərazidə salınıb və burada inzibati bina, taxıltəmizləmə bloku, taxıl üçün bunker və digər qurğular yaradılıb. Qalan ərazidə isə abadlıq və yaşıllaşdırma işləri görülübdür.*

*Dövlət başçısına məlumat verildi ki, müəssisənin emal gücü saatda 5 tondur. Quraşdırılmış qurğular vasitəsilə emal olunan toxum materialını 98 faiz təmizləmək mümkündür. Bu toxumların əkin sərfiyya-*

*tı digər qurğularda təmizlənənlərdən 20–30 faiz azdır. Bu da əkinə sərf edilmiş toxumun həcminin azalmasına imkan verir, həm də fermerin məhsul istehsalında çəkdiyi xərcləri də əsaslı şəkildə azaldır.*

*Müəssisədə quraşdırılmış 3000 tonluq silo qurğularının əsas funksiyası təqdim olunan toxum materialını qəbul edərək, emal xəttinə davamlı ötürülməsi və həmin qurğularda saxlanılan toxumun digər ərazilərə daşınması üçün avtomobillərə asanlıqla yüklənilməsini təmin etməkdir. Mövsüm başa çatdıqdan sonra dövlət ehtiyacı üçün tədarük olunmuş toxumun ehtiyatı bu qurğularda təhlükəsiz saxlanılacaqdır. Müəssisədə 25 nəfər işlə təmin olunacaqdır.*

## AĞCABƏDİ RAYONUNDA «ASAN HƏYAT» KOMPLEKSİNİN AÇILIŞI MƏRASİMİNDƏ ASAN KÖNÜLLÜLƏRİ İLƏ GÖRÜŞ

*3 iyun 2020-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 3-də Ağcabədidə «ASAN həyat» Kompleksinin açılışında iştirak etmişdir.*

*Prezidentin köməkçisi, Prezident Administrasiyasının Hüquq-mühafizə orqanları ilə iş şöbəsinin müdiri Fuad Ələsgərov və Prezident yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədri Ülvi Mehdiyev mərkəz barədə dövlət başçısına məlumat verdilər.*

*Bildirildi ki, Ağcabədi «ASAN həyat» Kompleksinin tikintisinə 2018-ci ilin aprel ayında başlanılıb və bu ilin iyununda işlər başa çatdırılıbdır. Kompleksin ümumi sahəsi 7290 kvadratmetrdir.*

*Prezident İlham Əliyev «ASAN həyat» Kompleksini işə saldı.*

*«ASAN həyat» Kompleksinə «ASAN xidmət», «ASAN kommunal» mərkəzləri, «ASAN vəkillik» bürosu, Uşaq Psixoloji Sosial İnkişaf Mərkəzi və vətəndaşların istirahəti və əylənməsi üçün bir sıra sahələr daxildir. Ağcabədi regional «ASAN xidmət» Mərkəzi Ağcabədi, Ağdam, Beyləqan, Cəbrayıl, Füzuli, Xocalı, Xocavənd, Şuşa və Zərdab rayonlarında qeydiyyatda*

*olan 815 mindən çox vətəndaşa xidmət göstərəcək. Mərkəzdə 207 əməkdaş və 45 könüllü çalışacaqdır.*

*Ağcabədi «ASAN həyat» Kompleksinin tərkibində sayca 5-ci «ABAD Food Hall» fəaliyyətə başlayıb. Digər «ABAD Food Hall»arda olduğu kimi, burada da ABAD-çılar tərəfindən qeyri-sənaye üsulu ilə hazırlanmış məhsulların sərgi-satışı təşkil edilibdir.*

*ABAD publik hüquqi şəxsin 2020-ci il ərzində ABAD-çı ailələrinin sayı 16 nəfər artaraq 429-a çatıb və onlara 30-a yaxın xidmət göstərilir.*

*Daha sonra Prezident İlham Əliyevə innovativ yeniliklər barədə məlumat verildi. Qeyd olundu ki, «ASAN İnnoland» pandemiya ilə əlaqədar bir sıra yeniliklərə imza atıb, onlardan biri də istehsalçısı milli startaplar olan süni nəfəs aparatıdır.*

**İ l h a m  Ə l i y e v:** Bu, sınaqdan keçib?

**Ü l v i  M e h d i y e v:** TƏBİB müayinədən keçirib, müəyyən rəy yazıb, o rəyə uyğun da baxacağıq. Bu isə gündəlik istifadə edilən əşyaların dezinfeksiyası üçündür. Bu, eskalatorlar üçün hazırlanıb, fırlandıqca ultrabənövşəyi şüalarla dezinfeksiya olunur. Bu isə temperaturu müəyyən edir, virusu yandırır, içəri keçməyə qoymur. Bu, üz maskasıdır, bizdə istehsal olunur. DOST mərkəzlərinə paylamışıq, əməkdaşlar xidmət zamanı istifadə edirlər.

*Sonra dövlət başçısına «smart aptek» aparatı barədə məlumat verildi. Bildirildi ki, bu aparat vasitəsilə vətəndaşlar onlara lazım olan dərmanları seçə, dərmanın qiyməti, təyinatı barədə məlumat ala və ödəniş edib preparatı götürə bilərlər.*

**Ü l v i  M e h d i y e v:** Vətəndaş pulu daxil edir, kağız pul da alır, qəpik də. Seçdiyimiz dərmanı 20 saniyə ərzində içəridə tapır və təqdim edir.

**İ l h a m  Ə l i y e v:** İndiki şəraitdə bunun xüsusi əhəmiyyəti vardır.

**Ü l v i  M e h d i y e v:** Sizin tapşırığınızla müəyyən qədər pulsuz dərmanlar verilir. O adamlar həmin dərmanı almaq üçün mütləq tibb müəssisəsinə getməlidir. Amma bu «smart aptek»lər hər yerdə quraşdırıla bilər. Yerli istehsal olan «smart aptek» aparatının küçələrdə, iri ticarət mərkəzlərində, «ASAN xidmət»lərdə qoyulması planlaşdırılıb. 500 dərman növünün olduğu bu aparatın xaricə ixracı nəzərdə tutulubdur.

* * *

*Sonra dövlət başçısına dezinfeksiya robotu barədə məlumat verildi. Qeyd olundu ki, bu robot vasitəsilə bütün ictimai məkanları dezinfeksiya etmək mümkündür. Xaricdə istehsal olunan bu aparatın yerli istehsalı planlaşdırılır. Bundan əlavə, Prezident İlham Əliyevə rəqəmsal icra hakimiyyəti sistemi barədə də məlumat verildi. Bu sistemin fəaliyyəti sayəsində hər bir icra hakimiyyətində xidmət məkanının yaradılmasına nail olmaq mümkündür. Bunun sayəsində tələb olunan sənədlərin sayı 225-dən 104-ə enəcəkdir.*

*İnnovativ yeniliklərdən biri də pandemiya şəraitində dövlət orqanlarında vətəndaşları qəbul etmək üçün vahid e-qəbul portalının yaradılmasıdır. Vətəndaş mobil telefon və «Elektron hökumət» portalında*

*yaratdığı kabinetdən istifadə edərək, qəbula yazıla bilər.*

**Ülvi Mehdiyev:** Onun üçün qəbul vaxtı müəyyən olunur. Həmin vaxt videoqəbul keçirilir. Hətta biz şikayətləri prioritetləşdirə bilirik. Bütün bunlar vahid sistemdə toplanılır, analitik təhlil olunur. Şikayətləri təsnifatlaşdırmaq mümkündür.

Bundan başqa, yeni elektron rəngləmə sistemi də hazırdır. Onun vasitəsilə ağ-qara foto və videomaterialları rəngləmək mümkündür. Onu da deyək ki, Ağcabədi «ASAN həyat» Kompleksi üçün ayrılmış ərazidə geniş park salınıb, 100 avtomobil üçün dayanacaq yaradılıbdır.

*Mərkəzlə tanışlıqdan sonra Prezident İlham Əliyev ASAN könüllüləri ilə görüşdü.*

*Dövlət başçısı görüşdə çıxış etdi.*

**Azərbaycan Prezidenti İlham Əliyevin çıxışı**

Bu gün növbəti «ASAN həyat» Kompleksinin açılışını edirik. Bu münasibətlə sizi təbrik edirəm. Mənim göstərişimlə Ağcabədi rayonunda müasir, gözəl «ASAN həyat» Kompleksi yaradılıb və bu gün istifadəyə verilir. Mərkəzlə tanışlıq çox xoş təəssürat bağışlayır. Həm xarici görünüşü, həm də daxili dizaynı, tərtibatı çox gözəldir. Ən önəmlisi isə odur ki, burada vətəndaşlara 320 xidmət göstəriləcək. Bu bölgədə yaşayan 800 min insan bu imkanlardan istifadə edə bilər.

Növbəti «ASAN xidmət» Mərkəzinin açılışı çox əlamətdar hadisədir. Çünki biz qısa müddət ərzində

«ASAN xidmət» mərkəzlərinin sayını 19-a çatdırdıq və bu proses davam etdirilir. Hazırda 8 mərkəzin tikintisi nəzərdə tutulub. Onlardan bəziləri, demək olar ki, hazırdır, bəzilərində isə işlər davam etdirilir. Beləliklə, biz bütün ölkəmizi «ASAN xidmət» mərkəzləri ilə əhatə edəcəyik. Əslində bizim planlarımız da bundan ibarət idi. Biz bu təşəbbüsü irəli sürəndə mənim qəti fikrim ondan ibarət idi ki, əgər bu təcrübə müsbət olarsa – mən buna şübhə etmirdim – bütün ölkə üzrə «ASAN xidmət» mərkəzləri yaradılmalıdır və bütün vətəndaşlara keyfiyyətli xidmət göstərilməlidir. Biz bu işi ardıcıllıqla görürük. Bu gün bu mərkəzin işinə start verərkən gördüm ki, «ASAN xidmət»in fəaliyyətə başladığı dövrdən indiyə qədər təxminən 38 milyon müraciət olunubdur. «ASAN xidmət»in fəaliyyətini ən gözəl əks etdirən fakt odur ki, vətəndaşların bəyənmə dərəcəsi 99,4 faizdir. Demək olar ki, vətəndaşlarımız 100 faiz «ASAN xidmət» mərkəzlərindən məmnundurlar. Bu da təbiidir. Əslində bizim niyyətimiz də, istəyimiz də insanlar üçün çox gözəl, rahat və şəffaf xidmət yaratmaqdır. Biz buna nail ola bildik.

Bu gün «ASAN xidmət» ölkəmizin intellektual məhsuludur. Mən bir dəfə demişəm, bir daha demək istəyirəm ki, biz artıq bu intellektual məhsulu ixrac edirik. Bir neçə ölkə ilə bizim «ASAN xidmət» mərkəzlərinin o ölkələrdə yaradılması ilə əlaqədar müqavilələr imzalanıb. Bəzi ölkələrdə artıq «ASAN xidmət» mərkəzləri fəaliyyətə başlayıb. Bu bizim milli brendimizdir. «ASAN xidmət»in fəaliyyətə başlaması və uğurla fəaliyyət göstərməsi bu sa-

hədə aparılan siyasətin çox gözəl nəticəsidir. «ASAN xidmət» innovasiyadır və hər bir yeni mərkəzin açılışında mənə yeni innovativ layihələr təqdim olunur, o cümlədən bu gün. Sonra isə bu layihələrin böyük əksəriyyəti həyatda öz əksini tapır.

«ASAN xidmət»in fəaliyyəti Azərbaycanda innovasiyaların inkişafına da çox böyük təkan veribdir. Şadam ki, bu innovasiyaları təqdim edən, onları icad edən gənclərdir. Beləliklə, qısa müddət ərzində ölkəmizin ictimai xidmətlər sahəsində inqilabi dəyişikliklər baş verib. Bəlkə 10 il bundan əvvəl heç kim təsəvvür edə bilməzdi ki, bir mərkəzdə 320 xidmət göstərilə bilər. Bu xidmətlərin yüksək innovativ əmsalı vardır. Eyni zamanda, bu mərkəzlərdə şəffaflığın dərəcəsi mütləqdir. Yəni «ASAN xidmət»in əsas xüsusiyyətlərindən biri də odur ki, insanları ictimai xidmətlər sahəsində rüşvətxorluqdan, korrupsiyadan qoruya bildi. İctimai xidmətlər, demək olar ki, ən korrupsiyalaşmış sahələrdən biri idi. İnsanlar onlara qanun çərçivəsində təqdim ediləcək bir arayış üçün həftələrlə, bəzən aylarla qapı-qapı gəzirdilər, məmurlardan xahiş edirdilər, bir çox hallarda onlara lazım olan sənədləri rüşvət müqabilində alırdılar. Artıq neçə ildir ki, bu praktika Azərbaycanda tamamilə aradan qaldırılıb. Bu bir də onu göstərir ki, harada güclü iradə varsa, düşünülmüş siyasət varsa və icraedici mexanizmlər təkmilləşib, orada həmişə nəticə də olacaqdır.

Bildiyiniz kimi, «ASAN xidmət» mənim təşəbbüsümlə yaradılıb və mənim göstərişlərim əsasında öz fəaliyyətini genişləndiribdir. Ancaq «ASAN xidmət»i

yaradan sizsiniz, gənclərdir – «ASAN xidmət»in rəhbərləri, kadrları, işçiləri. Bu gün biz elə bir mükəmməl sistem yaratmışıq ki, haqlı olaraq bununla fəxr edə bilərik. İnsanların rahatlığını, ədaləti, şəffaflığı təmin etdik. Ona görə «ASAN xidmət» sadəcə olaraq, bir xidmət mərkəzi deyil, tamamilə yeni bir təfəkkürün ortaya qoyulması, ictimai münasibətlərdə tamamilə yeni fəlsəfənin tətbiq edilməsidir. Ölkəmizin müasir inkişafı ilə tam uzlaşan bir təşəbbüsdür, böyük bir layihədir.

Bunun çox böyük ictimai mənası vardır. Burada işləyən insanlar öz xidmətləri, öz işləri ilə «ASAN xidmət»i bu yüksək səviyyəyə qaldırdılar. Çünki hətta ən yaxşı bir layihə, ən yaxşı bir təşəbbüs əgər düzgün icra edilmirsə, onun səmərəsi olmur.

Mən çox şadam ki, «ASAN xidmət» mərkəzlərində işləyənlərin mütləq əksəriyyəti, demək olar ki, hamısı gənclərdir, o cümlədən könüllülər bütün mərkəzlərdə fəaliyyət göstərirlər. Mənə verilən məlumata görə, Ağcabədi «ASAN xidmət» Mərkəzində 200-dən çox işçi və 45 könüllü fəaliyyət göstərəcək. Əslində Azərbaycanda könüllülər hərəkatı «ASAN xidmət»dən başlanıbdır. O vaxta qədər Azərbaycanda könüllülər hərəkatı olmamışdır. «ASAN xidmət»dən sonra digər sahələrdə də könüllülər fəaliyyətə başladılar. O cümlədən ölkəmizdə keçirilmiş böyük beynəlxalq idman yarışlarında – Avropa və İslam Həmrəyliyi oyunlarında könüllülər böyük xidmət göstərdilər. Könüllülərsiz biz bu böyük yarışları keçirə bilməzdik. Bu gün mənim göstərişimlə digər sahələrdə də könüllülər fəaliyyət göstərir.

Mən göstəriş vermişəm ki, dövlət təşkilatlarında, nazirliklərdə, dövlət şirkətlərində könüllülər işə cəlb edilsin, onlar təcrübə keçsinlər. Çünki bugünkü könüllülər sabahın rəhbərləridir. Təsadüfi deyil ki, mənim sərəncamımla bu il «Könüllülər ili» elan edilibdir. Bu bir daha bizim könüllülərin fəaliyyətinə göstərdiyimiz diqqət və münasibəti əks etdirir.

Beləliklə, gənclər «ASAN həyat», «ASAN xidmət» mərkəzlərində fəaliyyətləri ilə vətənə çox böyük xidmət göstərmiş olurlar. Əlbəttə ki, burada peşəkarlıq da yüksək səviyyədədir. Ümumiyyətlə, qeyd etdiyim kimi, ictimai münasibətlərin tamamilə yeni forması Azərbaycanda tətbiq olunur. Çünki əvvəlki dövrdə ictimai xidmətlər sahəsində korrupsiyadan, rüşvətxorluqdan başqa, deyə bilərəm ki, kobudluq, laqeydlik də adi bir hala çevrilmişdir. Amma «ASAN xidmət» mərkəzlərində buraya gələn hər bir vətəndaşa hörmət göstərilir, onların problemləri operativ qaydada, şəffaf şəkildə həll olunur. Ona görə biz haqlı olaraq fəxr edə bilərik ki, «ASAN xidmət» Azərbaycanın milli brendidir. Təsadüfi deyil ki, BMT «ASAN xidmət» mərkəzlərinin fəaliyyətini yüksək qiymətləndirib, xüsusi mükafat təqdim edibdir. Bu xidmətin beynəlxalq müstəvidə tanıdılması ölkəmiz haqqında düzgün təsəvvürün yaranmasında da rol oynayır.

Biz əməkdaşlığa açığıq. Qeyd etdiyim kimi, biz artıq bir neçə ölkə ilə bu mərkəzlərin o ölkələrdə yaradılması ilə əlaqədar işlər görmüşük və müvafiq addımlar da atılıb. Növbəti mərhələdə həm bu il, həm gələn il bölgələrdə, Bakı şəhərində yeni mərkəzlərin

açılışı nəzərdə tutulur. Hazırda Bakıda 5 mərkəz fəaliyyət göstərir. Ancaq bildiyimə görə, bəzi mərkəzlərdə sıxlıq müşahidə olunur. Çünki birincisi, xidmətlərin sayı artıb. «ASAN xidmət» fəaliyyətə başlayanda xidmətlərin sayı, səhv etmirəmsə, 100-ə qədər idi, indi isə 320-dir. Əhali də artır və müraciətlərin sayı da artır. Ona görə Bakı şəhərində əlavə 2 mərkəzin yaradılması ilə bağlı qərar qəbul edilib. Eyni zamanda, Sumqayıt və Gəncə şəhərlərinin hər birində ikinci mərkəzin açılışı nəzərdə tutulur, həmçinin digər şəhərlərdə də.

Nəzərə alsaq ki, «ASAN xidmət»in 10 səyyar avtobusu fəaliyyət göstərir, hesab edirəm ki, biz növbəti 2-3 il ərzində ölkəmizin bütün bölgələrini əhatə edəcəyik və insanlara çox gözəl xidmət göstərəcəyik. Mən hər yeni mərkəzin açılışında bir yenilik də görürəm. Çünki «ASAN xidmət» öz fəaliyyətini genişləndirir, ABAD kimi brend artıq fəaliyyətdədir və ailə təsərrüfatlarının inkişafı ilə əlaqədar dövlət dəstəyi xüsusi rol oynayır. Ölkəmizin müxtəlif yerlərində fəaliyyət göstərən ailə təsərrüfatları öz məhsullarını artıq bazara çıxarır, eyni zamanda, ixrac etməyə başlayır. Bu da ümumi iqtisadi inkişafımıza böyük töhfədir.

Bildiyiniz kimi, hazırda biz özünüməşğulluq proqramı ilə ciddi məşğuluq. Bu il ən azı 10 min insan bu proqrama cəlb ediləcək. O cümlədən ABAD xətti ilə yaradılan kiçik istehsalat sahələri də özünüməşğulluq proqramına böyük dəstəkdir. Biliərəm ki, mənim çağırışımla özəl şirkətlər də ABAD-la müqavi-

lələr bağlayıb, onlara vəsait ayırıb ki, bu sahədə işlər daha geniş vüsət alsın.

Bu mərkəz Ağcabədi rayonu üçün yeni bir xidmət, istirahət, eyni zamanda, əyləncə mərkəzi olacaqdır. Burada iki kinoteatr fəaliyyət göstərir. Bildiyimə görə, Ağcabədi şəhərində kinoteatr yoxdur. Burada gənclərin asudə vaxtlarını keçirmələri üçün imkanlar var, ABAD ticarət mərkəzi fəaliyyət göstərir. Bu mərkəz insanları cəlb edəcək. Ağcabədi gəncləri burada işlə təmin olunurlar. Qeyd etdiyim kimi, 200-dən çox iş yeri yaradılır ki, bu iş yerlərində gənclər çalışacaqlar.

Bu mərkəzin Ağcabədi rayonunda yaradılması təsadüfi deyil. Ağcabədi əhali baxımından ölkəmizin ən böyük rayonlarından biridir. Ağcabədi Qarabağ torpağında yerləşir və son illərdə rayonun inkişafı üçün bir çox işlər görülübdür. Bu mənim Ağcabədiyə Prezident kimi, 7-ci səfərimdir və bu illər ərzində çox böyük işlər görülübdür. Ağcabədidə infrastruktur tamamilə təzələnib. Elektrik enerjisi ilə bağlı əvvəlki illərdə problemlər var idi. İndi bu problemlər aradan qaldırılır. Bu gün Ağcabədidə açılacaq yeni yarımstansiya rayonu dayanıqlı enerji ilə təchiz edəcək. Ağcabədidə qazlaşdırılmanın səviyyəsi 90 faizdən çoxdur. Cəmi bir neçə il əvvəl burada insanlar, ümumiyyətlə, qazın nə olduğunu unutmuşdular. Şəhərin, kəndlərin qaz təchizatı yox idi. İndi qaz təchizatı 90 faizdən çoxdur.

Yeni yolların çəkilişi ilə bağlı mənim növbəti sərəncamlarımda yol infrastrukturunun yaradılmasına əlavə vəsaitin ayrılması nəzərdə tutulub. Mənə

verilən məlumata görə, Ağcabədi rayonunun şəhər və kənd yollarının 60 faizi yenidən qurulur. Qalan 40 faiz üçün də bizim proqramlarımız vardır. Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramında onlar təsbit edilib. Biz bütün yolları abadlaşdıracağıq.

İçməli su layihəsi öz həllini tapır. Bu gün biz Ağcabədi şəhərinə içməli suyun verilməsini qeyd edəcəyik. Bu da böyük layihədir. Çünki həmişə Ağcabədidə içməli su böyük problem olub. Bu məsələ də öz həllini tapır. Mənim sərəncamımla suvarma suyu ilə bağlı 115 subartezian quyusu qazılıb və əlavə 30 quyu qazılacaqdır. Çünki kənd təsərrüfatının inkişafı üçün su əsas amillərdən biridir.

Rayon Mərkəzi Xəstəxanası tikilib. Ölkəmizin rayonlarda yerləşən ən böyük xəstəxanalarından biridir. Özü də müasir standartlara cavab verən avadanlıqlarla təmin edilibdir. Olimpiya İdman Kompleksi, Qarabağ Muğam Mərkəzi, «ASAN həyat» Kompleksi – bütün bunlar mənim təşəbbüsümlə və dövlət büdcəsi hesabına görülmüş işlərdir. Ağcabədi rayonunun infrastrukturuna, sosial obyektlərinə, insanları narahat edən problemlərin həlli üçün nəzərdə tutulmuş layihələrə çox böyük vəsait qoyulubdur. Bu bir daha göstərir ki, ölkəmizin hər bir yerində işlər bu səviyyədə görülməlidir – plan üzrə, ardıcıllıqla, prioritetləri düzgün müəyyənləşdirməklə. Bunları biz etmişik. Əgər infrastruktur layihələri icra edilməsəydi, o biri layihələrin, ümumiyyətlə, əhəmiyyəti olmazdı. Bu təməli biz yaratmışıq. Ona görə də indi iqtisadi inkişaf daha sürətlə getməlidir.

Kənd təsərrüfatını texnika ilə tam təmin etmişik. Bu gün Ağcabədidə biçin mövsümünə artıq start verildi. Nəinki Ağcabədi rayonunu, bütün ölkəmizi taxılyığan, pambıqyığan kombaynlarla tam təmin etmişik, özü də dünyanın ən qabaqcıl şirkətlərinin istehsalı olan kombaynlarla. Bizim kəndlilər, fermerlər bunu görməyiblər. Sovet vaxtından qalan sınıq-salxaq kombaynları onlar güc-bəla ilə təmir edirdilər, çalışırdılar ki, onlara xidmət göstərsin. Onlar da dəqiqəbaşı sınır, sonra sıradan çıxırdı. Bir neçə il ərzində texnika təchizatı, ümumiyyətlə, mövcud deyildi. Ona görə torpaqlar qalmışdı başsız, əkin-biçin getmirdi. Bunu da həll etdik. Bu, gözəl bir təməldir. İndi bütün infrastruktur yaradılıb, texnika ilə təchiz edilibdir.

İndi gərək sahibkarlar öz sözlərini desinlər. Ağcabədidə 4 iri fermer təsərrüfatı yaradılıb. Taxılçılıqda fermer təsərrüfatlarının xüsusiyyəti ondadır ki, məhsuldarlıq ölkə üzrə orta məhsuldarlıqdan qat-qat üstündür, o cümlədən pambıqçılıqda. Biz ölkəmizi bu yolla inkişaf etdirəcəyik və iqtisadiyyatımızın şaxələndirilməsini təmin edəcəyik.

«ASAN xidmət»in fəaliyyətinə qayıdarkən, bir daha demək istəyirəm ki, bu xidmətin timsalında bizim müasir yanaşmamız görünür. Onu görürük və sübut edirik ki, korrupsiya ilə, rüşvətxorluqla nəinki mübarizə aparmaq mümkündür, həm də uğur qazanmaq mümkündür. Biz bütün vasitələrdən istifadə edirik. Əlbəttə, hesab edirəm ki, burada əsas rol sistem xarakterli tədbirlərdir. Çünki artıq «ASAN xidmət»in timsalında görürük ki, burada

bu mümkündür. Bu sistem xarakterli institusional tədbirlərlə biz korrupsiyanın, «kölgə iqtisadiyyatı»nın meydanını daraldırıq. Ancaq bununla yanaşı, inzibati və cəza tədbirləri görülür və görüləcəkdir. Azərbaycan ictimaiyyəti bu məsələ ilə bağlı məlumatlandırılır. Deyə bilərəm ki, mənim ünvanıma gələn minlərlə məktubda korrupsiya, rüşvətxorluq ilə bağlı bizim mübarizə çox yüksək qiymətə layiq görülür. Vətəndaşlar bunu təqdir edir, bəyənir və biz görürük ki, yerlərdən artıq siqnallar gəlməyə başlayır. Mən bir daha demək istəyirəm ki, mütləq ictimai nəzarət olmalıdır.

Məmur özbaşınalığı ilə bağlı hər bir siqnal araşdırılacaq. Təbii ki, bu siqnallar ədalətli olmalıdır. Burada da hansısa qarayaxma kampaniyasına yol vermək olmaz və kortəbii yanaşmaq olmaz. Hər bir siqnal ciddi araşdırılacaq. Çünki istisna deyil ki, kimsə yalandan ortalığa bir məlumat ata bilər, kiminsə kimdənsə xoşu gəlmir, onun haqqında nəsə yaza bilər, belə hallar da vardır. Ona görə ilk növbədə, ədalət və ictimai nəzarət təmin edilməlidir.

Əminəm ki, biz korrupsiyaya və rüşvətxorluğa qarşı mübarizədə də qalib gələcəyik. Təsadüfi deyil ki, Ümumdünya Səhiyyə Təşkilatı pandemiya ilə mübarizə sayəsində görülmüş işlərə yüksək qiymət verərək, Azərbaycanı nümunəvi ölkə adlandırıb. Bəlkə də başqa ölkələr haqqında oxşar fikirlər səsləndirilib, amma mən eşitməmişəm. Ancaq Azərbaycana gəldikdə, Ümumdünya Səhiyyə Təşkilatı, o təşkilat ki, dünya miqyasında bütün səhiyyə sahə-

sində işlərə rəhbərlik edir və işləri koordinasiya edir, Azərbaycanı nümunəvi ölkə adlandırıbdır.

Bütün bunlar bir daha ona göstərir ki, birincisi, Azərbaycan güclü dövlətdir, ikincisi, siyasətimizin mərkəzində Azərbaycan vətəndaşıdır, onun sağlamlığıdır. Bizim tədbirlərimiz məqsədyönlü, səmərəli, vaxtında atılmış cəsarətli addımlardır. Biz insanların həyatını qorumaq üçün şüurlu şəkildə iqtisadi tənəzzülə və iqtisadi itkilərə getdik. Milyardlarla manat – baxmayaraq ki, neftin qiyməti düşüb – xərclədik və xərcləyirik. İnsanların sağlamlığı birinci yerdədir. Bu göstərdi ki, ən çətin böhranlı anlarda biz düzgün addım ata bilərik və güclü iradə göstərə bilərik.

Mən hər gün insanlardan yüzlərlə təşəkkür məktubu alıram. Onların cəmi bir hissəsi mətbuatda dərc edilir. İnsanlar bu məktublarda minnətdarlıqlarını bildirirlər. Mənim üçün görülmüş bu işlərə verilən ən yüksək qiymət vətəndaşların buna münasibətidir.

Mən bir daha sizi bu gözəl hadisə münasibətilə ürəkdən təbrik edirəm. Sizə fəaliyyətinizdə uğurlar diləyirəm. Əminəm ki, siz – «ASAN xidmət»də çalışan işçilər, könüllülər öz işinizlə ölkəmizin ümumi inkişafına töhfə verəcəksiniz. Bir daha təbrik edirəm.

* * *

**Tural Nağıyev** (*Ağcabədi «ASAN xidmət» Mərkəzinin əməkdaşı*): Möhtərəm cənab Prezident, Sizi Qarabağımızın doğma diyarı olan Ağcabədidə sa-

lamlayıram. Bu gün Sizin qarşınızda çıxış etməklə böyük qürur yaşayıram.

Möhtərəm cənab Prezident, dövlətçiliyimizin, müstəqilliyimizin inkişaf meyillərinə uyğun olaraq, gənclərimizin daha da yaxşı təhsil alması və aparıcı qüvvəyə çevrilməsi olduqca önəmli amildir. Bu baxımdan Sizin rəhbərliyinizlə gənclərlə bu formatda görülən tədbirlər sayəsində Azərbaycan gəncliyinin inkişafına təkan verilmiş və bizlərin cəmiyyətdə fərd olaraq özümüzü təsdiq etməyimizdə böyük rol oynamışdır. Bu dediklərimə bariz nümunə olaraq, Sizin müəllifi olduğunuz və dünyada Azərbaycan brendi kimi tanınan «ASAN xidmət» mərkəzləri dövlət idarəetməsində mühüm bir istiqamətə çevrilibdir. Belə ki, yarandığı gündən etibarən şəffaflığı, korrupsiyaya qarşı mübarizəni və eləcə də elektron sahədə institusional islahatların səmərəliliyinin artırılması və nəhayətdə Sizin tapşırığınıza əsasən, vətəndaşlara ləyaqətlə xidmət etməyi özünə ümdə vəzifə seçmiş «ASAN xidmət» mərkəzləri bu gün, Sizin də bayaq qeyd etdiyiniz kimi, 38 milyon vətəndaş müraciətini cavablandırıbdır. Sevindirici digər bir hal ondan ibarətdir ki, bu xidmətlərin həyata keçirilməsində 4500 nəfər işçi heyəti iştirak edibdir. Bunların da mütləq əksəriyyəti gənclərdir.

Cənab Prezident, COVID-19 virusu qlobal təsirini hələ də saxlamaqdadır. Lakin buna baxmayaraq, ölkəmizdə virusun yarandığı ilk dövrdən etibarən dövlət tərəfindən aparılan təcili, zəruri və təxirəsalınmaz tədbirlər sayəsində pandemiyanın zərərləri minimuma endirilibdir. Bununla bərabər, Sizin

təşəbbüsünüz və rəhbərliyinizlə dünya ölkələri, beynəlxalq təşkilatlar və eləcə də tanınmış nəhəng şirkətlərin rəhbərləri ilə videokonfrans vasitəsilə həyata keçirdiyiniz tədbirlər, düşünürük ki, pandemiyaya qarşı ümumi mübarizəni daha da mütəşəkkil edir. Bu tədbirlər fonunda qeyd etmək istərdim ki, may ayının 14-də hökumətlərarası COVID-19-a qarşı mübarizədə «ASAN qlobal» veb-forumu keçirildi. Bu veb-foruma dövlət agentliyi ev sahibliyi etdi. Forumda mütləq olaraq qeyd edildi ki, ölkəmizdə pandemiya dövründə vətəndaşlarımıza bir çox sahələrdə və bir çox xidmətlər üzrə yeni innovasiyalardan, texnologiyalardan istifadə edilərək, rahat, çevik və fasiləsiz çıxış imkanı təmin olundu. Bir çox dövlətlər bu fürsətlərdən istifadə etmək, eyni zamanda, bu təcrübədən yararlanmaq üçün öz rəsmi müraciətlərini ünvanlamışlar.

Möhtərəm cənab Prezident, çıxışımın sonunda qeyd etdiyim bütün bu məqamlar əslində ölkə rəhbərliyinin xalqa, bilavasitə gənclərə olan diqqət və qayğısını əks etdirməkdədir. Belə ki, biz bir gənc olaraq, öz üzərimizə düşən vəzifəni anlayaraq, yaxşı təhsil alıb öz ixtisasımıza dərindən yiyələnib, heç bir əks-təsirin Vətən sevgisini üstələməsinə izn vermədən bu mirası gələcək nəsillərə ərməğan etməliyik. Odur ki, yaşasın dövlətimiz və onun müstəqil, müasir və mübariz gəncliyi!

Diqqətinizə görə minnətdaram.

**Aytac Abdullayeva** (*ASAN könüllüsü*): Möhtərəm cənab Prezident, əvvəla, Sizi salamlayıram. Sizi doğma Ağcabədimizdə görməkdən çox şadıq.

Ağcabədi sakinləri, eləcə də biz gənclər rayonumuzda «ASAN xidmət» Mərkəzinin açılacağı günü səbirsizliklə gözləyirdik. Bir tərəfdən, region əhalisi bir məkandan şəffaf qaydada bir çox dövlət və özəl xidmətlərdən yararlanacaq, digər tərəfdən isə gənclərimizə əlavə fürsətlər açılacaqdır. Biz və bizim kimi çox gənclər bu qurumun bir parçası olaraq, könüllü fəaliyyət göstərmək, dövlətimizə və xalqımıza fayda vermək istəyirik.

Möhtərəm Prezident, insanların əsl gücü ən çətin məqamlarda bilinir. Bu gün pandemiya dövründə Sizi yanımızda görmək bizim gücümüzə güc qatır. Biz bu çətin günlərdə Sizin «Biz birlikdə güclüyük!» şüarınız altında xalqımızın birliyinin bir daha şahidi olduq. Biz könüllülər də «Könüllülər ili»ndə bu prosesdən kənarda qala bilməzdik.

Siz çıxışlarınızdan birində yaşlı tənha insanların ehtiyaclarının təmin olunması üçün biz könüllülərə səsləndiniz. Elə bununla da ölkəmizin hər yerində bütün könüllülər səfərbər oldular. ASAN könüllüləri olaraq, yaşı 65-dən yuxarı mindən çox tənha yaşayan insanı ərzaqla və bir çox tibbi vasitələrlə təmin etdik. Bizlər karantin elan olunan vaxtdan tibb işçiləri ilə birgə aeroportda vətəndaşların qarşılanmasına, məlumatlandırılmasına və zəruri ilkin tibbi ləvazimatlarla təmin olunmasına kömək etdik. Biz ASAN könüllüləri qana ehtiyacı olan, qan xəstəliyindən əziyyət çəkən insanlara qan donorluğu edib onların həyatda qalmalarına yardımçı olduq. Xüsusi qayğıya ehtiyacı olan 2000-dən çox uşağı və ailəsini ərzaqla təmin etdik. Biz «Könül-

lülər ili»nin tam mənada fədakarcasına yaşandığını gördük. Biz hamımız əminik, Sizin dediyiniz kimi, milli həmrəylik, məsuliyyət, milli birliyimiz imkan verəcək ki, biz bu xəstəliyə qalib gələk.

Bu gün biz Qarabağ gəncləri olaraq, çox rahatıq. Çünki bilirik ki, arxalana biləcəyimiz dövlətimiz və Siz varsınız, cənab Prezident. Eyni zamanda, dövlətimiz də bizə arxalana bilər. Çünki biz də digər könüllülər kimi, xalqımızın və dövlətimizin rifahı üçün əlimizdən gələn hər şeyi edəcəyik. Hər zaman yanımızda olduğunuz üçün Sizə təşəkkürümüzü bildirirəm. Bunu da qeyd etmək istəyirəm ki, biz də hər zaman Sizin yanınızdayıq.

**İ l h a m Ə l i y e v:** Çox sağ olun. Sizi bir daha təbrik edirəm. Sizə uğurlar arzulayıram. Özünüzə yaxşı baxın, vətəndaşlarla məsafə saxlayın.

## Ağcabədi şəhərinin içməli su təchizatı və kanalizasiya sistemlərinin istismara verilməsi mərasimi

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 3-də Ağcabədi şəhərinin içməli su təchizatı və kanalizasiya sistemlərinin istismara verilməsi mərasimində iştirak etmişdir.*

*Cəbhəyanı ərazidə yerləşən Ağcabədi şəhərində əhalinin içməli su təchizatı və kanalizasiya xidmətlərindən istifadəsinin yaxşılaşdırılması mühüm əhəmiyyət kəsb edir. Prezident İlham Əliyevin təsdiqlədiyi regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramı çərçivəsində 2017-ci ildə «Ağcabədi şəhərinin*

*içməli su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması layihəsi»nin icrasına başlanılıb. Azərbaycan hökuməti və Asiya İnkişaf Bankının birgə maliyyələşdirdiyi «Su təchizatı və kanalizasiya investisiya proqramı» çərçivəsində icra olunan layihə 2035-ci ilədək perspektiv inkişaf nəzərə alınmaqla, 45 min nəfərin içməli su və kanalizasiya xidmətlərindən istifadəsinin yaxşılaşdırılmasına hesablanıbdır.*

*Prezident İlham Əliyev Ağcabədi şəhərinə içməli suyun verilməsini təmin edən qurğunu işə saldı.*

*Ağcabədi Rayon İcra Hakimiyyətinin başçısı Rafil Hüseynov dövlət başçısına məlumat verdi ki, Ağcabədi şəhərini içməli su ilə təmin etmək üçün mənbə olaraq, yeraltı sular seçilib və bu məqsədlə 14 subartezian quyusu qazılıbdır. Su mənbəyindən şəhərə 15 kilometr uzunluğunda magistral su xətti çəkilib. Şəhərin dayanıqlı su təchizatı məqsədilə hər birinin tutumu 10 min kubmetr olan 2 su anbarı inşa edilib. Layihə çərçivəsində Ağcabədi şəhərində 350 kilometr içməli su xətti çəkilib, 8500 ünvana ev birləşməsi verilərək, su sayğacları quraşdırılıbdır. Suyun optimal idarə olunması üçün 618 siyirtmə, yanğın təhlükəsizliyi məqsədilə 905 yanğın hidrantı quraşdırılıbdır. Hazırda şəhər əhalisi yeni çəkilmiş şəbəkə vasitəsilə sutkaboyu keyfiyyətli içməli su ilə təmin olunur.*

*Ağcabədi şəhərində tullantı sularının idarə edilməsi məqsədilə 305 kilometr tullantı su şəbəkəsi, 4 kanalizasiya-nasos stansiyası, 9 kilometr kanalizasiya kollektoru inşa edilib. Yeni yaradılmış tullantı su şəbəkəsindən ünvanlara birləşmələr verilib. Şəhərdə yaranacaq tullantı suların zərərsizləşdirilməsi məq-*

*sədilə məhsuldarlığı sutkada 10 min kubmetr olan təmizləyici qurğunun tikintisi üzrə son tamamlama işləri aparılır. İstehlakçılara göstərilən xidmət keyfiyyətinin yüksəldilməsi məqsədilə Ağcabədi Sukanal Sahəsi üçün müasirtipli inzibati bina tikilibdir.*

## 110/35/10 kilovoltluq «Ağcabədi-2» elektrik yarımstansiyasının yenidən qurulmadan sonra istifadəyə verilməsi mərasimi

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 3-də 110/35/10 kilovoltluq «Ağcabədi-2» elektrik yarımstansiyasının yenidən qurulmadan sonra istifadəyə verilməsi mərasimində iştirak etmişdir.*

*«Azərişıq» Açıq Səhmdar Cəmiyyətinin sədri Vüqar Əhmədov dövlət başçısına məlumat verdi ki, istehlakçıların elektrik təchizatının yaxşılaşdırılması məqsədilə Ağcabədi rayonu ərazisində 35 kilovoltluq yarımstansiyada əsaslı yenidən qurulma işləri aparılaraq, gərginlik sinfi artırılıb və 110/35/10 kilovoltluq «Ağcabədi-2» yarımstansiyası inşa edilməklə, yarımstansiyanın qoyuluş gücü 17,5 MVA-dan 40 MVA-ya çatdırılıbdır. Bu yarımstansiya vasitəsilə Ağcabədi şəhərində sosial-iqtisadi təyinatlı obyektlərin, meliorasiya və suvarma sistemlərinin, ətraf kənd və qəsəbələrin, həmçinin Taxtakörpü ərazisində məskunlaşmış Laçın rayonundan olan məcburi köçkünlərin, hərbi hissələrin fasiləsiz və dayanıqlı elektrik enerjisi təchizatı təmin olunacaqdır.*

*Yarımstansiyanın istismara verilməsi ilə 5262-si əhali, 831-i qeyri-əhali olmaqla, ümumilikdə 6093 abo-*

*nentin elektrik enerjisinin təchizatı daha da yaxşılaşdırılacaqdır. Yarımstansiya beynəlxalq standartlara cavab verən müasirtipli elektrik avadanlıqları, elektron tipli rele mühafizəsi və avtomatika sistemləri ilə təchiz edilib, məsafədən idarə olunan SCADA dispetçer sisteminə qoşulubdur. Yarımstansiyanın 330 kilovoltluq «İmişli» və «Ağcabədi» qovşaq yarımstansiyaları ilə əlaqələndirilməklə dairəvi elektrik təchizat sxeminə qoşulması təmin edilib ki, bu da istehlakçıların, xüsusən də əhalinin enerji təchizatının dayanıqlılığını və təhlükəsizliyini artırıbdır.*

*Dövlət başçısı «Ağcabədi-2» elektrik yarımstansiyasını işə saldı.*

*Prezident İlham Əliyevin rəhbərliyi ilə son illərdə ölkəmizdə elektroenergetika sahəsində mühüm işlər görülüb, çatışmazlıqların aradan qaldırılması, yeni yarımstansiyaların tikintisi diqqət mərkəzində saxlanılıbdır. Bu sırada Ağcabədi rayonunda energetika sisteminin yenidən qurulması, əhalinin fasiləsiz elektrik enerjisi ilə təchiz olunması prioritet məsələlərdən olub. Son illərdə aparılan geniş tikinti, yenidən qurulma və bərpa işləri nəticəsində rayonun kəndləri və ətraf ərazilərin elektrik təchizatının yaxşılaşdırılması, həmçinin kənd təsərrüfatı obyektlərinin artan elektrik tələbatının qarşılanması üçün geniş imkanlar yaranıb. Bu illərdə rayonda xeyli hava xətləri çəkilib, kəndlərin elektrik şəbəkəsi özünüdaşıyan izolyasiyalı naqillərlə əvəzlənibdir. Bununla mövcud elektrik şəbəkəsinin qoyuluş gücü artıb, texniki itkilər kəskin şəkildə azalıbdır.*

**İSVEÇ KRALI ƏLAHƏZRƏT**
**XVI KARL QUSTAVA**

Əlahəzrət!

İsveç Krallığının milli bayramı münasibətilə Sizi və xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Bu xoş fürsətdən istifadə edərək, Sizə möhkəm cansağlığı, dost İsveç xalqına daim rifah arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *3 iyun 2020-ci il*

**PORTUQALİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB MARSELU REBELU Dİ SOUZAYA**

Hörmətli cənab Prezident!

Portuqaliya Respublikasının milli bayramı münasibətilə Sizə və xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi yetirirəm.

Bu xoş fürsətdən istifadə edərək, Sizə möhkəm cansağlığı, işlərinizdə müvəffəqiyyətlər, dost Portuqaliya xalqına daim rifah diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *8 iyun 2020-ci il*

**RUSİYA FEDERASİYASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB VLADİMİR PUTİNƏ**

Hörmətli Vladimir Vladimiroviç!

Sizi dövlət bayramınız – Rusiya Günü münasibətilə ürəkdən təbrik edirəm.

Rusiya Federasiyası ictimai-siyasi, sosial-iqtisadi və digər sahələrdə inkişaf, tərəqqi və dəyişikliklər yolunda inamla irəliləyir. Fəal xarici siyasət kursu Sizin ölkənizin dünya arenasında mövqeyinin gücləndirilməsi üçün etibarlı təməldir.

Azərbaycan ilə Rusiya arasında münasibətlərin yüksək səviyyədə olmasını böyük məmnuniyyətlə qeyd etmək istəyirəm. Xalqlarımız arasında çoxəsrlik dostluq, mehriban qonşuluq və qarşılıqlı dəstək ənənələri çoxşaxəli Azərbaycan–Rusiya əlaqələrinin və strateji tərəfdaşlığının daha da inkişaf etdirilməsi və dərinləşdirilməsi üçün möhkəm bünövrədir.

Əminəm ki, ikitərəfli münasibətlərin gündəliyindəki məsələlərin bütün spektrinin uğurla reallaşdırılması ölkələrimiz arasında qarşılıqlı faydalı və tammiqyaslı əməkdaşlığın genişlənməsi üçün yeni imkanlar açacaqdır.

Fürsətdən istifadə edib koronavirus pandemiyasının nəticələrinin aradan qaldırıldığı dövrdə Azərbaycan xalqının Rusiya xalqı ilə həmrəy olduğunu bildirirəm.

Hörmətli Vladimir Vladimiroviç, Sizə möhkəm cansağlığı, uğurlar, bütün rusiyalılara firavanlıq və əmin-amanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *9 iyun 2020-ci il*

## ÜÇ MODUL TİPLİ XƏSTƏXANANIN AÇILIŞI MƏRASİMİ

*9 iyun 2020-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və xanımı Mehriban Əliyevanın iştirakı ilə iyunun 9-da 3 modul tipli xəstəxananın açılışı olmuşdur.*

*Bunlar paytaxtın Bilgəh qəsəbəsində, həmçinin Sumqayıt şəhərində və Abşeron rayonunun Saray qəsəbəsində quraşdırılmış modul tipli xəstəxana kompleksləridir.*

*Beləliklə, daha 3 modul tipli xəstəxana istifadəyə hazırdır. Bu, COVID-19 pandemiyasının ölkəmizdə yayılması ilə mübarizədə olduqca mühüm əhəmiyyət kəsb edir. Modul tipli xəstəxanaların quraşdırılması ilə ölkənin səhiyyə sisteminin əlavə 2000 çarpayılıq ehtiyatı yaranır. Əsas məqsəd koronavirus xəstələrinin lazımi tibbi xidmətlərlə əhatə olunması üçün vahid idarəetməni və tibbi əlaqələndirməni təmin etməkdir.*

*Prezident İlham Əliyevə məlumat verildi ki, 3 modul tipli xəstəxanadan biri Bilgəh qəsəbəsində 28 saylı Birləşmiş Şəhər Xəstəxanasına, digər ikisi isə 1 saylı Sumqayıt Şəhər Xəstəxanasına və Abşeron rayonunun Saray qəsəbəsində xəstəxanaya təhkim olunub. Koronavirus xəstələrinin qəbulu və müalicəsi üçün hər cür şəraitin yaradıldığı, ümumilikdə 100 palata və 200 çar-*

*payı yeri olan 3 korpuslu bu xəstəxana kompleksləri mərkəzləşdirilmiş oksigen generator sistemi ilə təchiz olunub. Palatalara ötürülən hava ventilyasiya qurğusu ilə təmizlənir.*

*Belə xəstəxana mayın 7-də paytaxtda istifadəyə verilib. Daha 6 kompleksin isə bölgələrdə inşa edilərək, istifadəyə verilməsi nəzərdə tutulur.*

*Sonra Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva həkim kollektivi ilə görüşdülər.*

**Ramin Bayramlı** (*Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin (TƏBİB) İdarə Heyətinin sədri*): Möhtərəm cənab Prezident, bu gün 28 saylı Birləşmiş Şəhər Xəstəxanasının nəzdində modul tipli xəstəxananın açılışında iştirak etdiyinizə görə Sizə bütün həkimlər adından təşəkkürümü bildirirəm. Eyni zamanda, bu gün 1 saylı Sumqayıt Şəhər Xəstəxanasının və Abşeron rayonunun Saray qəsəbəsindəki xəstəxananın nəzdində fəaliyyət göstərəcək modul tipli xəstəxanaların da videoformatda açılışı olacaqdır.

*Xəstəxanalar haqqında videoçarx nümayiş etdirildi.*

*Dövlət başçısı görüşdə çıxış etdi.*

## Azərbaycan Prezidenti İlham Əliyevin çıxışı

Bu gün çox əlamətdar bir gündür. Ölkəmizdə modul tipli 3 xəstəxana açılır. Bu xəstəxanalarda koronavirus xəstələri müalicə olunacaq və beləliklə, koronavirusla bağlı mübarizədə növbəti önəmli addım atılır.

Modul tipli birinci xəstəxana 1 ay bundan əvvəl, mayın 7-də açılmışdır və hazırda bu xəstəxanaların sayı 4-ə çatıb. Mən mayın 7-də açılış mərasimində qeyd etdim ki, bu xəstəxanaların sayı 10-a çatmalıdır. Ümid edirəm ki, yaxın gələcəkdə – təxminən ayın sonuna qədər qalan 6 xəstəxana da istifadəyə veriləcəkdir. Beləliklə, bizim əlavə 2000 çarpayımız olacaq və bu, koronavirusla bağlı mübarizədə imkanlarımızı daha da genişləndirəcəkdir. Sevindirici hal ondan ibarətdir ki, bu 10 xəstəxananın 4-nü özəl sektor öz vəsaiti hesabına inşa edəcək. Beləliklə, dövlətin üzərindən yük bir qədər azalır. Özəl sektorun nümayəndələrinə və adi vətəndaşlara koronavirus dövründə göstərdikləri maliyyə dəstəyinə görə təşəkkürümü bildirmək istəyirəm. Bildiyiniz kimi, mənim təşəbbüsümlə Koronavirusla Mübarizəyə Dəstək Fondu yaradılıb və ilkin olaraq, Prezidentin ehtiyat fondundan bu fonda 20 milyon manat vəsait ayrılıbdır. Ancaq bu gün sahibkarlar və adi vətəndaşlar hesabına fonda yığılmış məbləğ 100 milyon manatı ötüb. Bu bir daha göstərir ki, xalqımız çətin dövrdə birləşə, həmrəylik və birlik göstərə bilir. Mən özəl sektorun bu işlərdə fəal rolunu dəstəkləyirəm. Eyni zamanda, ilk növbədə, Heydər Əliyev Fondu və digər ictimai təşkilatlar, sahibkarlar bu dövrdə maddi vəziyyəti aşağı olan insanlara humanitar yardım da göstəriblər və bu proses davam edir. Amma hər kəs bilir ki, bu mübarizədə əsas yük Azərbaycan dövlətinin üzərinə düşür. Azərbaycan dövləti əlindən gələni edir ki, biz bu vəziyyətdən az itkilərlə çıxa bilək.

Görülmüş bütün tədbirlərin mərkəzində məhz Azərbaycan vətəndaşlarının sağlamlığı dayanıb və qabaqlayıcı tədbirlər nəticəsində bu gün vəziyyət tam nəzarət altındadır. Son 10 gün ərzində yoluxanların sayı artıb. Bu da ondan irəli gəlir ki, yumşaltma dövründə bəzi vətəndaşlar məsuliyyətsizlik göstəriblər. Buna baxmayaraq, vəziyyət tam nəzarət altındadır. Bizim xəstəxanalarda kifayət qədər yerimiz var, reanimasiya şöbələrində də həmçinin. Eyni zamanda, əlavə 2000 çarpayılıq 10 xəstəxanada koronavirus xəstələrinin müalicəsi nəzərdə tutulur. Bu günə qədər hələ ki, buna ehtiyac yoxdur. Bütün addımlarımızı elə atırıq ki, ən kritik vəziyyətə hazır olaq, ən böhranlı vəziyyətdə də bütün xəstələrə tibbi xidmət göstərilsin.

Onu da bildirməliyəm, Azərbaycan dünya miqyasında nadir ölkələrdəndir ki, koronavirusa yoluxan bütün xəstələr tibbi müəssisələrdə müalicə alır. Dünya praktikası tam başqadır. Bir çox ölkələrdə xəstəliyi simptomsuz keçirənlər, xəstəliyə düçar olmuş insanlar ev şəraitində müalicə alırlar, onları xəstəxanalara heç qəbul etmirlər. Əlbəttə, bu onların sağlamlığına təhlükə yaradır. Azərbaycanda koronavirusdan ölənlərin sayının az olmasının səbəblərindən biri də məhz odur ki, yoluxmuş bütün xəstələr tibbi müəssisələrə qəbul edilir və onlara lazımi xidmət göstərilir.

Qabaqlayıcı bütün tədbirlər elə görülüb ki, biz ən çətin vəziyyətə hazır olaq. Bu məqsədlə yeni laboratoriyalar alınıbdır. Hazırda laboratoriyaların sayı 20-dən çoxdur. Koronavirus xəstələrini müalicə

etmək üçün bizim ən qabaqcıl xəstəxanalar ayrılıb, onlara təqdim edilib, o cümlədən «Yeni klinika» – bizim ən gözəl, ən müasir xəstəxanamız və digər xəstəxanalar. Bu xəstəxanaların sayı 20-dən çoxdur. Eyni zamanda, hesab edirəm ki, karantin şəraitində qalan vətəndaşlar üçün də dünya miqyasında Azərbaycanda xüsusi şərait yaradılıb. Onlar 4-5 ulduzlu hotellərdə və Atletlər Kəndində yerləşdirilirlər. Karantin rejimində olan ən çox insan Atletlər Kəndində yerləşdirilibdir. Minlərlə insan xaricdən təxliyə edilib və bu proses davam etdirilir, təbii ki, qrafik üzrə. Orada da bütün işlər mütəşəkkil qaydada görülməlidir.

Bildiyiniz kimi, xüsusi portal yaradılıb və Azərbaycana qayıtmaq istəyən vətəndaşlar o portalda qeydiyyatdan keçir, növbəlilik prinsipi əsasında dövlət hesabına ölkəmizə gətirilirlər. Yəni bütün şərait yaradılıb ki, Azərbaycan vətəndaşları dövlət tərəfindən qayğı ilə, diqqətlə əhatə olunsunlar. Hesab edirəm ki, bu günə qədər görülmüş işlər və işlərin nəticələri məhz bu siyasətin təzahürünü əks etdirir. Təsadüfi deyil ki, beynəlxalq aləmdə Azərbaycanın koronavirusla bağlı mübarizə metodları təqdirlə qarşılanır. Ümumdünya Səhiyyə Təşkilatı Azərbaycanı bu sahədə nümunəvi ölkə adlandırıb, özü də bir neçə dəfə. Həm pandemiyanın ilk mərhələsində ki, biz operativ tədbirlər gördük, bütün lazımi məhdudlaşdırıcı addımları atdıq, həm də ondan sonrakı dövrdə. Bu yaxınlarda yenə də Ümumdünya Səhiyyə Təşkilatının nümayəndələri Azərbaycanda görülmüş işləri çox yüksək qiymətləndiribdir.

Bizim əsas vəzifəmiz insanları bu xəstəlikdən qorumaq, onların həyatını xilas etməkdir. Əlbəttə ki, itkilərimiz də olub, amma bəzi ölkələrlə müqayisədə Azərbaycanda vəziyyət qat-qat yaxşıdır. Bu onu göstərir ki, düşünülmüş siyasət, xalqla iqtidar arasında birlik, dövlətin addımlarına yüksək inam olan yerdə nəticə də olur. Bu günə qədər mən hər gün yüzlərlə vətəndaşdan məktub alıram. Bu məktublarda görülmüş işlərə yüksək qiymət verilir. Bu məktubların çox kiçik bir hissəsi mətbuatda dərc edilir. Ancaq o məktublar göstərir ki, bütün rayonlardan, bütün kateqoriyalara aid olan insanlardan bu məktublar gəlir və insanlar minnətdarlıqlarını bildirirlər. Eyni zamanda, məhdudlaşdırıcı dövr ərzində çətin vəziyyətə düşmüş vətəndaşların maddi məsələləri də həll olunub və Azərbaycan burada da liderlik göstəribdir. Ümumiyyətlə, mübarizəyə və pandemiyadan əziyyət çəkən işsiz adamlara, aztəminatlı təbəqəyə aid olan insanlara, sahibkarlara və bütün işləri təşkil etmək üçün 3,5 milyard manat vəsait nəzərdə tutulubdur və bu vəsait xərclənir. Tibbi avadanlığın, dərman preparatlarının alınmasına – bütün bu işlərə dövlət böyük vəsait ayırıbdır.

Eyni zamanda, mən bu işləri təşkil edən qurumların fəaliyyətini də yüksək qiymətləndirirəm. Operativ Qərargah, İcbari Tibbi Sığorta Agentliyi və TƏBİB fəal işləyir. Xüsusilə həkimlərin fəaliyyətini, fədakarlığını qiymətləndirmək istərdim.

Azərbaycan xalqı həkimlərin fədakarlığına çox yüksək qiymət verir. Mən də bir daha bütün həkimlərə minnətdarlığımı bildirmək istəyirəm. Onlar

öz həyatlarını risk altına atırlar. Onlar aylarla öz ailə üzvlərini görə bilmirlər və çox ağır şəraitdə xüsusi geyimlərdə gecə-gündüz xəstələrin yanındadırlar, onların həyatını xilas edirlər. Bizdə ölüm səviyyəsinin çox aşağı olması ilk növbədə, həkimlərin peşəkarlığı, fədakarlığı hesabınadır.

Dünyada baş vermiş hadisələrə və bir çox inkişaf etmiş ölkələrdə koronavirusla bağlı acınacaqlı vəziyyətə baxdıqda bir daha görürük ki, Azərbaycan bu sahədə də öz modelini ortaya qoyub və bütün hədəflərə ardıcıllıqla, məqsədyönlü şəkildə çata bilib. Bizi başqa ölkələrlə müqayisə etmək fikrində deyiləm. Ancaq dünyada hər şey müqayisə ilə ölçülür. Misal üçün, bu günə qədər Azərbaycanda yoluxanların sayı 8000-ə qədərdir, 350 mindən çox test keçirilib və adambaşına testlərin sayına görə biz qabaqcıl yerlərdəyik. Ancaq qonşu Ermənistanda yoluxanların sayı 13 mini ötüb və testlərin sayı bizdəkindən 5-6 dəfə azdır. Nəzərə alsaq ki, Ermənistan əhalisi Azərbaycan əhalisindən 5 dəfə azdır, mənzərə tam aydındır. Əgər mən gündə yüzlərlə təşəkkür məktubu alıramsa, Ermənistan rəhbərliyi yüzlərlə lənətlə dolu çağırışlar eşidir. İnkişaf etmiş ölkələrlə digər müqayisəni də apara bilərəm. Məsələn, bir neçə inkişaf etmiş ölkə var ki, orada ölənlərin sayı bizdə yoluxanların sayından çoxdur. O inkişaf etmiş ölkələr ki, orada səhiyyə sistemi həmişə etalon, bir nümunə hesab edilib. Bəzi inkişaf etmiş ölkələrdə, o ölkələrdə ki, əhalisi bizimlə təxminən eynidir, 10 minə yaxın insan ölüb. Bizdə isə sadəcə, yoluxanların sayı 8000-ə qədərdir. Ona görə bizdə-

ki yanaşma – hər bir yoluxmuş insana tibbi xidmət göstərilir – ən düzgün, ən humanist yanaşmadır və bu istiqamətdə əlavə addımlar atılacaqdır.

Biz sənaye imkanlarımızdan da istifadə etdik. Qısa müddət ərzində tibbi maska müəssisələri fəaliyyətə başladı. İki müəssisə indi fəaliyyətdədir. Dezinfeksiya vasitələri artıq Azərbaycanda istehsal olunur. Eyni zamanda, Azərbaycanda həkimlər üçün xüsusi geyimlər, kombinezonlar istehsal olunur. Həmçinin biz tibbi maskaları xaricdən də idxal edirik. Çünki tələbat artır və tələbatın artması bilavasitə məhdudlaşdırıcı tədbirlərlə bağlıdır. Biz müşahidə edirik ki, vətəndaşlar son günlər tibbi maskalardan daha çox istifadə edirlər. Bir daha demək istəyirəm ki, bu, qapalı şəraitdə mütləqdir. Mən bütün qapalı yerlərdə tibbi maskadan istifadə edirəm və hər kəs də qapalı şəraitdə tibbi maskadan istifadə etməlidir – ictimai nəqliyyatda, ofislərdə, alış-veriş mərkəzlərində. Açıq havada bu, tövsiyə olunur, əgər yaxın təmas yoxdursa, maskadan istifadə etməmək də olar. Ancaq qapalı şəraitdə hər kəs mütləq maskadan istifadə etsin, hər kəs məsafə saxlasın və şəxsi gigiyenaya fikir versin. Çünki cəmi bu üç amil – bunu həkimlər, müxtəlif ictimai xadimlər bəlkə də min dəfə deyiblər – gərək nəzərə alınsın: tibbi maska, bir yarım–iki metr məsafə və dezinfeksiya vasitələri. Bu amillər insanları həkimlərin yekdil rəyinə görə, 95 faiz qoruyur. Ona görə vətəndaşlardan artıq dərəcədə xahiş edirəm ki, bu çox sadə qaydalara əməl etsinlər və bilsinlər ki, koronavirus yoxa çıxmayıb.

İndi bütün ölkələrdə yumşaldıcı addımlar atılır, o cümlədən Azərbaycanda. Buna baxmayaraq, mən onu da demişdim ki, əgər görsək xəstələrin sayı kəskin artır, yenə də məhdudlaşdıracağıq. Bu məhdudlaşdırıcı addımların səbəbi də bəllidir. Bəzi insanlar məsuliyyətsizlik göstərirlər. Ancaq bütövlükdə deyə bilərəm ki, Azərbaycan cəmiyyəti çox böyük məsuliyyət, nizam-intizam göstərir. Şənbə-bazar günlərində xüsusi karantin rejimi bunu göstərdi, qayda pozuntuları çox cüzi sayda olmuşdur. Bu göstərir ki, vətəndaşlar məsuliyyəti dərk edirlər. Ancaq hər bir vətəndaş bunu dərk etməlidir. Çünki bir məsuliyyətsiz vətəndaş yüz nəfəri yoluxdura bilir, onların və özünün həyatını risk altına ata bilir.

Koronavirus yoxa çıxmayıb və yoxa çıxmayacaq. Həkimlərin ümumi rəyinə görə, peyvənd icad olunana qədər insanlar bu xəstəlikdən əziyyət çəkəcəklər. Ona görə biz də hazır olmalıyıq ki, yeni davranış qaydaları çərçivəsində yaşayaq. İndi bunun başqa yolu yoxdur. Bir daha demək istəyirəm ki, bu davranış qaydaları insanlara o qədər də əziyyət vermir. Sadəcə, dediyim qaydalara əməl etmək və daha məsuliyyətli olmaq lazımdır.

Bu müddət ərzində Azərbaycan dövləti çox böyük məsuliyyət göstərib, ilk növbədə, ölkə daxilində. Çünki iki seçim var idi – ya iqtisadiyyatı xilas etmək, ya da insanların sağlamlığını. Şəxsən mənim üçün birmənalı qaydada tərəddüdsüz insanların sağlamlığı həmişə birinci yerdə olubdur, o cümlədən pandemiya dövründə. Ona görə biz şüurlu şəkildə, onun iqtisadi fəallığımıza mənfi təsir göstərə-

cəyini bilərək məhdudlaşdırıcı addımlara getdik. Mən bildirmişdim ki, keçən ay əldə edilmiş nəticələrdə kiçik də olsa, artım var – 0,2 faiz.

Ancaq təxmin edirdim ki, 5 ayın yekunları artıq tənəzzülü əks etdirəcək, belə də oldu. Mənə verilən məlumata görə, ümumi daxili məhsul 5 ayda 1,7 faiz aşağı düşüb. Ancaq yenə də bir çox inkişaf etmiş ölkələrlə müqayisədə bizdəki tənəzzül çox kiçikhəcmlidir. Bununla paralel olaraq, bildirməliyəm ki, sənaye istehsalı bir qədər artıb. Qeyri-neft sektorunda sənaye 14 faiz artıb. Kənd təsərrüfatı 3,6 faiz artıb. İnsanların orta əməkhaqqı 740 manata yaxınlaşıb. Bu təqribən 430 dollardan çoxdur. İnflyasiya 3 faizdən aşağıdır, yəni proqnozlaşdırılmış səviyyədədir.

Bütövlükdə baxanda bizim iqtisadi fəaliyyətimiz də bu müddət ərzində çox uğurlu olub. Ancaq iqtisadiyyat tənəzzülə uğrasa da, bərpa ediləcəkdir, insanların həyatını isə bərpa etmək mümkün deyil. İnsanların həyatı qiymətsizdir. Ona görə bu günə qədər və bundan sonra da bizim üçün əsas amil insanların təhlükəsizliyi, sağlamlığıdır. Artan dinamika, xəstələrin, yoluxanların artan dinamikası göstərir ki, yumşaltma tendensiyası buna gətirib çıxarıbdır. Amma yenə də vəziyyət nəzarət altındadır. Burada əsas amil yoluxanların və sağalanların arasında olan nisbətdir.

Bu günə qədər nisbət elədir ki, bizim səhiyyə sistemimiz bunu qəbul edə bilir. Bir çox ölkələrdə ölüm hallarının kütləvi xarakter almasının əsas səbəbi odur ki, o ölkələrdə səhiyyə sistemi çöküb. Yəni xəstələri qəbul edə bilmirlər və beləliklə, kütləvi

ölüm halları müşahidə edilir. Bu gün mövcud səhiyyə potensialımız bizə tam imkan verir ki, vəziyyət nəzarət altında qalsın. Ancaq hər kəs bilməlidir ki, bu vəziyyəti biz qorumalıyıq. Qorumalıyıq və müsbət meyillərin artırılmasına çalışmalıyıq və çalışırıq.

Beynəlxalq müstəvidə rolumuza gəldikdə isə, bildiyiniz kimi, Azərbaycan özünü çox məsuliyyətli aparır. Mən qeyd etdim ki, ilk növbədə, ölkə daxilində və beynəlxalq arenada bizim təşəbbüsümüzlə iki Zirvə görüşü keçirilibdir: Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının Zirvə görüşü və «Qoşulmama Hərəkatı»nın Zirvə görüşü. Bildirməliyəm ki, «Qoşulmama Hərəkatı»nın Zirvə görüşündə 120 ölkə təmsil olunub, eyni zamanda, Afrika İttifaqı buna qoşulub, o İttifaqda 55 ölkə cəmləşibdir. Avropa İttifaqı ilk dəfə olaraq «Qoşulmama Hərəkatı»nın tədbirinə yüksək səviyyədə və ümumiyyətlə, ilk dəfə qoşulmuşdur. Avropa İttifaqında 27 ölkə vardır. Düzdür, Afrika İttifaqının bəzi ölkələri eyni zamanda, «Qoşulmama Hərəkatı»nın üzvləridir. Ancaq bütün bunlara baxmayaraq, tam məsuliyyətlə deyə bilərəm ki, Azərbaycan dünyanı birləşdirdi. Qəbul edilmiş Bəyannamədə Azərbaycanın xüsusi rolu yüksək qiymətləndirildi. Bizim onsuz da yüksək səviyyədə olan beynəlxalq imicimizə bu, növbəti bir töhfədir. Azərbaycan liderlik göstəribdir.

Eyni zamanda, biz «Qoşulmama Hərəkatı»nın üzvlərinə ilk növbədə, müraciət edərək, təklif etdik ki, BMT Baş Assambleyasının COVID-19 ilə bağlı xüsusi sessiyası keçirilsin. Biz bu dəstəyi aldıq, «Qoşulmama Hərəkatı»nın üzvləri bu təşəbbüsümüzü

yekdilliklə dəstəklədilər. Ondan sonra biz BMT-nin Baş katibinə – o, «Qoşulmama Hərəkatı»nın Zirvə görüşündə öz sözünü demişdi, müraciətini səsləndirmişdi – müraciət etdik və indi cavab gözləyirik. Hesab edirəm ki, indiki şəraitdə dünya birliyinin bu məsələ ilə bağlı vahid mövqedən çıxış etməsi zəruridir. Bütün dünya birliyini birləşdirən təşkilat Birləşmiş Millətlər Təşkilatıdır. Ona görə biz belə təkliflə çıxış etdik və ümid edirik ki, bu, müsbət qarşılanar. İndi biz ikitərəfli və çoxtərəfli formatda məsləhətləşmələr aparırıq və əgər bu təklif qəbul olunarsa, onda bir daha Azərbaycanın təşəbbüsü ilə dünya birliyi birləşib bu məsələ ilə bağlı öz sözünü deyəcəkdir.

Çünki burada əsas məsələ özünə qapanmamaqdır. Biz yaxşı xatırlayırıq ki, pandemiyanın ilkin dövründə bəzi ölkələr özlərinə qapandılar. Bəzi ölkələr humanitar məsələlərdə özlərini elə apardılar ki, sonra yəqin utandılar. Bəzi ölkələr təşviş içində idi. Biz bəzən vəsaitlə aldığımız tibbi avadanlığı gətirməkdə çətinlik çəkirdik. Ona görə indiki şəraitdə hesab edirəm ki, dünya birliyi vahid mövqedən çıxış etməlidir. Bununla paralel olaraq, biz fərdi qaydada 14 ölkəyə humanitar yardım göstərdik. O ölkələr ki, buna onların ehtiyacı var və bizə müraciət etmişdilər.

Biz Ümumdünya Səhiyyə Təşkilatı xətti ilə əlavə 15 ölkəyə humanitar yardım göstəririk. İndi bu proses gedir. Bu 15 ölkə «Qoşulmama Hərəkatı»na üzv olan ölkələrdir. Ölkələrin siyahısı Ümumdünya Səhiyyə Təşkilatı və Azərbaycan tərəfindən razılaş-

dırılıb. Burada əsas meyar ən çox ehtiyacı olan ölkələrdir.

Bildiyiniz kimi, Ümumdünya Səhiyyə Təşkilatına Azərbaycan fərdi qaydada iki dəfə ianə verib və beləliklə, Azərbaycan beynəlxalq təşkilat vasitəsilə 29 ölkəyə humanitar yardım göstəribdir. Mən indi bu məsələ ilə bağlı dünyada gedən prosesləri, mənzərəni izləyirəm və tam məsuliyyətlə deyə bilərəm ki, pandemiya dövründə ən çox humanitar yardım göstərən ölkələrdən biri Azərbaycandır. Bax, budur bizim ölkəmiz, budur müstəqilliyimizin üstünlükləri. Kimin ağlına gələ bilərdi ki, Azərbaycan bu bəla ilə təkbaşına, belə məharətlə, peşəkarlıqla, təmkinlə, ləyaqətlə bacara bilsin. Hələ bəlkə 10 il, 20 il bundan əvvəl kimin ağlına gələrdi ki, Azərbaycan 30-a yaxın ölkəyə humanitar yardım göstərə bilər. O dövrdəki bəzi ölkələr indi o biri ölkələrə çatacaq humanitar yardımı da özlərinə, necə deyərlər, götürmüşdülər. Biz həm ölkə daxilində, həm beynəlxalq müstəvidə düzgün, ləyaqətli siyasət aparırıq. Ona görə bizə olan rəğbət və hörmət gündən-günə artır.

Bütün bu məsələlərlə yanaşı, bir daha bundan sonrakı dövrə qayıtmaq istəyirəm. Azərbaycan vətəndaşları bizim bütün addımlarımızı dəstəkləyir. Halbuki aydın məsələdir ki, pandemiya insanların normal həyat tərzinə mənfi təsir edib. İnsanlar öyrəşdikləri həyat tərzindən müəyyən dərəcədə uzaqlaşıblar. Məhdudiyyətlər var, eyni zamanda, artıq yeni məhdudiyyətlər də ortaya qoyulur. Ancaq Azərbaycan vətəndaşları bilirlər ki, bu məhdudiy-

yətlərin əsas səbəbi insanları qorumaqdır. İnsanları qorumaq üçün biz bütün addımları atacağıq. Ona görə bir daha Azərbaycan vətəndaşlarına bu dövr ərzində göstərdikləri dəstəyə, həmrəyliyə görə təşəkkür edirəm. Eyni zamanda, bütün vətəndaşları bir daha böyük məsuliyyətə və nizam-intizama çağırıram. Biz birlik nümayiş etdirdik və bundan sonra da nümayiş etdirəcəyik. Təsadüfi deyil ki, pandemiya dövründə «Biz birlikdə güclüyük!» birləşdirici şüar var.

* * *

**Ramin Bayramlı:** Təşəkkür edirik, cənab Prezident. Bu gün açılışı gerçəkləşdirilən hər üç modul tipli xəstəxanada çalışacaq tibbi heyətin nümayəndələri buradadırlar. İcazənizlə, 28 saylı Birləşmiş Şəhər Xəstəxanasının tibbi heyəti adından Xuraman Cəfərova öz fikirlərini bildirsin.

**Xuraman Cəfərova:** Möhtərəm cənab Prezident, hörmətli Mehriban xanım!

Bu gün bizimlə bərabər olduğunuza görə Sizə təşəkkürümüzü bildiririk. COVID-19 pandemiyası ilə əlaqədar ölkəmizdə çox ciddi tədbirlər görülür. Xəstəxanalarımızın tibbi avadanlıqlar və dərman vasitələri ilə təminatı biz həkimlərin işini asanlaşdırır. Həmçinin modul tipli xəstəxanalar çox sürətlə hazırlanaraq istifadəyə verilir. Bu da öz növbəsində, çarpayı fondunu artırmaq məqsədilə tibbi xidmətin keyfiyyətini xeyli yüksəldir.

Biz hər gün xəstələrin nə qədər əziyyət çəkdiyini görürük. Fürsətdən istifadə edib xalqımızı bu pan-

demiya dövründə daha diqqətli olmağa və qaydalara daha ciddi riayət etməyə çağırırıq.

Cənab Prezident, biz hər zaman Sizin diqqət və qayğınızı hiss edirik. Bu da bütün tibbi heyətdə ruh yüksəkliyi yaradır. Ümid edirik ki, pandemiya tezliklə bitəcək və biz ölkə olaraq, pandemiya üzərində qələbə qazanacağıq. Diqqətiniz və qayğınız üçün Sizə bir daha təşəkkürümüzü bildiririk.

**İlham Əliyev:** Sağ olun. Təşəkkür edirəm.

**Ramin Bayramlı:** Cənab Prezident, digər modul xəstəxanaların açılışında iştirak edən tibbi heyətlər videokonfransla bizə qoşulublar. 1 saylı Sumqayıt Şəhər Xəstəxanasından həkim Şəhla Hacıyeva, buyurun.

**Şəhla Hacıyeva:** Möhtərəm cənab Prezident və hörmətli Mehriban xanım, sizi salamlayırıq. Bizə göstərdiyiniz diqqət və qayğıya görə sizə çox təşəkkür edirik.

Üç aydan çoxdur ki, biz amansız düşmənlə mübarizə aparırıq. Bu düşmənin gözəgörünməz olması bir çoxlarında elə bir təəssürat yaradıb ki, o yoxdur. Bununla da onlar özlərinin və yaxınlarının sağlamlığını təhlükə altına atırlar. Bu ağır günlərdə Sumqayıt şəhərində müasir avadanlıqlarla təchiz olunmuş modul tipli xəstəxananın yaradılması əlamətdar hadisədir. Biz Azərbaycan həkimləri bütün həmkarlarımızla birlikdə bu mübarizəyə qoşulmuşuq. Bütün dünyada olduğu kimi, sağalmış xəstələrdən alınmış plazmanı ağır xəstələrin müalicəsində uğurla tətbiq edirik. Fürsətdən istifadə edərək, Sizin köməyinizlə sağalmış xəstələrə müraciət edi-

rik ki, öz plazmalarını bəxş etsinlər və sözün əsl mənasında, həyat qurtarsınlar.

Sizin və çox hörmətli Mehriban xanımın koronavirusla mübarizə tədbirlərini şəxsi nəzarətinizdə saxlamağınız və düzgün istiqamət verməyiniz sayəsində biz Azərbaycan həkimləri tezliklə bu mübarizədən qalib çıxacağımıza inanırıq. Sizə təşəkkür edirik.

**İ l h a m Ə l i y e v:** Sağ olun. Bilirsiniz ki, Sumqayıt şəhərinə mən daim böyük diqqət göstərirəm və Prezident kimi, dəfələrlə Sumqayıtda olmuşam, orta hesabla, minimum ildə iki dəfə, bəzi illərdə daha da çox. Sumqayıtın sənaye potensialının inkişafı göz qabağındadır. Sumqayıt nəinki Azərbaycanın, eyni zamanda, Cənubi Qafqazın ikinci böyük, müasir sənaye şəhəridir. Yaşlı nəsil bunu yaxşı bilir – əvvəlki dövrdə Sumqayıtda çox çətin ekoloji vəziyyət mövcud idi. Bu gün yeni istifadəyə verilmiş bütün müəssisələr 100 faiz ekoloji standartlara cavab verir. Buna görə Sumqayıtda indi ekoloji vəziyyət çox yaxşılaşıb və hava da təmizdir. Sumqayıt bu gün parklar, bağlar şəhəridir, yaşıllaşdırma işləri gedir. İndi insanları narahat edən və ekoloji problem yaradan Acıdərə kanalı da təmizlənir. Buraya da böyük vəsait ayrılır. Bununla paralel olaraq, şəhər infrastrukturu yeniləşir, o cümlədən sosial obyektlər inşa edilir. 1 saylı Şəhər Xəstəxanasının əsaslı təmirindən sonra vəziyyət daha da yaxşılaşıbdır.

Mənim göstərişimlə hazırda 2 saylı xəstəxananın tikintisi gedir. İlkin mərhələdə belə təklif olundu ki, o, təmir edilsin. Amma sonra mənə verilən məluma-

ta görə, bu, mümkünsüz olub və demək olar ki, xəstəxana yenidən tikiləcək. Bu bir daha onu göstərir ki, vaxtında görülmüş işlər ən böhranlı dövrdə bizə lazım ola bilər. Bildiyiniz kimi, bütün ölkə üzrə yeni xəstəxanaların tikintisi, demək olar ki, başa çatır, bəlkə bir, ya iki şəhərdə hələ ki, istifadəyə verilməyib, amma o da nəzərdə tutulur. Beləliklə, ölkəmizin hər bir şəhərində müasir tibb müəssisəsi var, özü də mərkəzi rayon xəstəxanası səviyyəsində, eyni zamanda, 20-yə yaxın Müalicə-Diaqnostika Mərkəzi. İlk növbədə, əgər bu infrastruktur olmasaydı, biz indi icbari tibbi sığorta sisteminə keçə bilməzdik. Çünki bunun əsas şərti mövcud infrastrukturun müasir səviyyədə olmasıdır.

Bildiyiniz kimi, biz bu ilin əvvəlindən ölkə üzrə tam icbari tibbi sığortaya keçməli idik, ancaq pandemiya planlarımıza müdaxilə etdi. Biz indi bir neçə pilot layihəni icra edərək gördük ki, bunun üstünlüyü nədən ibarətdir, eləcə də vətəndaşlar da gördü. Ona görə gələn ilin əvvəlindən artıq ölkə üzrə icbari tibbi sığortaya tam keçid nəzərdə tutulur. Bir daha demək istəyirəm ki, əgər biz bu tibb ocaqlarını vaxtında tikməsəydik, indi xəstələri müalicə etmək mümkün olmazdı. Baxın, indi 20-dən çox xəstəxanada koronavirus xəstələri müalicə olunur, bölgələrdə də yeni tikilmiş bütün xəstəxanalarda. Əgər bu olmasaydı, harada müalicə olunacaqdı? Bakı şəhərində xəstələr ən çox harada müalicə olunur: Tibb Universitetinin Cərrahiyyə Klinikasında və Tibb Universitetinin Tədris-Terapevtik Klinikasında. «Yeni klinika»da 575 çarpayı mövcuddur.

Bizim digər təmir edilmiş, yaxud da yenidən tikilmiş klinikalardır və bütün klinikalar tibbi avadanlıqlarla təmin olunub. Son illərin istehsalı, aparıcı şirkətlərin istehsalı olan avadanlıqlar bizə imkan verir ki, istənilən xəstənin müalicəsini təmin edək. Son 16 il ərzində bütövlükdə 700-dən çox tibb müəssisəsi ya yenidən tikilib, ya da əsaslı təmir edilibdir. Bu güclü sosial səhiyyə infrastrukturu bizə imkan verdi ki, bu vəziyyətdən şərəflə çıxaq. Biz 2000 əlavə çarpayını ona görə yaradırıq ki, bu bir ehtiyat olsun, Allah eləməsin, bu xəstəlik daha geniş yayılsa, bizim imkanımız olsun. Lazım olarsa, əlavə 10 xəstəxana da tikərik. Yəni bu məqsədlər üçün biz istənilən vəsaiti tapa bilərik və tapırıq.

Bu dövr ərzində bir daha demək istəyirəm ki, Azərbaycan beynəlxalq arenada siyasi cəhətdən özünü güclü dövlət kimi göstərdi, iqtisadi sahədə güclü dövlət kimi göstərdi, sosial sahədə güclü dövlət kimi göstərdi. Göstərdi ki, siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı durur. Onu da bildirməliyəm ki, bu dövr ərzində aparıcı beynəlxalq maliyyə qurumlarının hesablamalarına görə, 150-dən çox ölkə beynəlxalq maliyyə qurumlarına yardımla bağlı müraciət edib. Azərbaycanın adı bu siyahıda yoxdur. Biz heç kimdən yardım almırıq, heç kimdən yardım istəmirik, kredit istəmirik. Ancaq yüksək texnoloji layihələrin həyata keçirilməsi üçün kredit ala bilərik, bizə məqbul olan şərtlərlə. Ona görə bütün parametrlər üzrə Azərbaycan liderlik göstərir. Bu liderlik artıq regionumuzun çərçivələrindən çoxdan çıxıb.

**N ə r m i n  V e r d i y e v a** (*həkim*): Hörmətli cənab Prezident və çox dəyərli Mehriban xanım!

Öncə bütün Azərbaycan həkimləri adından bizə göstərdiyiniz qayğı və yaratdığınız şərait üçün Sizə dərin minnətdarlığımızı bildiririk. Artıq hər birimiz bilirik ki, bütün dünya ölkələri kimi, Azərbaycan da koronavirus pandemiyası ilə mübarizə aparır.

Ölkəmizin bir sıra tibb müəssisələrində koronavirus pandemiyası ilə mübarizə aparmaq məqsədilə xüsusi şərait yaradılıb, xüsusi tibbi avadanlıqlarla təchiz edilib, dərman preparatları ilə təmin olunubdur. Modul tipli xəstəxanalar da məhz bu xəstəxanalardandır. Sizin təşəbbüsünüzlə inşa edilmiş və ən qısa zamanda biz həkimlərin ixtiyarına verilmiş modul tipli xəstəxanalar həm bugünkü vəziyyətdə, həm də gələcəkdə bir sıra xəstəliklərlə mübarizə apararkən təcili və təxirəsalınmaz tibbi yardımlar göstərmək üçün geniş imkanlar yaradıb. Sizin də qeyd etdiyiniz kimi, koronaviruslu xəstələrlə çalışarkən biz xüsusi fərdi kostyumlardan istifadə edirik. Yay fəslinin gəlməsi, havaların isinməsi bu kostyumlarda çalışmağı bir az da çətinləşdirir. Lakin əmin ola bilərsiniz ki, bütün bu çətinliklərə baxmayaraq, Sizin dəstəyinizlə biz gecə-gündüz çalışaraq, pandemiya ilə mübarizə aparıb, bu çətin sınaqdan ən uğurlu şəkildə çıxacağıq.

**İ l h a m  Ə l i y e v:** Çox sağ olun. Mən bir daha həkimlərin fəaliyyətini qiymətləndirmək istərdim. Azərbaycan dövləti, Azərbaycan xalqı bu dövrdə gördü ki, həkimlər içdikləri Hippokrat andına sadiqdirlər, öz vəzifə borclarını şərəflə yerinə yetirir-

lər. Həkimlərin arasında yoluxanlar da var və onlar öz həyatını risk altına ataraq, xəstələri müalicə edir, onları həyata qaytarırlar. Mənim təşəbbüsümlə ölkəmizin və şəhərimizin yeni simvollarından biri olan «Alov qüllələri»ndə məşhur şüar əks olunubdur: Azərbaycan həkimlərinə eşq olsun!

Bir daha bunu demək istəyirəm – Azərbaycan həkimlərinə eşq olsun və ayaq üstə Azərbaycan həkimlərini alqışlamaq istəyirəm. Sağ olun.

## BAKININ XƏTAİ RAYONUNDA «AZƏRENERJİ» AÇIQ SƏHMDAR CƏMİYYƏTİNİN 110/35/10 KİLOVOLTLUQ «ƏHMƏDLİ» YARIMSTANSİYASININ AÇILIŞI MƏRASİMİ

*11 iyun 2020-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 11-də Bakı şəhərinin Xətai rayonunda «Azərenerji» Açıq Səhmdar Cəmiyyətinin 110/35/10 kilovoltluq «Əhmədli» yarımstansiyasının açılışı mərasimində iştirak etmişdir.*

*«Əhmədli» yarımstansiyası tamamilə yenidən qurulub, transformatorlar yeniləri ilə əvəzlənib, yarımstansiyanın bütün qurğuları müasir səviyyəyə çatdırılıbdır. Yenidən qurulma işləri zamanı yarımstansiyanın idarəetmə binası da inşa olunubdur.*

*Yarımstansiya Suraxanı, Xətai və Nizami rayonlarında əhalini, sosial, iqtisadi və sənaye müəssisələrini fasiləsiz elektrik enerjisi ilə təmin edəcəkdir.*

*Prezident İlham Əliyev «Əhmədli» yarımstansiyasını işə saldı.*

*«Azərenerji» Açıq Səhmdar Cəmiyyətinin prezidenti Baba Rzayev dövlət başçısına yarımstansiyada görülmüş işlər barədə məlumat verdi.*

*Bildirildi ki, müasir avadanlıq və qurğuların quraşdırılması yarımstansiyanın səmərəliliyini və gücünü artırıb. Burada 3 köhnə transformatorun daha yeni transformatorlarla əvəzlənməsi yarımstansiyanın ümumi gücünü 166 mVA-dan 240 mVA-ya çatdırıb. Yarımstansiyada aparılmış yenidən qurulma işləri istehlakçıların enerji təchizatında fasilə yaranmaması üçün xüsusi rejimdə – onun fəaliyyəti dayandırılmadan həyata keçirilibdir.*

*Ümumilikdə son 2 ildə Prezident İlham Əliyevin tapşırığına əsasən, elektrik stansiyaları ilə yanaşı, ötürücü şəbəkədə də geniş yenidən qurulma, təmir və bərpa işləri həyata keçirilir. Hazırlanan Reabilitasiya Proqramı çərçivəsində bu dövrdə 1 ədəd 500, 2 ədəd 330, 2 ədəd 220 və 10 ədəd 110 kV-luq yarımstansiya yenidən qurulub, 12 yarımstansiyada təmir-bərpa işləri həyata keçirilibdir.*

**İlham Əliyev:** Burada böyük yaşayış massivləri yerləşir, bəs bu köhnə yarımstansiya bütün bu obyektləri necə qidalandırırdı?

**Baba Rzayev:** Bu qidalandırmırdı.

**İlham Əliyev:** Yəni fasilələrlə verilirdi?

**Baba Rzayev:** Bəli, çox pis idi, fasilə həmişə buradan olurdu. «Əhmədli» bir nömrəli qəza mənbəyi idi.

**İlham Əliyev:** Əhmədlidə, Günəşlidə qəzalar tez-tez olurdu. İndi qəzalar olmamalıdır.

**Baba Rzayev:** İnşallah, heç bir qəza olmaz.

**İlham Əliyev:** İstifadəyə verilən bu yarımstansiya 300 min əhalini əhatə edəcək. Həmçinin burada bir çox sənaye müəssisələri, ictimai binalar var.

Ona görə bu yarımstansiyanın çox böyük əhəmiyyəti vardır.

**B a b a R z a y e v:** Cənab Prezident, «Ağ şəhər» böyük bir layihədir. Orada 110 kilovoltluq 3 yarımstansiya var, onlardan ikisi buradan qidalanır.

**İ l h a m Ə l i y e v:** Son illər ərzində energetika sahəsində çox böyük işlər görülüb, həm generasiya gücləri artıb, həm də eyni zamanda, siz itirilmiş gücləri bərpa edirsiniz. Yaxın zamanlarda Mingəçevirdə də İstilik Elektrik Stansiyasının yenidən qurulmadan sonra açılışını edəcəyik. Əslində bu, yenidən tikilmiş 2400 meqavat gücündə elektrik stansiyasıdır. Bu gün enerji təminatı ilə dayanıqlılıq əmsalına görə Azərbaycan dünya miqyasında ikinci yerdədir. Özü də bunu biz demirik, Davos Dünya İqtisadi Forumu deyir. Yəni biz bir çox inkişaf etmiş ölkələri də qabaqlamışıq və işlər davam edir. Mənim rayonlara səfərlərim çərçivəsində yeni yarımstansiyalar açılır. Bu yaxınlarda Tərtərdə, Ağcabədidə iki yarımstansiya açılıbdır. İndi isə «Əhmədli» yarımstansiyası, «8-ci kilometr», «Xırdalan», «Buzovna», «Ağ şəhər».

**B a b a R z a y e v:** Cənab Prezident, Sizin birbaşa tapşırığınızla son ildə ancaq Abşeron regionunda 12 yarımstansiya, o cümlədən «Görədil» işə salınıbdır.

**İ l h a m Ə l i y e v:** Bizim bütün elektrik təsərrüfatımız tamamilə yenilənməli və ən yüksək müasir standartlara cavab verməlidir. Bir sıra layihələr başa çatıb, ancaq hələ görüləsi işlər çoxdur, onları da ardıcıllıqla icra edəcəyik.

**B a b a R z a y e v:** Çox sağ olun, cənab Prezident. Sizi əmin edirəm ki, energetika sahəsinin inkişafı ilə bağlı müəyyənləşdirdiyiniz strategiyanı, qarşıya qoyduğunuz vəzifələri energetiklərimiz uğurla yerinə yetirəcəklər. Sizə təşəkkür edirik.

Cənab Prezident, harada ki, ərazi imkan verir, 110, 220, 330 kilovoltluq yarımstansiyaları ən müasir texnologiyalar əsasında belə açıq paylayıcı qurğularla təmin edirik. Ancaq «Böyükşor» yarımstansiyasını qapalı GİS ilə inşa etmişik. Bu yarımstansiyaların gücü 80 və 240 meqavoltamperdir.

* * *

*Son illərdə Prezident İlham Əliyevin tapşırıq və göstərişlərinə əsasən, ölkəmizdə elektrik enerjisi təsərrüfatının yenidən qurulması, bu sahədə ən son innovativ həllərin tətbiqi və nəticə etibarilə əhalinin fasiləsiz elektrik enerjisi ilə təminatı istiqamətində böyük işlər görülüb. Həyata keçirilən işlərin tərkib hissəsi kimi, çox sayda mövcud yarımstansiya müasir səviyyədə yenidən qurulub. Onlardan biri də 110/35/10 kV-luq «Əhmədli» yarımstansiyasıdır.*

## «MİCROSOFT» ŞİRKƏTİNİN VİTSE-PREZİDENTİ FİLİP ROQ VƏ ŞİRKƏTİN DİGƏR NÜMAYƏNDƏLƏRİ İLƏ VİDEOKONFRANS FORMATINDA GÖRÜŞ

*16 iyun 2020-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 16-da «Microsoft» şirkətinin təşəbbüsü ilə şirkətin vitse-prezidenti Filip Roq, Mərkəzi və Şərqi Avropa bölgəsinin korporativ əlaqələr və hüquqi məsələlər üzrə rəhbəri Nanna-Luiz Linde və «Microsoft» şirkətinin digər nümayəndələri ilə videokonfrans keçirmişdir.*

**İlham Əliyev:** Sabahınız xeyir. Sizi görmək çox xoşdur.

**Filip Roq:** Sabahınız xeyir. Mənə də həmçinin. Bir neçə il keçib. Sizi sağlam görmək çox xoşdur. Bizə vaxt ayırdığınıza görə təşəkkür edirik.

**İlham Əliyev:** Mən bizim bir neçə il əvvəl Bakıdakı görüşümüzü xatırlayıram.

**Filip Roq:** Bizim səyahət edə bildiyimiz daha yaxşı vaxtlarda.

**İlham Əliyev:** Bəli, lakin indi biz özümüzü hazırkı reallığa uyğunlaşdırmalıyıq.

**Filip Roq:** Tamamilə doğrudur. Yaradılmış imkana görə Sizə təşəkkür edirik. Məni bir neçə həm-

karım müşayiət edir. Bizim tərəfdən regional rəhbər xanım Anke den Ouden, hökumətlə əlaqələr üzrə təmsilçimiz xanım Vildfanq və əlbəttə ki, Azərbaycan üzrə baş menecer Qaçay. Sözsüz ki, bayaq qeyd etdiyim kimi, orada, Sizin gözəl şəhərinizdə şəxsən olmaq istərdim. Siz bütün dünyadakı vəziyyəti başa düşürsünüz. Biz Sizə salamlarımızı çatdırırıq. Mənə gəlincə isə öz vətənimdən – Almaniyadan. Sizinlə görüşmək imkanı əldə etmək bizim üçün böyük fürsətdir. Bu mürəkkəb zamanda bizə vaxt ayırdığınız üçün təşəkkür edirik. İlk növbədə, deyərdim ki, ölkənizdə pandemiyanın təsirinin kifayət qədər nəzarət altında olduğunu eşitdiyimə şad oldum. Mən dünya liderləri ilə əlaqə saxlayıram və bu heç də həmişə belə olmur. Nəhayət, bilirsiniz ki, texnologiya və gördüyümüz bütün işlərdən başqa, insan sağlamlığı və insan həyatı bizim üçün prioritet təşkil edir. Hər kəsin sağlamlığının qorunması üçün gördüyünüz işlərə görə Sizi və hökumətinizi təbrik edirik. Lakin pandemiya heç nəyə fərq qoymur. Ona görə də biz ehtiyatlı olmalıyıq. İkincisi, bu gün əlaqə saxlamaq imkanına görə Sizə bir daha təşəkkür edirik. Mən deyərdim ki, bizim texnologiyanın bu qeyri-adi zamanda harada ən səmərəli şəkildə istifadə oluna biləcəyini müəyyən etmək üçün son bir neçə ayda bir çox dünya liderləri ilə ünsiyyət saxlamaq imkanımız olub. Bununla bağlı Sizinlə də bir qədər söhbət etmək imkanına nail olmaq istərdim.

**İlham Əliyev:** Təşəkkür edirəm, çox sağ olun. Bu yeni reallıqda sizi yenidən görməyə çox şadam.

Sizin bu videokonfransı təşkil etmək təşəbbüsünüzü qiymətləndirirəm. Çünki həyat davam edir. Baxmayaraq ki, pandemiya bizim ənənəvi həyat tərzimizə ciddi şəkildə müdaxilə edir, bununla belə, biz özümüzü reallığa uyğunlaşdırmalıyıq. Bizim pandemiyanın öhdəsindən gəlməklə bağlı səylərimiz barədə söylədiklərinizə görə sizə təşəkkür edirəm. Həqiqətən də Azərbaycan bu mühüm məsələnin həllində Ümumdünya Səhiyyə Təşkilatı tərəfindən nümunə ölkə adlandırılıb. Vəziyyət nəzarət altındadır. Eyni zamanda, biz nəinki təkcə daxili məsələlərə diqqət yetiririk, həmçinin qlobal miqyasda da fəaliyyət göstəririk. Azərbaycan artıq 29 ölkəyə humanitar yardım göstərib və bu proses davam edir. Biz özümüzü beynəlxalq ictimaiyyətin etibarlı üzvü kimi nümayiş etdiririk.

Fəaliyyətimiz və gələcək planlarımıza gəlincə, əsas diqqəti insanların koronavirusdan qorunmasına yönəltmişik və bunun bizim iqtisadi artımımıza çox mənfi təsir göstərəcəyini aydın şəkildə başa düşürük. Bizim bu il üçün çox böyük perspektivlərimiz var idi və ilin birinci rübü çox ümidverici idi. Lakin indi 5 ayın nəticələri ümumi daxili məhsulda kiçik azalmanın – təxminən 1,7 faiz azalmanın olduğunu göstərir və eyni zamanda da iqtisadiyyatın bəzi sektorlarında, xüsusilə neft və qazla əlaqəli olmayan sektorlarda artım qeydə alınıb. Bu səbəbdən, bu gün biz məhdudiyyət tədbirlərini uzlaşdırırıq, çünki COVID-19 hələ də mövcuddur. Eyni zamanda, biz ölkəmizi açmağa və həyatımızın müxtəlif sahələrinin fəaliyyətini bərpa etməyə başlayırıq.

Beləliklə, ümidvaram ki, bu balanslaşdırılmış yanaşma bizə ilk növbədə, pandemiyaya qarşı uğurlu mübarizəni davam etdirməyə kömək edəcəkdir. Özəl sektora, xüsusilə pandemiyadan əziyyət çəkən sahələrə, turizm və onunla əlaqəli sahələrin bərpasına yardım edəcəyik.

İki il əvvəl Bakıda keçirdiyimiz görüşdən sonra əməkdaşlığımıza gəlincə, bildiyiniz kimi, biz razılaşma imzalamışdıq. Görüşümüzdən əvvəl mənə məlumat verildi ki, on minlərlə lisenziya verilib və bu məsələ hazırda uğurla davam etdirilir. Bizim piratlığa qarşı birgə səylərimiz yaxşı nəticələr verir. Gələcək planlarımıza gəlincə, bəlkə də bilirsiniz ki, hazırda biz rəqəmsal transformasiya üzrə hökumət strategiyası üzərində işləyirik. Ümidvarıq ki, bu məsələdə «Microsoft»la yaxşı əməkdaşlıq edə biləcəyik. Bu proqram növbəti 5 il üçün planlaşdırılır. Eyni zamanda, süni intellekt üzrə strategiyanın ətraflı işlənib hazırlanması ilə bağlı məsələlər də bizim gündəliyimizdədir. Kibertəhlükəsizlik hər zaman gündəlikdədir, çünki bu, bütün ölkələrin hazırlıqlı olması məsələsidir. İndiyədək bizdə belə böyük hallar olmayıb, lakin heç kim sığortalanmayıb. Ona görə bu da bizim gələcəyimiz üçün prioritetlər sırasında qalır. Əlbəttə, mən icra olunmuş layihələrin siyahısına baxdım. Aramızdakı əməkdaşlıq çox təsirləndiricidir və əminəm ki, bu, qarşıdakı illərdə tərəfdaşlığımızı gücləndirəcəkdir. Həmçinin pandemiya ilə əlaqədar bu vəziyyət bizi məcbur edir ki, təhsil, distant təhsil məsələlərinə yeni bucaqdan baxaq. Baxmayaraq ki, mövcud vəziyyətə özümüzü

uyğunlaşdırmaq üçün bizim çox vaxtımız olmadı, lakin müəyyən addımlar atılıbdır. Çünki bizim məktəb və universitetlərimiz mart ayından bəri bağlanılıb. Biz sentyabrın 15-dən başlayacaq yeni tədris ilinə hazırlaşmalıyıq. Həmin zaman pandemiya ilə bağlı vəziyyətin necə olacağını bilmirik, məktəb və universitetləri aça biləcəyimizi bilmirik, ona görə də biz ən pis ssenariyə hazırlıqlı olmalıyıq. Əgər problem davam edərsə və getdikcə pisləşərsə, o zaman biz bu barədə düşünməli olacağıq. Fikrimcə bu barədə indidən düşünmək lazımdır.

Həmçinin distant işlə bağlı məsələlər. O da ölkə üçün olduqca vacibdir. Təxminən onlar planlarımızda diqqətimizi cəmlədiyimiz sahələrdir.

**Filip Roq:** Təşəkkür edirəm. Düşünürəm ki, bu bizim əməkdaşlıq etdiyimiz əksər dünya ölkələrinin üzləşdiyi təcrübəyə və hazırkı mövqemizə uyğun gəlir. Təhsil mövzusuna gəlincə, zənnimcə, bu bizim əsas nailiyyətlərimizdən biridir. O mənada ki, biz Sizin təxminən 1 milyon tələbəniz üçün əlaqə qura bilmişik. Düşünürəm ki, o vaxta kimi onların gələcəyinə heç nəyin mane olmamasını təmin etmişik və xoşbəxtlikdən biz evdəyik. Aydındır ki, bu, gələcək üçün vacib investisiyadır. Komandalarımız və tərəfdaşlarımızın mümkün qədər tez müddətdə, bir neçə həftə ərzində hər kəsi əlaqələndirmək üçün sizin nazirlikdəki təhsil işçiləri ilə apardığı işdən qürur duyuram.

Digər ölkələrdə üzləşdiyimiz problem ondan ibarətdir ki, evlərdə qurğuların sayı məhduddur. Anlayıram ki, sizdə bu, problem deyil. Bir çox ölkələr

yetəri qədər qurğular əldə etmək üçün çətinlik yaşayır. Ana, ata və uşaqlar evdədirlər və kompüterdən istifadə etmək üçün mübarizə aparılır. Lakin görünür, sizdə bu problem yoxdur və bu, yaxşı xəbərdir.

*Filip Roq «Microsoft»un evdən işləmə təcrübəsi barədə məlumat verərək bildirdi ki, təmsil etdiyi şirkət bir çox ölkələrdə belə həll yollarının tətbiqini həyata keçirib və tələb olunan zaman insanların infrastruktura təhlükəsiz çıxışını təmin etmək üçün virtual iş masalarının yaradılması ilə çıxış edibdir. Kibertəhlükəsizlik məsələsinə toxunan Filip Roq qeyd etdi ki, pandemiya dövründə kiberhücumların sayı artıb. «Microsoft» şirkətinin vitse-prezidenti belə hücumların qarşısının alınması istiqamətində şirkətin gördüyü işlərdən danışdı. Filip Roq «bulud hesablamaları» barədə də danışdı, onun səmərəsi və əhəmiyyəti haqqında məlumat verdi. Vurğuladı ki, bu texnologiya artıq bir çox ölkələrdə istifadə olunur. Filip Roq məmnunluqla bildirdi ki, «Microsoft» şirkətinin süni intellekt platforması Azərbaycan dilini də tezliklə dərk edəcək. O qeyd etdi ki, bu gözəl xəbəri çatdırmaqdan məmnunluq hissi keçirir. Vurğuladı ki, Azərbaycan dilində tərcümə xidmətinin istifadəyə verilməsini səbirsizliklə gözləyir.*

*Bunun iqtisadiyyatın qloballaşmasında, onlayn və oflayn iqtisadiyyatın aparılmasında, turizmin inkişafında rolunu vurğulayan «Microsoft» şirkətinin vitse-prezidenti dedi:*

– Bu texnologiya, həmçinin qlobal bazara daxil olmaq üçündür. Çünki «bulud hesablamaları» elə

bir qlobal bazar ərazisidir ki, buraya hər kəsin çıxışı vardır. Səmərəli olaraq, Azərbaycandan ən istedadlı insanlar qlobal bazarda rəqabət apara bilərlər, onların həqiqi «bulud hesablamaları» üzrə iqtisadi gücə malik olması üçün San Fransiskodan, Silikon Vadisindən fəaliyyət göstərməsinə lüzum yoxdur. Hesab edirəm ki, əsaslı dəyişikliyin arxasında iqtisadi imkanlar durur. Mənim təklifim bu məsələləri düşünmək, birlikdə insanların rəqəmsal bacarıqları üzrə proqramları, startapları, istər geniş mənada, istərsə də startap mənasında necə irəli aparmağımızı nəzərdən keçirməkdən ibarətdir. Hesab edirəm ki, çoxlu imkanlar mövcuddur.

**R a m i n Q u l u z a d ə** (*Azərbaycanın Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar naziri*): Cənab Prezident, hörmətli həmkarlar, biz «Microsoft»la bütün sahələrdə, xüsusilə «açıq açar» infrastrukturu ilə mübarizə, kibertəhlükəsizlik, informasiya texnologiyalarının təhsildə tətbiqi, internet əşyalar texnologiyası və kadrların təlimi kimi sahələrdə sıx əməkdaşlıq edirik. Sizin göstərişinizə müvafiq olaraq, cənab Prezident, biz hökumət agentlikləri üçün lisenziyalı proqram təminatını almaq məqsədilə 2018-ci ildə müqavilə imzaladıq. Biz şirkətin Azərbaycandakı nümayəndəliyi ilə görüşlər keçirdik, yeni təklifi və yeni layihələrin inkişafını müzakirə etdik. Diqqətiniz üçün təşəkkür edirəm.

**Ş a h m a r M ö v s ü m o v** (*Prezidentin köməkçisi*): Çox sağ olun, cənab Prezident. Hesab edirəm ki, «Microsoft» şirkəti ilə çox yaxşı əməkdaşlıq qurmuşuq. Hazırda biz innovativ yanaşmalar əsasında iqtisadi

inkişafa nail olmaq üçün Azərbaycanın innovasiya strategiyası üzərində işləyirik. Biz bu məsələdə də «Microsoft» şirkəti ilə əməkdaşlıq edirik və bu şirkəti daha da fəal olmağa çağırırıq. Hesab edirik ki, Azərbaycanın regionumuzda innovasiyaların mərkəzi olmaq üçün Silikon Vadisi kimi, Abşeron Vadisini yaratmaq məqsədilə böyük potensialı vardır. Bu məsələdə biz «Microsoft» şirkətinin fəal iştirakını yüksək qiymətləndiririk.

**İlham Əliyev:** Həmçinin onu da qeyd etmək istəyirəm ki, Azərbaycan artıq sənaye inqilabı üzrə regional mərkəzə çevrilir. Bu dəfə Davos İqtisadi Forumu zamanı cənab Borge Brende və mən Davosun Dördüncü Sənaye İnqilabı üzrə Regional Mərkəzinin Bakıda yaradılması ilə bağlı sənədi imzaladıq. Beləliklə, bu mərkəz nəinki təkcə Azərbaycanı, region ölkələri də əhatə edəcək. Buna görə düşünürəm ki, bizim üçün daha da irəliləmək və sizinlə innovasiya mərkəzi üzərində çalışmaq təbii olardı. Bizim əsas strategiyamız sizin də bildiyiniz kimi, karbohidrogen ehtiyatlarından asılılığı azaltmaq, innovasiyalar, yeni texnologiyalar və müasir idarəçilik əsasında dayanıqlı inkişafa nail olmaqdır. Düşünürəm ki, bu məsələ üzərində birgə çalışmaq əməkdaşlığımızı gücləndirə bilər.

**Anke den Ouden** (*«Microsoft» şirkətinin Mərkəzi və Şərqi Avropa üzrə «Multicountry» klasterinin baş meneceri*): Biz nəinki Azərbaycan dilinin dəstəklənməsinə sadiqik, həmçinin «Teams» proqramının məlumatlarının dəstəklənməsini də öz öhdəliyimiz kimi görürük. Siz təhsil sahəsində ən in-

novativ ölkələrdən birisiniz. Biz bu işi davam etdirmək istərdik.

*Anke den Ouden Azərbaycanın müvafiq nazirlikləri ilə əməkdaşlıqdan danışdı, təmsil etdiyi şirkət tərəfindən hazırlanmış innovasiyalar barədə məlumat verdi.*

*«Microsoft-Azərbaycan» şirkətinin baş meneceri Qaçay Mirzəyev ölkəmizdə şirkət tərəfindən həyata keçirilən işlərə toxundu. Vurğuladı ki, «Microsoft-Azərbaycan» şirkəti öhdəlikləri milli strategiyaya uyğun həyata keçirir.*

**Filip Roq:** Təşəkkür edirəm, cənab Prezident, vaxt ayırdığınıza və dəstəyinizə görə minnətdaram. Bu bizim üçün imkandır. Biz hamımız gələcək imkanları səbirsizliklə gözləyirik və işi davam etdirmək əzmində olan komanda kimi, bilirik ki, çox imkanlar vardır. Hər şeydən əvvəl biz Bakıya qayıtmağı həqiqətən də səbirsizliklə gözləyirik. Mən həmçinin ötən həftə «Formula-1» Qran-prisinin başa düşülən səbəblərdən baş tutmayacağını oxuyanda kədərləndim. Ən azı sizdə virtual Qran-pri oldu və mən onu gördüm. Sizə səhiyyə sahəsində, iqtisadi sahədə uğurlar arzulayıram, investisiya yatırımının davam etdirilməsində və sabahın transformasiyası üçün «Yol Xəritəsi»nin yaradılmasında yardımımıza arxalanın. Biz Sizin sərəncamınızdayıq və bizim imkanlardan məqsədəuyğun saydığınız kimi istifadə edin. Sizin üçün buradayıq.

**İlham Əliyev:** Bu videobağlantıya görə təşəkkür edirəm. Bu, 2018-ci ildə Bakıda keçirilmiş görüşümüzdən sonra görülmüş işlərə nəzər salmaq və gə-

ləcək addımları planlaşdırmaq üçün yaxşı imkandır. Düşünürəm, artıq 15 ildən çoxdur ki, «Microsoft» Azərbaycanda fəaliyyətə başlayandan davam edən tərəfdaşlığın böyük potensialı və böyük gələcəyi vardır. Biz qarşıdakı uzun illərdə tərəfdaş olacağıq. Bir daha təşəkkür edirəm. Sizi görməyə məmnun oldum. Sizə uğurlar arzulayıram. Pandemiyadan sonra sizi Bakıda görməyə ümid edirəm.

**F i l i p R o q:** Mütləq. Təşəkkür edirəm.

## DÜNYA BANKININ AVROPA VƏ MƏRKƏZİ ASİYA REGİONU ÜZRƏ VİTSE-PREZİDENTİ ANNA BYERDE, CƏNUBİ QAFQAZ ÜZRƏ DİREKTORU SEBASTİAN MOLİNEUS VƏ DİGƏR NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ

*17 iyun 2020-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 17-də Dünya Bankının təşəbbüsü ilə bankın Avropa və Mərkəzi Asiya regionu üzrə yeni təyin olunmuş vitse-prezidenti xanım Anna Byerde, Cənubi Qafqaz üzrə regional direktoru Sebastian Molineus və bankın digər nümayəndələri ilə videokonfrans keçirmişdir.*

**İlham Əliyev:** Sizi görmək çox xoşdur.

**Anna Byerde:** Təşəkkür edirik. Qarşılıqlıdır.

**İlham Əliyev:** Şadam ki, gələcək planlarımız barədə danışmaq və ola bilsin ki, artıq görülmüş işlərə nəzər salmaq üçün imkanımız vardır. Biz Dünya Bankı ilə əməkdaşlığın səviyyəsindən çox məmnunuq. Azərbaycana və sizin maliyyə dəstəyinizlə həyata keçirdiyimiz mühüm layihələrə göstərdiyi davamlı dəstəyə görə Dünya Bankına çox minnətdarıq. TANAP-a göstərdiyiniz dəstəyə görə xüsusi təşəkkürlər. Bildiyiniz kimi, «Cənub Qaz Dəhlizi» layihəsinin icrası sona yaxınlaşır. Ümidvarıq ki,

bütün tikinti işlərini bir neçə aya tamamlayacağıq. Əlbəttə, Dünya Bankının «Cənub Qaz Dəhlizi»nin ən mühüm hissələrindən olan TANAP-ın icrasına verdiyi töhfə yüksək qiymətləndirilir. Sözsüz ki, bu, digər bankların da bu mühüm layihəni dəstəkləməsi üçün yaxşı siqnal oldu.

Mən həmçinin artıq icra edilmiş layihələri nəzərdən keçirdim. Onlar bir çox sahələri əhatə edir. Biz çox mühüm töhfəyə görə olduqca minnətdarıq, ümumilikdə layihələrə 3,5 milyard dollardan çox vəsait ayrılıb. Əlbəttə, bizim gələcək üçün daha çox planımız, ölkənin müasirləşdirilməsi, iqtisadiyyatımızın qeyri-enerji sektorunun inkişaf etdirilməsi və sözsüz ki, infrastruktura investisiya yatırılmasının davam etdirilməsi ilə bağlı planlarımız vardır. Beləliklə, mən əminəm ki, gələcəkdə çox müsbət əməkdaşlığımız olacaqdır.

Mən həmçinin özünüməşğulluq proqramı ilə bağlı bizə dəstək göstərilməsinə dair müraciətimə dərhal cavab verdiyinə görə Dünya Bankına xüsusi minnətdarlığımı bildirmək istərdim. Həmin müraciət 2019-cu ilin yanvarında təqdim olunmuşdu və bir ildən də az müddət ərzində biz artıq bütün hazırlıq işlərini tamamlamışıq. Mənə məlumat verilib ki, Dünya Bankının özünüməşğulluq layihəsində iştirakı təxminən 100 milyon ABŞ dolları həcmində olacaqdır. Buna görə təşəkkür edirik. Bu il biz bu proqramla 15 minə yaxın adamı əhatə etməyi planlaşdırırıq və əlbəttə ki, Dünya Bankı tərəfindən əlavə maliyyələşdirmə yüksək qiymətləndirilir və alqışlanır.

**A n n a  B y e r d e:** Təşəkkür edirəm, zati-aliləri. İlk növbədə, bu görüşü təşkil etdiyinizə görə çox sağ olun. Mən Sizinlə görüşməkdən həqiqətən də məmnunam. Mən Sizinlə Azərbaycanda görüşməyi çox istərdim. Amma dünyada baş verənləri nəzərə alsaq, hələ ki, görüşləri belə keçirməli olacağıq. Lakin çox yaxın gələcəkdə Sizinlə Azərbaycanda görüşəcəyimə ümid edirəm. Mən həmçinin tərəfdaşlığa görə bir çox sahələrdə birlikdə işlədiyimiz komandaya minnətdarlığımı bildirmək istərdim. Əlaqələrin necə möhkəm olduğunu görməkdən məmnunam. Tərəfdaş kimi, Dünya Bankına olan etimadınıza görə Sizə çox təşəkkür edirəm. Mən bu vəzifənin icrasına başladığımdan bu yolu davam etdirməyimizi səbirsizliklə gözləyirəm.

Həmçinin mən Dünya Bankı adından Azərbaycanın Beynəlxalq İnkişaf Assosiasiyasına verdiyi töhfəyə görə minnətdarlığımı bildirmək istərdim. Bu addım çox yüksək qiymətləndirilir. Sizin ən yoxsul ölkələr üçün olan fondumuzu dəstəkləməyiniz bizim tərəfimizdən həqiqətən də çox yüksək qiymətləndirilir. Düşünürəm ki, bu bizim əlaqələrimizi daha irəliyə aparır. Buna görə həqiqətən də minnətdarlığımı bildirmək istərdim. Mənim üçün burada olmaq məmnuniyyətdir. Mən təxminən 5 illik fasilədən sonra regiona qayıdıram. Geri qayıtmaq möhtəşəmdir. Mən Dünya Bankındakı fəaliyyətimin əhəmiyyətli bir hissəsini bu regionda keçirmişəm. Bu mənə çox yaxın olan regiondur. Ötən dəfə regionda olarkən təxminən 4 ay Azərbaycandakı proqrama birbaşa nəzarət etmək mənə nəsib olub. Bu müddət

ərzində, həmçinin ölkə ilə tərəfdaşlıq çərçivəsi təsdiq olunub. Mən son bir neçə ildə bu tərəfdaşlıq çərçivəsinin həyata keçirilməsini görməkdən çox məmnun oldum. TANAP layihəsinin ilkin mərhələlərində iştirak etmişəm, ona görə də ona yaxşı bələdəm. Mən bu layihə münasibətilə Sizi bir daha təbrik etmək istəyirəm. Bu bizim buna bənzər nəyisə dəstəkləyə bilməyimiz və həm kredit əməliyyatlarını, həm də birgə apardığımız işi nə dərəcədə yaxşı mənimsədiyimizi göstərən həqiqətən də flaqman layihədir. Mən bir daha təşəkkürümü bildirmək istəyirəm. Birlikdə əldə etdiyimiz yaxşı irəliləyişi davam etdirməyi və onu daha yüksək səviyyələrə qaldırmağı səbirsizliklə gözləyirəm. Həmçinin qeyd etməliyəm ki, Azərbaycanla bağlı məlumatları oxuyarkən ölkənin «Doing Business» hesabatında reytinqini görməkdən həqiqətən də məmnun oldum və bu münasibətlə də Sizi təbrik etmək istəyirəm. Düşünürəm ki, bu, dəyişikliyin daha bir sübutudur. Siz qeyd etdiyiniz kimi, iqtisadiyyatınızın şaxələndirilməsi üçün «Doing Business»də iqtisadiyyatın inkişafı baxımından yaxşı göstəricidir.

*Dünya Bankının Avropa və Mərkəzi Asiya regionu üzrə yeni təyin olunmuş vitse-prezidenti Anna Byerde bildirdi ki, koronavirusun təsirinin olduğu bir dövrdə yaşayırıq. O, ölkəmizdə icra olunan özünüməşğulluq layihəsinə toxundu, kənd təsərrüfatı sahəsində gələcək əməkdaşlıqdan danışdı.*

*Dünya Bankının ölkəmizdəki rəhbəri Navid Hassan Naqvi 4 il Azərbaycanda fəaliyyət göstərdiyini məmnunluqla qeyd etdi. Vurğuladı ki, fəaliyyətinin*

*başa çatması ilə bağlı ölkəmizi zəngin təəssüratlarla tərk edir. O, dövlət başçısına Dünya Bankının ölkəmizdəki fəaliyyətinə göstərdiyi dəstəyə görə minnətdarlığını bildirdi.*

**İ l h a m Ə l i y e v:** Təşəkkür edirəm, Navid. Əlbəttə, təəssüf edirik ki, siz bizi tərk edirsiniz.Eyni zamanda, vaxtın necə sürətlə keçdiyini görürük. Çünki mən görüşdüyümüz ilk vaxtı – sizin Azərbaycanda yenicə fəaliyyətə başladığınız vaxtı xatırlayıram. Artıq 4 il keçib. Biz anlayırıq ki, Dünya Bankının əməkdaşları öz yaşayış və iş yerlərini çox tez-tez dəyişirlər. Mən sizə «Çox sağ ol» – demək istəyirəm. Çünki bizimlə olduğunuz bütün bu müddət ərzində siz həqiqətən də əməkdaşlığımıza və vacib layihələrin həyata keçirilməsinə töhfə vermisiniz. Gələcək fəaliyyətinizdə sizə uğurlar arzu edirəm. Sizi yenidən Bakıda görəcəyimə ümid edirəm. Bizim qonağımız kimi və ya ola bilsin ki, yeni vəzifədə. Əməkdaşlıq üçün təşəkkür edirəm.

**S a r a M a y k l** (*Dünya Bankının Azərbaycana yeni təyin olunmuş rəhbəri*): Salam, zati-aliləri. Mən bu vəzifəyə təyin olunmaqdan həqiqətən, şərəf hissi keçirirəm. Mən hökumətlə birgə çalışmağı, tərəfdaşlığımızı dərinləşdirməyə davam etməyi səbirsizliklə gözləyirəm. Mən əvvəllər Azərbaycanda və regionda çalışmışam. Bura elə bir ölkədir ki, ürəyimə yaxındır. Mən bu təcrübədən çıxış edərək, irəliyə doğru addımlayacağımıza ümid edirəm.

**İ l h a m Ə l i y e v:** Təşəkkür edirəm. Pandemiya bitən kimi, biz sizi gözləyirik. Biz yenidən sizi qarşılamaqdan məmnun olardıq. Bizə yad olmamağınız

düşünürəm ki, bizim üçün çox yaxşıdır. Siz bizim ölkə ilə tanışsınız. Bizim etdiklərimizin hamısını bilirsiniz. Çünki hazırda – iqtisadi islahatlarımızın bu mərhələsində sizin Azərbaycandakı fəaliyyətiniz bizə kömək edəcək ki, əməkdaşlığı müvafiq qaydada planlaşdıraq və artımı, məşğulluğu yaradan sahələrə diqqəti cəmləyək. Siz bizim şaxələndirmə, sənaye inkişafı ilə bağlı planlarımızdan məlumatlısınız. Ona görə də əminəm ki, Bakıda gözəl işlər görəcəyik.

Mən bir daha Dünya Bankının Azərbaycan üçün etdiyi bütün işlərə görə minnətdarlığımı bildirmək istərdim. Bizim «Doing Business» reytinqində irəliləyişlə bağlı xoş fikirləriniz üçün minnətdaram.

Bilirsiniz ki, «Doing Business»dəki mövqemiz bizim üçün çox uğurlu sahələrə diqqəti cəmləmək üçün bir növ motivasiyadır. Ona görə də hökumətin, administrasiyanın və müvafiq nazirliklərin üzvlərindən ibarət xüsusi komissiya yaradıldı. Biz xüsusilə geridə qaldığımız sahələrə diqqət yetirirdik və qısa müddət ərzində çox əsaslı irəliləyişə nail ola bildik. Əlbəttə, bu, ölkədəki biznes mühitini yaxşılaşdırır, daha çox investisiyalardan faydalanmağa imkan verir. Təbii ki, biz qeyri-enerji sektoruna investisiya yatırılmasında maraqlıyıq. Bizim üçün hazırda prioritet olan məsələlərə gəlincə, mən ümumi şəkildə indiki pandemiya dövründə iki əsas prioritetin olduğunu deyərdim. Çünki biz 2020-ci ilə yaxşı iqtisadi artım göstəriciləri, yaxşı formada olan bütün iqtisadi parametrlərlə birlikdə çox ümidverici

başlanğıc etdik. Lakin bu ilin 5 ayı göstərir ki, bizim iqtisadiyyatımız 1,7 faiz azalıbdır.

Bu çox deyil, lakin azalmadır. Amma ümidverici fakt ondan ibarətdir ki, bizdə kənd təsərrüfatında artım qeydə alınıb – 3 faizdən çox. Qeyri-enerji sənayesində artım 14 faiz təşkil edib. Ona görə də gələcək üçün bizim nəzərə aldığımız iki əsas məsələ şaxələndirməyə əsaslanan iqtisadiyyatın davamlı inkişafına nail olmaqdır. İkincisi isə, iqtisadiyyatın artımı daha çox iş yerləri ilə müşayiət olunmalıdır. Çünki Azərbaycan əhalisi artan ölkədir. Biz artıq 10 milyondan çoxuq. Əhali artır. Bu səbəbdən də xalqımız üçün daha çox iş yerlərinə ehtiyacımız vardır. Xüsusilə də indi bu yeni texnologiyalarla bir çox iş yerləri artıq bazarda deyil. Yeni işlər peyda olur. Lakin bu yeni iş yerləri üçün bizim insanların xüsusi bacarıqları olmalıdır. Ona görə də bu iki əsas amil bizim hər zaman gündəliyimizdədir. Birgə çalışdığımız digər layihələr arasında artıq proqramımızın mövcud olduğu özünüməşğulluq sahəsindən savayı, digər vacib sahələrdən biri kimi, icbari tibbi sığortanın adını qeyd edərdim. Biz ölkə üzrə proqramı yanvardan başlamağı planlaşdırırdıq. Lakin koronavirus səbəbindən biz bunu gələn ilin yanvarına qədər təxirə salmalı olduq. Artıq proqramın əhatə etdiyi bir neçə şəhərimiz vardır. Nəticə yaxşıdır. Ona görə də il bitməzdən qabaq düşünürəm ki, sizinlə müvafiq qaydada bu sistemin necə strukturlaşdırılmasının üzərində işləməyə davam edəcəyik. Çünki bu bizim üçün yenidir. Bir məsələ ondan ibarətdir ki, bu,

1, 2 və 3 şəhərdə tətbiq olunur. İkinci məsələdə isə bütün ölkədə tətbiq olunacaqdır.

Ciddi şəkildə diqqəti cəmlədiyimiz sahələrdən biri də suvarma və su təchizatı ilə bağlı məsələlərdir. Mən gələcək su idarəetmə sistemlərimiz üçün «Yol Xəritəsi»ni yaratmaq məqsədilə Baş Nazirin müavininin rəhbərlik etdiyi xüsusi hökumət komissiyası yaratmışam, bir çox nazir bu komissiyanın üzvüdür. Çünki təəssüf ki, infrastrukturun çox hissəsinin istismar müddəti bitib. Bəzi ərazilərdə bizim 40, hətta 50 faiz su itkimiz olur, təsəvvür edin, su resurslarının çatışmadığı bir ölkədə. Xüsusilə ötən il bizdə ciddi quraqlıq oldu. Bu il də həmçinin. Bilirsiniz, sudan sui-istifadə qəbuledilməzdir. İndi hökumət bunun üzərində çalışır. Biz ilk addımlarımızı 1 və ya 2 ay ərzində atmağı planlaşdırırıq. Mən Dünya Bankını maliyyələşmə, nəzarət və məsləhətləşmə baxımından bizim tərəfdaşımız olmağa dəvət etmək istərdim. Çünki sizin bu sahədə çox böyük təcrübəniz vardır. Ona görə də bu sahənin gündəliyimizə daxil ediləcək məsələlər arasında adını çəkərdim.

Siz həmçinin kənd təsərrüfatını qeyd etdiniz. Biz sizinlə bu sahədə çalışırıq. Biz kənd təsərrüfatının rəqabətqabliyyətliliyini artırmalıyıq və necə irəliləməyimizlə bağlı anlayışımız olmalıdır. Çünki biz təkcə öz resurslarımızla ehtiyaclarımızı təchiz etməli deyilik, həm də daha çox ixrac potensialımız olmalıdır. Bunun üçün biz mövcud ixrac bazarlarına da daha çox cəlb olunmalıyıq və yeni bazarlar haqqında düşünməliyik. Bunlar hamısı sonuncu reabilitasiya mərhələsində olan nəqliyyat və logistik in-

frastrukturla bağlıdır. Dünya Bankı sayəsində biz bu sahədə çox vacib layihələr icra etmişik.

Hazırda biz əsasən Şimal–Cənub nəqliyyat dəhlizi üzərində çalışırıq. Çünki Şərq–Qərb dəhlizi artıq həyata keçirilib. Paytaxt şəhərdən şimal və cənub sərhədlərinə qədər dəmir yolu mövcuddur, lakin yeni yük həcmlərinə görə bizim müasirləşməyə ehtiyacımız vardır. Beləliklə, bu layihə də bizim gündəmimizə daxildir.

Mən həmçinin məhkəmə sistemimizə dəstəyinizə görə minnətdarlığımı bildirmək istərdim. Mən şəxsən yeni məhkəmə binalarımızın açılışı mərasimlərində iştirak etmişəm. Təkcə binalar deyil, həmçinin sistemlər, texnologiyalar – bütün bu layihələr Dünya Bankının dəstəyi ilə həyata keçirilibdir.

Pandemiya ilə əlaqədar vəziyyəti nəzərə alaraq təbii ki, postpandemiya dövrü böhranını idarə etmək üçün bizim ölkə strategiyasına ehtiyacımız vardır. Çünki bizim iqtisadiyyatımızın bəzi sahələri ciddi şəkildə zərər çəkdi. Xüsusilə də yaxşı nəticələrimiz olan və son 4 ildə artımın olduğu turizm sahəsi. Həqiqətən, Azərbaycan turizm xəritəsində maraqlı istiqamətə çevrilib. Beləliklə, pandemiyadan sonra biz bu sektoru canlandırmaq və Azərbaycanı yenidən xarici turistlər üçün cəlbedici etmək istiqamətində çox çalışmalıyıq. Çünki turizm sərbəst konvertasiya olunan valyuta yaradan sektorlardan biridir. Qeyri-neft və qeyri-qaz ixracından gələcək daha çox sərbəst konvertasiya olunan valyuta ehtiyatlarına ehtiyacımız vardır. Ona görə də kənd təsərrüfatı,

turizm, texnologiya, düşünürəm ki, bizim diqqətimizi cəmlədiyimiz əsas sahələr olacaqdır.

**Elman Rüstəmov** (*Mərkəzi Bankın sədri*): Cənab Prezident, hörmətli xanım vitse-prezident, hörmətli həmkarlar! Mən Dünya Bankı və Azərbaycan arasında uzunmüddətli məhsuldar əməkdaşlığın tarixçəsini qeyd etmək istəyirəm. Bu əməkdaşlığa ötən 15–17 il ərzində təkan verilib və bu müddətdə Azərbaycan iqtisadiyyatı 3 dəfə artıbdır. Yoxsulluq probleminin öhdəsindən gəlmişik.

Cənab Prezident, icazənizlə, hansı növ antiböhran tədbirlərinin görülməsi ilə bağlı bir neçə söz demək istəyirəm. Bildiyiniz kimi, Azərbaycan bu böhranla əlaqədar çağırışlarla – xüsusilə əsas ixrac etdiyi məhsulların qiymətlərinin aşağı düşməsi ilə bağlı çağırışlarla üzləşibdir. Lakin biz makroiqtisadi sabitliyi qoruya bilmişik, inflyasiyanın səviyyəsi təqribən 3 faizdir. Milli valyutanın kursu sabitdir və mübadilə kursu üzərində heç bir təzyiq yoxdur. Proqnozlara görə bu ilin sonunadək çox cüzi bir resessiya olacaq. Lakin maliyyə sektorunda vəziyyət çox sabitdir və həmçinin bəzi qeyri-sabit bankların sistemdən çıxarılmasına nail olmuşuq. Həmçinin qorunan əmanətlərin sığortalanması üzrə qanunun müddəti artırılıb və maliyyə sektorunda sabitliyin qorunması üzrə bütün addımlar atılacaqdır.

*Elman Rüstəmov Dünya Bankı ilə potensial əməkdaşlıq sahələrindən danışdı. Qeyd etdi ki, keçən il Dünya Bankı ilə yeni milli iqtisadi inkişaf strategiyasının hazırlanması üzrə danışıqlara başlanılıb. Hazırda biz 2016–2020-ci illəri əhatə edən ölkə tərəf-*

*daşlıq strategiyaları əsasında çalışırıq və bunun da müddəti cari vəziyyət nəzərə alınaraq, 1 il artırılıbdır. Mərkəzi Bankın sədri, həmçinin maliyyə sektorunun qiymətləndirilməsi proqramı üzərində çalışmağın hər iki tərəf üçün faydalı olacağına əminliyini ifadə etdi.*

**Natiq Əmirov** (*Prezidentin köməkçisi*): Bildiyiniz kimi, Azərbaycan iqtisadiyyatı COVID-19 qlobal pandemiyası ilə əlaqədar olaraq, üçqat fiskal şoka məruz qaldı. Birincisi, qlobal ticarətin və artımın azalması nəticəsində neftin qiyməti kəskin şəkildə aşağı düşdü. İkincisi, neftin qiymətinin düşməsindən sonra pandemiya ilə əlaqədar, karantinə qədər gəlirlərin, həmçinin iqtisadi və investisiya fəaliyyətinin azalması müşahidə olundu. Üçüncüsü, pandemiyaya görə səhiyyə, sosial və maliyyə sektorlarına dəstək xərcləri artdı. Bu mənfi vəziyyətə baxmayaraq, vergi və gömrük orqanlarının güclü fəaliyyəti sayəsində bu ilin ilk 5 ayı üzrə büdcənin icrası müsbət olub. Büdcə profisiti 1,1 milyard manat təşkil edibdir.

*Natiq Əmirov bildirdi ki, gələcəkdə büdcə siyasəti sosial müdafiə və iş yerləri ilə makroiqtisadi sabitliyə dəstəyin göstərilməsi və Neft Fondunda rahat rezervlər səviyyəsinin saxlanılması arasında optimal balansı tapmaqdan ibarət olan əsas hədəfə cavab verməlidir. O bunun üçün qaydaları hazırlamaq və optimal balansı tapmaq məqsədilə Dünya Bankı ilə əməkdaşlığı davam etdirməyin məqsədəuyğunluğunu vurğuladı.*

*Anna Byerde ölkəmizi yaxşı makroiqtisadi və fiskal göstəricilərə malik olması münasibətilə təbrik etdi. O, Azərbaycanın koronavirusun vura biləcəyi zi-*

*yanı minimuma endirmək üçün müvafiq tədbirlər həyata keçirdiyini dedi və bunu yüksək qiymətləndirdiklərini bildirdi. Vitse-prezident ölkəmizlə strategiya və sosial-iqtisadi inkişaf proqramı üzrə birgə əməkdaşlığa hazır olduqlarını vurğuladı. Anna Byerde qeyd etdi ki, iqtisadiyyatın şaxələndirilməsi və sosial sektora diqqətin artırılması çox vacibdir və Azərbaycan bu istiqamətdə ardıcıl işlər görür. O, Dünya Bankının tibbi sığorta, su sektoru, kənd təsərrüfatı, ərzaq təhlükəsizliyi, turizm, texnologiyalar və digər sahələrdə də ölkəmizlə əməkdaşlığa hazır olduğunu bildirdi.*

**Sebastian Molineus** (*Dünya Bankının Cənubi Qafqaz üzrə regional direktoru*): Zati-aliləri cənab Prezident, Sizi yenidən görmək həqiqətən, çox xoşdur. Sizinlə görüşmək üçün bu, üçüncü fürsətdir və hər görüşümüzdə tərəfinizdən verilən yüksək səviyyəli strateji yönləndirmə və tövsiyələriniz bizim gələcək əməkdaşlığımız üçün gözəl «Yol Xəritəsi» təşkil edir.

Bizim uzunmüddətli tərəfdaşlığımızı bir daha vurğulamaq istəyirəm. Bu, artıq dəfələrlə qeyd edilib. Biz müstəqilliyinin ilk illərindən, həmçinin 2008-ci və 2011-ci illərdə dünyada yaşanan iqtisadi böhran zamanı Azərbaycanın yanında olmuşuq.

Biz COVID-19 pandemiyası dövründə də Sizin güclü tərəfdaşınız olmaq niyyətindəyik. Cənab Prezident, istəyirəm biləsiniz ki, biz bütün bilik və maliyyə resurslarımızla Sizin yanınızdayıq və hər hansı digər bir dəstəyə ehtiyacınız olduğu təqdirdə biz buna hazırıq.

Burada eşitdiyim tövsiyələrinizlə bağlı qeydlərimi bildirmək istəyirəm. Birincisi strategiyaya aiddir. Burada bizim şaxələndirmə və inkişafla bağlı misilsiz imkanımız var və Siz də bunu qeyd etdiniz.

Mən dövlət investisiyaları yönümlü modeldən özəl sektorun inkişafı modelinə keçidi nəzərdə tuturam. Bu, Azərbaycana yeni bir mövqedən çıxış etməyə imkan verə bilər. Biz hökumətinizlə ilkin müzakirələrə başlamışıq və bizim vitse-prezidentin qeyd etdiyi kimi, bunu saziş formasında rəsmiləşdirməyimiz işlərin qısa zamanda həyata keçirilməsini mümkün edəcəkdir.

Zənnimcə, bugünkü qlobal böhran inkişafa bir növ, yeni təkan verə bilər. Beləliklə, cəmiyyətdə sosial razılığın bərqərar olunması və insanların buna inamı təmin edilə bilər. İqtisadi artım və məşğulluq məsələləri istənilən strategiya üçün olduqca əhəmiyyətlidir və mən bunu yüksək qiymətləndirirəm. Biz uzun illər ərzində hər iki mövzu üzərində geniş şəkildə çalışmışıq. Dünya Bankı və şəxsən mən yeni iş yerlərinin yaradılması üzərində uzun müddətdir ki, çalışırıq. Biz 20 il ərzində Dünya Bankı tərəfindən məşğulluq sahəsində icra olunmuş layihələri yenidən təhlil edərək, burada özəl sektorda dayanıqlı iş yerlərinin yaradılmasında yardımçı ola biləcək 3-4 mühüm amili müəyyən etdik. Birincisi, maliyyə resurslarının əlçatanlığı, yəni inkişaf gündəliyini dəstəkləyən maliyyə sektorunun mövcudluğudur. İkincisi, bazarlara çıxışdır. Bu gün qlobal səviyyədə təchizat zəncirində mövcud olan gərginlik Azərbaycana yeni mövqedən çıxış etməyə, Avropa

və Asiya arasında bağlantı yaradaraq, həlledici rola malik olmağa imkan verə bilər.

*Sebastian Molineus böyük və kiçik şirkətlərə istehsal gücünün və səmərəliliyin artırılması məqsədilə müasir texnologiyaların geniş tətbiqində ölkəmizlə əməkdaşlığı davam etdirmək, həmçinin Azərbaycanda dünya səviyyəli səhiyyə sisteminin yaradılması prosesinə, ölkəmizdə su ehtiyatlarının güclü idarəçiliyi, infrastrukturun gücləndirilməsi və su ehtiyatlarından tam şəkildə səmərəli istifadəyə yardımçı olmaq niyyətlərindən danışdı. O, Prezident İlham Əliyevin turizm, kənd təsərrüfatı sahələrinə diqqətin yönəldilməsi barədə tövsiyələrinin də nəzərdə saxlanılacağını qeyd etdi.*

**İlham Əliyev:** Görülmüş işlər və gələcək planlarımızla bağlı dediklərinizə görə təşəkkür edirəm. Pandemiya dövründə Azərbaycan müsbət nəticələr göstərir. Hesab edirəm ki, bu, son vaxtlar başlanılmış çox ciddi islahatların yeni mərhələsi sayəsində mümkün olubdur. Burada əsas məsələ «kölgə iqtisadiyyatı»nın və qeyri-rəsmi məşğulluğun azaldılmasıdır. Çünki icbari tibbi sığorta yüksək səviyyəli səhiyyə xidmətləri təqdim etməklə yanaşı, qeyri-rəsmi məşğulluqla mübarizədə də bizə yardımçı olacaqdır. Yəni hələ də «kölgə»də fəaliyyət göstərənlər «ağ iqtisadiyyat»a keçməli olacaqlar.

Bu, vacib nailiyyətdir və sizə bir rəqəm deyə bilərəm. Ötən il bizim vergi və gömrük orqanlarımız proqnozdan 600 milyon dollar əlavə vəsait toplayıbdır. Əsasən də «kölgə iqtisadiyyatı»nın azaldılması sayəsində və bu proses davam edir. Cari ilin

ilk 5 ayı ərzində vergi və gömrük orqanları proqnozdan 400 milyon manat artıq vəsait toplayıbdır. Bu, ticarət münasibətlərinin ciddi zərər gördüyü vaxtda baş veribdir.

Artıq qeyd edildiyi kimi, bizim milli valyutamız sabitdir və zənnimcə, bu da makroiqtisadi sabitliyin mühüm amillərindəndir. Biz anlayırıq ki, makroiqtisadi sabitlik olmadığı təqdirdə, bütün səylərimiz sarsılacaq. Biz işsiz, aztəminatlı və pandemiyadan əziyyət çəkən sahələrdə, məsələn, turizm və digər sahələrdə çalışan yüz minlərlə insanın dəstəklənməsi üçün 2 milyard dollar həcmində sosial və iqtisadi paket təqdim etmişik. Təkcə kiçik sahibkarların sayı 600 minə yaxındır.

Beləliklə, biz həmin vəsaitləri pandemiyadan əziyyət çəkmiş insanlara lazımi dəstəyin göstərilməsi üçün ayırmışıq. Qeyd edildiyi kimi, bank sistemində dəyişikliklər gedir və bəzi bankların lisenziyası ləğv edilibdir. İnsanların sığortalanmış bütün əmanətləri hökumət tərəfindən təmin edilibdir.

Həmçinin bildirmək istərdim ki, pandemiya zamanı biz qlobal səviyyədə çox fəal çalışdıq. Biz artıq 29 ölkəyə humanitar yardım göstərmişik. Hazırda 120 ölkənin üzv olduğu «Qoşulmama Hərəkatı»na sədrlik edirik və həmin təşkilatın onlayn Zirvə görüşünü keçirdik. Həmin tədbir çox uğurlu oldu. Ümumdünya Səhiyyə Təşkilatına 10 milyon dollar həcmində maliyyə yardımı göstərmişik. Bu, beynəlxalq öhdəliklərimizin bir hissəsidir.

Strategiyanın formalaşdırılmasına gəldikdə, biz Dünya Bankının iştirakını çox alqışlayırıq. Fikrim-

cə, bu, gələcəyimizin planlaşdırılmasında bizə elə yardım edəcək ki, hədəfləri müəyyənləşdirəndə onlara nail ola bilək. Bir sözlə, strategiya məzmuna uyğun çox konkret olmalıdır və onun sayəsində biz dayanıqlı inkişaf məqsədlərinə və enerji sektorundan asılılığın azaldılmasına nail olmalıyıq.

Beləliklə, «Cənub Qaz Dəhlizi» istismara veriləndən sonra, əlbəttə ki, Azərbaycanın enerji sektoru daha çox potensial qazanacaq. Qeyri-enerji sektoru onunla rəqabət apara bilməyəcək, lakin hesab edirəm ki, iqtisadiyyatımızın əsas aparıcı qüvvəsi özəl sektor olacaqdır. Bu baxımdan, mən Dünya Bankı nümayəndələrinin söylədikləri ilə tam razıyam.

Səhiyyə sektoruna gəldikdə, fikrimcə, son 16 il ərzində səhiyyə infrastrukturuna yatırdığımız sərmayələr hazırda bizə koronavirusla mübarizə aparmaq imkanını yaratdı, çünki səhiyyə sistemimiz daha çox insanları müalicə etməyə qadirdir. Əfsuslar olsun ki, sərt məhdudiyyətlərin aradan qaldırılmasından sonra ölkəmizdə yoluxan insanların sayında artım vardır. Lakin səhiyyə sistemimiz bunun öhdəsindən gəlir. Ümid edirəm ki, gələcəkdə də bu imkanlar olacaq. Bir sözlə, səhiyyə sistemi yaxşı keyfiyyətini göstərməkdədir. Lakin əlbəttə ki, bizim ciddi təkmilləşdirilməyə ehtiyacımız var və bunun üzərində birmənalı olaraq işləyəcəyik.

Su layihələri haqqında söylədiyim məqamlara qayıdaraq, cənab Molineusun söylədiyi «su təhlükəsizliyi» termini ilə tam razıyam. Bu həqiqətən də bizim üçün təhlükəsizlik məsələsidir. Tam razıyam ki, biz bu sahəyə görə məsuliyyət daşıyan şirkətləri-

mizin və dövlət təşkilatları strukturunun lazımi qaydada formalaşdırılması məqsədilə təsisat əsasları üzərində çalışmalıyıq. Biz infrastruktura ciddi sərmayələr qoyacağıq. Bunlar bizim builki dövlət sərmayə proqramında əks olunubdur. Ümid edirik ki, Dünya Bankı ilə birgə infrastruktur və qənaət sahəsində biz daha geniş miqyasda işləyə bilərik. Burada qənaətə yeni texnologiyaların tətbiqi və lazımi idarəçilik nəticəsində nail olunması nəzərdə tutulur.

Qaldırmaq istədiyim digər bir məsələ də var və o daim bizim gündəliyimizdədir. Həmin məsələ ətraf mühitin qorunmasıdır. Bu xüsusən də Bakı və Abşeron yarımadasına aiddir. Həmin yerlərdə əsrlərboyu neft və qaz hasilatı bizim üçün çox ciddi çətinliklər yaradıbdır. Biz böyük həcmdə təmizləmə əməliyyatları aparırıq, lakin ola bilsin, bizə daha çox dəstək lazımdır. Bu xüsusən də texnologiya və məsləhətlər baxımdan verilə biləcək dəstəyə aiddir. Fikrimcə, gələcək əməkdaşlıq sahələrimizdən biri də Abşeronda və Bakıda neftlə çirklənmiş sahələr üzrə ekoloji layihələrin həyata keçirilməsi ola bilər.

*Anna Byerde indiki gərgin bir dövrdə keçirilən bu görüşdə faydalı müzakirələrə imkan yaratdığı üçün Prezident İlham Əliyevə təşəkkürünü bildirdi. O qeyd etdi ki, Dünya Bankı təmasların qurulmasına, Azərbaycanda islahatların sürətləndirilməsinə bundan sonra da dəstək verməkdən çox məmnun olardı.*

**İ l h a m Ə l i y e v:** Sağ olun, xanım vitse-prezident. Təşəkkür edirəm, əziz dostlar. Bu təşəbbüsə görə minnətdaram. Mən apardığımız müzakirədən

çox razı qaldım. Fikrimcə, biz bütün mühüm sahələri əhatə etdik. Bu gün fikir mübadiləsi apardığımız ideyaları icra etməyə başlayacağıq. Ümid edirəm ki, gələcəkdə bizim əməkdaşlığımız keçmişdəki kimi uğurlu olacaqdır. Əlbəttə, zaman keçir, yeni çağırışlar və prioritetlər ortaya çıxır. Lakin hesab edirəm ki, müzakirə etdiyimiz bütün məsələlər birgə səylərimiz sayəsində reallığa çevrilə bilər.

Azərbaycana verdiyiniz davamlı dəstəyə və bu imkanlara görə bir daha minnətdaram. Sizi pandemiya bitən kimi, Bakıda görməyimə ümid edirəm.

**Anna Byerde**: Sağ olun.

**İlham Əliyev:** Minnətdaram. Sizə uğurlar arzulayıram, sağ olun.

## AVROPA İTTİFAQI ŞURASININ PREZİDENTİ ŞARL MİŞEL İLƏ TELEFONLA GÖRÜŞ

*17 iyun 2020-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə iyunun 17-də Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel telefonla zəng etmişdir.*

*Prezident İlham Əliyev və Prezident Şarl Mişel sabah «Şərq Tərəfdaşlığı» ölkələrinin videokonfrans formatında keçiriləcək Sammiti ilə bağlı fikir mübadiləsi apardılar.*

*Söhbət zamanı Avropa İttifaqı–Azərbaycan əlaqələrinin hər iki tərəf üçün çox vacib olduğu bildirildi, Azərbaycanla Avropa İttifaqı arasında Tərəfdaşlıq Sazişi üzərində işin getdiyi qeyd olundu.*

*Telefon söhbəti zamanı enerji təhlükəsizliyi məsələsinə toxunularaq, «Cənub Qaz Dəhlizi» layihəsinin bu işə töhfə verəcəyi vurğulandı.*

*Dövlət başçısı Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı Azərbaycanın mövqeyini bir daha ifadə edərək bildirdi ki, Ermənistan rəhbərliyinin daim danışıqlar formatını dəyişdirmək cəhdləri, Dağlıq Qarabağın Ermənistana aid olması ilə bağlı bəyanatlar verməsi münaqişənin həllinə əngəl törətməklə bərabər, danışıqlar prosesinə də böyük zərbə vurur. Prezident İlham Əliyev bir daha bil-*

*dirdi ki, münaqişənin həlli yalnız Azərbaycanın ərazi bütövlüyü çərçivəsində mümkündür.*

*Prezident İlham Əliyev və Şarl Mişel regional təhlükəsizlik məsələləri ilə də bağlı fikir mübadiləsi apardılar.*

*Söhbət zamanı koronavirus pandemiyası ilə mübarizə istiqamətində həyata keçirilən tədbirlər müzakirə olundu.*

*Prezident İlham Əliyev və Avropa İttifaqı Şurasının Prezidenti Avropa İttifaqı–Azərbaycan əlaqələrinin hər iki tərəfin maraqlarına uyğun olaraq, bundan sonra da uğurla inkişaf edəcəyinə əminliklərini ifadə etdilər.*

## RUSİYA FEDERASİYASININ PREZİDENTİ VLADİMİR PUTİN İLƏ TELEFONLA GÖRÜŞ

*18 iyun 2020-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 18-də Rusiya Federasiyasının Prezidenti Vladimir Putinə telefonla zəng etmişdir.*

*Dövlət başçısı Azərbaycanda karantin tədbirlərinin uzadılması ilə əlaqədar Moskvada Qələbənin 75 illiyinə həsr olunmuş hərbi paradda əvvəlcədən planlaşdırılmış iştirakının mümkün olmadığını təəssüf hissi ilə bildirdi və qeyd etdi ki, ölkəmiz bu tədbirdə Müdafiə naziri və Azərbaycan Ordusunun 75 nəfər hərbi qulluqçusu ilə təmsil olunacaqdır.*

*Vladimir Putin vəziyyətə anlayışla yanaşdığını qeyd edərək, telefon zənginə görə təşəkkürünü bildirdi.*

*Dövlət başçıları Rusiya–Azərbaycan sərhədində yaranmış vəziyyətlə bağlı fikir mübadiləsi apardılar.*

*Prezident İlham Əliyev bildirdi ki, onun Rusiya Prezidenti ilə bu il mayın 18-dəki telefon danışığından ötən dövr ərzində Samur keçid məntəqəsindən 700-ə yaxın, bütövlükdə isə bir ay ərzində quru və hava yolları ilə 1000-ə yaxın Azərbaycan vətəndaşı Rusiyadan ölkəmizə gətirilibdir.*

*Prezidentlər müvafiq dövlət strukturlarına sərhəddə vəziyyətin tənzimlənməsi ilə əlaqədar əlavə tapşırıqların verilməsi barədə razılaşdılar.*

**TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB RƏCƏB TAYYİB ƏRDOĞANA**

Hörmətli cənab Prezident!

Əziz qardaşım!

Türkiyə Respublikasının nümayəndəsi cənab Volkan Bozkırın Birləşmiş Millətlər Təşkilatı Baş Assambleyasının sədri vəzifəsinə seçilməyi münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm.

Sizin rəhbərliyiniz altında həyata keçirilən Türkiyə diplomatiyasının ardıcıl və uğurlu fəaliyyəti sayəsində ölkəniz beynəlxalq aləmdə böyük nüfuz qazanıbdır. Şəxsi təşəbbüsünüzün nəticəsində BMT sistemi tarixində Türkiyə nümayəndəsinin ilk dəfə belə mühüm vəzifəyə seçilməsi xəbəri bizi olduqca sevindirdi.

Əminəm ki, Azərbaycan–Türkiyə dostluq və qardaşlıq münasibətləri birgə səylərimizlə çoxtərəfli müstəvidə də uğurla davam edəcəkdir.

Bu xoş fürsətdən istifadə edərək, Sizə möhkəm cansağlığı, işlərinizdə müvəffəqiyyətlər, qardaş Türkiyə xalqına daim rifah diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *18 iyun 2020-ci il*

## BİRLƏŞMİŞ MİLLƏTLƏR TƏŞKİLATI BAŞ ASSAMBLEYASININ YENİ SEÇİLMİŞ SƏDRİ ZATİ-ALİLƏRİ CƏNAB VOLKAN BOZKIRA

Hörmətli cənab Bozkır!

Birləşmiş Millətlər Təşkilatının yaranmasının 75 illik yubileyi ərəfəsində Baş Assambleyanın sədri vəzifəsinə seçilməyiniz münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm.

BMT sistemi tarixində qardaş Türkiyə Respublikası nümayəndəsinin belə yüksək vəzifəyə seçilməsi bizi olduqca sevindirir.

Azərbaycan Respublikası həm BMT-nin üzvü, həm də «Qoşulmama Hərəkatı»nın hazırkı sədri qismində Sizinlə yaxından əməkdaşlıq etməyə, əlaqələrimizi hərtərəfli genişləndirməyə hazırdır.

Əminəm ki, Sizin diplomatiya sahəsindəki peşəkarlığınız, çoxillik təcrübəniz Baş Assambleyanın qarşısında duran vəzifələrin icrasına mühüm töhfə verəcək, dünyada multilateralizmin inkişafına xidmət edəcəkdir.

Fürsətdən istifadə edərək, Sizə möhkəm cansağlığı və qarşıdakı məsul işinizdə uğurlar arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *18 iyun 2020-ci il*

## «ŞƏRQ TƏRƏFDAŞLIĞI» ÖLKƏLƏRİNİN VİDEOBAĞLANTI FORMATINDA SAMMİTİ

*18 iyun 2020-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 18-də «Şərq Tərəfdaşlığı» ölkələrinin videokonfrans formatında keçirilmiş Sammitində iştirak etmişdir.*

*«Şərq Tərəfdaşlığı» ölkələrinin videokonfrans formatında keçirilən Sammitini giriş sözü ilə Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel açdı.*

*Sonra Avropa Komissiyasının prezidenti Ursula fon der Lyayen çıxış etdi.*

*Daha sonra Avropa İttifaqına üzv dövlətlərin və «Şərq Tərəfdaşlığı» ölkələrinin dövlət və hökumət başçıları çıxış etdilər.*

**Ş a r l M i ş e l** (*Avropa İttifaqı Şurasının Prezidenti*): İndi isə sözü Azərbaycan Prezidenti İlham Əliyevə verirəm. Cənab Prezident, buyurun.

### Azərbaycan Prezidenti İlham Əliyevin çıxışı

Xanımlar və cənablar!

Azərbaycan «Şərq Tərəfdaşlığı»nın fəal tərəfdaş ölkəsidir. Avropa İttifaqı ilə əməkdaşlıq Azərbaycanın xarici siyasətinin əsas prioritetlərindəndir.

Bizim Avropa İttifaqının bir çox üzv ölkəsi ilə sıx əməkdaşlığımız mövcuddur. Azərbaycan Avropa İttifaqının 9 üzvü ilə strateji tərəfdaşlıq haqqında sənəd imzalayıb. Biz Avropa İttifaqı ilə yeni tərəfdaşlıq sazişi ilə bağlı danışıqların yekun mərhələsindəyik. Mətnin 90 faizi artıq razılaşdırılıb. İki il bundan əvvəl Brüsseldə Azərbaycan və Avropa İttifaqı arasında «Tərəfdaşlıq prioritetləri» sənədi paraflanıb ki, burada hər iki tərəfin müstəqillik, suverenlik, ərazi bütövlüyü və beynəlxalq səviyyədə tanınmış sərhədlərin toxunulmazlığı prinsiplərinə sadiqliyi vurğulanır. Ermənistan və Azərbaycan arasında olan münaqişə eyni prinsiplər əsasında həll edilməlidir. Ermənistan Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazisinin 20 faizinin işğalını davam etdirir. Dağlıq Qarabağ və Azərbaycanın daha 7 rayonu 30 ilə yaxındır ki, Ermənistanın işğalı altındadır. Ermənistanın etnik təmizləmə siyasəti nəticəsində 1 milyondan artıq azərbaycanlı qaçqın və məcburi köçkünə çevrilibdir. BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsi Ermənistan qoşunlarının Azərbaycanın işğal edilmiş bütün ərazilərindən qeyd-şərtsiz və tam çıxarılmasını tələb edir. Ermənistan bu qətnamələrə, habelə ATƏT, «Qoşulmama Hərəkatı», NATO, Avropa Parlamenti və digər beynəlxalq təşkilatlar tərəfindən qəbul edilmiş müvafiq sənədlərə əməl etmək əvəzinə, işğal olunmuş ərazilərdə qeyri-qanuni məskunlaşma siyasəti həyata keçirir. Danışıqların mahiyyət və formatını məhv etməyə çalışan Ermənistan baş nazirinin dediyinin əksi olaraq, Dağlıq Qarabağ Ermənistan deyil, Dağlıq Qarabağ Azərbaycandır və bütün

dünya bunu belə tanıyır. Azərbaycanın ərazi bütövlüyü bərpa olunmalıdır.

İşğala və humanitar fəlakətə baxmayaraq, Azərbaycan sosial-iqtisadi inkişafda yüksək nəticələr əldə edibdir. Son 16 ildə ümumi daxili məhsulumuz 3 dəfə artıb, yoxsulluq səviyyəsi 49 faizdən 5 faizə enibdir. Avropa İttifaqı bizim əsas ticarət tərəfdaşımızdır. Ticarətimizin təqribən 50 faizi üzv dövlətlərin payına düşür. 15 ilə yaxındır ki, Azərbaycan Avropa bazarlarına xam neft nəql edən etibarlı təchizatçıdır. Yaxın zamanda biz Avropa İttifaqının üzv dövlətlərini təbii qazla təchiz etməyə başlayacağıq. Ölkəmiz Azərbaycanı Avropa İttifaqı bazarlarına bağlayacaq 3500 kilometrlik inteqrasiya edilmiş boru kəməri sistemi olan «Cənub Qaz Dəhlizi»nin tikintisinin təşəbbüskarı olub və onu maliyyələşdiribdir. «Cənub Qaz Dəhlizi» enerji əməkdaşlığı, enerji təhlükəsizliyi və enerjinin şaxələndirilməsi layihəsidir.

Koronavirus pandemiyasına qarşı görülmüş tədbirlər bizə vəziyyəti nəzarətdə, itkiləri isə minimum səviyyədə saxlamağa imkan verib. Ümumdünya Səhiyyə Təşkilatı koronavirusla mübarizədə Azərbaycanı nümunəvi ölkə adlandırıb. «Qoşulmama Hərəkatı»nın 120 üzv ölkəsinin yekdil qərarı ilə 2019-cu ildə təşkilata sədr seçilən Azərbaycan bu il mayın 4-də Hərəkatın COVID-19-a həsr edilmiş onlayn formatda Zirvə görüşünü təşkil etmişdir. Biz Avropa İttifaqı və Afrika İttifaqının həmin tədbirə qoşulmalarını yüksək qiymətləndiririk. Ali nümayəndə cənab Jozep Borelə videomüraciətinə görə təşəkkürümü bildirmək istəyirəm. Ümid edirəm ki, bu,

Avropa İttifaqı və «Qoşulmama Hərəkatı» arasında fəal əməkdaşlığın başlanğıcı olacaqdır. Biz həmçinin BMT Baş Assambleyasının COVID-19-a həsr edilmiş dövlət və hökumət başçıları səviyyəsində videokonfrans vasitəsilə xüsusi iclasının keçirilməsini təklif etmişik. Azərbaycan pandemiya ilə mübarizə üçün Ümumdünya Səhiyyə Təşkilatına 10 milyon ABŞ dolları həcmində könüllü maliyyə yardımı ayırıbdır. Eyni zamanda, ölkəmiz bu günə qədər 29 dövlətə humanitar yardım göstərib və bu işi davam etdirməyi planlaşdırır. Sağ olun.

* * *

*Ermənistanın baş naziri Nikol Paşinyan ermənicə replika atır.*

**Şarl Mişel:** Bizə tərcümə gəlmir, Paşinyan.

**Nikol Paşinyan**: Üzr istəyirəm, müdaxilə etməliyəm. Bu yaxınlarda Avropa İnsan Hüquqları Məhkəməsi qərar verib ki, Azərbaycan öz ərazisində ermənilərə qarşı irqçi siyasət həyata keçirib. Ermənini yatarkən balta ilə qətlə yetirmiş və Avropa İttifaqına üzv dövlətin məhkəməsi tərəfindən ömürlük həbs cəzasına məhkum edilmiş Azərbaycan vətəndaşı həmin ölkədən ekstradisiya ediləndən sonra cənab Əliyev tərəfindən əfv olunubdur. Bu şəxs Azərbaycanda hər kəs tərəfindən qəhrəman kimi vəsf edilir. Dağlıq Qarabağ erməniləri balta ilə qətlə yetirilməmək üçün özünümüdafiə hüququna malikdir.

Mən üzr istəyirəm, ancaq hesab edirəm ki, «Şərq Tərəfdaşlığı» platforması zorakılığa təhrik etmək üçün deyildir. Burada tərəfdaşlıq təşviq edilməlidir.

Mən Azərbaycan Prezidentini təklif etdiyim konstruktiv məcraya və formulaya qayıtmağı dəvət edirəm ki, bu formulaya əsasən, Dağlıq Qarabağ münaqişəsinin həlli Dağlıq Qarabağ, Ermənistan və Azərbaycan xalqları üçün məqbul olmalıdır.

* * *

*Sonra Prezident İlham Əliyev yenidən söz alaraq çıxış etdi.*

**İ l h a m Ə l i y e v:** Çıxışımda dediklərim beynəlxalq təşkilatların qətnamələrinə əsaslanan tarixi həqiqətdir. Birincisi, bu hər kəsə bəlli olan bir faktdır ki, Ermənistan Azərbaycanın ərazisini işğal edib. İkincisi isə Ermənistanın baş nazirinə irqçilik haqqında danışmağı məsləhət görməzdim, çünki erməni terrorçuları dünyaca məşhurdurlar. Parisin Orli aeroportunda terror hadisəsi törədən Karapetyan soyadlı şəxs sonradan Ermənistana ekstradisiya edilib və Ermənistan prezidenti tərəfindən əfv olunubdur. Məhz buna görə belə məsələlər ətrafında müzakirə gedəndə ona sakit oturmağı tövsiyə edərdim. Burada çıxışımı yekunlaşdırıram.

* * *

*«Şərq Tərəfdaşlığı» ölkələrinin videokonfrans formatında keçirilən Sammitində Ermənistanın baş naziri Nikol Paşinyan növbəti dəfə özünü ifşa etdi. Bunu açıq-aydın sübut edən bir neçə məqamı diqqətinizə çatdırırıq. Birincisi, Ermənistanın baş naziri tədbirdəki çıxışı zamanı ingilis dilində kağızdan oxuyarkən beynəlxalq aləmdə qəbul olunmuş «Naqornıy Karabax» sö-*

*zünü işlədir. Ermənicə çıxışında isə «Artsax» sözünü işlədir.*

*Bu bir daha onu göstərir ki, Ermənistanın baş naziri yalnız daxili auditoriyaya hesablanan çıxışlarında beynəlxalq aləmin tanımadığı «Artsax» ifadəsini işlədir. Paşinyanın Sammitdəki çıxışı həm də Ermənistan baş nazirinin «ingilis dili səviyyəsini» göstərdi. O, əvvəlcədən hazırlanmış çıxışını kağızdan ingilis dilində oxusa da, sonra fikirlərini bu dildə ifadə edə bilmədi. Çıxış yolu erməni dilində danışmaq idi. Ermənistanın baş naziri çıxışında koronavirusla mübarizə üçün təcili ehtiyacların ödənilməsi və təsirin azaldılması məqsədilə Avropa İttifaqından 92 milyon avro həcmində yardım aldıqlarını da qeyd etdi. Azərbaycan Prezidenti isə çıxışında vurğuladı ki, ölkəmiz pandemiya ilə mübarizə üçün Ümumdünya Səhiyyə Təşkilatına 10 milyon dollar könüllü maliyyə yardımı ayırıb. Eyni zamanda, Azərbaycan 29 dövlətə humanitar yardım göstərib və bu işi davam etdirir. Bu, Azərbaycanla Ermənistan arasında bütün sahələrdə olduğu kimi, iqtisadi sahədə də dərin uçurumun mövcudluğunu nümayiş etdirən tutarlı faktdır. Təsadüfi deyil ki, Ümumdünya Səhiyyə Təşkilatı Azərbaycanı koronavirusla mübarizədə nümunə ölkə adlandırır, Azərbaycanın digər ölkələrə yardımını təqdir edir, Ermənistan isə virusla mübarizə üçün sadəcə, pul dilənir.*

*Paşinyan çıxışında daha bir yalana imza atdı. O, Avropa İnsan Hüquqları Məhkəməsinin son qərarını tamamilə saxtalaşdırılmış formada təqdim edərək, bu qərarda guya Azərbaycanın öz ərazisində ermənilərə qarşı irqçi siyasət həyata keçirdiyinin əks olunduğu-*

*nu iddia etdi, Ramil Səfərovun Azərbaycana ekstradisiyası və onun ölkəsində qəhrəman kimi qəbul olunmasından narazılığını bildirdi. Amma Paşinyan bilməlidir ki, beynəlxalq səviyyəli məhkəmənin qərarını təhrif etmək yolverilməzdir və Avropa İnsan Hüquqları Məhkəməsinin qərarında da Azərbaycana qarşı hər hansı bir ittiham irəli sürülməyib. Bu məhkəmənin qərarında irqçilik ittihamı əsasında Azərbaycanın hər hansı bir dövlət məsuliyyətinin də olduğu qeyd edilməyib. Qərarda baş vermiş hadisənin fərdi davranış əsasında törədildiyi qeyd olunub. Beləliklə, Avropa İnsan Hüquqları Məhkəməsinin qərarı əsasında Azərbaycanı irqçilikdə ittiham edən Paşinyan növbəti dəfə özünü yalan və saxtakarlıqda ifşa etdi.*

*Prezident İlham Əliyev çıxışında erməni terrorçusu Karapetyanla bağlı məsələyə toxundu. Dövlət başçısının haqqında danışdığı hadisə 1983-cü il iyulun 15-də Parisin Orli aeroportunda baş vermişdi. ASALA terror təşkilatının üzvü Varujan Karapetyanın başçılığı altında həyata keçirilmiş, Türk Hava Yollarının kassası qarşısında törədilmiş qanlı terror aktında həlak olmuş 8 nəfərdən 2-si Türkiyə, 4-ü Fransa, 1-i ABŞ, 1-i isə İsveç vətəndaşı idi. Terror zamanı 55 nəfər də yaralanmışdı. Karapetyan istintaqa ifadəsində hadisəni törətdiyini boynuna alaraq, əslində əsas məqsədin bombanı təyyarənin içində partlatmaq olduğunu etiraf etmişdi. Törətdiyi cinayətə görə Fransa məhkəməsi onu ömürlük həbs etsə də, 2001-ci ildə Karapetyan Ermənistana ekstradisiya olunur. Burada qəhrəman kimi qarşılanan terrorçu Ermənistanın ovaxtkı baş naziri Andranik Marqaryan tərə-*

*findən qəbul edilir, mənzil və işlə təmin olunur. Bu bir daha göstərir ki, qanlı terror törətmiş insanın Ermənistanda qəhrəmanlaşdırılması adi haldır. Bu, Ermənistanda terrorizmin dövlət səviyyəsində dəstəkləndiyini göstərən çoxsaylı faktlardan biridir.*

*Bütün bunlar bir daha sübut etdi ki, Paşinyan beynəlxalq səviyyəli tədbirdə Azərbaycan Prezidentinin tarixi həqiqətə əsaslanan tutarlı faktları qarşısında növbəti dəfə mat vəziyyətinə düşdü və özünü biabır etdi. Bu isə bütün hallarda istənilən bir hökumət başçısı üçün arzuolunan vəziyyət deyil.*

*Ən maraqlı və gülüş doğuran məqamlardan biri də tədbirə Paşinyanın qoruyucu maska ilə qatılması idi. Qeyd edək ki, Paşinyan bir müddət əvvəl koronavirusa yoluxduğunu elan etmiş, daha sonra da sağaldığını açıqlamışdı. Mütəxəssislər deyir ki, tibbi protokollara görə koronavirusa yoluxmuş və sağalmış adam heç kimi yoluxdurmur. Çünki bədəndə anticisim formalaşır və belə olduqda maska taxılmasına ehtiyac yoxdur. Bu halda, Paşinyanın maska taxmasına nə ehtiyac var idi, həm də kamera qarşısında?! Kadrlardan da göründüyü kimi, Paşinyandan başqa, heç bir dövlət və hökumət başçısı maska taxmayıb. Çünki beynəlxalq tibbi standartlara görə əgər yaxınlığında kimsə yoxdursa, maska taxmaq lazım deyil. Deməli, bu, Paşinyanın növbəti ucuz şousudur. Onun bundan məqsədi özünü xalqı qarşısında qurban kimi göstərmək və ictimaiyyətin diqqətini cəlb etməkdir.*

**LÜKSEMBURQUN BÖYÜK HERSOQU ƏLAHƏZRƏT ANRİYƏ**

Əlahəzrət!

Böyük məmnunluq hissi ilə Sizi və dost Lüksemburq xalqını ölkənizin milli bayramı münasibətilə öz adımdan və Azərbaycan xalqı adından təbrik edirəm.

Belə bir əlamətdar gündə Sizə möhkəm cansağlığı və xoşbəxtlik, ölkənizə daim firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *19 iyun 2020-ci il*

**SLOVENİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB BORUT PAHORA**

Hörmətli cənab Prezident!

Ölkənizin milli bayramı – Dövlətçilik Günü münasibətilə Sizi və dost Sloveniya xalqını öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Qarşılıqlı hörmətə və faydalı əməkdaşlığa əsaslanan Azərbaycan–Sloveniya münasibətlərinin bugünkü səviyyəsi məmnunluq doğurur. Əminəm ki, ölkələrimizin mənafelərinə xidmət edən əlaqələrimiz birgə səylərimizlə bundan sonra da genişlənəcəkdir.

Bəşəriyyətin COVID-19-la mübarizə apardığı bir zamanda Azərbaycan xalqının dost Sloveniya xalqı ilə həmrəy olduğunu qeyd etmək istəyirəm.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə müvəffəqiyyətlər, ölkənizə daim rifah arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *22 iyun 2020-ci il*

## BAKININ XƏTAİ RAYONUNUN NEAPOL KÜÇƏSİNDƏ YENİ YERÜSTÜ PİYADA KEÇİDİNİN AÇILIŞI MƏRASİMİ

*22 iyun 2020-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 22-də Bakının Xətai rayonunun Neapol küçəsində yeni yerüstü piyada keçidinin açılışında iştirak etmişdir.*

*Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin İdarə Heyətinin sədri Saleh Məmmədov piyada keçidinin texniki göstəriciləri barədə Prezident İlham Əliyevə məlumat verdi.*

*Yüksək zövq, tam fərqli görkəm, müasir texnologiyalar əsasında inşa olunmuş bu keçid paytaxtda yeni piyada keçidlərinin tikintisi ilə bağlı aparılan kompleks işlərin tərkib hissəsidir.*

*Yeni inşa olunmuş piyada keçidi Heydər Əliyev parkının yaxınlığında yerləşir. 2000-ci ildə salınmış və həmin il açılışında ulu öndər Heydər Əliyevin şəxsən iştirak etdiyi bu park rayon sakinlərinin ən sevimli istirahət məkanıdır.*

*Bu keçidin inşasına qədər ərazidə piyadalar üçün çox böyük çətinliklər olurdu. Onlar xüsusən günün pik saatlarında yolu keçməkdə problemlə üzləşirdilər. Bundan başqa, piyadaların bu ərazidə yolu keçməsi nəqliyyat vasitələrinin hərəkətinə də mane olur-*

*du. Beləliklə, ərazidə piyadalar təhlükə, avtomobillər isə tıxacla qarşılaşırdı. Yeni keçidin inşası bütün bu problemləri həll etdi. Burada fiziki məhdudiyyətli insanların rahatlığını təmin etmək üçün 2 müasir lift quraşdırılıb. Bu qurğunun inşası qısa müddətə, eyni zamanda, yüksək keyfiyyətlə aparılıb. Yeni keçid müasir görünüşü ilə fərqlənir.*

*Prezident İlham Əliyevə, həmçinin məlumat verildi ki, Bakı–Quba–Rusiya Federasiyası ilə dövlət sərhədi avtomobil yolunun 7-ci kilometrliyində, Bakı Beynəlxalq Avtovağzal Kompleksi ilə metronun «Avtovağzal» stansiyası arasındakı ərazidə əsas yolun hərəkət hissəsi genişləndirilərək, zolaqların sayı 4-ə çatdırılıb. Bakı şəhərinin şimal girişində xüsusən günün pik saatlarında yaşanan tıxacların aradan qaldırılması məqsədilə icra edilən bu layihə çərçivəsində «20 Yanvar» dairəsində yolun hərəkət hissəsi 10 metrə qədər, magistral yol Bakı Beynəlxalq Avtovağzal Kompleksinin qarşısından keçən hissədə isə hər iki istiqamət üzrə 1 hərəkət zolağı enində genişləndirilibdir.*

*Avtomobil yollarında piyadaların təhlükəsizliyini təmin etmək məqsədilə hərəkətin intensiv olduğu ərazilərdə yeraltı və yerüstü piyada keçidlərinin inşasına xüsusi diqqət yetirilir. Son dövrlərdə paytaxtda bu istiqamətdə görülən işlərə nəzər salsaq, bunun şahidi olarıq. Belə ki, 2018–2019-cu illərdə Bakıda və şəhərətrafı yollarda, həmçinin magistrallarda 7 yerüstü və yeraltı piyada keçidi istifadəyə verilib. 2020-ci ilin əvvəlindən indiyədək paytaxtda Heydər Əliyev prospekti ilə Zəki Məmmədov küçəsinin kəsişməsin-*

*də yeraltı piyada keçidi, Moskva prospekti ilə 20 Yanvar küçəsinin kəsişməsində və Neapol küçəsində yerüstü piyada keçidləri inşa olunub. Hazırda Azadlıq prospekti, Qala–Pirallahı, Mərdəkan–Buzovna, Bakı–Sumqayıt yollarında və digər ərazilərdə piyada keçidlərinin inşası yekunlaşmaq üzrədir. Bundan başqa, bir neçə yerdə belə qurğuların tikintisi davam etdirilir.*

*Azərbaycan Prezidenti İlham Əliyev görülən işlərlə bağlı tapşırıq və göstərişlərini verdi.*

**CİBUTİ RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB İSMAİL ÖMƏR GELLEYƏ**

Hörmətli cənab Prezident!

Dost Cibuti Respublikasının milli bayramı – Müstəqillik Günü münasibətilə Sizi və xalqınızı öz adımdan və Azərbaycan xalqı adından səmimi-qəlbdən təbrik edirəm.

Xoş ənənəyə və qarşılıqlı hörmətə əsaslanan Azərbaycan–Cibuti münasibətlərinin bugünkü səviyyəsi məmnunluq doğurur. Əminəm ki, İslam Əməkdaşlıq Təşkilatı, «Qoşulmama Hərəkatı» kimi beynəlxalq platformalarda mövcud olan faydalı əməkdaşlığımız bundan sonra da uğurla davam edəcəkdir.

Fürsətdən istifadə edərək, Sizə möhkəm cansağlığı, işlərinizdə müvəffəqiyyətlər, dost Cibuti xalqına əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *24 iyun 2020-ci il*

## QEYDLƏR

**1. Rusiya,** R u s i y a F e d e r a s i y a s ı – Avropanın şərqində, Asiyanın şimalında dövlət. Sahəsi 17,125 milyon km², əhalisi 146,5 milyon nəfərdir. Rusiya Federasiyasına 22 respublika, 9 diyar, 46 vilayət, federal əhəmiyyətli Moskva və Sankt-Peterburq şəhərləri, 4 muxtar vilayət və mahal daxildir.

Dövlət başçısı Prezident, qanunverici orqanı ikipalatalı Dövlət Duması və Federasiya Şurasıdır. Paytaxtı Moskva şəhəridir. – 5–34, 37, 38–54, 105, 174, 203, 219, 262–263, 318.

**2. İkinci dünya müharibəsi** (1939–1945) – Almaniya, İtaliya və Yaponiya tərəfindən başlanılmış böyük müharibə. İkinci dünya müharibəsi 1939-cu il sentyabrın 1-də Almaniyanın Polşaya girməsi ilə başlandı. Sentyabrın 3-də Böyük Britaniya və Fransa Almaniyaya müharibə elan etdi. 1940-cı ilin ortalarından alman qoşunları Danimarka, Norveç, Belçika, Niderland, Lüksemburq, sonra isə Fransanı işğal etdi.

1941-ci il iyunun 22-də Almaniya SSRİ-yə qarşı müharibəyə başladı. 1942–43-cü illərdə sovet ordusunun Stalinqrad və Kursk vuruşmalarında qələbəsi Almaniyanı qəti surətdə sarsıtdı.

1945-ci il mayın 2-də sovet ordusu Berlini tutdu. Mayın 8-də Karlsxorstda (Berlin yaxınlığında) Al-

maniyanın danışıqsız təslim olması haqqında akt imzalandı.

Yaponiyanın təslim olması haqqında sənəd isə sentyabrın 2-də imzalandı. Bununla da İkinci dünya müharibəsi qurtardı. İkinci dünya müharibəsində 62 ölkə iştirak etmişdi. Müharibədə iştirak edən ölkələrin silahlı qüvvələrinə 110 milyon adam çağırılmışdı. Müharibədə 62 milyon adam həlak olmuş, minlərlə şəhər, qəsəbə və kənd dağıdılmışdı. – 5–34, 35–36, 37, 38–54.

**3. Mixail Qusman** (d.1950) – jurnalist. TASS İnformasiya Agentliyi baş direktorunun birinci müavini. Rusiya Federasiyası Dövlət mükafatı laureatıdır. Azərbaycan Respublikasının «Şöhrət», «Şərəf» və «Dostluq» ordenləri ilə təltif edilmişdir. – 5–34.

**4. Qələbə Günü –** 1945-ci il 9 may. 1945-ci il mayın 8-dən 9-a keçən gecə alman generalı Vilhelm Keytel danışıqsız təslim aktını imzalamış, bununla da faşizm üzərində qələbə qazanılmışdır. Qələbə Günü postsovet ölkələri və İkinci dünya müharibəsində iştirak etmiş digər dövlətlərdə də qeyd olunur. – 5–34.

**5. Almaniya,** Almaniya Federativ Respublikası – Mərkəzi Avropada dövlət. Sahəsi 357 min $km^2$, əhalisi 83 milyon nəfərdir. AFR tərkibində 16 ərazisi olan federasiyadır. Dövlət başçısı Prezident, hökumət başçısı Federal Kanslerdir. Ali qanunverici hakimiyyət orqanı parlamentdən – Bun-

destaq və Bundesratdan ibarətdir. Paytaxtı Berlin şəhəridir. – 5–9, 217.

**6. Vladimir Putin** (d.1952) – 2000–2008-ci illərdə Rusiya Federasiyasının Prezidenti olmuşdur. 1975–97-ci illərdə bir sıra məsul vəzifələrdə çalışmışdır. 1998-ci ildə Rusiya Federasiyası Prezidenti Administrasiyasının rəhbəri, 1998–99-cu illərdə FTX-nin direktoru, 1999–2000 və 2008–2012-ci illərdə Rusiya hökumətinin başçısı, 2012 və 2018-ci ildə isə yenidən Rusiya Federasiyasının Prezidenti seçilmişdir. – 8, 22, 37, 42, 54, 105, 262–263.

**7. Heydər Əliyev,** H e y d ə r Ə l i r z a o ğ l u (1923–2003) – Müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, xalqımızın ümummilli lideri, görkəmli dövlət xadimi, Azərbaycan Respublikasının Prezidenti (1993–2003), 2 dəfə Sosialist Əməyi Qəhrəmanı.

1964-cü ildə Azərbaycan SSR Nazirlər Soveti yanında Dövlət Təhlükəsizlik Komitəsi sədrinin müavini, 1967-ci ildə isə sədri vəzifəsinə irəli çəkilmişdir.

Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin iyul (1969) plenumunda Heydər Əliyev MK-nın Büro üzvü, Azərbaycan KP MK-nın Birinci katibi seçilmişdir.

H.Əliyevin respublikaya rəhbərlik etdiyi ilk illərdən əhatəli iqtisadi konsepsiya hazırlanmış, yeni istehsal sahələri yaradılmış, Azərbaycanın iqtisadi potensialı güclənmişdir. H.Əliyevin respublikaya bilavasitə rəhbərlik etdiyi dövrdə (1969–82-ci illər) idarəetmə mexanizminin və metodlarının təkmilləşdirilməsi, əmək və

ictimai-siyasi fəallığın artırılması, kənd təsərrüfatının inkişafında yüksək göstəricilər əldə edilməsi, azərbaycançılıq məfkurəsinin, milli ruhun, milli özünüdərkin yüksəlişi, müstəqil dövlətçilik ideyalarının güclənməsi və reallaşması üçün dəyərli işlər görülmüşdür.

H.Əliyev 1971-ci ildə Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin üzvü, 1976-cı ilin martında Sov.İKP MK Siyasi Bürosu üzvlüyünə namizəd, 1982-ci ilin noyabrında isə Siyasi Büro üzvü seçilmiş və eyni zamanda, SSRİ Nazirlər Soveti Sədrinin Birinci müavini təyin edilmişdir.

H.Əliyev Moskvada işlədiyi dövrdə də həmişə Azərbaycanı düşünmüş, onun taleyi ilə yaşamış, doğma respublikanın dünyada tanıdılması üçün əlindən gələni etmişdir.

H.Əliyev 1990-cı ilin 20 yanvarında sovet qoşunlarının Bakıda törətdiyi qanlı faciəni qətiyyətlə pisləmiş və Azərbaycanın Moskvadakı nümayəndəliyində kəskin bəyanatla çıxış etmişdir.

H.Əliyev 1990-cı ilin iyulunda Azərbaycana qayıtmış, əvvəlcə Bakıda, sonra isə Naxçıvanda yaşamışdır. O, 1991–93-cü illərdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri, Azərbaycan Respublikası Ali Sovetinin Sədr müavini olmuş, Ali Sovetin sessiyalarında fəal iştirak etmiş, Azərbaycanda mövcud ictimai-siyasi vəziyyəti həmişə obyektiv təhlil etmiş, mühüm prinsipial fikirlər söyləmiş, Dağlıq Qarabağ münaqişəsinin səbəblərini aşkara çıxarmış və təqsirkarların dəqiq ünvanını göstərmişdir. 1993-cü ilin may–iyununda dövlət böhranının, hakimiyyətsizliyin,

başıpozuqluğun kulminasiya nöqtəsinə çatması ilə ölkədə vətəndaş müharibəsi və müstəqilliyin itirilməsi təhlükəsi yarandıqda Azərbaycan xalqı H.Əliyevin hakimiyyətə gətirilməsi tələbi ilə ayağa qalxdı və Azərbaycanın ozamankı dövlət rəhbərliyi onu rəsmən Bakıya dəvət etməyə məcbur oldu. H.Əliyev iyunun 15-də Azərbaycan Ali Sovetinin Sədri seçildi, iyulun 24-də Milli Məclisin qərarı ilə Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirməyə başladı.

1993-cü il oktyabrın 3-də ümumxalq səsverməsi nəticəsində H.Əliyev Azərbaycan Respublikasının Prezidenti seçildi. H.Əliyevin Azərbaycan rəhbərliyinə qayıdışı ilə ölkənin ictimai-siyasi, sosial, iqtisadi, elmi-mədəni həyatında böyük dönüş oldu, beynəlxalq norma və prinsiplərə uyğun müstəqil dövlət quruculuğu prosesi başlandı. Dövlətimizin xarici siyasəti, eləcə də dünyanın aparıcı dövlətləri və beynəlxalq təşkilatları ilə əlaqələri milli maraqlara əsaslanan xətlə inkişaf etməyə başladı. Dağlıq Qarabağ münaqişəsinin həllində ilk mərhələ kimi, cəbhə xəttində atəşkəs elan edilməsinə nail olundu. H.Əliyevin fəal diplomatiyası nəticəsində ATƏT-in Lissabon Sammitində (1996) bu beynəlxalq təşkilatın 54 üzvündən 53-ü (Ermənistandan başqa) Dağlıq Qarabağ probleminin həllində Azərbaycanın mənafeyinə uyğun prinsipləri açıq şəkildə müdafiə etdi.

1994-cü ilin sentyabrında Bakıda dünyanın aparıcı neft şirkətləri ilə «Əsrin müqaviləsi» adı almış mühüm müqavilələr bağlandı.

1999-cu ilin aprelində GUÖAM birliyinin geniş bir məkanda yaranmasında H.Əliyevin önəmli xidməti olmuşdur.

H.Əliyevin «İnsan hüquq və azadlıqlarının təmin edilməsi haqqında» fərmanı Azərbaycanın dünyaya və Avropaya inteqrasiyası prosesinin sürətləndirilməsinə geniş imkanlar yaratdı. Məhz bunun nəticəsində Azərbaycan 1996-cı ilin iyunundan Avropa Şurasına «Xüsusi qonaq» statusu almış, 2001-ci il yanvarın 25-də isə onun tamhüquqlu üzvü olmuşdur.

H.Əliyev 1998-ci il oktyabrın 11-də xalqın yüksək siyasi fəallığı şəraitində keçirilən seçkilərdə yekdilliklə yenidən Prezident seçildi.

H.Əliyev bir sıra beynəlxalq mükafatlara, o cümlədən Beynəlxalq Atatürk Sülh Mükafatına, müxtəlif ölkə universitetlərinin Fəxri doktoru və digər yüksək nüfuzlu fəxri adlara layiq görülmüşdür. – 8, 9, 40, 41, 55–57, 58–60, 72, 81, 135, 148, 176, 178, 179, 207, 233.

**8. Müstəqil Dövlətlər Birliyi** (MDB) – 1991-ci il dekabrın 8-də Belorusiya, Rusiya və Ukrayna dövlət başçılarının imzaladıqları saziş əsasında SSRİ dağıldıqdan sonra yeni dövlətlərarası birlik kimi yaradılmışdır. Azərbaycan 1993-cü ilin sentyabrında MDB-yə daxil olmuşdur. Tərkibinə Azərbaycan, Belarus, Ermənistan, Qazaxıstan, Qırğızıstan, Moldova, Özbəkistan, Rusiya, Tacikistan, Türkmənistan daxildir. MDB-nin 1993-cü ildə qəbul edilmiş Nizamnaməsində aşağıdakı birgə fəaliyyət sahələri nəzərdə tutulur: insan hüquq və azadlıqlarının tə-

min edilməsi; xarici siyasi fəaliyyətin əlaqələndirilməsi; ümumi iqtisadi məkanın formalaşdırılmasında, nəqliyyat sisteminin və rabitənin inkişafında əməkdaşlıq; əhalinin sağlamlığının və ətraf mühitin mühafizəsi; sosial və mühacirət məsələləri, mütəşəkkil cinayətkarlıqla mübarizə; müdafiə siyasətində və sərhədlərin qorunmasında əməkdaşlıq.

MDB-nin orqanları aşağıdakılardır: Dövlət başçıları Şurası; Hökumət başçıları Şurası; Xarici İşlər nazirləri Şurası; Dövlətlərarası iqtisadi Şura; Mərkəzi Sankt-Peterburq şəhərində olan Parlamentlərarası Assambleya və s. MDB-nin daimi fəaliyyət göstərən orqanı Minsk şəhərində yerləşən Əlaqələndirmə Məsləhət Komitəsidir. – 10, 11, 27, 42, 43, 114, 138, 142, 206.

**9. «Qoşulmama Hərəkatı»** – özlərini hər bir bloka tərəfdar olmadığını bildirmiş 120 dövlətin üzv olduğu digər 17 ölkənin və 10 beynəlxalq təşkilatın müşahidəçi statusunda birləşdikləri blok. 1961-ci ildə yaradılmışdır. Mənzil-qərargahı Cakartadadır (İndoneziya). Azərbaycan Respublikası 25–26 oktyabr 2019-cu il tarixində Bakı şəhərində hərəkatın 18-ci dövlət və hökumət başçılarının Zirvə görüşünə ev sahibliyi etmişdir. Bakı Sammiti ilə hərəkatda sədrlik 2019–2022-ci illər üzrə Azərbaycan Respublikasına keçmişdir. – 12, 27, 28, 45, 84, 91, 135, 174, 194, 219, 274, 275, 322, 334.

**10. Misir,** M i s i r  Ə r ə b  R e s p u b l i k a s ı – Afrikanın şimal-şərqində və Asiyanın Sinay yarım-

adasında dövlət. Sahəsi 1 milyon km$^2$, əhalisi 100 milyon nəfərdir. Dövlət başçısı Prezident, qanunverici orqanı birpalatalı Xalq Məclisidir. Paytaxtı Qahirə şəhəridir. – 12, 14.

**11. Hindistan,** Hindistan Respublikası – Cənubi Asiyada dövlət. Sahəsi 3,3 milyon km$^2$, əhalisi 1 milyard 330 milyon nəfərdir. Hindistan inzibati cəhətdən 22 ştata və 7 müttəfiq əraziyə bölünür. Dövlət başçısı Prezident, qanunverici orqanı ikipalatalı parlamentdir. Paytaxtı Nyu-Dehli şəhəridir. – 12, 14.

**12. İran,** İran İslam Respublikası – Cənub-Qərbi Asiyada dövlət. Sahəsi 1,65 milyon km$^2$, əhalisi 81 milyon nəfərdir. İnzibati cəhətdən 24 ostana bölünür. Ali qanunverici orqanı 4 il müddətinə seçilən Xalq Şurası Məclisidir. Hökuməti Baş Nazir təşkil, Prezident isə təsdiq edir. Paytaxtı Tehran şəhəridir. – 12.

**13. Birləşmiş Millətlər Təşkilatı** (BMT) – müasir dünyanın ən nüfuzlu beynəlxalq təşkilatı. Qərargahı Nyu Yorkda yerləşir. Əsas vəzifəsi beynəlxalq sülhü və təhlükəsizliyi qorumaq və möhkəmlətmək, dövlətlər arasında əməkdaşlığı inkişaf etdirməkdir. BMT-nin Nizamnaməsi 1945-ci il iyulun 26-da San Fransisko Konfransında 50 dövlətin nümayəndəsi tərəfindən imzalanıb və 1945-ci il oktyabrın 24-də qüvvəyə minib. Hazırda BMT-yə 193 dövlət daxildir.

BMT-nin əsas orqanları Baş Məclis, Təhlükəsizlik Şurası, İqtisadi və İctimai Şura, Qəyyumluq Şurası, Beynəlxalq Məhkəmə və Katiblikdir. Azərbaycan Respublikası 1992-ci ildən BMT-nin üzvüdür.

Dövlətimizin apardığı uğurlu xarici siyasət nəticəsində Azərbaycan 2011-ci ilin oktyabr ayında BMT Təhlükəsizlik Surasına qeyri-daimi üzv qəbul olunmuşdur. – 14, 27, 45, 49.

**14. Antonio Quterreş** (d.1949) – Portuqaliyanın dövlət xadimi. 1995–2002-ci illərdə Portuqaliyanın Baş Naziri, 1999–2005-ci illərdə Sosialist İnternasionalının sədri, 2005–2015-ci illərdə BMT-də Qaçqınların İşi üzrə baş komissar olmuşdur. 2017-ci ildən BMT-nin Baş katibidir. – 14.

**15. Avropa Komissiyası** (AK) – Avropa İttifaqının (Aİ) dövlət strukturundan üstün siyasi institutlarından biri, ümumi idarəetmə orqanı. 1958-ci ildə Avropa iqtisadi inteqrasiya təşkilatları çərçivəsində yaradılmışdır.

Komissiya Avropa komissarlarından, sədrdən, sədrin 2 müavinindən və üzvlərdən ibarətdir. Avropa İttifaqına hər bir  üzv dövlət Avropa Komissiyasında 1 yerə malikdir.

Avropa Komissiyasının hazırladığı aktların və qərarların layihələri kitab formasında dərc olunur və geniş müzakirəyə təqdim edilir. Avropa Komissiyası Avropa İttifaqının büdcə layihəsini hazırlayır və onun yerinə yetirilməsini təmin edir. – 14.

**16. Avropa İttifaqı** (Aİ) – Avropa dövlətlərinin ən iri inteqrasiya birliyi. Avropa İttifaqına 27 dövlət daxildir.

Avropa İttifaqının yaradılması haqqında müqavilə 1993-cü ildə Maastrixtdə imzalanmışdır. Aİ azadlıq, demokratiya, insan hüquqları və azadlıqlarına hörmət, həmçinin hüququn aliliyi prinsiplərinə – üzv dövlətlər üçün ümumi olan prinsiplərə əsaslanır.

Aİ Avropada iqtisadi inteqrasiyanın daha da inkişaf etmiş formasıdır. İqtisadi və valyuta ittifaqı 1999-cu ildən fəaliyyətə başlamış və vahid valyuta – avro dövriyyəyə buraxılmışdır. Aİ üzvləri yalnız Avropa dövlətləri ola bilər. Avropa İttifaqı ilə əməkdaşlıq Azərbaycan Respublikasının xarici siyasətinin əsas istiqamətlərindəndir. Təşkilatın mənzil-qərargahı Brüsseldə yerləşir. – 14, 91, 174, 274, 316–317, 321, 328.

**17. Ümumdünya Səhiyyə Təşkilatı** (ÜST) – BMT-yə məxsus beynəlxalq dövlətlərarası təşkilat. 1946-cı ildə yaradılmışdır. Cenevrədə fəaliyyət göstərir. Nizamnaməsinə görə vəzifəsi təhlükəli xəstəliklərlə mübarizə, beynəlxalq sanitariya qaydalarının hazırlanması və s. Təşkilatın Azərbaycandakı proqramlarının yerinə yetirilməsinə kömək göstərmək məqsədilə 1994-cü ilin iyun ayında Bakı şəhərində Ümumdünya Səhiyyə Təşkilatının Azərbaycan Respublikasındakı nümayəndəliyi yaradılıb. – 14, 15, 16, 28, 70, 75, 142, 190, 194, 195, 268, 275, 276, 324.

**18. COVID-19** – koronavirus pandemiyası. 2019-cu ilin ortalarında Çinin mərkəzi Hubey əyalətinin Uhan şəhərində yerli sakinlərdə naməlum mənşəli virusun yayılması ilə başlanan xəstəlik. – 15, 89, 124, 140, 141, 189, 192, 193, 253, 254, 264, 274, 277, 309, 323, 324, 330.

**19. ATƏT –** Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı. 57 üzv, 11 əməkdaşlıq üzrə tərəfdaş dövlətlə dünyanın ən böyük regional təşkilatıdır. Əsası 1973-cü ilin iyulunda Helsinkidə qoyulmuşdur. Burada Avropanın 33 dövlətinin, ABŞ və Kanadanın dövlət və hökumət rəhbərləri iştirak edir. ATƏT «soyuq müharibə»nin qurtarmasından sonra Ümumavropa təhlükəsizlik sistemini formalaşdıran, yeni Avropanın siyasi və iqtisadi həyatının sivil birgəyaşayış qaydalarını müəyyən edən, dövlətlərarası münasibətləri rəqiblik və münaqişə yolundan əməkdaşlıq və qarşılıqlı mənafe istiqamətlərinə yönəldən bir təşkilat funksiyasını icra edir.

Azərbaycan 1992-ci ildən ATƏT-in üzvüdür və 1993-cü ilin ikinci yarısından ATƏT-in zirvə görüşlərində Azərbaycan nümayəndə heyəti fəal iştirak edir. – 27, 49, 322.

**20. Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurası** (BMTTŞ) – BMT-nin daimi fəaliyyət göstərən mühüm orqanı. BMT Nizamnaməsinə görə, beynəlxalq sülhün və təhlükəsizliyin qorunmasında əsas məsuliyyət daşıyır. 15 üzvü var: 5 daimi (Çin, Fransa, Rusiya, Böyük Britaniya, ABŞ), 10 üzvü isə 2 il

müddətinə seçilir. Şuranın hər bir üzvü 1 səsə malikdir. Prosedura məsələlərinə dair qərarlar Şuranın 9 üzvü səs verdikdə qəbul olunmuş sayılır. – 29, 45, 121, 322.

**21. Həzi Aslanov,** H ə z i Ə h ə d o ğ l u (1910–1945) – tank qoşunları qvardiya general-mayoru, 2 dəfə Sovet İttifaqı Qəhrəmanı. İkinci dünya müharibəsinin ilk günlərindən döyüşlərdə iştirak edən Həzi Aslanov Stalinqrad vuruşmasında feldmarşal Manşteynin tank ordusunun darmadağın edilməsində xüsusi məharət göstərmişdir. 1944-cü ildə Həzi Aslanovun 35-ci qvardiya tank briqadası Belorusiyanı, Pribaltika respublikalarını azad etmək uğrundakı vuruşmalarda xüsusilə fərqlənmişdi. 1945-ci il yanvarın 24-də Latviyanın Liepay şəhəri yaxınlığındakı vuruşmada qəhrəmancasına həlak olmuşdur. – 35–36.

**22. Mehriban Əliyeva,** M e h r i b a n A r i f q ı z ı (d.1964) – ictimai və siyasi xadim, fəlsəfə doktoru, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Prezident İlham Əliyevin həyat yoldaşı. 1988-ci ildə M.Seçenov adına 1-ci Moskva Dövlət Tibb İnstitutunu bitirmişdir. 1988–92-ci illərdə akademik M.Krasnovun rəhbərliyi altında Moskva Elmi-Tədqiqat Göz Xəstəlikləri İnstitutunda işləmişdir. 1995-ci ildə «Azərbaycan Mədəniyyətinin Dostları» xeyriyyə fondunu yaratmışdır. Fəaliyyətə başladığı ilk gündən fond milli mədəniyyətimizin inkişafı, təbliği, tanınması üçün xeyli işlər görmüşdür. 1996-cı ildə fond Azərbaycan mədəniyyətini xarici

ölkələrdə geniş təbliğ etmək üçün 3 dildə – Azərbaycan, rus və ingilis dillərində çıxan «Azərbaycan–İrs» jurnalını təsis etmişdir. 2004-cü ildən Azərbaycan xalqının ümummilli liderinin zəngin irsinin öyrənilməsi, həmçinin Heydər Əliyevin milli dövlətçilik ideyalarını yeni nəsillərə aşılamaq məqsədilə yaradılmış Heydər Əliyev Fonduna başçılıq edir.

Mehriban Əliyevanın təşəbbüsü ilə Heydər Əliyev Fondu respublikanın bir çox şəhər, rayon və kəndlərində yeni məktəb binaları tikdirmiş və təmir etdirmişdir. Onun keçirdiyi xeyriyyə aksiyaları şəkər, talassemiya və anemiya xəstəliklərindən əziyyət çəkən Azərbaycan uşaqlarına yardım məqsədilə təşkil olunur.

Azərbaycanın şifahi xalq yaradıcılığı və musiqi irsinin qorunub saxlanılması və inkişaf etdirilməsi sahəsindəki yorulmaz işlərinə görə UNESKO və İSESKO-nun Xoşməramlı səfiri seçilmişdir.

Yeni Azərbaycan Partiyası Siyasi Şurasının üzvü, 2005–2017-ci illərdə isə Milli Məclisin üzvü olmuşdur. Mehriban Əliyeva ölkəmizdə təhsil sisteminin inkişafına, milli mədəni irsimizin qorunub saxlanılmasına və dünyada təbliğinə, xarici ölkələrdə xalqımızın müsbət imicinin möhkəmlənməsinə, genişmiqyaslı xeyriyyəçilik işlərinə xüsusi diqqət yetirir. 2015-ci ildə Bakıda keçirilmiş ilk Avropa oyunlarının Təşkilat Komitəsinin sədri olmuş, oyunların yüksək səviyyədə keçirilməsində müstəsna xidmətlərinə görə «Heydər Əliyev» ordeni ilə təltif edilmişdir. – 35, 55, 58, 59, 61, 62, 72, 73, 106, 147, 148, 149, 152, 153, 155, 157, 164–170, 185, 186, 264, 277, 278, 283.

**23. Yusif Məmmədəliyev,** Yusif Heydər oğlu (1905–1961) – görkəmli kimyaçı alim. Azərbaycan EA-nın akademiki, SSRİ EA-nın müxbir üzvü, SSRİ Dövlət mükafatı laureatı. Əsas elmi işləri neftin və neft qazlarının katalitik emalı sahəsindədir. O, benzolu propilenlə alkilləşdirmək yolu ilə izopropilbenzolun sintezi yolunu işləyib hazırlamış, bu da İkinci dünya müharibəsində aviasiyanın yüksəkoktanlı yanacaqla təmin edilməsinə kömək etmişdir. 1947–50-ci və 1958–61-ci illərdə Azərbaycan EA-nın prezidenti olmuşdur. – 39.

**24. Sergey Şoyqu** (d.1955) – Rusiyanın dövlət xadimi, ordu generalı. 1994–2012-ci illərdə Rusiya Federasiyası Mülki Müdafiə və Fövqəladə Hallar naziri olmuşdur. 2012-ci ildən Rusiya Federasiyasının Müdafiə naziridir. – 43.

**25. Dağlıq Qarabağ Muxtar Vilayəti** – Azərbaycan Respublikası ərazisində muxtar vilayət. 1923-cü il iyulun 7-də təşkil edilmişdir. Dağlıq Qarabağda 1988-ci ilə qədər 170 min əhali yaşayırdı. Sahəsi 4,4 min $km^2$-dir. Mərkəzi Xankəndidir.

1988-ci ildən muxtar vilayətin erməni separatçıları və millətçiləri Ermənistan silahlı qüvvələri ilə birlikdə bu ərazidə yaşayan azərbaycanlıları doğma torpaqlarından çıxararaq, Dağlıq Qarabağın işğalına başladılar. Dağlıq Qarabağın və ətraf rayonların işğaldan azad edilməsi üçün BMT-nin 822, 853, 874, 884 saylı qətnamələri olmasına baxmaya-

raq, Ermənistan silahlı qüvvələri hələ də Azərbaycan torpaqlarını işğal altında saxlayır. – 44, 45, 46, 81, 173, 174, 175, 176, 218, 222, 223, 224, 316, 322.

**26. İbrahim xan,** İ b r a h i m x ə l i l x a n (1732–1806) – Qarabağ xanı. İbrahimxəlil xan dövründə Qarabağ xanlığı inkişaf etmiş, Şuşada elm, mədəniyyət və incəsənət işçilərindən ibarət ziyalı sinfi yarandı. 1806-cı ildə İbrahim xan Şuşa yaxınlığında ailəsi ilə birlikdə rus mayoru Lisaneviçin dəstəsi tərəfindən qətlə yetirilmişdir. – 44.

**27. Pavel Sisianov** (1754–1806) – gürcü əsilli rus generalı. Rusiyanın Qafqazdakı canişini. Azərbaycanın Şamaxı, Şəki, Qarabağ xanlıqlarını işğal etmişdir. 1804-cü ildə Gəncə xanlığını işğal edərək Cavad xanı qətlə yetirmişdir. 1806-cı ildə Bakı yaxınlığında Aslan bəy tərəfindən haqlı olaraq öldürülmüşdür. – 44.

**28. Kürəkçay sazişi** – Qarabağ və Şəki xanlıqlarının Rusiya tərəfinə zorən keçirilməsi barədə müqavilə. – 44.

**29. Gülüstan sülh müqaviləsi** – 1813-cü il 12 oktyabrda Rusiya imperiyası ilə Qacarlar (İran) arasında imzalanmış və Araz çayının şimalındakı torpaqlar İrandan ayrılmışdır. Bu müqavilənin nəticəsi olaraq, Cənubi Qafqazın əksər hissəsi Rusiya İmperiyasının hakimiyyəti altına keçdi. Gülüstan sülh müqaviləsi ilə tarixi Azərbaycan torpaqları iki döv-

lət arasında bölüşdürüldü. Bu müqavilə Azərbaycanın Rusiya–İran arasında bölüşdürülməsinin birinci mərhələsi idi. – 44.

**30. Türkmənçay sülh müqaviləsi** – Qacarlar imperiyası ilə Rusiya imperiyası arasında imzalanan və ikinci Rusiya və İran müharibəsini bitirən müqavilə. 1828-ci il 10 fevralda Təbriz yaxınlığında Türkmənçay kəndində imzalanmışdır. Bu müqaviləyə əsasən, Gülüstan müqaviləsində Rusiyaya keçən ərazilərdən başqa, İran İrəvan, Naxçıvan və Talış xanlığının qalan hissəsinin də Rusiya imperiyasının ərazisi olduğunu qəbul edirdi. İki imperiya arasında sərhəd kimi Araz çayı qəbul edilirdi. Gülüstan və Türkmənçay müqavilələrinin imzalanması ilə Rusiya Cənubi Qafqaz və Şimali Qafqazın bir hissəsinin işğalını sonlandırdı. – 44.

**31. Azərbaycan Xalq Cümhuriyyəti** – Müsəlman Şərqində ilk dəfə dünyəvi, demokratik respublikanın əsasını qoymuş müstəqil Azərbaycan dövləti. Cəmi 23 ay (1918-ci il mayın 28-də yaradılmış, 1920-ci il aprelin 28-də bolşeviklərin və daşnakların səyi ilə devrilmişdir) yaşamışdır. Paytaxtı əvvəlcə Gəncə (1918, 16 iyun – 17 sentyabr), sonra Bakı şəhəri (1918, 17 sentyabr–1920, 28 aprel) idi. Azərbaycan hökuməti yeni suveren milli dövlətin müxtəlif problemlərinin həlli yollarında böyük əzmlə çalışırdı. Nazirlər Şurasının 27 iyun 1918-ci il tarixli Fərmanı ilə respublikada dövlət dili türk (Azərbaycan) dili elan edildi. Azərbaycan Respublikasının

parlamenti 1919-cu il avqustun 11-də «Azərbaycan vətəndaşlığı haqqında» Qanun qəbul etdi. Xalq maarifi sahəsində qısa müddətdə böyük tədbirlər həyata keçirildi. Qori müəllimlər seminariyasının Azərbaycan şöbəsi Qazaxa köçürüldü, Bakı Dövlət Universiteti təsis edildi, xarici ölkələrdə kadr hazırlığı məqsədi ilə 1919–20-ci tədris ilində 100 gənc Avropanın müxtəlif təhsil müəssisələrinə göndərildi. Məktəblərin xeyli hissəsi milliləşdirildi, kitabxanalar açıldı, savadsızlığın ləğvi üçün kəndlərdə kurslar yaradıldı. Azərbaycan Xalq Cümhuriyyətinin dövlət rəmzləri (üçrəngli bayraq, gerb, himn) milli Azərbaycan rəmzləri kimi tanındı. Azərbaycan Dövlət Bankı yaradıldı, 1918-ci ilin martında dağıdılmış neft sənayesi və Bakı–Batum neft kəməri bərpa edildi. – 44, 91, 159, 161–163, 181, 182, 207.

**32. Helsinki Yekun Aktı –** 1975-ci il avqustun 1-də Finlandiyanın paytaxtı Helsinkidə Avropanın 33 dövlətinin, ABŞ və Kanadanın dövlət və hökumət başçılarının müşavirəsi olmuşdur. Onlar Avropada təhlükəsizlik və əməkdaşlıq haqqında Zirvə aktını imzalamışlar. Azərbaycan Respublikası bu aktı 1992-ci ildə imzalamışdır. – 45.

**33. İslam Əməkdaşlıq Təşkilatı** (İƏT) – 1969–2011-ci illərdə İslam Konfransı Təşkilatı adlanırdı. Müsəlman ölkələrinin çoxunu birləşdirir. Nizamnaməsinə görə İslam Əməkdaşlıq Təşkilatının fəaliyyəti müsəlmanların həmrəyliyinin möhkəmlənməsinə, üzv dövlətlər arasında əməkdaşlığa yönəlmişdir. İqamətgahı Ciddə-

də yerləşir. Azərbaycan 1991-ci ildən İƏT-in üzvüdür. – 45, 175, 219.

**34. Avropa Parlamenti** – Avropa İttifaqının (Aİ) fövqəlmilli institutlarından biri. 1957-ci ildə Avropa iqtisadi inteqrasiya təşkilatları çərçivəsində yaradılmışdır. Seçmək və seçilmək hüququndan Aİ vətəndaşları istifadə edir. Plenar iclasları Strasburqda, komissiyaların işi Brüsseldə keçirilir. Avropa Parlamentinin bütün çağırışlarında başlıca mövqe Avropa Xalq Partiyasına və Avropa Sosialist Partiyasına məxsusdur. Avropa Parlamenti məcburi xarakter daşımayan qərar verir. Avropa Parlamenti beynəlxalq problemlərin müzakirəsi zamanı öz səlahiyyətlərindən geniş istifadə edir, qəbul olunan qətnamələr məcburi qüvvəyə malik deyildir. Avropa Parlamenti Azərbaycan Respublikasının Milli Məclisi ilə əməkdaşlıq edir. – 46, 175, 322.

**35. ATƏT-in Parlament Assambleyası** – 317 parlamentarisi olan beynəlxalq parlament qrupu. 1990-cı ildə Parisdə yaradılmışdır. Assambleya ildə bir neçə dəfə Milli parlament deputatlarını toplayaraq, ATƏT-lə bağlı məsələləri müzakirə edir. Hər il Assambleya səs çoxluğu ilə sədr seçir, sədr əsas yığıncaqlarda iştirak edir və yığıncaqlara sədrlik edir. Assambleyanın 14 daimi əməkdaşı vardır. Mənzil-qərargahı Kopenhagendə yerləşir. – 46.

**36. ATƏT-in Minsk qrupu** – 1992-ci il martın 24-də yaradılmışdır. 1997-ci ildə Minsk qrupunun tərkibinə

aşağıdakı dövlətlər daxil olmuşdur: Azərbaycan, Ermənistan, Belarus, Almaniya, İtaliya, Rusiya, ABŞ, Fransa, Türkiyə, Danimarka və İsveç. 1994-cü ilin dekabrından Minsk qrupuna 2 sədr – Rusiya və İtaliya rəhbərlik edirdi. 1996-cı ilin dekabrından Rusiya, ABŞ və Fransa həmsədr ölkələrdir. Qrupun əsas vəzifəsi Ermənistan–Azərbaycan münaqişəsinin sülh yolu ilə aradan qaldırılmasına və Dağlıq Qarabağ probleminin dinc vasitələrlə həll edilməsinə bilavasitə kömək etməkdir. – 46, 174, 219.

**37. Amerika Birləşmiş Ştatları** (ABŞ) – Şimali Amerikada dövlət. Şimaldan Kanada, cənubdan Meksika, şərqdən Atlantik okeanı və qərbdən Sakit okeanla əhatə olunur. Sahəsi 9,5 milyon km$^2$, əhalisi 327,6 milyon nəfərdir. İnzibati cəhətdən 50 ştat və Kolumbiya federal paytaxt dairəsinə bölünür. Ali qanunvericilik orqanı ikipalatalı (Nümayəndələr Palatası və Senat) ABŞ Konqresidir. Dövlət başçısı Prezidentdir. Paytaxtı Vaşinqton şəhəridir. – 46, 91, 174, 219, 327.

**38. Fransa,** F r a n s a R e s p u b l i k a s ı – Qərbi Avropada dövlət. Sahəsi 643,8 min km$^2$, əhalisi 67 milyon nəfərdir. İnzibati cəhətdən 101 departamentə bölünür. Qanunverici orqanı iki palatadan ibarət parlamentdir. İcra hakimiyyəti Prezident və Nazirlər Şurasına məxsusdur. Paytaxtı Paris şəhəridir. – 46, 174, 219, 327.

**39. M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin Bakı filialı** – Azərbaycan Respublikası Təhsil Nazirliyinin tabeliyində olan ali təhsil müəssisəsi. Filial 2009-cu ildən fəaliyyətə başlamışdır. Universitetdə 6 ixtisas üzrə 489 tələbə təhsil alır. Tədris müəssisəsində Moskvadan ezam olunmuş tanınmış alimlərlə yanaşı, Bakı universitetlərinin yüksək hazırlıqlı alimləri də dərs deyirlər. – 51.

**40. İ.M.Seçenov adına Birinci Moskva Dövlət Tibb Universitetinin Bakı filialı** – 2015-ci ildə yaradılmışdır. Tədris rus dilindədir. Filialın tədris fəaliyyəti İ.M.Seçenov adına Birinci Moskva Dövlət Tibb Universitetinin tədris plan və proqramları əsasında həmin ali məktəbin professor-müəllim heyəti tərəfindən həyata keçirilir. Məzunlara İ.M.Seçenov adına Birinci Moskva Dövlət Tibb Universitetinin diplomu verilir. – 51.

**41. TANAP –** Trans – Anadolu qaz boru kəməri. Kəmər 2018-ci ildə istifadəyə verilmişdir. Kəmərin uzunluğu 2000 km-dir. Borudan ildə təxminən 16 milyard kubmetr qaz ötürülməsi nəzərdə tutulur. Qaz Türkiyə – Bolqarıstan və Türkiyə –Yunanıstan sərhədindən Avropa ölkələrinə nəql edilir. – 53.

**42. «Şahdəniz-2»** – Xəzər dənizində çox zəngin qaz yatağı. Burada ilk qazın hasilatına 2018-ci ildə başlanılmış, 2019-cu ildə isə 2 milyard $m^3$ qazın çıxarılması nəzərdə tutulur. *bp*-nin ən böyük layihəsidir. Bu yataqdan qazın Gürcüstan və Türkiyə ərazisi ilə Avropa

ölkələrinə nəql edilməsi üçün mövcud infrastrukturun genişləndirilməsi və yeni qaz kəmərlərinin inşa edilməsi nəzərdə tutulur. – 53.

**43. «Abşeron»** – Xəzər dənizinin Azərbaycan sektorunda zəngin qaz kondensat yatağı. Yataq «Azəri–Çıraq–Günəşli» neft yataqları blokundan cənub-qərbdə, dənizin 500 metr dərinliyində yerləşir. – 53.

**44. OPEC+** (Neft ixrac edən ölkələr təşkilatı) – 1960-cı ildə yaradılmışdır. Tərkibinə İran, Venesuela, Küveyt, Səudiyyə Ərəbistanı, Əlcəzair, Nigeriya, Ekvador, Qabon, Anqola, İraq, Konqo, Liviya, BƏƏ, Ekvatorial Qvineya daxildir. Mənzil-qərargahı Vyanada yerləşir. – 53.

**45. «Cənub Qaz Dəhlizi»** – Azərbaycanda hasil olunan enerjidaşıyıcılarını Gürcüstan və Türkiyə vasitəsilə Qərb bazarlarına nəql edir. – 53, 190, 195, 298, 299, 313, 316.

**46. Dünya İqtisadi Forumu,** D a v o s İ q t i s a d i F o r u m u – İsveçrənin kurort şəhəri Davosda keçirilən forum. Forum 1971-ci ildə yaradılmışdır. Siyasi liderlər foruma ilk dəfə 1974-cü ildə dəvət edilmişdilər. Forum bu tarixdən qısa bir müddət sonra siyasi liderlər tərəfindən tərəfsiz bir platforma olaraq, istifadə edilməyə başlanıldı. 1995-ci il yanvarın 26–30-da Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev başda olmaqla, Azərbaycan nümayəndə heyəti ilk dəfə bu forumda iştirak etmişdir. – 53, 127, 202, 286.

**47. Heydər Əliyev Fondu** – qeyri-hökumət, qeyri-kommersiya təşkilatı. Rəsmi açılışı 10 may 2004-cü ildə olmuşdur. Heydər Əliyev Fondunun prezidenti UNESKO və İSESKO-nun Xoşməramlı səfiri, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevadır.

Fondun yaradılmasında məqsəd ümummilli lider Heydər Əliyevin xatirəsinə ehtiramı ifadə etmək, Heydər Əliyev siyasi məfkurəsinin həmişəyaşar səciyyəsini əks etdirmək, Heydər Əliyevin yaratdığı milli dövlətçilik ideyalarını yeni nəsillərə daima aşılamaq olmuşdur.

Fondun prezidenti onun səlahiyyətli qanuni nümayəndəsidir. Fondun işinə bilavasitə rəhbərlik icraçı direktora aiddir. Fondun nəzdində Ekspert Şurası və digər qurumlar fəaliyyət göstərir. – 59, 148, 152–154, 164, 165, 166, 266.

**48. Leyla Əliyeva,** Leyla İlham qızı (d.1986) – «Baku» jurnalının baş redaktoru, Heydər Əliyev Fondunun vitse-prezidenti, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın böyük qızı. 2006–2008-ci illərdə Moskva Dövlət Beynəlxalq Əlaqələr İnstitutunun magistraturasında oxumuş və bu institutda oxuyan azərbaycanlı tələbələrin nümayəndəsi kimi fəaliyyət göstərmişdir. Moskvada Heydər Əliyev Fondunun filialına başçılıq edir. Azərbaycan Respublikasının «Tərəqqi» medalı ilə təltif edilmişdir. – 59.

**49. Avropa Yenidənqurma və İnkişaf Bankı –** Qərbi və Şərqi Avropa, MDB ölkələrini uzunmüddətli kreditlə təchiz edən regional dövlətlərarası bank. 1990-cı ildə yaradılmışdır. Mənzil-qərargahı Londonda yerləşir. Bankın 61 üzvü var, eləcə də Avropa İnvestisiya Bankı və Avropa İttifaqı ora daxildir. – 74.

**50. Kəlbəcər** – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. Sahəsi 1936 km$^2$, əhalisi 75 min nəfərdir. 1993-cü ildə Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmişdir. – 77–87.

**51. Şuşa** – Azərbaycan Respublikasında şəhər. Sahəsi 289 km$^2$, əhalisi 32,8 min nəfərdir. Elmi ədəbiyyatda Şuşanın əsasının XVIII əsrin 50-ci illərinin əvvəllərində Qarabağ xanı Pənahəli xan Cavanşir tərəfindən qoyulması göstərilsə də, tədqiqatlar Şuşanın qədim yaşayış məntəqəsi olduğunu qeyd edirlər. Qarabağ xanlığının mərkəzi olan Şuşa bir müddət Pənahəli xanın adı ilə Pənahabad adlandırılmışdır.

Şuşa 1813-cü il Gülüstan müqaviləsinə əsasən, Qarabağ xanlığı tərkibində Rusiyaya birləşdirildi. 1920-ci ilin martında erməni daşnaklarının Qarabağda törətdikləri qırğın nəticəsində Şuşanın bir hissəsi tamamilə yandırıldı və minlərlə günahsız insan qətlə yetirildi. Lakin iyun ayının əvvəlində müsavatçılar və türk generalı Nuru Paşa Şuşanı erməni qəsbkarlarından xilas etdi. 1923-cü il Azərbaycan MİK-nin dekretinə əsasən, Dağlıq Qarabağ Muxtar Vilayəti təşkil olunduqda Şuşa muxtar vilayətin tərkibinə daxil

edildi. 1992-ci ildə Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmişdir. – 80, 81, 180.

**52. Laçın** – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. Sahəsi 1835 $km^2$, əhalisi 73,1 min nəfərdir. 1992-ci ildə Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmişdir. – 80, 180.

**53. «Cisco»** – əsasən böyük təşkilatlar və telekommunikasiya müəssisələri üçün rabitə şəbəkə avadanlığını hazırlayıb satan transmilli amerikan kompaniyası. Dünyada yüksək texnologiyalar sahəsində ixtisaslaşan ən iri kompaniyadır. Kompaniyanın xüsusiyyətlərindən biri biznes modelində mühəndislərin kompüter şəbəkəsində çoxəhatəli sertifikasiya sisteminə yiyələnmələridir. – 88–100.

**54. Donald Tramp** (d.1946) – ABŞ-ın siyasi xadimi, ABŞ Respublikaçılar Partiyasının üzvü. 2017-ci ildən ABŞ-ın 45-ci Prezidentidir. – 91.

**55. Şahmar Mövsümov,** Şahmar Arif oğlu (d.1972) – 2006–2019-cu illərdə Dövlət Neft Fondunun icraçı direktoru olmuş, 2019-cu ildən isə Azərbaycan Respublikası Prezidenti Administrasiyasında İqtisadi məsələlər və İnnovativ inkişaf siyasəti şöbəsinin müdiridir. – 95–96, 294–295.

**56. Ramin Quluzadə,** Ramin Namiq oğlu (d.1977) – iqtisadçı. 2005–2015-ci illərdə Heydər Əliyev Fondunda fəaliyyət göstərmiş, 2015–2016-cı

illərdə Azərbaycan Respublikası Rabitə və Yüksək Texnologiyalar nazirinin birinci müavini, 2016–2017-ci illərdə isə Azərbaycan Respublikasının Rabitə və Yüksək Texnologiyalar naziri vəzifələrində çalışmışdır. 2017-ci ildən Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar naziridir. Azərbaycan Respublikasının «Tərəqqi» medalı ilə təltif edilmişdir. – 96, 294.

**57. Qazaxıstan,** Q a z a x ı s t a n R e s p u b l i k a s ı – Avrasiyanın mərkəzi hissəsində dövlət. Sahəsi 2,7 milyon $km^2$, əhalisi 18,5 milyon nəfərdir. Dövlət başçısı Prezident, qanunverici orqanı ikipalatalı parlamentdir. Paytaxtı Nur-Sultan şəhəridir. – 101.

**58. Kasım-Jomart Tokayev** (d.1953) – Qazaxıstanın dövlət və siyasi xadimi. 2013–2019-cu illərdə Qazaxıstan Senatının Sədri olmuşdur. 2019-cu ildən Qazaxıstan Respublikasının Prezidentidir. – 101.

**59. Moldova,** M o l d o v a R e s p u b l i k a s ı – Cənub-Şərqi Avropada dövlət. Sahəsi 33,8 min $km^2$, əhalisi 3,5 milyon nəfərdir. İnzibati ərazisi 40 rayona bölünür. Dövlət başçısı Prezident, qanunverici orqanı birpalatalı parlamentdir. Paytaxtı Kişinyov şəhəridir. – 102–104.

**60. İqor Dodon** (d.1975) – Moldovanın dövlət və siyasi xadimi. 2016-cı ildən Moldova Respublikasının Prezidentidir. – 102–104.

**61. Sahil Babayev,** S a h i l R a f i q o ğ l u (d.1980) – hüquq elmləri üzrə fəlsəfə doktoru, 1999– 2006-cı illərdə Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin Xarici İnvestisiyalar İdarəsinin baş mütəxəssisi vəzifəsində çalışmışdır. 2009-cu ildən İqtisadi İnkişaf Nazirliyinin Xarici İnvestisiyalar və Yardımların Əlaqələndirilməsi şöbəsinin, 2011–2014-cü illərdə isə Beynəlxalq Təşkilatlarla Əməkdaşlıq şöbəsinin müdiri olmuşdur. Azərbaycan Respublikası Prezidentinin 13 mart 2014-cü il tarixli Sərəncamı ilə Azərbaycan Respublikasının İqtisadiyyat və Sənaye nazirinin müavini, 30 yanvar 2016-cı il tarixli Sərəncamı ilə isə Azərbaycan Respublikasının İqtisadiyyat nazirinin müavini vəzifəsinə təyin edilmişdir. 2018-ci ildən Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi naziridir. – 106.

**62. İordaniya,** İ o r d a n i y a H a ş i m i l ə r K r a l l ı ğ ı – Qərbi Asiyada dövlət. Sahəsi 92,3 min km$^2$, əhalisi 10,1 milyon nəfərdir. İnzibati ərazisi 8 əyalətə bölünür. Dövlət başçısı Kral, qanunverici orqanı ikipalatalı parlamentdir. Paytaxtı Əmman şəhəridir. – 123.

**63. II Abdullah,** A b d u l l a h b i n H ü s e y n (d.1962) – 1999-cu ildən İordaniya Haşimilər Krallığının Kralıdır. – 123.

**64. Gürcüstan** – Cənubi Qafqazın mərkəzi və qərb hissəsində dövlət. Sahəsi 69,7 min km$^2$, əhalisi 3,7 milyon nəfərdir. Dövlət başçısı Prezident, qanunverici

orqanı parlamentdir. Paytaxtı Tbilisi şəhəridir. – 124, 136.

**65. Salome Zurabişvili** (d.1952) – Gürcüstanın siyasi və dövlət xadimi. 2004–2005-ci illərdə Gürcüstanın Xarici İşlər naziri olmuşdur. 2018-ci ildən Gürcüstanın Prezidentidir. – 124.

**66. Ramazan bayramı –** müsəlman aləmində orucluq bitəndən sonra keçirilən bayram. Quran oruc tutmağı islamın vacib əməllərindən biri hesab edir və günahların oruc tutmaqla bağışlanmasını təsbit edir. Bu bayram bir də ona görə əzizdir ki, Quran məhz müqəddəs Ramazan ayında nazil olmuşdur. – 136–137, 159.

**67. Pakistan,** Pakistan İslam Respublikası – Cənubi Asiyada dövlət. Sahəsi 804 min km$^2$, əhalisi 207,8 milyon nəfərdir. İnzibati cəhətdən 4 əyalətə və federal paytaxt ərazisinə bölünür. Dövlət başçısı Prezident, qanunverici orqanı ikipalatalı parlamentdir. Paytaxtı İslamabad şəhəridir. – 145, 192.

**68. Arif Alvi** (d.1949) – Pakistanın siyasi və dövlət xadimi. 2018-ci ildən Pakistan İslam Respublikasının Prezidentidir. – 145.

**69. Türkiyə,** Türkiyə Cümhuriyyəti – Qərbi Asiyada və Avropanın cənub-şərqində dövlət. Sahəsi 783,5 min km$^2$, əhalisi 80,8 milyon nəfərdir.

İnzibati cəhətdən 81 ilə (vilayətə) bölünür. Dövlət başçısı Prezident, ali qanunverici orqanı Türkiyə Böyük Millət Məclisidir. Paytaxtı Ankara şəhəridir. – 146, 319, 320, 327.

**70. Ərdoğan Rəcəb Tayyib** (d.1954) – Türkiyənin siyasi və dövlət xadimi. 1980-ci ildən siyasi fəaliyyətə başlayıb. 1994-cü ilin martında İstanbul Böyük Şəhər Bələdiyyəsinin sədri olmuşdur, Ədalət və İnkişaf Partiyasının lideridir.

2002-ci ildə keçirilən növbədənkənar seçkilər nəticəsində Ədalət və İnkişaf Partiyası təkbaşına hakimiyyətə gəlmək imkanı əldə etdi və Rəcəb Tayyib Ərdoğan TBMM-də Türkiyənin Baş Naziri, 2014-cü ilin sentyabrında və 2018-ci ilin aprelində yenidən Türkiyə Cümhuriyyətinin Prezidenti seçilmişdir. Azərbaycan Respublikasının «Heydər Əliyev» ordeni ilə təltif edilmişdir. – 146, 319.

**71. Ukrayna** – Cənub-Şərqi Avropada dövlət. Sahəsi 603,5 min $km^2$, əhalisi 42,4 milyon nəfərdir. Dövlət başçısı Prezident, qanunverici orqanı Radadır. Paytaxtı Kiyev şəhəridir. – 159–160.

**72. Vladimir Zelenski** (d.1978) – Ukraynanın dövlət xadimi, siyasətçi, rejissor, bədii direktor, aktyor. 2019-cu ildən Ukraynanın Prezidentidir. – 159–160.

**73. Cocuq Mərcanlı –** Azərbaycan Respublikasının Cəbrayıl rayonu Çaxırlı inzibati ərazi vahidində kənd. 1993-cü ildə Ermənistan silahlı qüvvələri tə-

rəfindən işğal edilmişdir. 1994-cü ilin əvvəlində kənd Azərbaycan Ordusu tərəfindən erməni işğalından azad edilmişdir. Cocuq Mərcanlı cəbhə xəttinə çox yaxın olduğuna görə əhali kəndə qayıda bilməmişdir. 2016-cı ildə Cocuq Mərcanlı kəndinə yaxın yerləşən Lələtəpə yüksəkliyi Azərbaycan Ordusu tərəfindən işğaldan azad edilmişdir. Kənd tamamilə bərpa olunmuş, azərbaycanlılar öz doğma kəndlərinə qayıtmışlar. – 173, 174.

**74. Xankəndi** – Azərbaycan Respublikasında şəhər. Dağlıq Qarabağ Muxtar Vilayətinin mərkəzi. 1991-ci ildən Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmişdir. – 177.

**75. Rövşən Rzayev,** R ö v ş ə n Ş ü k ü r o ğ l u (d.1962) – hüquqşünas. 4-cü çağırış Azərbaycan Respublikası Milli Məclisinin üzvü olmuşdur. 2018-ci ildən Azərbaycan Respublikası Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədridir. – 164.

**76. Xocalı soyqırımı** – 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Ermənistan silahlı qüvvələri və Xankəndidə yerləşən Rusiyanın 366-cı alayının əsgər və zabitləri Xocalıya hər tərəfdən hücum etmiş, şəhəri tamamilə yandırmışlar, 613 azərbaycanlı öldürülmüş, yüzlərlə şəhər sakini yaralanmış, itkin düşmüşdür. Faciəni qətliam kimi dünyanın 10-dan çox ölkəsi, həmçinin ABŞ-ın 22 ştatı tanımışdır. – 239.

**77. Bakı Dövlət Universiteti** (BDU) – Bakı Universiteti, Bakı Darülfünunu – müsəlman Şərqində ilk Avropa tipli ali məktəb və elmi-tədqiqat müəssisəsi. 1919-cu ildə Azərbaycan Xalq Cümhuriyyəti tərəfindən təsis olunmuşdur. 1922–94-cü illərdə Azərbaycan Dövlət Universiteti adı ilə fəaliyyət göstərmiş, 1994-cü ildə ilkin adı qaytarılmışdır. Universitetin yaradılmasında F.Xoyskinin, M.Ə.Rəsulzadənin, N.Yusifbəylinin böyük xidmətləri olmuşdur. Universitetin ilk rektoru V.İ.Razumovski idi.

BDU-nun 17 fakültəsi, 121 kafedrası, 37 elmi-tədqiqat və tədris laboratoriyası, 2 institutu, elmi kitabxanası, 6 muzeyi, 4 elmi-tədqiqat mərkəzi, nəşriyyatı və mətbəəsi vardır. Universitetin əyani və qiyabi şöbələrində bakalavr pilləsində 65 ixtisas, magistr pilləsində 43 ixtisas və 210 ixtisaslaşma üzrə kadr hazırlığı həyata keçirilir. Universitetdə 1300-dən artıq professor-müəllim, o cümlədən AMEA-nın 8 akademiki, 15 müxbir üzvü, 250-yədək elmlər doktoru, professor, 800-ədək elmlər namizədi, dosent fəaliyyət göstərir. – 181.

**78. Zəngilan** – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. Sahəsi 707 km$^2$, əhalisi 42 min nəfərdir. 1993-cü ildə Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmişdir. – 183.

**79. İtaliya,** İ t a l i y a R e s p u b l i k a s ı – Avropanın cənubunda dövlət. Ərazisinə Alp dağları-

nın qərb yamacları, Padan düzənliyi, Apennin yarımadası, Siciliya və Sardiniya adaları daxildir. Sahəsi 301,3 min km$^2$, əhalisi 61 milyon nəfərdir. İnzibati cəhətdən 20 vilayətə bölünür. Paytaxtı Roma şəhəridir. – 186–187.

**80. Sercio Mattarella** (d.1941) – İtaliyanın siyasi və dövlət xadimi. 2015-ci ildən İtaliya Respublikasının Prezidentidir. Azərbaycan Respublikasının «Heydər Əliyev» ordeni ilə təltif edilmişdir. – 186–187.

**81. Asiya İnkişaf Bankı** – Asiya və Sakit okean ölkələrinə uzunmüddətli kredit verən dövlətlərarası regional bank. 1966-cı ildə yaradılıb. Banka 50-yə yaxın ölkə daxildir. Ən böyük aksionerləri Yaponiya, ABŞ və Çindir. Mənzil-qərargahı Manilada yerləşir. – 188–205.

**82. Çin Xalq Respublikası** (ÇXR) – Mərkəzi və Şərqi Asiyada dövlət. Sahəsi 9,6 milyon km$^2$, əhalisi 1,4 milyard nəfərdir. İnzibati cəhətdən 22 əyalətə (Tayvansız), 5 muxtar rayona və mərkəz tabeliyində olan 3 şəhərə (Pekin, Şanxay, Tyantszin) bölünür. Ali dövlət hakimiyyəti orqanı Ümumçin Xalq Nümayəndələri Məclisidir. Dövlət başçısı Çin Xalq Respublikasının Sədridir. Paytaxtı Pekin şəhəridir. – 192.

**83. Samir Şərifov,** Samir Rauf oğlu (d.1961) – hüquqşünas. 2001–2006-cı illərdə Azərbaycan Respublikası Dövlət Neft Fondunun icraçı direktoru ol-

muşdur. 2006-cı ildən Azərbaycan Respublikasının Maliyyə naziridir. Eyni zamanda, Qara Dəniz Ticarət və İnkişaf Bankında Azərbaycan Respublikası üzrə təmsilçi direktordur. – 195–196.

**84. Avropa Şurası** (AŞ) – Avropada hökumətlərarası təşkilat. 1949-cu ildə yaradılmışdır. Avropa Şurasının əsas məqsədi Avropada sülhü və təhlükəsizliyi qorumaq, seçki sistemində çoxpartiyalılığa riayət etmək, demokratiyanı və insan hüquqlarını müdafiə etmək, möhkəmləndirmək, Avropa ölkələrinin mədəniyyətlərinin yaxınlaşmasına çalışmaq və s. ibarətdir. AŞ-ın bütün üzv dövlətləri Avropa İnsan hüquqları, demokratiya və qanunun aliliyini qorumağı nəzərdə tutan müqaviləni – insan hüquqlarının müdafiəsi haqqında Konvensiyanı imzalamışdır. Üzv dövlətlərdə yerli və regional demokratiyanın gücləndirilməsindən məsul olan Yerli və Regional Hakimiyyətlər Konqresi AŞ-ın bir təsisatıdır. 2 palata və 3 komitədən ibarətdir. AŞ-ın ali orqanları Nazirlər Komitəsi, Məsləhət Assambleyası, Sahə Nazirliklərinin Müşavirəsi və Katiblikdir. Azərbaycan 25 yanvar 2001-ci ildən Avropa Şurasının tamhüquqlu üzvüdür. Mənzil-qərargahı Strasburqda yerləşir. – 219, 220.

**85. Ağdərə** – Azərbaycan ərazisində (Dağlıq Qarabağ Muxtar Vilayəti) inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. 1993-cü ildə Ağdərə rayonunun mərkəzi və bir çox kəndləri Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmişdir. – 221.

**86. Füzuli rayonu** – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. Sahəsi 1386 $km^2$, əhalisi 125,4 min nəfərdir. 1993-cü ildə Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmişdir. – 166, 221, 239.

**87. Cəbrayıl** – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. Sahəsi 1050 $km^2$, əhalisi 76,6 min nəfərdir. 1993-cü ildə Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmişdir. – 174, 221, 239.

**88. Naxçıvan əməliyyatı** – 2018-ci il mayın 20-dən 28-nə qədər Azərbaycan və Ermənistan silahlı qüvvələri arasında baş vermiş hərbi münaqişə, Azərbaycanın Əlahiddə Ümumqoşun Ordusunun əks-hücumu zamanı Şərur rayonunun Günnüt kəndi, «Ağbulaq» yüksəkliyi, Qızılqaya və Qaraqaya dağları – ümumilikdə 11 min hektar Azərbaycan ərazisi erməni işğalından azad edilmişdir. – 221.

**89. Ağdam** – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. Sahəsi 1154 $km^2$, əhalisi 199,5 min nəfərdir. 1993-cü ildə Ağdam şəhəri və əksər kəndləri Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmişdir. – 221, 231–232, 239.

**90. Naxçıvan Muxtar Respublikası** (1920–23-cü illərdə Naxçıvan Sovet Sosialist Respublikası, 1923–24-cü illərdə Naxçıvan Muxtar Diyarı, 1924–90-cı illərdə Naxçıvan Muxtar Sovet Sosialist Respublika-

sı, 1990-cı ildən isə Naxçıvan Muxtar Respublikası) – Azərbaycan Respublikasının tərkibində muxtar dövlət. Sahəsi 5,5 min $km^2$, əhalisi 440 min nəfərdir. Hazırda 7 inzibati rayonu (Babək, Culfa, Ordubad, Sədərək, Şahbuz, Şərur, Kəngərli), 4 şəhəri (Naxçıvan, Ordubad, Culfa, Şərur), 9 qəsəbəsi, 160 kəndi vardır. – 198, 223.

**91. Saleh Məmmədov,** Saleh Ərşad oğlu (d.1958) – Əməkdar mühəndis. Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi İdarə Heyətinin sədridir. Azərbaycan Respublikasının «Tərəqqi» medalı və «Şöhrət» ordeni ilə təltif edilmişdir. – 208, 331.

**92. İnam Kərimov,** İnam İmdad oğlu (d.1977) – hüquqşünas. 2012–2018-ci illərdə Azərbaycan Respublikası Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədri olmuşdur. 2018-ci ildən Azərbaycan Respublikasının Kənd Təsərrüfatı naziridir. – 233, 236.

**93. Zəngəzur mahalı,** Zəngəzur qəzası – XIX əsrin 2-ci yarısında Azərbaycanda inzibati ərazi vahidi. 1861-ci ildə təşkil edilmişdir. Çar Rusiyası hökumətinin 1867-ci il dekabr tarixli Fərmanına əsasən yaradılmış Yelizavetpol (Gəncə) quberniyasının tərkibinə daxil edilmişdir. – 223.

**94. İrəvan –** qədim Azərbaycan şəhəri. Azərbaycan Milli Şurasının 1918-ci il 29 may tarixli Qərarı

ilə «bir siyasi mərkəz» olaraq ermənilərə güzəşt edilmiş və o dövrdə Cənubi Qafqazda yaradılmış ilk erməni dövlətinin – Ermənistan Respublikasının paytaxtına çevrilmişdi. İrəvan müxtəlif dövrlərdə Sasani dövlətinin (III–VII əsrlər), Ərəb xilafətinin (VII–IX əsrlər), Səlcuq dövlətinin (XI–XIII əsrlər), Monqol imperiyasının (XIII–XIV əsrlər), Azərbaycan Qaraqoyunlu (1410–1468), Ağqoyunlu (1468–1501), Səfəvilər (1501–1736) dövlətlərinin, Nadir şah (1736–47) imperiyasının tərkibində olmuşdur. Nadir şahın ölümündən sonra Azərbaycan torpaqlarında müstəqil dövlətlər – xanlıqlar meydana gələrkən, burada İrəvan xanlığı (1747–1828) yarandı.

Bütün tarixi dövrlərdə azərbaycanlılar İrəvan əhalisinin etnik tərkibində əsas yer tutmuşlar. Rusiyanın İrəvanı işğal etdiyi dövrdə İrəvanın 9700 nəfərlik əhalisinin 75,6%-i Azərbaycan türkləri idi. Çarizmin erməniləri İran və Türkiyədən kütləvi şəkildə Şimali Azərbaycan torpaqlarına köçürməsi nəticəsində ermənilərin sayı artmağa başladı. – 223.

**95. Zakir Həsənov,** Z a k i r Ə s g ə r o ğ l u (d.1959) – general-polkovnik. 2003–2013-cü illərdə Azərbaycan Respublikasının Daxili İşlər nazirinin müavini – Daxili Qoşunların Komandanı vəzifəsində çalışmışdır. 2013-cü ildən Azərbaycan Respublikasının Müdafiə naziridir. «Azərbaycan Bayrağı», «Rəşadət» və «Şöhrət» ordenləri ilə təltif edilmişdir. – 231.

**96. Nəcməddin Sadıkov,** N ə c m ə d d i n H ü s e y n o ğ l u (d.1956) – general-polkovnik. Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Baş Qərargah rəisi, Müdafiə nazirinin birinci müavini. Azərbaycan Respublikasının «Azərbaycan bayrağı» və «Rəşadət» ordenləri ilə təltif edilmişdir. – 231.

**97. Fuad Ələsgərov,** F u a d M u r t u z o ğ l u (d. 1959) – hüquqşünas, 1-ci dərəcəli Dövlət müşaviri. 1998–2017-ci illərdə Azərbaycan Respublikası Administrasiyasının hüquq-mühafizə orqanları ilə iş şöbəsinin müdiri, 2017-ci ildən isə hüquq-mühafizə orqanları ilə iş və hərbi məsələlər üzrə Azərbaycan Respublikası Prezidentinin köməkçisi - şöbə müdiridir. – 239–241.

**98. Ülvi Mehdiyev,** Ü l v i R a m i z o ğ l u (d. 1985) – Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədri. – 239–241.

**99. İsveç,** İ s v e ç K r a l l ı ğ ı – Şimali Avropanın Skandinaviya yarımadasında dövlət. Sahəsi 447,4 min km$^2$, əhalisi 10 milyon nəfərdir. İnzibati ərazisi 24 lenə bölünür. Dövlət başçısı Kral, qanunverici orqanı parlamentdir (Riksdaq). Paytaxtı Stokholm şəhəridir. – 260, 327.

**100. XVI Karl Qustav** (d.1946) – 1973-cü ildən İsveç Kralı. O həmçinin «Ümumdünya təbiət fondu»nun da prezidentidir. – 260.

**101. Portuqaliya,** Portuqaliya Respublikası – Cənub-Qərbi Avropanın Pireney yarımadasında dövlət. Sahəsi 92 min km$^2$, əhalisi 10,2 milyon nəfərdir. İnzibati ərazisi 18 mahala və 2 muxtar vilayətə bölünür. Dövlət başçısı Prezident, ali qanunverici orqanı birpalatalı Respublika Məclisidir. Paytaxtı Lissabon şəhəridir. – 261.

**102. Marselu Rebelu di Souza** (d.1948) – Portuqaliya siyasi və dövlət xadimi. Sabiq nazir və parlamentin üzvü, 2016-cı ildən Portuqaliya Respublikasının Prezidentidir. – 261.

**103. Azərbaycan Tibb Universiteti** – respublikada tibb mütəxəssisləri hazırlayan ali məktəb. 1919-cu ildə Bakı Universitetinin nəzdində Tibb fakültəsi, 1930-cu ildə isə həmin fakültənin əsasında müstəqil Tibb İnstitutu yaradılmışdır. Universitetin 7 fakültəsi, 75 kafedrası var, 8 minə yaxın tələbə təhsil alır. – 280, 281.

**104. «Azərenerji» –** dövlət şirkəti. Elektrik sistemləri avadanlıqlarının texniki istismarı, elektrik enerjisinin ötürülməsi, bölüşdürülməsi, generasiya güclərinin və şəbəkələrinin planlaşdırılması və inkişaf məsələlərini həll edir. – 284–287.

**105. «Microsoft»** – müxtəlif hesablama texnikası – şəxsi kompüterlər, oyun konsolları, KPK, mobil telefonlar, dünyada daha çox yayılmış platforma proqramları, Vindous əməliyyat sistemləri istehsal edən

ən böyük transmilli kompaniya. 1975-ci ildə yaradılmışdır. Texnikası 80-dən çox ölkəyə ixrac, proqramları isə 45 dilə tərcümə edilmişdir. Mənzil-qərargahı Redmondda yerləşir. – 288–297.

**106. Dünya Bankı** – BMT-nin hökumətlərarası ixtisaslaşdırılmış idarəsi. 1944-cü ildə ABŞ-da Bretton-Vuds konfransında təsis olunmuşdur. İdarə Heyəti Vaşinqtondadır. Məqsədi inkişaf etməkdə olan ölkələrin iqtisadi və sosial dirçəlişinə kömək etməkdir. Səhmdar cəmiyyəti formasındadır və iştirakçıları yalnız Beynəlxalq Valyuta Fondunun üzvləridir. Banka 188 dövlət daxildir. 1992-ci ildən Azərbaycan Respublikası Dünya Bankının üzvüdür. – 298–315.

**107. Elman Rüstəmov,** E l m a n S i r a c o ğ l u (d.1952) – iqtisadçı, iqtisad elmləri doktoru. 1995-ci ildən Azərbaycan Respublikası Mərkəzi Bankının İdarə Heyətinin sədridir. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif edilmişdir. – 307–308.

**108. «Şərq Tərəfdaşlığı» Proqramı** – Avropa İttifaqının üzv ölkələri Polşa və İsveçin MDB-yə daxil olan Azərbaycan, Gürcüstan, Ermənistan, Moldova, Belarus və Ukrayna ilə qonşuluq siyasəti sərçivəsində münasibətlərin yaxşılaşdırılmasına aid layihəsi. – 316–317, 321–328.

**109. NATO** (Şimali Atlantika Müqaviləsi Təşkilatı) – hərbi-siyasi ittifaq. 1949-cu il aprelin 4-də Vaşinqtonda ABŞ, Böyük Britaniya, Fransa, Belçika,

Niderland, Lüksemburq, Kanada, İtaliya, Portuqaliya, Norveç, Danimarka, İslandiyanın imzaladıqları Şimali Atlantika müqaviləsi əsasında yaradılmışdır. 1952-ci ildə Yunanıstan və Türkiyə, 1955-ci ildə Almaniya Federativ Respublikası, 1982-ci ildə İspaniya NATO-ya qoşulmuşlar. Varşava Müqaviləsi Təşkilatı dağıldıqdan (1991) sonra əvvəllər sosialist ölkələri düşərgəsinə daxil olmuş ölkələrin bir qismi NATO-ya üzvlüyə qəbul edilmiş, digər qismi isə ilkin mərhələ kimi, NATO-nun «Sülh naminə tərəfdaşlıq» Proqramına qoşulmuşlar. Ali orqanı NATO Şurasının sessiyasıdır. Mənzil-qərargahı Brüsseldə yerləşir. – 322.

**110. Avropa İnsan Hüquqları Məhkəməsi** (AİHM) – insan hüquqları və əsas azadlıqlarının müdafiəsi haqqında Konvensiyanın reallaşdırılması məqsədilə Avropa Şurasının (1959) yaratdığı məhkəmə orqanı. İqamətgahı Strasburqda yerləşir. Məhkəmə dövlətlərin müraciətini və Konvensiyanın iştirakçı dövlətlərində onun müddəalarının ehtimalı pozulması ilə əlaqədar fərdi ərizələri nəzərdən keçirir. Məhkəmə qərarlarının yerinə yetirilməsinə nəzarəti Avropa Şurasının Nazirlər Komitəsi həyata keçirir. – 324.

**111. Lüksemburq,** Böyük Lüksemburq Hersoqluğu – Qərbi Avropada dövlət. Sahəsi 2,6 min km$^2$, əhalisi 602 min nəfərdir. İnzibati cəhətdən 3 mahala bölünür. Lüksemburq konstitusiyalı monarxiyadır. Dövlət başçısı Böyük hersoqdur. Qanunverici orqanı Deputatlar Palatasıdır. Paytaxtı Lüksemburq şəhəridir. – 329.

**112. Anri** (d.1955) – 1998-ci ildən Lüksemburq Hersoqluğunun Hökumət naibi, 2000-ci ildən isə Böyük hersoqudur. 1998-ci ildən Beynəlxalq Olimpiya Komitəsinin üzvüdür. – 329.

**113. Sloveniya,** S l o v e n i y a R e s p u b l i k a s ı – Avropada dövlət. Sahəsi 20,3 min km$^2$, əhalisi 2 milyon nəfərdir. Dövlət başçısı Prezident, qanunverici orqanı ikipalatalı (Dövlət Şurası və Dövlət Məclisi) parlamentdir. Paytaxtı Lyublyana şəhəridir. – 330.

**114. Cibuti,** C i b u t i R e s p u b l i k a s ı – Şimal-şərqi Afrikada dövlət. Sahəsi 23,2 min km$^2$, əhalisi 818 min nəfərdir. İnzibati ərazisi 5 vilayətə bölünür. Dövlət və hökumət başçısı Prezident, qanunverici orqanı birpalatalı Milli Məclisdir. Paytaxtı Cibuti şəhəridir. –334.

## Şəxsi adlar göstəricisi


**II Abdullah** – 123
**Abdullayeva Aytac** – 254–256
**Axundova Mehriban** – 61
**Alvi Arif** – 145
**Anri** *(Lüksemburq Böyük hersoqu)* – 329
**Asakava Masatsuqu** – 188–205
**Aslanov Həzi** – 35–36
**Babayev Kərim** – 73–74
**Babayev Sahil** – 106
**Bayramlı Ramin** – 265
**Benedetti Erik** – 138–144
**Bozkır Volkan** – 320
**Byerde Anna** – 298–315
**Cəfərova Xuraman** – 277–278
**Di Souza Marselu** – 261
**Çen Şiksin** – 188–205
**Ditrix Qay** – 88–100
**Dodon İqor** – 102–104
**Ələkbərov Anar** – 147
**Ələsgərov Fuad** – 239–241
**Əliyev Heydər** – 8, 9, 40, 41, 55–57, 58–60, 72, 81, 135, 148, 176, 178, 179, 207, 233

**Əliyev Kamil** – 164
**Əliyev Əziz** – 55
**Əliyev Tamerlan** – 55
**Əliyeva Leyla** – 59
**Əliyeva Mehriban** – 35, 55, 58, 59, 61, 62, 72, 73, 106, 147, 148, 149, 152, 153, 155, 157, 164–170, 185, 186, 264, 277, 278, 283
**Əliyeva Zərifə xanım** – 55
**Əmirov Natiq** – 308–309
**Ərdoğan Rəcəb Tayyib** – 146, 319
**Fon der Lyayen Ursula** – 321
**Gelley İsmail** – 334
**Hacı Cəfərqulu** – 148
**Hacıyeva Şəhla** – 278–279
**Həsənov Zakir** – 231
**Hitler Adolf** – 7, 217
**Hüseynov Rafil** – 233–236
**Xaldey Yevgeni** – 32
**İbrahim xan** – 44
**İsmayılova Könül** – 184–185
**XVI Karl Qustav** – 260
**Kərimov İnam** – 233–236
**Kramer Kelli** – 88–100
**Qocayev Azər** – 77–87
**Qolubev Vasili** – 40
**Quluzadə Ramin** – 96, 294

**Qusman Mixail** – 5–34
**Quterreş Antonio** – 14
**Lipax Verner** – 198–199
**Mattarella Sercio** – 186–187
**Maykl Sara** – 302
**Mehdiyev Ülvi** – 239–241
**Məhərrəmova Aygün** – 72–73
**Məmmədəliyev Yusif** – 39
**Məmmədov Faiq** – 225–226
**Məmmədov Müstəqim** – 206
**Məmmədov Saleh** – 208, 331
**Mişel Şarl** – 316–317, 321–328
**Molineus Sebastian** – 309–311
**Mövsümov Şahmar** – 95–96, 294–295
**Muradov Vidadi** – 228
**Nağıyev Tural** – 252–254
**Orucov Seymur** – 125–135
**Pahor Borut** – 330
**Putin Vladimir** – 8, 22, 37, 42, 54, 105, 262–263, 318
**Roq Filip** – 288–297
**Rondolat Erik** – 138–144
**Rüstəmov Elman** – 307–308
**Rzayev Baba** – 284–287
**Rzayev Elçin** – 125–135
**Rzayev Rövşən** – 164
**Sadıkov Nəcməddin** – 231
**Sisianov Pavel** – 44

**Şərifov Samir** – 195–196
**Şoyqu Sergey** – 43
**Teymurov İbrahim** – 183–184
**Tokayev Kasım-Jomart** – 101
**Tramp Donald** – 91
**Verdiyeva Nərmin** – 282–283
**Zelenski Vladimir** – 159–160
**Zurabişvili Salome** – 124

## Coğrafi adlar göstəricisi

**Abşeron** *(yarımada)* – 58
**Ağcabədi** – 233–259
**Ağdam** – 221, 231–232, 239
**Ağdərə** – 221
**Ağstafa** – 125–134
**Almaniya** – 5–9, 217
**Amerika Birləşmiş Ştatları** – 46, 91, 174, 219, 327
**Armavir** – 11, 12
**Asiya** – 311
**Avaxıl** – 153, 154
**Avropa** – 212, 298, 301, 311
**Berlin** – 35, 39
**Beyləqan** – 239
**Bərdə** – 226
**Bilgəh** – 264
**Birinci Çaylı** – 153, 154
**Cəbrayıl** – 174, 221, 239
**Cənubi Qafqaz** – 66, 279, 298
**Cibuti** – 334
**Cocuq Mərcanlı** – 179, 174
**Çin** – 192
**Dağlıq Qarabağ** – 44, 45, 46, 81, 173, 174, 175, 176, 218, 222, 223, 224, 316, 322

**Davos** – 88, 138, 139, 140, 143, 203
**Fransa** – 46, 174, 219, 327
**Füzuli** – 166, 221, 239
**Gürcüstan** – 124
**Hindistan** – 12, 14
**Xankəndi** – 177
**Xəzər dənizi** – 7, 23
**Xocalı** – 239
**İmişli** – 125–135
**İordaniya** – 123
**İran** – 12, 44, 203
**İrəvan** – 223
**İsveç** – 260, 327
**İtaliya** – 186–187
**Kəlbəcər** – 77–87
**Kəraçi** – 145
**Qafqaz** – 35, 39, 142
**Qazaxıstan** – 101
**Qırğızıstan** – 192
**Qobu** – 164–185
**Quşçu** – 153
**Laçın** – 80, 180
**Lüksemburq** – 329
**Meysəri** – 153, 154
**Məlikçobanlı** – 153
**Mərkəzi Asiya** – 142, 298, 301
**Misir** – 12, 14
**Moldova** – 102–104
**Moskva** – 6, 33, 318

**Naftalan** – 227
**Naxçıvan** – 182, 198
**Naxçıvan Muxtar Respublikası** – 198, 223
**Özbəkistan** – 192
**Pakistan** – 145, 192
**Sankt-Peterburq** – 32
**Portuqaliya** – 261
**Rusiya** – 5–34, 37, 38–54, 40, 105, 174, 203 219, 262–263, 318
**Sabunçu** – 106
**Saray** – 264
**Sloveniya** – 330
**Soçi** – 32
**Sumqayıt** – 61–76, 279
**Suraxanı** – 58, 106
**Şamaxı** – 147–158
**Şərqi Anadolu** – 44
**Şuşa** – 80, 81, 180
**Tacikistan** – 192
**Taqanroq** – 39
**Tərtər** – 206–230
**Türkiyə** – 146, 319, 320, 327
**Ukrayna** – 159–160
**Zəngəzur** – 223
**Zəngilan** – 183

# MÜNDƏRİCAT

RUSİYANIN TASS İNFORMASİYA AGENTLİYİ BAŞ DİREKTORUNUN BİRİNCİ MÜAVİNİ MİXAİL QUSMANA EKSKLÜZİV MÜSAHİBƏ

*7 may 2020-ci il ............................................................ 5*

İKİ DƏFƏ SOVET İTTİFAQI QƏHRƏMANI HƏZİ ASLANOVUN MƏZARINI ZİYARƏT

*9 may 2020-ci il ............................................................ 35*

RUSİYA FEDERASİYASININ PREZİDENTİ VLADİMİR PUTİN İLƏ TELEFONLA GÖRÜŞ

*9 may 2020-ci il ............................................................ 37*

RUSİYANIN «NATSİONALNAYA OBORONA» JURNALINA MÜSAHİBƏ

*9 may 2020-ci il ............................................................ 38*

ULU ÖNDƏR HEYDƏR ƏLİYEVİN MƏZARINI ZİYARƏT

*10 may 2020-ci il ............................................................ 55*

BAKININ SURAXANI RAYONUNDA KEÇMİŞ YOD-BROM ZAVODUNUN ƏRAZİSİNDƏ AĞAC ƏKMƏ MƏRASİMİ

*10 may 2020-ci il* ............................................................. *58*

SUMQAYITDA «GİLAN TEKSTİL PARK» MMC-nin TİBBİ MASKA FABRİKİNİN VƏ TİKİŞ FABRİKİNİN NƏZDİNDƏ FƏALİYYƏT GÖSTƏRƏN QORUYUCU KOMBİNEZONLARIN İSTEHSALI MÜƏSSİSƏSİNİN AÇILIŞI MƏRASİMİ

*12 may 2020-ci il* ............................................................. *61*

KƏLBƏCƏR RAYONUNUN İCRA BAŞÇISI VƏZİFƏSİNƏ YENİ TƏYİN OLUNMUŞ AZƏR QOCAYEV İLƏ VİDEOFORMATDA GÖRÜŞ

*13 may 2020-ci il* ............................................................. *77*

«CİSCO» ŞİRKƏTİNİN İCRAÇI VİTSE-PREZİDENTİ VƏ BAŞ MALİYYƏ DİREKTORU KELLİ KRAMER, VİTSE-PREZİDENTİ QAY DİTRİX VƏ ŞİRKƏTİN DİGƏR NÜMAYƏNDƏLƏRİ İLƏ VİDEOBAĞLANTI FORMATINDA GÖRÜŞ

*15 may 2020-ci il* ............................................................. *88*

QAZAXISTAN RESPUBLİKASININ PREZİDENTİ KASIM-JOMART TOKAYEV İLƏ TELEFONLA GÖRÜŞ

*17 may 2020-ci il* ............................................................. *101*

MOLDOVA RESPUBLİKASININ PREZİDENTİ İQOR DODON İLƏ VİDEOKONFRANS FORMATINDA GÖRÜŞ

*18 may 2020-ci il* ............................................................ *102*

RUSİYA FEDERASİYASININ PREZİDENTİ VLADİMİR PUTİN İLƏ TELEFONLA GÖRÜŞ

*18 may 2020-ci il* ............................................................ *105*

ƏMƏK VƏ ƏHALİNİN SOSİAL MÜDAFİƏSİ NAZİRLİYİNİN TABELİYİNDƏ OLAN DAYANIQLI VƏ OPERATİV SOSİAL TƏMİNAT AGENTLİYİNİN BAKININ NİZAMİ RAYONUNDA YERLƏŞƏN 3 SAYLI DOST MƏRKƏZİNİN AÇILIŞI MƏRASİMİ

*19 may 2020-ci il* ............................................................ *106*

İORDANİYA KRALI ƏLAHƏZRƏT II ABDULLAH BİN HÜSEYNƏ

*21 may 2020-ci il*............................................................. *123*

GÜRCÜSTAN PREZİDENTİ XANIM SALOME ZURABİŞVİLİYƏ

*21 may 2020-ci il*............................................................. *124*

AĞSTAFA VƏ İMİŞLİ RAYONLARINA YENİ TƏYİN OLUNMUŞ İCRA HAKİMİYYƏTİ BAŞÇILARI SEYMUR ORUCOV VƏ ELÇİN RZAYEV İLƏ VİDEOFORMATDA GÖRÜŞ

*21 may 2020-ci il* ............................................................ *125*

RAMAZAN BAYRAMI MÜNASİBƏTİLƏ AZƏRBAYCAN XALQINA TƏBRİK

*22 may 2020-ci il............................................................. 136*

«SİGNİFY» ŞİRKƏTİNİN BAŞ İCRAÇI DİREKTORU ERİK RONDOLAT, MDB ÜZRƏ BAŞ MENECERİ ERİK BENEDETTİ VƏ DİGƏR NÜMAYƏNDƏLƏRİ İLƏ VİDEOKONFRANS FORMATINDA GÖRÜŞ

*22 may 2020-ci il............................................................. 138*

PAKİSTAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ARİF ALVİYƏ

*22 may 2020-ci il............................................................. 145*

TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ RƏCƏB TAYYİB ƏRDOĞAN İLƏ TELEFONLA GÖRÜŞ

*24 may 2020-ci il............................................................. 146*

ŞAMAXI RAYONUNA SƏFƏR

*25 may 2020-ci il............................................................. 147*

HEYDƏR ƏLİYEV FONDU TƏRƏFİNDƏN ŞAMAXI ŞƏHƏRİNDƏ İNŞA EDİLMİŞ 2 SAYLI KÖRPƏLƏR EVİ-UŞAQ BAĞÇASININ VƏ RAYONUN MEYSƏRİ KƏNDİNDƏ ƏSASLI TƏMİR OLUNMUŞ

KÖRPƏLƏR EVİ-UŞAQ BAĞÇASININ AÇILIŞI MƏRASİMİ

*25 may 2020-ci il............................................................ 152*

İSTİSMAR MÜDDƏTİ BAŞA ÇATMIŞ BİNALARDA YAŞAYAN VƏTƏNDAŞLARIN MƏNZİL-MƏİŞƏT ŞƏRAİTİNİN YAXŞILAŞDIRILMASI ÜÇÜN TİKİLMİŞ 51 MƏNZİLLİ BİNAYA BAXIŞ

*25 may 2020-ci il............................................................ 155*

UKRAYNA PREZİDENTİ VLADİMİR ZELENSKİ İLƏ TELEFONLA GÖRÜŞ

*27 may 2020-ci il............................................................ 159*

AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİNİN ŞƏRƏFİNƏ UCALDILMIŞ ABİDƏNİ ZİYARƏT

*28 may 2020-ci il ........................................................... 161*

QARADAĞ RAYONUNDA MƏCBURİ KÖÇKÜNLƏR ÜÇÜN SALINMIŞ «QOBU PARK-3» YAŞAYIŞ KOMPLEKSİNİN AÇILIŞI MƏRASİMİ

*28 may 2020-ci il ........................................................... 164*

İTALİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB SERCİO MATTARELLAYA

*29 may 2020-ci il............................................................ 186*

ASİYA İNKİŞAF BANKININ PREZİDENTİ MASATSUQU ASAKAVA, VİTSE-PREZİDENTİ ŞİKSİN ÇEN VƏ RƏHBƏRLİYİN DİGƏR NÜMAYƏNDƏLƏRİ İLƏ VİDEO-KONFRANS FORMATINDA GÖRÜŞ

*1 iyun 2020-ci il ............................................................ 188*

TƏRTƏR RAYONUNA SƏFƏR

*3 iyun 2020-ci il ............................................................ 206*

AĞDAM RAYONU ƏRAZİSİNDƏ YERLƏŞƏN «N» SAYLI HƏRBİ HİSSƏDƏ OPERATİV MÜŞAVİRƏ

*3 iyun 2020-ci il ............................................................ 231*

AĞCABƏDİ RAYONUNA SƏFƏR

*3 iyun 2020-ci il ............................................................ 233*

AĞCABƏDİ RAYONUNDA «ASAN HƏYAT» KOMPLEKSİNİN AÇILIŞI MƏRASİMİNDƏ ASAN KÖNÜLLÜLƏRİ İLƏ GÖRÜŞ

*3 iyun 2020-ci il ............................................................ 239*

İSVEÇ KRALI ƏLAHƏZRƏT XVI KARL QUSTAVA

*3 iyun 2020-ci il ............................................................ 261*

PORTUQALİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB MARSELU REBELU Dİ SOUZAYA

*8 iyun 2020-ci il ............................................................ 262*

RUSİYA FEDERASİYASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB VLADİMİR PUTİNƏ

*9 iyun 2020-ci il ............................................................ 263*

ÜÇ MODUL TİPLİ XƏSTƏXANANIN
AÇILIŞI MƏRASİMİ

*9 iyun 2020-ci il ............................................................ 265*

BAKININ XƏTAİ RAYONUNDA «AZƏR-
ENERJİ» AÇIQ SƏHMDAR CƏMİYYƏTİNİN
110/35/10 KİLOVOLTLUQ «ƏHMƏDLİ» YARIM-
STANSİYASININ AÇILIŞI MƏRASİMİ

*11 iyun 2020-ci il ......................................................... 284*

«MİCROSOFT» ŞİRKƏTİNİN VİTSE-
PREZİDENTİ FİLİP ROQ VƏ ŞİRKƏTİN
DİGƏR NÜMAYƏNDƏLƏRİ İLƏ VİDEO-
KONFRANS FORMATINDA GÖRÜŞ

*16 iyun 2020-ci il .......................................................... 288*

DÜNYA BANKININ AVROPA VƏ MƏRKƏZİ
ASİYA REGİONU ÜZRƏ VİTSE-PREZİDENTİ
ANNA BYERDE, CƏNUBİ QAFQAZ ÜZRƏ
DİREKTORU SEBASTİAN MOLİNEUS VƏ
DİGƏR NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ

*17 iyun 2020-ci il .......................................................... 298*

AVROPA İTTİFAQI ŞURASININ PREZİDENTİ
ŞARL MİŞEL İLƏ TELEFONLA GÖRÜŞ

*17 iyun 2020-ci il .......................................................... 316*

RUSİYA FEDERASİYASININ PREZİDENTİ VLADİMİR PUTİN İLƏ TELEFONLA GÖRÜŞ

*18 iyun 2020-ci il ............................................................ 318*

TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB RƏCƏB TAYYİB ƏRDOĞANA

*18 iyun 2020-ci il.............................................................. 319*

BİRLƏŞMİŞ MİLLƏTLƏR TƏŞKİLATI BAŞ ASSAMBLEYASININ YENİ SEÇİLMİŞ SƏDRİ ZATİ-ALİLƏRİ CƏNAB VOLKAN BOZKIRA

*18 iyun 2020-ci il.............................................................. 320*

«ŞƏRQ TƏRƏFDAŞLIĞI» ÖLKƏLƏRİNİN VİDEOBAĞLANTI FORMATINDA SAMMİTİ

*19 iyun 2020-ci il ........................................................... 321*

LÜKSEMBURQUN BÖYÜK HERSOQU ƏLAHƏZRƏT ANRİYƏ

*19 iyun 2020-ci il.............................................................. 329*

SLOVENİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB BORUT PAHORA

*22 iyun 2020-ci il.............................................................. 330*

BAKININ XƏTAİ RAYONUNUN NEAPOL KÜÇƏSİNDƏ YENİ YERÜSTÜ PİYADA KEÇİDİNİN AÇILIŞI MƏRASİMİ

*22 iyun 2020-ci il* .......................................................... *331*

CİBUTİ RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ
CƏNAB İSMAİL ÖMƏR GELLEYƏ

*24 iyun 2020-ci il*.......................................................... *334*

QEYDLƏR ........................................................................ *335*

*Şəxsi adlar göstəricisi*....................................................... *375*

*Coğrafi adlar göstəricisi*..................................................... *379*

| | |
|---|---|
| **Texniki redaktor** | ***Zoya Nəcəfova*** |
| **Yığım üzrə operator** | ***İlhamə Kərimova*** |
| **Kompüter tərtibatı** | ***Məhəbbət Orucov*** |

Cildin hazırlanmasında AZƏRTAC-ın materiallarından istifadə olunmuşdur.

«Tayms» qarnitur. Formatı 84×108 1/32. Ofset kağızı № 1
Şərti çap vərəqi 24,5. Uçot nəşr vərəqi 25,0. Tirajı 5000
Müqavilə qiymәti ilə.

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi
Azərbaycan Dövlət Nəşriyyatı
Bakı – Mehdi Hüseyn küç. 55, dalan 2, ev 3.

«Şərq-Qərb» mətbəəsi, Aşıq Ələsgər küçəsi 17.